# TƏBİİ İNTELLEKTİN ALQORİTMİ





Qasım Nəcəfoğlu



Bakı-2023

**Qasım Nəcəfoğlu**

# TƏBİİ İNTELLEKTİN ALQORİTMİ

**“Ədəbiyyat qəzeti” yayınları**

**“Elm və təhsil”**
**Bakı-2023**

Elmi məsləhətçi: **Mirəyyub Mirsultanoğlu**

Elmi redaktor: **Rafiq Əliyev**
*Lütfi Zadə İrsi və Süni İntellekt Assosiasiyasının Prezidenti, akademik.*

Dini elmlər üzrə redaktor: **Fuad Nurullayev**
*Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, fəlsəfə doktoru*

Ədəbi elmi redaktor: **Azər Turan**
*"Ədəbiyyat qəzeti"nin baş redaktoru, fəlsəfə doktoru.*

Fəlsəfə elmləri üzrə redaktor: **Bilal Əlizadə**
*Bakı Dövlət Universitetinin dosenti, fəlsəfə doktoru*

**Qasım Nəcəfoğlu. Təbii intellektin alqoritmi**
**Bakı, "Elm və təhsil", 2023, 292 səh.**

Elmi monoqrafiyada təbii intellektin strukturu, tərkibi, biliklərin formalaşmasının üsul və qaydalarının mahiyyəti açıqlanır. İnsan nəfsinin tərkibi, mərtəbələri və idarəedilmə üsulları haqqında məlumatlar verilir. Ruh, nəfs, qəlb, ağıl, iman, iradə kimi mücərrəd varlıqların təbii intellektin alqoritmini formalaşdırmasındakı əhəmiyyəti açıqlanır. Təbii intellektdən süni intellektə inteqrasiya məqsədləri üçün blok-sxemlər, bilik mühəndisliyinin tətbiqi üsulları, elektron modellər təqdim olunur. Elmi monoqrafiya mürəkkəb məsələlərin həllində qeyri-səlis məntiq, qərar qəbuletmə nəzəriyyələrinin və bilik mühəndisliyinin tətbiqi məsələlərinə həsr olunmuşdur.

**Açar sözlər: intellekt, ağıl, ruh, nəfs, qəlb, iradə, bilik mühəndisliyi, realyasion model və s.**

# MÜQƏDDİMƏ – MÜƏLLİFDƏN

Əziz oxucular, aşağıdakı şəkildə sizə "Təbii intellektin alqoritmi" adlı elmi-bədii monoqrafiyanın titul vərəqinin üzərindəki şəkil geniş planda təqdim olunur. Həmin şəkildə siz Yer kürəsinin və onun mərkəzində süni intellektin rəmzini və süni intellektin inkişafına öz qeyri-adi nəzəriyyələri ilə təkan verən azərbaycanlı alimlərdən əsrin dahisi Lütfi Zadənin və dünyaca məşhur alim, akademik




Rafiq Əliyevin əksini görürsünüz. Eyni zamanda, gördüyünüz şəkildə  həmin alimlərin - inqilabi qeyri-səlis məntiq və qərar qəbuletmə nəzəriyyələrini sənaye proseslərinin idarə olunmasında istifadə edən nəhəng və məşhur müəssisələrin adı öz əksini tapmışdır.

Bununla yanaşı, BMT üzvü olan 193 dövlətin hər biri sözsüz ki, süni intellekt məhsullarından yararlanır.



Əsrin dahisi Lütfi Zadə

Eyni zamanda, süni intellekt məhsullarını sənaye proseslərinə tətbiq edən həmin müəssisələrin aid olduğu dövlətlərin və süni intellektin inkişafında həm nəzəri və həm də praktiki baxımdan xüsusi yeri olan 11 əsas dövlətin bayraqları Yer kürəsinin fonunda əks olunmuşdur. Azərbaycan bay-rağından sol tərəfdə Türkiyə, Birləşmiş Krallıq, İngiltərə, Rusiya, Çin, sağ tərəfdə isə Amerika, Yaponiya, Almaniya, Fransa və Cənubi Koreya kimi dövlətlərin bayraqlarının əksini görürsünüz. Bu bayraqlar süni intellektin inkişafında müstəsna rola malik olan, həm də məhsullarını istər sənayesində, istərsə də ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsində ən səmərəli və yüksək formada tətbiq edən dövlətlərindir.

Süni intellektin inkişafında inqilabi rola malik qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyyətinin nədən ibarət olduğunu həmin nəzəriyyənin müəllifi, azərbaycanlı alim - Lütfi Zadədən soruşanda, bu suala professor birmənalı

cavab vermişdi: "**...Qeyri-səlis məntiq, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin əsas mahiyyəti odur ki, mütləq**[1] **heç nə yoxdur. Hər şey, riyazi dillə desək, 0-1 şkalasında müəyyən həddə dəyişir".** Deməli, real dünyanın ümumi mənzərəsi 0 və vahid arasında olan onlarca, yüzlərlə çalarlardan ibarətdir. Xatırlamaq yerinə düşərdi ki, Azərbaycan alimi, filosof, sufizmin ən görkəmli nümayəndələrindən olan Mahmud Şəbüstərinin "Gülşəni Raz" əsərində qeyd etdiyi: **"İnsan o cəmdir ki, təkin özüdür. İnsan o təkdir ki, cəmin özüdür"** ifadəsi ilə Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyyətinə verdiyi tərif müəyyən mənada həmahəng səslənir.



**«Lütfi Zadə İrsi və Süni İntellekt Assosiasiyası»nın Prezidenti Akademik Rafiq Əliyev**

[1] Yəni – şübhəsiz, qeyd-şərtsiz, qəti heç nə yoxdur.



**Əsrin dahisi Lütfi Zadə və Akademik Rafiq Əliyev**

“Zadə İrsi və Süni İntellekt Assosiasiyası”nın Prezidenti Akademik Rafiq Əliyevin təbirincə desək, *“Bütün klassik nəzəriyyələr Aristotel məntiqi ilə yazılırdı. İkili məntiqnən. Çünki orda ya var, ya yox”.*

Müasir dünyamızın aktual məsələlərindən olan “Sistemli təhlil, qərar qəbuletmə və idarəetmədə soft kompütinq, söz və persepsiya ilə hesablamalar” süni intellektin inkişafını, dilin koqnitiv xüsusiy-yətlərinin öyrənilməsini və Bilik mühəndisliyində tətbiqini şərtləndirir. Əslində qeyri-səlis məntiq nəzəriyyəsi həm də dilin inkişaf xüsusiyyətlərindən istifadə etməklə proqram dillərinə çevrilir. Lütfi Zadənin və akademik Rafiq Əliyevin dediyi kimi di-

lin linqvistik xüsusiyyətlərindən, sözlə hesab-lama nəzəriyyəsindən istifadə edilir.

Bizim mövzunun məqsədləri üçün qeyri-müəyyənliyin abstraksiyası *(mücərrədliyi)* çox yüksək olduğundan, həmin məlumatlar arasında qeyri-asılılıq ya var, ya yox. **Professor Rafiq Əliyevin "İnperfekt *(tam olmayan)* informasiya şəraitində yeni qərar qəbul etmə nəzəriyyəsi"** bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Bu məsələnin məğzi ondan ibarətdir ki, hər hansı bir həyati məsələ ilə bağlı qərar qəbul edilən mühitdə informasiya tam, müəyyən olmadığı halda müvafiq, səmərəli, bütün cəhətlər nəzərə alınmaqla qərar qəbul edilsin. Bu nəzəriyyə təhlükə potensiallı obyektlərdə mövcud olan avadanlıqların istismarında baş verə biləcək qəza hadisələrinin qarşısının alınması məqsədilə xüsusi əhəmiyyətə malikdir. Elmi-bədii monoqrafiyada təklif edilən və SOCAR-da öz tətbiqini tapan praktiki həll variantlarında həm Lütfi Zadənin, həm də Rafiq Əliyevin nəzəriyyələrindən istifadə edilmişdir.

Əziz oxucular, qeyri-səlis məntiq və qərar qəbuletmə nəzəriyyələrinin həm müasir fəlsəfi dünyagörüşdə, həm də insan təfəkküründə, düşüncə tərzində bir inqilaba səbəb olduğunu, aparılan araşdırmalarda, biliklərin toplanmasında, təhlilində, sistemləşdirilməsində süni və təbii intellektlə bağlı aşkar edilən bir çox elmi biliklərin, elmin daha yüksək səviyyələrinə aid olduğunu dərk və təfəkkür etdikcə bu nəzəriyyələrin əslində insan fitrətinə Uca Yaradan tərəfindən hopdurulduğunun fərqində olursan. Məhz bu baxımdan, yüksək insani, elmi dəyərlərə malik hörmət-

li akademik Rafiq Əliyevin bu monoqrafiyanın elmi redaktoru olması da yalnız bizim üçün böyük hadisə deyildir. Hörmətli akademikə göstərdiyi əvəzsiz köməkliyə görə xüsusi minnətdarlığmı bildirirəm.

Bilik mühəndisliyi nəticəsində müqəddəs "Qurani-Kərim"dən, hədislərdən, elm-irfan sahib-lərindən əldə edilən biliklərdən *(hikmətlərdən)* aydın olur ki, bu elmi monoqrafiya elmin 1-ci səviyyəsinin *(yalnız məntiqə, dəlilə və sübuta əsaslanan elm)* obyektindən kənara çıxır. Ona görə ki, söhbət nəyinsə *(yəni intellekt nəzərdə tutulur)* sünisinin yaradılması zamanı onun təbiisinin *(yəni insana məxsus olanın-intellektin)* necəliyinin araş-dırılmasından gedir. Təbii intellektin yaradıcısı isə süni intellektdən fərqli olaraq Uca Allahdır... Bu baxımdan, təbii intellektin alqoritmini başa düşmək, təfəkkür etmək istəyində biz də elmin digər səviyyələri ilə həmahəng olmağa çalışdıq.

Göründüyü kimi, bu mənada Dahi Lütfi Zadənin "qeyri-səlis məntiq" və akademik Rafiq Əliyevin "İnperfekt *(tam olmayan)* informasiya şəraitində yeni qərar qəbul etmə" nəzəriyyələri də Uca Yaradanı tanımağa və mərifətə aparan elmlərdən biridir.

Biz də bu yolda addımlayarkən bilik və hikmət dənizinə dalmaqla, elm-irfan nəhənglərinin əsər-lərinə baş vurmağa çalışdıq. Bu nəhənglərin -mütəfəkkirlərin elmi düşüncələri və hikmətləri ilə tanış olduqca, onlar da bizi "Nəhcül-bəlağə"yə, Peyğəmbər əleyhissəlamın səhih hədislərinə və Müqəddəs "Qurani-Kərim"ə yönəltdi. Beləliklə, bu elmi monoqrafiyanın elmi məsləhətçisinin və elmi

redaktorlarından birinin və ya bir neçəsinin də elmin 2-ci *(hissi-imani idrak)* və 3-cü *(irfani-idrak)* səviyyələrində də düşünən və mənəvi dəyərlərə sahib olan şəxslərdən olması zərurəti meydana gəldi.



**Mirəyyub Mirsultanoğlu**

Tanıdığım belə şəxslərdən biri nəsil şəcərəsi Hz. Peyğəmbərin (s.s.) cənnət cavanlarının reyhanı adlandırdığı İmam Hüseynə (ə) dayanan Mirəyyub Mirsultanoğlu bu monoqrafiyanın elmi məsləhətçisinin olması barədə təkliflərimi qəbul edərək mümkün köməkliklərini də əsirgəmədi. Bununla bağlı Hz. Peyğəmbər əleyhissəlamdan bir hədis yerinə düşər. O Həzrət buyurur: **"Əhli- beytdən önə keçmə və geridə qalma" deməli, əks təqdirdə yolunu azarsan.** Bu mənada nəsil şəcərəsi əhli-beytə dayanan Mirsultanovlar ailəsi yalnız Azərbaycanda deyil, həm də Rusiya, İran, Türkiyə, Qazaxıstan, Özbəkistan və s. kimi qonşu və həm də Almaniya və s. kimi uzaq ölkələrdən gələn azərbaycanlıların və qeyri-azərbaycanlıların nümayəndələri tərəfindən də xüsusi hörmətlə qəbul edilirlər. Eyni zamanda,

müxtəlif dövrlərdə *(30-cu, 50-ci, 80-ci və 90-cı illərdə)* Mirsultanovlar ailəsinə məxsus bir çox fəzilətlər və kəramət xarakterli hadisələr, Azərbaycan Respublikası rəhbərlərinin də xüsusi qayğısını və diqqətini bu ailəyə yönəltmişdir. Bu, hal-hazırda da belədir.

Əziz oxucular, kəramət – xariqüladə hadisə olub, ruhi paklıq, batini saflıq və Allaha yaxınlıq sayəsində baş verir. *(Haşiyə: Ariflər bu məqamı bilir. Bu "Lədun" elmidir. Allah dərgahından vəhy vasitəsilə verilən elmdir. Bu, məkasib, yəni kəsb edilən yox, əta olunan, Allah lütfü ilə bağışlanılan elmdir ki, tam və kamil ağıl-idrak sahibi olan peyğəmbərlərə, vəlilərə və seçilmiş iman sahiblərinə verilir. Onu oxumaq, öyrənmək və təcrübə ilə kitablardan əldə etmək mümkünsüzdür. Həqiqi irfan əhlinə elmülladündən pay götürmək xoşbəxtliyi nəsib olmalıdır". Bu, sanki elmin 3-cü səviyyəsidir. Bir an (ani sanki pərdə açılır və enerji-informasiya daxil olur. Bu çox davam edə bilməz. Ağırlığına dözmək olmaz. Sahibi olan kəsə öz yükünə görə verilir).*

Ümumiyyətlə, müasir Azərbaycan tolerantlığı və multikulturallığı ilə seçilərək digər xalqların mənəvi abidələri ilə yanaşı, həm də özünün milli-mənəvi dəyərlərinə sahib çıxaraq İmam Rza (ə) bacısı Həkimə xanımın dəfn olunduğu Bibiheybət Pirinə, Mir Mövsüm Ağa ziyarətgahına, Mirsultan Ağa ziyarətgahına və s. xüsusi diqqət və qayğı ilə yanaşır. Əziz oxucular, məlum olduğu kimi, xalqımız Peyğəmbər (s.s.) nəslindən gələnlərə - **yəni İmam Hüseyn (ə) nəsli ilə davam edənlərə - seyidlərə xüsusi məhəbbət və hörmət bəsləyir.**




Əziz oxucular, Mirsultan Ağa o şəxslərdəndir ki, 1993-cü ildə Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətləri və akademik Hacı Vasim Məmmədəliyev ilə birlikdə həcc ziyarətində olub və niyyət edib ki, Uca Rəbbimiz həmin ziyarətdən sonra ona həmin müqəddəs məkanda dəfn edilməsini qismət eləsin. Ağaya bu nida çox-çox öncələrdən gəlibmiş. Allah Dərgahında bu dua qəbul olunub *(04 iyun 1993-cü il - hər il xalqımız tərəfindən bu tarixdə Ağanın anım mərasimi keçirilir).* Belə şəxslər dünyada cəmi 4 (dörd) nəfərdir ki, bu niyyətlə həcc ziyarətində olarkən dünyalarını dəyişərək həmin müqəddəs məkanda dəfn olunublar. 1. Şair Raci; 2. Abbasqulu Ağa Bakıxanov; 3. Şeyx Şamil; 4. Mirsultan Ağa. *(Mənbə: "Behişt Zəvvarı" kitabından.)*

Digər tərəfdən, bu elmi monoqrafiyanın elmi redaktorunun da dini elmləri bilən elm-irfan sahibi şəxslərdən olması əsas şərtlərdən biri olaraq Mirəyyub Ağa tərəfindən qəbul edildi. Əks təqdirdə natamamlıq olardı, hər kəs hər elmi bilməz və hər elmə də vaqif olmaz. İstifadə edilən

terminlərdə, təhlil prosesində əldə edilən nəticələrin və mühakimələrin hesabına yanlış fikirlərdən uzaq olmaq və haqqı-batildən ayırmaq üçün belə bir köməyə hər bir kitab yazan müəllifin ehtiyacı var. Bu baxımdan Azərbaycanımızda və Qafqazda özünəməxsus xüsusi yeri olan və elm öyrədilməsində xeyriyyəçiliyi, yardımsevərliyi ilə tanınan Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, fəlsəfə doktoru Fuad Nurullayev ona olan ehtiyacımızı təmin etdi və köməkliyini əsirgəmədi. Bu elmi monoqrafiyanın ara-ya-ərsəyə gəlməsində müstəsna xidmətlərə malik olan hörmətli Hacı Fuada sonsuz minnətdarlığımızı bildiririk.
Bu monoqrafiyanın elmiliyi ilə yanaşı, həm də bədiiliyini nəzərə alaraq redaktorlarından birinin mütləq elmi-ədəbi biliklərin araşdırıcısı, cəmiyyətimizdə tanınan aparıcı ya-



**Qafqaz Müsəlmanları İdarəsi Sədrinin müavini-fəlsəfə doktoru Hacı Fuad Nurullayev**



**Azər Turan**
**«Ədəbiyyat qəzeti»nin baş redaktoru**

zıçı-jurnalistlərdən olması da monoqrafiyanın elmi məsləhətçisi kimi Mirəyyub Ağa tərəfindən qəbul edildi. Bu şəxs yazıçı-publisist kimi vətəninə, millətinə, dininə bağlı olmalı, tədqiqat maraqları elmi monoqrafiyanın ruhu və digər müvafiq meyarlarla həmahəng olmalı idi. Belə bir şəxsin "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan olduğu yekdilliklə qəbul edildi. Ona görə ki, Azər Turan – "Ədəbiyyat qəzeti"nin poeziya, ədəbi tənqid, müzakirə-müsahibə, elmi araşdırma və s. kimi səhifələrində çıxış edən görkəmli alimlərlə, ziyalılarla daim təmasda olan idarəedici və yönəldici bir mütəxəssisdir.

Eyni zamanda, o, yaradıcılığı ilə cəmiyyətimizdə özünəməxsus yeri olan "Qızıl kəlmə", "Hüseyn Cavid" mükafatları laureatı və digər fəxri adları olan ziyalılarımızdan-

dır. Azər müəllimə bu monoqrafiyanın redaktorluğuna qəbul edilməsinə, dəyərli məsləhətlərinə və göstərdiyi köməkliyə görə minnətdarlığımızı bildiririk.



**Bilal Əlizadə-fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin dosenti.**

Əziz oxucular, bu elmi monoqrafiyada yerinə yetirilən təhlil prosesində dahi Lütfi Zadənin dünyanı silkələyən elmi nəzəriyyəsinin, həm də İlahi yaradılışın əsasına hopdurulduğunun aşkar edilməsi, məntiqi ardıcıllıq kimi elmin 1-ci səviyyəsinin *(məntiqi idraka, dəlil və sübuta əsaslanan elm)* əsaslandığı mövcud fəlsəfi dünyagörüşün də yenilənmə zəruriliyini tam aydınlığı ilə tələb edir.
Bu baxımdan da elmi monoqrafiyada yol verilə biləcək nöqsanlardan, kobud səhvlərdən uzaq olmaq üçün mövcud fəlsəfi dünyagörüşün elminə sahib olan yaradıcı alimə ehtiyacın da təmin edilməsi zəruri idi.

Bu baxımdan monoqrafiyanın elmi redaktorluğunu qəbul edən Bakı Dövlət Universitetinin dosenti, fəlsəfə doktoru Bilal Əlizadə də özünün zəruri köməyini əsirgəmədi. Hörmətli Bilal müəllimə də göstərdiyi köməyə, məsləhətlərə görə öz dərin minnətdarlığımı bildirirəm.

Bütün redaksiya heyətinə və əməyi keçən hər kəsə dərin ehtiramımı və minnətdarlığımı bildirirəm.
Əziz oxucular, Sizə "Təbii intellektin alqoritmi" adlı bu elmi monoqrafiyanın titul vərəqi, elmi məsləhətçisi və elmi redaktorları haqqında mümkün və zəruri məlumatları təqdim etdikdən sonra onun qısa məzmununun şərhini təqdim edirəm:

Belə ki, "Təbii intellektin alqoritmi" adlı bu elmi monoqrafiyada təbii intellektin strukturu, tərkibi, biliklərin formalaşmasının üsul və qaydalarının mahiyyəti açıqlanır. İnsan nəfsinin tərkibi, mərtəbələri və idarəedilmə üsulları haqqında məlumatlar verilir. Eyni zamanda, monoqrafiyada ruh, nəfs, qəlb, ağıl, iman, iradə kimi mücərrəd varlıqlar haqqında mümkün məlumatlar sistemləşdirilərək, təbii intellektin alqoritminin formalaşdırılmasındakı qarşılıqlı əlaqələrin əhəmiyyəti də açıqlanır.

Monoqrafiyada təbii intellektdən süni intellektə inteqrasiya məqsədləri üçün, elm-irfan sahiblərinin hikmətlərindən və normativ-hüquqi aktlardan əldə edilən biliklər əsasında tərtib edilən blok-sxemlər və elektron modellər təqdim olunur. Bu məlumatlar bilik mühəndisliyinin qaydaları əsasında əldə edilib. Bütün bu qeyd edilənlərlə yanaşı, həm də monoqrafiyanın bəzi fərqli xüsusiyyətlərini nəzərinizə çatdırıram:

Belə ki, bu monoqrafiya bu gün bəşəriyyətə məlum olan bir neçə bilik səviyyəsinin qarşılıqlı təhlili və müqayisəsinə istinad edən biliklərə -hikmətlərə və tarixi məlumatlara əsaslanır;

- Yəni monoqrafiyanın təhlil metodu elmin 1-ci *(məntiqi idraka, dəlilə, sübuta əsaslanan elm);* 2-ci *(hissi-imani idraka əsaslanan elm);* 3-cü *(irfani idraka əsaslanan elm)* və 4-cü *(eşq mərtəbəsinə əsaslanan elm - ağlı və idrakı qəbul etmir, vəhdəti-vücudda haqqa qovuşaraq bütövləşir)* səviyyələrinə əsaslanan elmi biliklər və hikmətlər üzərində qurulmuşdur;

- Monoqrafiya elmdə tamamilə yeni bir sahə olan "Bilik mühəndisliyi" ilə əlaqəli qarşıya qoyulan məsələnin həlli üçün həmin səviyyəli elmi biliklərin *(hikmətlərin) zərrə-zərrə* əldə edilməsinə və məcazi mənada yaradılacaq "Qurğuda-maşında-sarayda" o "hissənin-detalın-kərpicin" özünə layiq və məxsus olan haqq etdiyi yerə zərgər dəqiqliyi və mühəndis hesablamaları ilə inteqrasiya və transformasiya edilməsinə əsaslanır və s.

Təqdim edilən biliklər əsasında verilən yekun nəticələr ən etibarlı mənbələrdən əldə edilmişdir.

## Giriş

Müasir dünyamızda ən aparıcı dövlətlərin zəka sahibləri süni intellektin və onun məhsullarının yaradılması istiqamətində müvafiq elmi araşdırmalar aparır. 4-cü sənaye inqilabı ərəfəsində bu məsələ daha da aktuallaşmışdır. Hər bir dövlətin sosial həyatına, iqtisadiyyatına və hərbi qüvvələrinə nüfuz edən süni intellekt məhsulları qloballaşan dünyamızda öz təhlükəsizliyini təmin etmək istəyən hər bir dövlət, xalq üçün xüsusi əhəmiyyətə malikdir. Süni intellektin özü də, onu istifadə etmək niyyətində olan və dağıdıcı bir silaha çevriləcəyini və nəticələrini dərk edə bilməyən hirsli-iddialı-qərəzli hakimiyyət və ixtiyar sahibi şəxslərin əlində xalqların, millətlərin, dövlətlərin əsası olan ailə institutlarının, milli-mənəvi dəyərlərinin dağıdılmasına və məhv edilməsinə yönəldilə bilər.[2]

Bir elm kimi süni intellektin bir çox problemləri mövcuddur. Fikrimizcə, intellekt anlayışı insana məxsus olduğuna və süni intellektin yaradıcılarının da əsas iddiası – süni intellekt obyektinin "insan kimi davranması", "insan kimi mühakimə yürütməsi" və "insan kimi qərar qəbul etməsidir". Deməli, süni intellektin əsas probleminin bu sadalananlar olduğunu nəzərə alsaq, söhbət insandan və onun əsas keyfiyyətlərindən gedir. Bəs necə ola bilər ki, biz bir maddənin *(suyun, südün, ətin və s.)* sünisini yarat-

---

[2] Tarixdən belə bir acı təcrübə məlumdur. Atomun bölünməsi, nüvə reaksiyası və digər elmi kəşflər nəticəsində, atom bombasının-silahının istehsalı və 1945-ci ildə Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atılması və fəsadlarının davam etməsi...

maq istəyində onun təbiisinin nədən ibarət olduğunu, yaxud hansı fiziki, kimyəvi, bioloji keyfiyyətlər daşıdığını araşdırmayaq və təhlil etməyək. Hələ əgər söhbət cansız varlıqdan deyil, canlıdan -insandan gedirsə, onun daşıdığı mənəvi keyfiyyətləri, onların yaranma və çevrilmə xüsusiyyətlərini, tərkibini, maddi və mənəvinin qarşılıqlı əlaqələrini və s. öyrənməyək, yaxud təhlil etməyək! Necə ola bilir ki, yüksək bir texnologiyaya malik silahı, yaxud avtomobili, kompüteri yaradan mütəxəssisin, gözəl rəsm əsərini yaradan rəssamın, gözəl bir musiqi əsərini yaradan bəstəkarın, səhnədə oynayan aktyorun, ağlına, elminə, bacarığına valeh oluruq, həmin şəxslərə Nobel mükafatları veririk, insanı - bu sirli, hikmətli varlığın yaradanını isə "görmək", qəbul etmək istəmirik!? Belə bir yanaşma hər bir işdə, əməldə haqq-ədalət, doğruluq, düzgünlük, elm, məntiq, sübut və s. axtarmaq xislətinə və fitrətinə malik olan insana yaraşarmı!? Axı Uca Rəbbimiz hələ zərr[3] aləmində bizdən əhd[4] almış və davamlı olaraq göndərdiyi Müqəd-

---

[3] Əllamə Təbatəbai buyurur: "Aləmi-ruh (zərr) elə həmin bu aləmdir ki, ona (qeyb aləmi ) də deyirlər. Hər bir varlığın iki tərəfi olur: İlahi tərəfi ki, zaman və məkan ona yol tapmaz. O biri tərəfi isə dünyəvidir və zaman və məkanın təsiri vardır. Allah-təala bu ayədə buyurur: "Bir şeyin var olmasını istədiyi zaman Onun (Allahın) əmri və məqamı ona ancaq: "Ol!" - deməkdir". ("Yasin", ayə 82).

[4] "(Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxarıb onların özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!", - deyə cavab vermişdilər. (Belə bir şahidliyin səbəbi) qiyamət günü: "Biz bundan qafil idik"; Və ya: "Atalarımız daha əvvəl (Allaha) şərik qoşmuşdular, biz də onlardan sonra gələn bir nəsil idik (onların izi ilə getdik). Məgər bizi batilə uyanların (haqq yoldan sapanların) törətdikləri əməllərə görə məhv edəcəksən?" - dediyəmiz üçündür". ("Əl-Əraf", ayə 172-173).

dəs Kitablarda, o cümlədən "Quran"da Adəm övladının Yaradıcısı Olduğunu xatırladır.[5]

Maraqlıdır ki, süni intellekt sahəsində çalışan bütün mütəxəssislər birmənalı şəkildə - yeganə düşünə bilən obyektin insan beyni olduğunu və buna görə də "düşünən" qurğunun hər hansı yolla olur-olsun, insan beyninin quruluşuna bənzər olmasını qəbul edirlər. Lakin bu elə də asan bir məsələ deyil. Ən azı ona görə ki, süni intellektin tədqiqatçıları və yaradıcıları ilə təbii intellektin araşdırıcıları arasında vahid elmi yaradıcılıq axtarışları yoxdur, yaxud yox dərəcəsindədir.

Halbuki "dünyalarca məşhur "Elm tarixinə giriş" əsərinin müəllifi Sarton[6] Antik çağdan XIV yüziləqədərki dövrdə elmlərin inkişafının tarixi bölgüsünü aparmış, elm minilliyini yarıməsrlərə bölərək, hər əlli ildən bir dünya intellektualının liderini müəyyənləşdirmişdi. Bu bölgüyə əsasən e.ə. 450-400-cü illər Platon dövrüdür. Platon dövrünü Aristotel, Evklid, Arximed dövrü təqib edir. Miladdan sonra 600-700-cü illər Çin alimlərinin payına düşür, 750-1100-cü ilə qədərki dövrlər isə Cabir, Xarəzmi, Razi, Məsudi, Səfa, Biruni, Ömər Xəyyam çağları, yəni Georgi Sartona görə, dünya elminin qızıl çağlarıdır... Georgi Sarton ilk avropalı alimlərin təzahürünün 1100-cü ildən sonrakı dövrə təsadüf etdiyini vurğulayır və onu da əlavə edir ki,

---

[5] "Sizi Biz yaratdıq. Bəs nə üçün təsdiq etmirsiniz? Bəs (bətnlərə) axıtdığınız nütfəyə nə deyirsiniz? Ondan (insan) yaradan sizsiniz, yoxsa Biz?!" ("Vaqiə", ayə 57-59).

[6] George Sarton 1884-1956-cı illərdə yaşamışdır. Belçika əsilli amerikalı kimyagər, elm və fəlsəfə tarixinə dair tədqiqatları ilə məşhurdur.

Herard, Bakon, Yakob Anatoli dövründə də elmin etibar qaynaqları ispaniyalı ibn-Rüşt, Tusi və Harveyin qan dövranı nəzəriyyəsini daha əvvəllər kəşf etmiş ibn-Nəfs hesab olunurdu".

Fəqət biz yüz ildir ki, fizika ilə metafizikanın bəzən iç-içə girdiyi bir çağda yaşayırıq.

Kvant fizikasının görkəmli nümayəndəsi Everettin çoxlu dünyalar interpretasiyası həm də humanitar və texniki elmlərdə qəbul edilmiş paralel dünyalar anlayışının gəlişməsinə səbəb olmuşdur. "Nobel mükafatı laureatı Əbdüs Salamın "İdeallar və gerçəklər" kitabında "Kosmik kod" əsərinin müəllifi Pagelsə istinadən Nobel mükafatı laureatı Feynmanın[7] belə bir təcrübəsi xatırladılır; o, hissiyyatlardan təmizlədilmiş bir təcrübə qurğusunun içərisinə girərək orada ekzosomatik (bədən dışı) bir təcrübə keçirmişdir. Öz bədəninin çölə çıxdığını və bədəninin öz yaxınlığında yatdığını müşahidə edən Feynman bu təcrübənin doğruluğunu yoxlamaq üçün qolunu hərəkət etdirmiş, bu zaman önündəki bədəninin də qolunun hərəkət etdiyini görmüşdür. Sonra bədəninin xaricində qaldığını düşünüb təkrar özünə dönmüş, bədəninə girmişdir. Feynmandan bu qəribə təcrübəsini nə ilə izah edə biləcəyini soruşanda cavab verib ki, pozulmuş heç bir fizika qanunu görmədim...".

Qeyd etmək yerinə düşərdi ki, B.Bistami, H.Mənsur, C.Rumi, Ə.Yəsəvi və b. kimi müstəsna şəxsiyyətlərin hələ

---

[7] Riçard Feynman 1918-1988-ci illərdə yaşamışdır. Amerika alimi, əsas tədqiqatları kvant fizikası sahəsindədir və s.

sağ ikən fənaya[8] uğradıqları düşünülür. B.Bistaminin belə bir sözü məşhurdur: “Mən Bəyazidlikdən bir ilan öz qabığından çıxdığı kimi çıxdım. Sonra baxdım və gördüm ki, sevən, sevilən və sevgi birdir”. Yəni varlıqda vücudü-mütləqdən başqa heç nə yoxdur.

Göründüyü kimi, hələ Riçard Feynmandan 1000 il əvvəl belə bir təcrübəni öz üzərlərində aparan B.Bistami, Ə.Yəsəvi, C.Rumi və b. kimi elm-irfan sahibi şəxslərin[9] təcrübələrinin doğruluğu paralel dünyaların, yaxud ruhun varlığı kvant fizikasının dahisi tərəfindən süni intellektin tətbiqi ilə elmi və praktik yolla belə isbatlanıb...

Məlum olduğu kimi, son 40 ildə bir elm kimi mövcud olan süni intellekt termini ilk dəfə 1956-cı ilin yayında Stenford Universitetində (ABŞ) keçirilən seminarda Con Makkarti *(John McCarthy)* tərəfindən işlədilmişdir. Con Makkarti *(John McCarthy)* bu termini 1950-ci ildə Alan Türinq *(Alan Turing)* tərəfindən verilmiş kompüter intellekti *(computer intelligence)* anlayışı əsasında irəli sürmüşdür.[10]

Yuxarıda qeyd etdiyimiz istiqamətdə düşüncələrimizi inkişaf etdirmək, süni intellekt və təbii intellektlə bağlı məsələləri qarşılıqlı sintez etməklə müvafiq nəticələrə gəlmək üçün mütləq maddənin 4-cü halı olan bilik halından bəhrələnmək lazımdır. Belə ki, biz elmin 1-ci səviy-

---

[8] Fəna halı - Hərfi mənada yox olma, heçliyə qovuşma deməkdir. Sufi-nin Tanrıya doğru yüksəldiyi məqamda şüurunu itirərək, mənliyindən keçməsi və Tanrıda əriyib getməsidir. Maddi varlıktan sıyrılıp Hakk’a ulaşma.

[9] Bəyazid Bistami ?-874 illərdə yaşamışdır.

[10] https://az.wikipedia.org/wiki/Komp ;
https://az.wikipedia.org/wiki/S%C3%BCni_intellekt

yəsində təbiətdə sərbəst şəkildə mövcud olan təbii suyu və onun tərkibinin hidrogen ($H_2$) və oksigendən (O) ibarət olduğunu bilirik. Suyun alınması üçün ayrı-ayrılıqda təbiətdə mövcud olan bu bəsit maddələrdən sənaye üsulu ilə suyun necə alınmasını da bilirik. Yaxud südün tərkibinin hansı maddələrdən ibarət olduğunu bilirik və həmin maddələrdən sənaye üsulu ilə süni süd alırıq. Süni ətin və bir çox süni maddələrin alınması da bu maddələrin alınmasına bənzər texnologiyalarla aparılır.

İndi isə təbii intellektin tərkibini və necə yaranmasını mövcud elmi biliklər, təsəvvüf və irfan elminin mütəfəkkirlərindən və ən əsası Uca Rəbbimizin bəşəriyyətə göndərdiyi Müqəddəs "Qurani-Kərim"dən, hədislərdən, elm-irfan və şəriət alimlərinin əsərlərində mövcud olan elmi biliklərdən əxz və dərk etməyə çalışacağıq.

Bu məqsədlə bilik mühəndisliyi təcrübəsinə əsaslanaraq bu elmi-bədii monoqrafiyada bilik hasil etmə üsullarından, qaydalarından və metodlarından istifadə edəcəyik.

# I FƏSİL

# ÜMUMİ NORMALAR VƏ ANLAYIŞLAR

I Fəsil – Monoqrafiyada məsələlərin oxucular tərəfindən başa düşülməsi üçün ən zəruri terminlərin anlayışları verilib. Monoqrafiyada intellektin daşıyıcısı olan insanla əlaqəli olduğuna görə insanın yaradıcısı olan Allahın vəsfi, sonuncu səmavi din olaraq göndərilən İslamın, bu dinin təbliğatçısı Muhəmməd Peyğəmbərin (s.s.) vəsfi və bütün bu dəyərləri layiq olduğu səviyyədə anlamaq və qəbul etmək üçün zəruri olan Təqvanın vəsfi öz əksini tapmışdır.

Bilik mühəndisliyinə uyğun olaraq bu biliklər ən etibarlı mənbələrdən əldə edilərək oxuculara təqdim olunur.

Bu fəsildə eyni zamanda insanın yaradılış sirri və süni intellektin inkişafı əsaslarına da toxunulur.

## *1.1. Terminlər və anlayışlar*

"İntellekt *(ing. intelligence ~ ru. интеллект, интеллектуальный ~ tr. zeka, zeki)* sözü latın mənşəlidir: intellectus – başa düşmə, intellegere – başa düşmək, inter – arasında, legere – seçmək. 1. Kompüterin aparat vasitələrinə aid işlədildikdə: informasiyanı emal etmək bacarığı[11]"nı ifadə edir. Fikrimizcə, əslində, elə intellekt sözünün daşıdığı əsas məna yükü oxuya bilməkdir. Necə ki, Uca Rəbbimizin insanlığa olan ilk sözü "Oxu" əmridir.[12]

---

[11] https://az.wikipedia.org/wiki/%C4%B0ntellekt_(psixologiya)

[12] "(Ya Peyğəmbər! "Qurani-Kərim"i bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu! O, insanı laxtalanmış qandan yaratdı. (Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki,

On dörd əsr əvvəl ilk nazil olan surədə *("Ələq" surəsində),* Allah-təala kamil bir zərifliklə, insanları hidayət etmək üçün yaratdıqlarında gizlətdiyi hikmətlərə və incə elmi mətləblərə "Oxu" deyərək işarə edir. Bəşər elmi həmin elmi mətləbləri min ildən sonra zaman-zaman kəşf edə-edə, "Quran" möcüzələrini anlamağa başlamış və müasir zamanda belə bir elmi möcüzəni *(embrionun inkişafını - insanın ana bətnində yaradılışını)* tam şəkildə yalnız, ən çox inkişaf etmiş elektron texnikaları vasitəsilə əldə edə bilmişdir. Yəni insan "Oxu" kəlməsinin daşıdığı həmin incə elmi mətləblərin əsl mahiyyətinə nüfuz etməyi bacardıqca, onun gözündə və qəlbində olan "pərdələr" qaldırılır! **İnsanın oxuya bilməsi - başa düşməsi - seçə bilməsi - səbəb və nəticə arasındakı əlaqəni tapa bilməsi üçün təsəvvür etməsi, xatırlaması, fikirləşməsi, düşünməsi, mühakimə yürütməsi, təfəkkür və idrak etməsi tələb olunur.** Bu məqsədlə Uca Rəbbimiz insana beş xarici *(görmə, eşitmə, qoxu, dad və toxunma)* və beş daxili *(müştərək duyğu (qavrayış - təsəvvür), vəhm (qorxu, şübhə, instinkt, intuisiya), maraq (meyil, arzu, şövq), xəyal, hafizə)* duyğu vasitələri vermişdir. Bəs Rəbbimizin insana bəxş etdiyi bu duyğu vasitələri "Oxu" kəlməsinin daşıdığı məna yükünün əsl anlamında oxumaq üçün yetərlidirmi!?

Bu mənada, Hz. Əli (ə) buyurur: "Görmək təkcə göz ilə deyil, bəzən gözlər sahibini aldadır".[13] Ona görə də insanın "Oxu" kəlməsinin həqiqi anlamında oxuması, yəni düzü-əyridən, doğrunu-yalandan, haqqı-batildən ayırması üçün ona verilən bu on duyğu vasitəsi də yetərli deyil. Bu deyilənləri Özünün sonsuz elmi və hikməti ilə ehtiva edən

qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi" ("Əl-Ələq", ayə 1-5).

[13] Nəhcül-bəlağə

Uca Rəbbimiz insana həm də digər zəruri vasitələr – qəlb, iman, ağıl, iradə və qüdrət də vermişdir.

Deməli, gözlə oxumaq – görməkdir; zehin və düşüncə ilə oxumaq – dərk etmək, təfəkkür etmək, idrak etmək, qulaqla oxumaq – dinləmək; qəlblə oxumaq – sevməkdir. Sevməsən yanlış oxuyarsan, bəsirət gözü *(qəlb gözü)* ilə oxumaq üçün sevməlisən!

Uca Rəbbimizin bu zərif işarəsinin – "Oxu" kəlməsinin ehtiva etdiyi məna yükünü daşıya bilmək üçün biz də "Təbii intellektin alqoritmi"ni oxumağa səy göstərəcəyik.

Qarşıya qoyulan mövzunun məqsədlərinə uyğun olaraq insanın xilqəti, nəfsi, ruhu, ağlı, zəkası, düşüncə tərzi və s. mücərrəd anlayışlar haqqında sonrakı fəsillərdə veriləcək elektron model nümunələri, bilik mühəndisliyinin və elektron sistemlərdə biliklərin sistemləşdirilməsi, relyativ modellərin və freymlərin *(çərçivələrin)* yaradılması qaydalarına uyğun olaraq toplanılan biliklər təbii intellektin alqoritmini oxumağın təzahür forması, yaxud oxunmasına yönəldilmiş bir cəhd və istəkdir.

İnformasiya kommunikasiya texnologiyaları (İKT) inkişaf etdikcə dünya kiçilir. Millətlər və xalqlar arasında yaxınlaşma baş verir. Ünsiyyət vasitəsi olan dil və dilçilik inkişaf edir. Müxtəlif dillər bir-birindən sözlər alır və lüğət fonduna daxil edir. Məsələn: "apriori", "transformasiya", "inteqrasiya", "adekvat", "qəlb-könül-ruh, dərrakə, hafizə"[14] və s. Bəzən bir xalqda olan söz başqa bir xalqın lüğət fondunda olan sözlə ifadə edilə bilmir, yanlışlıqlar yaranır. Dünyanın aparıcı dillərindən və qədim dillərdən alınma sözlər lüğət fonduna daxil edilsə də, daşıdığı ilkin təməl mənanı həmin xalqın - millətin dilində tam anlamda

[14] Daha ətraflı bax: Bu monoqrafiyanın III fəslinin, "Təbii intellektin əsasları" barədə 3.4-cü alt mövzusunda.

ifadə etmir. Yaxud həmin sözün yaradıcısı olan xalqdan alınma söz, başqa dilə eynilə daxil edilsə də həmin sözün dərk edilməsi çətinləşir. Bu baxımdan dilin semantikası kimi elm sahəsi yaranır.

Müxtəlif proqram dillərində dilçilikdən və qeyri-səlis məntiq və qərar qəbuletmə nəzəriyyələrindən istifadə edilir. Qeyri-səlis məntiq nəzəriyyəsi dilin inkişaf xüsusiyyətlərindən istifadə etməklə proqram dillərinə çevrilir. Lütfi Zadənin dediyi kimi, dilin linqvistik xüsusiyyətlərindən, sözlə hesablama nəzəriyyəsindən istifadə edilir. Lakin hər bir terminin, sinonimi, antonimi, omonimi və s. mövcuddur. Müxtəlif xalqlarda müxtəlifdir. Bu isə dilçiliyin elə bir problemidir ki, proqramlaşdırma mütəxəssisi bunları bilməyə bilər. Bu sahə üzrə xüsusi hazırlığa və təhsilə malik mütəxəssis olmalıdır, məsələn, "Bilik mühəndisi" olmalıdır ki, proqramlaşdırmadan əvvəl həmin məsələni sadə dillə desək "ipə-sapa" düzərək təsvir edə bilsin.

İKT proqramlarının tətbiqində dilçiliyin və linqvistikanın geniş istifadəsi koqnitiv dilçiliyin inkişafını əhəmiyyətli dərəcədə nəzərə almalıdır. Belə ki, İnsan 5 xarici hiss üzvləri *(göz, qulaq, burun, dad və dəri)* ilə xarici aləmdən aldığı məlumatları *(bu məlumatlardan dördü beyinə və yalnız biri burunla alınan qoxu qəlbə (ruha) ötürülür)* ağıldan keçirməklə təfəkkür edərək maddənin dördüncü bilik halına transformasiya edir. Maddənin bu dördüncü bilik halı isə sözlə ifadə olunur. Sözün ifadə forması isə insanın danışıq nitqidir. Hz. Əli əleyhissəlamın dilin natiq deyil, nitq vasitəsi olması barəsində, eləcə də öz zəmanəsinin adamlarını və gələcək insanları vəsf etdiyi kəlamlarından olan Nəhcül-bəlağədə 224-cü Xütbə bu baxımdan da nitq və

sözlə əlaqəli idrak edilәsi dəyərli fikirlərdəndir.[15] Dahi Lütfi Zadənin terminologiyası ilə "həqiqətin reallığa münasibəti dil işarələri ilə ifadə edilir". Koqnitiv dilçiliyin əsasını təşkil edən "ifadə", "müraciət" və "təsvir" forması İKT-nin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Müasir dünyamızın aktual məsələlərindən olan "Sistemli təhlil, qərar qəbuletmə və idarəetmədə soft kompütinq, söz və persepsiya ilə hesablamalar" kimi məsələlərin həllində süni intellektin inkişafı dilin koqnitiv xüsusiyyətlərinin öyrənilməsini və Bilik mühəndisliyində tətbiqini şərtləndirir. Dil təfəkkürün ifadə vasitəsi, maddənin 4-cü "bilik halının" ötürülmə formasıdır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, bu monoqrafiyada əhatə olunan məsələlərin oxucu tərəfindən asanlıqla qavranılması məqsədləri üçün hər bir fəsilə uyğun zəruri terminlərin anlayışları aşağıda verilmişdir:

---

[15] Bilin, dil insanın bir parçasıdır ki, əgər şəxs aciz olsa, söz onunla yoldaşlıq etməz. Həmçinin əgər şəxs bacarıqlı olsa, söz dilə imkan verməz. Biz *(Peyğəmbər Əhli-Beyti)* söz şahlarıyıq *(söz bizim əmrimizə tabedir)* və onun kökləri bizə batıb və budaqları bizim üstümüzə sərilib *(hər bir məsələni lazım olan zaman fəsahət, bəlağət və dolğunluğun son həddində bəyan edə bilirik).* Allah sizi bağışlasın, bilin, siz elə bir zamanda yaşayırsınız ki, onda haqq danışan az, dil doğruçuluqda süst və haqqı axtaran xardır. İnsanlar *(Allah və Peyğəmbərə) itaətsizliyə hazırlaşıblar və (nəfsi istəklərə tabe olmaq üçün)* bir-birlərilə uyuşmaqda yoldaşlıq edərək birləşiblər. Cavanları pis xasiyyətli, qocaları günahkar, alimləri ikiüzlü və danışanları yaltaqdır. Kiçikləri böyüklərinə hörmət qoymur və varlıları yoxsullarına əl tutmur.

## Təbii intellektlə əlaqəli elmi-irfani terminlər

**Alqoritm**[16] – verilmiş məsələni həll etmək üçün ilkin verilənlərlə icra olunan hesabi və hər hansı məsələnin həlli üçün məntiqi əməliyyatların sonlu sayda ardıcıllığıdır. Latınca qayda-qanun deməkdir. Müasir informatika

---

[16] **Alqoritmin xassələri:** məsələnin maşında həlli üçün tərtib edilən alqoritm bir çox şərtləri ödəməlidir. Bu şərtlərə alqoritmin xassələri deyilir. Həmin xassələr aşağıdakılardır:

*Diskretlilik xassəsi.* Hər bir alqoritm məsələnin həll prosesini sadə addımların yerinə yetirilməsi ardıcıllığı şəklində ifadə edir və hər bir addımın yerinə yetirilməsi üçün sonlu zaman fasiləsi tələb olunur, yəni başlanğıc verilənlərlə icra olunan hesabi və məntiqi əməliyyatların yerinə yetirilməsi və nəticənin alınması zamana görə diskret yerinə yetirilir.

*Müəyyənlik xassəsi.* Hər bir alqoritm dəqiq, birqiymətli olmalıdır. Bu xassəyə əsasən alqoritm yerinə yetirildikdə istifadəçinin və onun istifadə etdiyi kompüterdən asılı olmayaraq eyni nəticə əldə edilməlidir.

*Kütləvilik xassəsi.* Müəyyən sinif məsələnin həlli üçün qurulmuş alqoritm bu sinfə aid olan yalnız başlanğıc qiymətləri ilə fərqlənən bütün məsələlərin həllini təmin etməlidir.

*Nəticəlilik və sonluluq xassəsi.* Alqoritm sonlu sayda addımdan sonra başa çatmalı və verilmiş məsələnin həlli tapılmalıdır.

**Alqoritmin təsvir üsulları:** mətn, blok-sxem, cədvəl, proqram şəklində və adi dildə təsviri yerinə yetirilir. Alqoritmin adi dildə təsviri zamanı əməliyyatlar, icra olunacaq hərəkətlərin nəqli şəkildə ardıcıl sadalanması kimi verilir. Alqoritmin blok-sxem təsviri. Mürəkkəb alqoritmlərin təsvirində blok-sxemlərdən istifadə olunması daha geniş yayılmışdır, çünki bu halda alqoritmin təsviri daha əyani olur. Bu zaman, adətən alqoritmin bir addımına bir blok uyğun olur. Lakin bir blokda bir neçə eyni tipli mərhələ və ya bir mərhələ bir neçə blokda təsvir oluna bilər. Bloklar standart işarələr şəklində ifadə olunur və bir-birlərilə şaquli və ya üfüqi xətlərlə birləşdirilir.

**Proqramlaşdırmada məsələni alqoritmləşdirməkdən qabaq aşağıdakı addımlar yerinə yetirilir:** 1. Məsələnin riyazi qoyuluşu: 1.1. ilkin verilənlərin sadalanması; 1.2. Nəticələrin sadalanması; 1.3. İlkin verilənlərin məhdudiyyət şərtləri. 2. Riyazi model: nəticələri almaq üçün lazım olan bütün qayda və qanunlar. 3. Riyazi modelin optimal istifadə olunması.

elminin əsas anlayışlarından olan "alqoritm" termini 783-850-ci illərdə indiki Özbəkistanın Xarəzm şəhərində yaşamış məşhur riyaziyyatçı alim əl-Xarəzminin adının latın dilində yazılışından götürülüb.

**Aləmi-lahut** (lahut aləmi) – Allah substansiyasının mövcud olduğu mütləq həqiqət aləmidir. Bu, ilahi varlığın öz zatından ibarət əhədiyyət mərtəbəsidir ki, dərki mümkün deyil. Qeybi-mütləq olan bu məqama "mütləq qeyb", "lahut aləmi", heç bir ölçüyə, şəklə sığmayan "la-təəyyun" aləmi, "itlaq" aləmi, ancaq "mütləq vücud", "mütləq varlıq", sırf zat, "ümmu-l kitab", "mütləq bəyan", "son nöqtə" və "qeyblərin qeybi"... deyilir. Bütün sonrakı varlıq və aləmlərin başlanğıcı, səbəbi və idarəedicisidir. Mütləq xaliqdir və hər şeyin – həm sonrakı mənəvi, həm də cismani reallıqların varlığı ona bağlıdır. Onun "kun" ("ol") əmri və ilkin təcəllisi ilə sonrakı aləmlər qərarlaşmışdır.

**Aləmi-Qeyb** (qeyb aləmi) **–** Lövhi-məhfuz, külli-əql, Allahın ad və sifətlərinin sabit surətləri bu aləmdə yerləşir.

**Aləmi-Cəbərut** (cəbərut aləmi) **–** ilkin təyinlər, ilk təcəlli, ilk cövhər, həqiqəti Məhəmmədiyyə, izafi ruh, külli ruh, müzaf olan qeyb və kitabül-mübin (açıq-aydın kitab)... və s. deyilir.

**Aləmi-Mələkut** (mələkut aləmi) **–** ona misal aləmi, xəyal aləmi, birincilik, ikinci təyin, ikinci təcəlli, sidrətül-müntəha, əmr aləmi, kiçik bərzəx və təfsilatlar aləmi... kimi adlar da verilir. Qısa şəkildə belə də deyə bilərik: "Ruhlara, nəfslərə aid olan gizli aləm".

**Aləmi-Şəhadət** (şəhadət aləmi) – *şəhadət aləmi, mülk aləmi, nasut aləmi, xəlq aləmi, hiss aləmi, ünsürlər aləmi, fələklər və ulduzlar aləmi və məvalid aləmi* də deyilir. Bunlardan mədənlər, bitkilər və heyvanat nəzərdə tutulur. Ərşi-əzimi [nəhəng səma] də bu məqama aid edirlər. Cisimlər aləminin hamısı bu məqama daxildir. Bunlar şəhadət aləminə aid təbirlərdir. Bu aləmlərin xaricində qalanların hamısına da qeyb aləmi və əmr aləmi kimi iki ad verilir. Bundan da əlavə, qeyb və şəhadət ifadəsindən də istifadə edilir. Yaxud dünya işi, axirət işi kimi da ifadə edə bilərik.

**Elmül-yəqin** (məntiq elmi) – məntiq, dəlil, əqli və idraki mühakimələrə əsaslanır. Yalnız kəsrət aləmini, maddi dünyanı öyrənmək və anlamağa imkan verir. Din və şəriətin zahiri qaydalarına dayanaraq formal rəftar və davranış qaydalarını nizamlamaqdan ötrü yetərlidir. Bu, dəlilə ehtiyacı olan zahiri elmdir. Həm də şəxsi səy və cəhdlə kəsb edilən, qazanılan elmdir. Yəni elmin birinci səviyyəsidir.

**Elmül-Lədün** (əta olunan elm) – "Lədün" ərəbcə "yan" deməkdir. "Elmül-lədün" isə "Allah yanından vəhy vasitəsilə verilən elm" mənasındadır. Bu, kəsb edilən yox, əta olunan, Allah lütfü ilə bağışlanılan elmdir ki, tam və kamil ağıl-idrak sahibi olan peyğəmbərlərə, vəlilərə və seçilmiş iman sahiblərinə verilir. Onu oxumaq, öyrənmək və təcrübə ilə, kitablardan əldə etmək mümkünsüzdür. Həqiqi irfan əhlinə elmül-lədündən pay götürmək xoşbəxtliyi nəsib olmalıdır. İlahi həqiqətləri və vəhdət aləmi-

nin sirrini və hikmətini yalnız elmül-lədünü ilə öyrənmək olar.

**Obyekt** (Lat. *objectum*) – fəlsəfi kateqoriya kimi elmin əsas götürdüyü sahə – predmet. Xarici aləm, maddi varlıq. Öyrənilən və nəzərdən keçirilən mövzu – fakt, hadisə, əşya, müəssisə, təşkilat və s. Konkret elmin nüvə nöqtəsi. Təfəkkürdən asılı olmayaraq real şəkildə mövcud olan predmet, hal və ya proses.

**Subyekt** (lat. Subyektum) – fəlsəfədə xarici aləmi (obyekti) dərk edən və öz əməli fəaliyyətində, işində ona təsir edən şəxsi ifadə edir.

**Abstraktlaşdırma** – predmetlərin qeyri-mühüm xassə, münasibət və əlaqələrindən fikrən sərf-nəzər edilməsi, bu predmetlərin tədqiqatçını maraqlandıran bir və ya bir neçə mühüm əlamətinin seçilib götürülməsi deməkdir. İdrak prosesində predmet və hadisələrin əhəmiyyətsiz xassə və əlamətlərinin fikrən ayrılması, mühüm, əsas əlamətlərin ümumiləşdirilməsidir.

**Aksidensiya** – fəlsəfədə bir şeyin təsadüfi, keçici, müvəqqəti, əhəmiyyətsiz xassəsini ifadə edir.

**İslam** – *(Allah və Peyğəmbərin göstərişlərinə)* təslim olmaqdır. Təslim olmaq *(onlara)* inanmaqdır. İnanmaq *(onları)* qəbul etməkdir. Qəbul etmək *(onları)* etiraf və təsdiq etməkdir. Etiraf və təsdiq etmək *(onları)* yerinə yetirməyə hazır olmaqdır. Yerinə yetirmək *(onlara)* əməl etməkdir. *(Deməli, əslində İslam Allah və Peyğəmbərin göstərişlərinə əməl etməkdir).*[17]

[17] Nəhcül-bəlağə, 120-ci kəlam.

**İrfan** – əməli hərəkətin, praktiki fəaliyyətin gedişatını nizamlayan, onu idraki-nəzəri baxımdan əsaslandıran düşüncə modeli – ilahi hikmət və bilik məcmusudur. Hissi və əqli idrakdan yüksəkdə dayanan ali mərifətdir. İrfan təsəvvüfdən daha yüksək mərhələ, vahid təlimin daha uca mərtəbəsidir.

**Epistemologiya** (Qədim yunanca - ἐπιστήμη -bilik, bacarıq və λόγος - elm) – fəlsəfənin məlumatın təbiəti, əhatəsi və qaynağı ilə maraqlanan bölməsidir. Məlumat fəlsəfəsi olaraq da adlandırılmaqdadır.

**Əhədiyyət** – Tanrı substansiyasının ali məqamı, tək və şəriksiz olmaq.

**Bilik** – insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusudur. Bilik mühəndisliyi baxımından bilik, formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub *(prinsipləri, əlaqələri, qanunları)*, həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.

**Apriori** (latınca - *A priori* ) – təcrübədən asılı olmayan, amma təcrübəylə canlandırıla bilən, başlanğıc şüura xas olan bilik.

**Ehkam** – bütün vəziyyətlərdə dəyişməyən, həqiqətin pozulmazlığı üçün qəbul edilmiş müddəa, anlayışdır. Bütün tarixi şəraitlər və dövrlər üçün dəyişilməz və inkaredilməz həqiqət kimi qəbul edilən qanun.

**Cövhər** – ərəb mənşəlidir. Bu söz daha müasir variantda Qərb fəlsəfəsinə istinadla – substansiya termini ilə

ifadə olunur. Şeyin mahiyyəti, onun əsası demək olan cövhər bütün xarakter və xüsusiyyətlərdən uzaq təsəvvür olunur. Ona əlavə olunan forma, tip, xüsusiyyətlər onun təbiətinə bilavasitə aid olmadıqlarına görə onlara ərəz deyilir.

**Zat** – əsil, mənşə, kök, nəsil, nəsəb, soy ifadə edir. Klassik Azərbaycan ədəbiyyatında –mahiyyət; əsil, cövhər; subyekt, şəxs mənasında işlədilir.

**İnikas** – bir yerə dəyib geri qayıtma, əksetmə; surətin şüşəyə, suya və ya başqa parlaq bir şeyə dəyib orada əks olunması, yaxud fəlsəfədə xarici aləmin surətlər şəklində xəyalımızda canlanmasını ifadə edir.

**Təfəkkür** – obyektiv varlığın vasitəli, ümumiləşdirilmiş, nitqin köməyilə daha dəqiq inikasından ibarətdir. Təfəkkür varlığın inikasının ali səviyyəsidir.

**Təbərrük** – dindarlara görə xoşbəxtlik, uğur gətirən, xəstələri sağaldan, müqəddəs torpaq, su, müqəddəs adamın geyiminin kiçik parçasını ifadə edir.

**Transformasiya** – bir şeyin mühüm xassələrinin, forma və görünüşünün dəyişməsi, başqa şəklə düşməsi, bir haldan başqa hala keçməsini ifadə edir. Məsələn, bir dilin sözdə nüvə cümlələrinin törəmələrinin əldə edildiyinə görə əvvəlcə bu və ya digər qaydanı ifadə edən bir dilçilik anlayışıdır.

**Teologiya** – ilahiyyat. Dini ehkamların, prinsiplərin sistemli şərhi, ilahi qüvvənin gerçəkliyi haqqında təlim, nəzəriyyəni ifadə edir.

**Fərziyyə** (ər) – bir şey haqqında təxmini mülahizə; güman, ehtimal, fikir, zənn kimi anlayışlar ifadə edir.

**Fənn** – (ər) – elm, bilik sahəsi, tədris obyekti kimi anlayışları ifadə edir.

**İman**[18] – (ər) – (Allah və Peyğəmbərin göstərişlərini), qəlb ilə tanımaq, dil ilə iqrar (təsdiq) etmək, əl, ayaq, göz, qulaq, dil və bu kimi üzvlərlə əməl etməkdir.

**İman əhli** – dinə inanan, dini ehkamlara riayət edən, etiqadlı.

**Küfr** – allahsızlıq, dinsizlik, kafirlik, Allaha inanmamaq, yaxud Allahın əmrlərinə qarşı çıxmaq.

**Ruh** – dilimizdə vətəndaşlıq haqqı qazanmış "ruh" anlamının fərqli mənaları var. İnsanın qəlbi, canı, ruhu bizdə eyni sözlə ifadə olunur – "ruh". Məsələn, rus dilində "dux", "duşa" sözləri bu fərqli anlamı ortaya qoya bilir. Biz bunları birləşdirib ümumilikdə hər ikisinə "ruh" deyirik.

**Nəfs** – ehtiras, şiddətli istək, mənfi mənada arzu, meyil, tamah, daxili ehtiyac kimi insana xas olan hissləri ifadə edir. Nəfs termin kimi – şəhvət, qəzəb, kin, nifrət və s. bənzəri duyğuların əsası, mərkəzi, insan bədənində olan haldan-hala düşən və mənəvi olaraq kamilləşə bilən cövhərdir.

**Beyin** – mərkəzi sinir sistemini idarə edən əsas orqandır. Zehin, iradə, sinir mərkəzi beyində yerləşir. Beyin kəllənin içindəki, bütün elektrokimyəvi neyroni hərəkətlərdən məsul fiziki rəhbərlik mərkəzidir. Məcazi anlamda kompüterlə müqayisə etsək beyin aparat təminatıdır.

**Ağıl** – doğru ilə yanlışı ayırd etmə, hər hansı bir mövzuda fikir yürütmə və münasibət bildirmə qabiliyyəti-

[18] Nəhcül-bəlağə, 218-ci kəlam. Səh.398.

dir. İnsan ağlının təməli şüurdur. Şüur insanın özü və ətrafindakılarla əlaqə qurmasını təmin edir. İnsanı digər canlılardan ayıran təməl özəllik olaraq şüuru qəbul edə bilərik. İnsan əlavə olaraq azad iradəyə və zaman bilincinə də sahibdir. Əxlaqın təməli ağıldır. Bəzi fikirlərə görə, ağıl bir kompüter proqramına (Software), beyin isə aparat təminatına (Hardware) bənzəyir.

**Zehin** – insanda düşünmə, anlama və yaddaş qabiliyyətini ifadə edir; dərrakə, istedad. Məcazi anlamda kompüterlə müqayisə etsək zehin proqram təminatıdır.

**Koqnitivlik** – (lat. *cognitio, "başa düşmək, dərk etmək, öyrənmək"*) – dərketmə və xarici informasiyaları mənimsəmək qabiliyyətini təsvir edir. Şüur, düşüncə və təfəkkürlə bağlı olan; anlayışların formalaşmasına, bilikdən nəticələrin çıxarılmasına xidmət edən dərketmə prosesini ifadə edir. İnsanın koqnitiv xassələrinə "diqqətlilik", "yadınasalma", "öyrənmə", "yaradıcılıq", "təşkiletmə", "orientasiya", "əsaslandırma", "iradə", "inam" və s. kimi keyfiyyətlər aid edilir.

**İrrasionalizm** – zəkanın, təfəkkürün idraki imkanlarının məhdudluğunu israr edən və intuisiyanı, hissi instinkti və s. idrakın əsas növü kimi qəbul edən fəlsəfi təlim. İrrasional bilik və irrasional idrak məsələləri bəzi alimlər tərəfindən bu problemlər müxtəlif kontekstlərdə verilsə də, ayrıca tədqiqat obyekti kimi öyrənilməmişdir. Məlum elmi ədəbiyyatda irrasional idrakın mahiyyəti və strukturunu xüsusi mövzu kimi nisbətən geniş təhlil edən hər hansı bir tədqiqat əsəri demək olar ki, yoxdur. İrrasional

bilik problemi, irrasional idrak fenomeni, orta əsr, Qərb və Şərq fəlsəfə təfəkkürünün inkişaf qanunauyğunluqları kontekstində irrasional təfəkkür, Qərb və Şərq fəlsəfə tarixində irrasional idrakın spesifik cəhətləridir.

**Semantika** – dilçilikdə *(linqvistikada)* yazılı və şifahi danışıqda sözlərin və fikirlərin mənasını öyrənməyi ifadə edir. Proqramlaşdırmada, eləcə də təbii dildə: sözlər, yaxud simvollar ilə onların təyin olunmuş mənaları arasında əlaqəni ifadə edir. Dəqiq və adətən məhdud mənaları olan sözlərə əsaslanan proqramlaşdırma dilləri müəyyən semantik qaydalardan asılı olur. Konseptual səviyyədə semantika süni intellektin tədqiqat sahələrindən biridir. Məsələn, insanlar arasındakı münasibətlər kimi, obyektlər, ideyalar, yaxud situasiyalar arasındakı qarşılıqlı əlaqələr də semantik şəbəkələr vasitəsilə göstərilir. Semantik sahə, sema *(işarə)* və ya dil kökü adlanan ortaq bir işlək əsas vahidə malik olduqları üçün oxşar məna kəsb edən sözlər və ifadələr toplusudur.

**Sinonim** – eyni işarəni bir neçə işarə ilə ifadə edə bildikdə meydana gəlir, məsələn: dağılma, düşmə, çökmə və digər ifadələr kimi.

**Antonim** – sözün əks mənası ilə xarakterizə olunur, məsələn: soyuq – isti.

**Polisemiya** – işarənin bir neçə mənaya uyğun gəldiyi zaman yaranır, məsələn: ayaq sözündə həm heyvana, həm də mebel ayağına uyğundur.

**Omonim** – mənaların oxşarlığıdır, omonim sözlər yazılı şəkildə dəyişkənlik göstərir, məsələn: 1. afət - bəla,

fəlakət, ziyan; 2. afət - son dərəcə gözəl qız, qadın; 3. afət - pəncərədən boylanan gecə.

**Rasional** – hissə deyil, ağıl və məntiqə əsaslanan düşüncə tərzini ifadə edir.

**Rasionalizm** – fəlsəfədə ağlı idrakın yeganə mənbəyi hesab edən idealist fəlsəfi cərəyandır.

**Məntiq** (yunanca- *λογική*) – "mülahizələr haqqında elm", "fikirlərdə və fəaliyyətdə əlaqələr haqqında elm" – məntiqi dillə intellekt dərketmənin qanunları, metodları və formaları haqqında elmdir. Məntiq haqqında biliklər təfəkkürlə alındığından, o, *düzgün* təfəkkür haqqında elm kimi də götürülə bilər. Eyni zamanda məntiq təsdiq və ya təkzib metodları haqqında elm kimi də qəbul edilə bilər. Məntiq qazanılmış təcrübə və dərketmə vasitəsilə həqiqətin əldə edilməsi elmi də adlandırılır.

**Elmi nəzəriyyə** – gerçəkliyin hər hansı müəyyən prosesləri və ya sahələri haqqında dərin, hərtərəfli bilikdir.

**Məntiqi idrak** – idrakın inkişafında keyfiyyətcə yeni, ən yüksək mərhələdir. Onun rolu predmetin başlıca xassələrini və əlamətlərini aşkara çıxarmaqdan ibarətdir. Məntiqi təfəkkür pilləsində gerçəkliyin inkişafının insana öz əməli işlərində son dərəcə zəruri olan qanunları dərk edilir.

**Anlayış** – predmetlərin bütün tərəflərini deyil, yalnız mühüm, ümumi tərəflərini əks etdirir, ikinci dərəcəli əlamətləri nəzərə almır, bunları kənara atır. Anlayışların inkişafı prosesi iki istiqamətdə davam edir: əvvəlki anlayışlar dərinləşdirilir, dürüstləşdirilir və daha yüksək abst-

raksiya səviyyəsinə qaldırılır; yeni anlayışlar meydana gəlir. Anlayışlar əsasında təfəkkürün başqa formaları – mühakimələr, əqli nəticələr formalaşır.

**Mühakimə** – elə bir idrak formasıdır ki, bunda nə isə iqrar edilir və ya nə isə inkar edilir. Mühakimənin tərkibinə müəyyən anlayışlar daxildir. Bundan başqa, hipotezlərdən də idrak prosesində istifadə edilir.

**Hipotez** – hadisələr, vaqiələr, qanunlar haqqında ehtimaldır. Tədqiqat prosesində, nəticə olaraq həmin hipotez *(ehtimal, fərziyyə)* ya təsdiq, yaxud inkar edilir.

## Təmir strategiyası ilə əlaqəli terminlər

**Əsas maşın və avadanlıqlar** – o avadanlıqlardır ki, aralıq və ya son məhsulun alınması üçün əsas kimyəvi-texnoloji proseslər təmin edilir və həmin avadanlıqların sıradan çıxması texnoloji xətlərin (qurğuların) dayanmasına və məhsuldarlığın kəskin düşməsinə gətirib çıxarır.

**Köməkçi maşın və avadanlıqlar** – o avadanlıqlardır ki, əsas texnoloji və istehsal prosesinin təmin edilməsinə xidmət edir və köməkçi istehsalat əməliyyatlarının (daşınma, qablaşdırma və s.) yerinə yetirilməsində istifadə edilir.

**Dinamik avadanlıqlar** – kompressorlardan, ventilyatorlardan, nasoslardan, soyuducu maşınlardan, ötürücü maşınlardan *(elektrik mühərrikləri, qaz turbinləri, buxar turbinləri, dizellər və s.)* ibarətdir. Bu qrupa xüsusi təyinatlı maşınlar - doğrayıcılar, xırdalayıcılar (drobilkalar), üyü-

dücülər, qəlbirləyicilər, qarışdırıcılar, separatorlar, sentrifuqlar, barabanlı filtrlər və digər bu kimilər də daxildir.

**Statik avadanlıqlar –** yüksək təzyiq altında olan borulardan, qablardan, qazanlardan, seperatorlardan, rezervuarlardan və müxtəlif aparatlardan ibarətdir.

**Təmir**[19] – avadanlığın (məmulatın) resurslarının və ya tərkib hissələrinin və işlək vəziyyətinin, yaxud sazlığının bərpası üzrə əməliyyatlar kompleksidir**.**

**Təmir əməliyyatı**[20] – müəyyən ixtisasa malik icraçılar tərəfindən bir iş yerində təmirin tamamlanmış hissəsidir**.** Təmir əməliyyatına - avadanlığın (məmulatın) sökülməsi, qüsur aktının tərtib edilməsi, texniki vəziyyətinə nəzarət, hissələrin bərpa edilməsi, yığılması və s. daxildir. Təmir əməliyyatının məzmunu, texniki xidmət əməliyyatlarının bəzilərinin məzmunu ilə üst-üstə düşə bilər**.**

**Metod** – hər hansı bir məqsədə nail olma, müəyyən bir tapşırığı həlletmə üsulu, yaxud gerçəkliyin nəzəri və praktiki baxımdan dərk edilməsi üçün üsul və qaydaların məcmusudur. Avadanlığın (məmulatın) təmiri ayrı-ayrı hissələrin və quraşdırma (montaj) vahidlərinin bərpası və dəyişdirilməsi ilə yerinə yetirilə bilər.

**Metodika** – qabaqcadan müəyyən edilmiş nəticəyə, yaxud məqsəd və vəzifələrin icrasına gətirə bilən praktiki fəaliyyətin metodlardan, üsul və qaydalardan ibarət məcmusudur. Elmi biliklərin dərk edilməsində metodika

---

[19] http://www.vashdom.ru/gost/18322-78/ГОСТ 18322-78*(СТ СЭВ 5151-85)Система технического обслуживания и ремонта техники.

[20] "Texnoloji sənədlərin vahid sistemi və əsas məfhumların anlayışları" na dair Dövlətlərarası standart (ГОСТ 18322-78; ГОСТ 3.1109-82).

praktiki tədqiqatda (müşahidə və sınaqda) mühüm rol oynayır. Metoddan fərqli olaraq alınmış nəticənin nəzəri əsaslandırılması metodikanın məsələlərinə daxil olmur, o sınağın texniki tərəfinə və tədqiqatçının, yaxud icraçının hərəkətlərinin tənzimləməsinə fokuslanır.

**Relyativ**[21] – termini nəzəriyyənin riyazi əlaqə anlayışına əsaslandığını bildirir. Bəzi hallarda bu əlaqəni dəqiq ifadə etmək mümkün olmadığı hallarda Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsinə uyğun olaraq dilin linqvistik xüsusiyyətlərindən istifadə olunur.

**Quraşdırma (montaj) vahidi**[22] – yığma əməliyyatlarının *(vintləyib bərkitmə, birləşdirmə, pərçimləmə, qaynaq etmə, lehimləmə, presləmə, genəltmə, bitişdirmə, calayıb tikmə və s.)* köməyi ilə istehsalçı müəssisədə birləşdirilməsi tələb olunan və tərkib hissələri bir-birilə eyni funksional təyinata malik olan məmulat *(bənd, qovşaq, şəbəkə və ya hissə)* hissəsidir. (ГОСТ 23887-79).

**Strategiya** – məqsədlərə nail olmaq üçün nəzərdə tutulmuş inteqrasiya edilmiş hərəkət modelidir.

**Təmir strategiyası** – təmir işlərinin yerinə yetirilməsi üçün onun tərkibini, yerini və vaxtını dəqiq müəyyən etmək üçün qərar qəbul edilməsini müəyyən edən qaydalar sistemidir.

---

[21] Biliklərin "Relyativ model təsviri" üzrə baza verilənlərin müasir anlayışı üzrə görkəmli mütəxəssis-ekspert Christopher J. Date kimi görkəmli mütəxəssisin dünyanın bütün universitetlərdə tədris olunan müvafiq dərsliklərindən əldə etmək olar.

[22] http://docs.cntd.ru/document/gost-23887-79 ГОСТ 23887-79«Государственный Стандарт Союза ССР Сборка. Термины и Определения» ( Assembling.Termsand Definitions).

**Növ –** təbii elmi təsnifatın əsas anlayışlarından biridir.

**Təmir növü –** avadanlıq, qurğu və şəbəkənin saz və işlək vəziyyətdə saxlanılmasını təmin etmək üçün normativ-texniki, istismar, rəhbər sənədlər və texniki diaqnostika əsasında yerinə yetirilən əməliyyatların (xidmətlərin, işlərin) tərkibini müəyyən edən və onların həcmi ilə fərqləndirilən işlərin məcmusudur.

**Təmir texnologiyası** – maşın və avadanlıqların texniki vəziyyətinin və onun tərkib hissələrinin təmir prosesində dəyişdirilməsinin bütün üsul və qaydalarıdır (metodlarıdır).

## Peşə riski ilə əlaqəli terminlər

**Obyekt (обьект, sistem)** – sərbəst baxıla bilən hər hansı bir istənilən hissə, qurğu, aparat, sistem, alt sistem, funksional vahiddir.

**İş yeri** – işçinin haqqı ödənilməklə vəzifəsi (peşəsi) üzrə əmək müqaviləsi ilə müəyyən edilmiş işləri (xidmətləri) yerinə yetirdiyi yerdir.

**Analoji iş yerləri** – növbəti əlamətlərin məcmusunu xarakterizə edən iş yerləri: eyni addan olan peşələr və ya vəzifələr; eyni iş rejimində eynitipli texnoloji prosesin həyata keçirilməsi zamanı eyni peşə borclarının icrası; eynitipli istehsal avadanlığından, alətlərdən, qurğulardan, materiallardan və xammaldan istifadə; bir və ya bir neçə eynitipli iş yerlərində və ya açıq havada iş; eynitipli havalandırma, hava sərinləşdirici, istilik və işıqlandırma sistemlə-

rindən istifadə; iş yerində obyektlərin (istehsal avadanlığı, nəqliyyat vasitələri və s.) eyni yerləşməsi; bir sinfin və dərəcənin zərərli və (və ya) təhlükəli istehsalat amillərinin eyni dəsti; eyni FMV ilə təmin olunma.

**İş zonası** – döşəmə səviyyəsindən 2 metr hündürlüyə malik olan sahədə (yerdə), işçinin (işçi qruplarının) daimi və ya müvəqqəti olduğu yer.

**Əmək şəraiti** – işçinin öz əmək funksiyasını səmərəli və faydalı yerinə yetirmək üçün minimum normaları Əmək Məcəlləsində nəzərdə tutulan, habelə əmək müqaviləsində (kollektiv müqavilədə, sazişdə) tərəflərin özləri müəyyən etdiyi əmək, sosial və iqtisadi normaların məcmusudur.

**Monitorinq** – bu "Məlumat toplusu"nun məqsədləri üçün istehsalat mühiti və əmək şəraiti üzrə informasiyanın toplanması, müşahidəsı, təhlili, qiymətləndirilməsi və idarəetmənin effektivlik vəziyyətinin proqnozlaşdırılmasıdır.

**Risk** – texnogen və ya təbii hadisələrin yaranması və sosial, iqtisadi, ekoloji zərərin və ziyanın müşayiət edilməsinin ehtimal olunan ölçüsüdür.

**Riskin qiymətləndirilməsi** (risk assessment) – işdə təhlükələrin təsiriylə işçilərin təhlükəsizliyinin və sağlamlığının saxlanılmasına onların təsirinin müəyyən edilməsi üçün yaranan risklərin qiymətləndirilməsi prosesidir.

**Peşə riski –** işçinin əmək müqaviləsi çərçivəsində və ya Azərbaycan Respublikasının Əmək Məcəlləsi və ya digər müvafiq qanunla müəyyən edilmiş hallarda vəzifələrini yerinə yetirməsi zamanı zərərli və (və ya) təhlükəli is-

tehsal amillərinə məruz qalması nəticəsində sağlamlığa zərər vurma ehtimalı.

**Peşə riskinin idarə edilməsi** – əməyin mühafizəsinin idarəetmə sisteminin elementləri olan və peşə risklərinin səviyyəsini müəyyənləşdirmək, qiymətləndirmək və azaltmaq tədbirlərini özündə cəmləşdirən qarşılıqlı fəaliyyətlərin məcmusudur.

**Peşə riskinin dərəcəsi**[23] – əmək funksiyalarını yerinə yetirərkən peşə əmək qabiliyyətinin itirilməsi və ya ölüm ehtimalının iqtisadi fəaliyyət növləri və sığorta olunanların kateqoriyaları üzrə səviyyəsi.

**Təhlükə** (hazard) – insanın sağlamlığına zədə, yaxud digər zərər vura bilən istehsalat amilidir. *(mürəkkəb texniki sistemə daxilən məxsus bir xüsusiyyət olaraq, təsir obyekti üçün birbaşa və ya dolayı yolla zərər şəklində sistemin idarəetməyə tabe olmaması nəticəsində tədricən və ya qəflətən, və kəskin şəkildə reallaşa bilən hadisədir).*

**Təhlükənin qiymətləndirilməsi** (hazard assessment) – təhlükənin sistemli olaraq qiymətləndirilməsidir.

**Təhlükənin eyniləşdirilməsi (identifikasiyası)** – təhlükənin mövcudluğunun dərk edilməsi və onun xarakteristikasının müəyyən edilməsidir.

**Sağlamlığın pisləşməsi** – işlə bağlı əmək fəaliyyəti və ya əmək şəraiti ilə əlaqədar yaranan və qənaətbəxş olmadığı müəyyən edilən fiziki və ya psixoloji vəziyyət.

---

[23] "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 2, bənd 2.0.11.

**Hadisə** – ölümə, yaxud ağırlıq dərəcəsindən asılı olmayaraq sağlamlığın pisləşməsinə, yaxud zədələnmənin baş verə bilməsinə səbəb olan işlə əlaqədar qəza.

**Peşə xəstəlikləri**[24] – əlverişsiz və zərərli istehsalat amillərinin işçinin orqanizminə təsiri nəticəsində baş verən xroniki və ya kəskin xəstəliklər.

**Əmək qabiliyyəti** – insan orqanizminin tələb olunan vaxt ərzində verilmiş keyfiyyətdə müəyyən iş həcmini yerinə yetirmək qabiliyyətini xarakterizə edən fizioloji və psixoloji funksiyalarının imkanlarını müəyyən edən vəziyyəti;

**İstehsalat mühiti** – işçinin əmək fəaliyyəti prosesində ona təsir edən kimyəvi, bioloji, fiziki və sosial amillərin məcmusu;

**Zərərli istehsalat amili** – işçiyə müəyyən şəraitlərdə təsiri xəstələnməyə və ya əmək qabiliyyətinin dayanıqlı azalmasına gətirib çıxara bilən istehsalat amili;

**Təhlükəli istehsalat amili** – işçiyə, müəyyən şəraitlərdə təsiri zədələnməyə və ya sağlamlığın qəflətən kəskin pisləşməsinə gətirib çıxara bilən başqa istehsalat amili;

**Təhlükəsiz əmək şəraiti** – zərərli və (və ya) təhlükəli istehsalat amillərinin, işçilərə təsirini istisna edən və ya onların təsir səviyyələrinin müəyyən edilmiş normativləri ötməyən əmək şəraiti;

---

[24] "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 2, bənd 2.0.11.

**Əmək prosesinin ağırlığı** – əmək predmetinin vəziyyətində olan hər hansı bir dəyişikliklərlə əlaqədar fiziki səylərin *(fiziki dinamiki yüklənmə - əl, bədən və ayaq əzələlərinin iştirakı ilə; stereotip işçi hərəkətlər - lokal və regional yüklənmə; statik yüklənmə)* xarakteristikası;

**Əmək prosesinin gərginliyi** – əmək prosesində insanın üzləşdiyi, əsəb sisteminə düşən emosional-psixi ağırlığın *(intellektual yüklənmə; sensor yüklənmə; emosional yüklənmə)* xarakteristikası;

**Fərdi mühafizə vasitələri (FMV)** – zərərli və ya təhlükəli istehsalat amillərinin işçilərə təsirinin azaldılması və ya qarşısının alınması, həmçinin çirklənmədən müdafiə olunmaq üçün istifadə edilən texniki vasitələr *(xüsusi geyim, xüsusi ayaqqabı və fərdi mühafizənin digər vasitələri);*

**İş yerində əmək şəraitinin xəritəsi** – güzəştli və kompensasiyalı iş yerlərində faktiki əmək şəraiti haqqında məlumatları, həmçinin hazırkı iş yerində və ya analoji iş yerlərində əmək şəraitinin yaxşılaşdırılması və təkmilləşdirilməsi üzrə tövsiyələri özündə ehtiva edən sənəddir.

## 1.2. Allahı tanımaq elmi

Həmd o Allaha məxsusdur ki, *(zat və sifətlərində)* yaratdıqlarına bənzər olmaqdan uca, vəsf edənlərin sözlərindən yüksək və *(onları)* aciz edəndir. *(Heç kəsin Onun həqiqətini vəsf etmək qüdrəti yoxdur.)* Yaradılışının *(yaratdıqlarında olan)* qəribəlik və heyranediciliyi ilə görənlər üçün aşkar, izzətinin böyüklüyü ilə xəyal və güman sahiblərinin düşüncələrindən gizlindir. Başqasından öyrənmədən, *(elmi-*

*ni)* artırmağa ehtiyac olmadan və *(başqasının elmindən)* bəhrələnmədən *(hər şeyi)* biləndir[25]. Fikrə dalıb düşünmədən bütün yaranmışların yaradanıdır. O, elə bir Allahdır ki, qaranlıq və zülmətlər Onu əhatə etmir, aydınlıqlardan işıq istəmir, gecə Onu bürümür və gündüz Ona şamil olmur.[26] Onun *(əşyaları)* dərk etməsi görmə vasitəsilə deyildir.[27] Həmçinin Onun elmi başqasından xəbər almaq nəticəsində deyil.[28] (Nəhcül-bəlağə, 204-cü Xütbədən).

Onun üçün keyfiyyət və necəlik *(zata əlavə edilən sifətlər)* müəyyənləşdirən kəs Onu tək bilmir. Onun üçün misil və bənzər *(şərik)* güman edən kəs Onun həqiqətinə çatmayıb *(Onu tanımayıb).* Onu *(bir şeyə)* oxşadan kəs Onu nəzərdə tutmayıb. Ona işarə edən və Onu xəyala gətirən kəs Onu istəməyib. Öz zatı ilə tanınan şey *(həqiqət və zatı tanınmış, dərk edilmiş şey)* yaradılmış və məxluqdur. Özündən başqası ilə var olan hər bir şey nəticədir. O, faildir *(işləri görəndir),* amma alət və vasitələrdən istifadə etmədən! *(Çünki alət və vasitələrə möhtac olmaq mümkün varlığın sifətlərindəndir. Ruzi, əcəl və bu kimi şeyləri)* təyin edəndir, amma fikir və düşüncə işlətmədən. *(Çünki Allah düşüncəyə möhtac olmaqdan pak və uzaqdır.) Ehtiyacsızdır, amma başqasından bəhrələnməklə yox. (Varlıların ehtiyacsızlıqları başqalarından*

---

[25] Çünki öyrənmək, artırmaq və bəhrələnmək nadanlıq və naqisliyin tələblərindəndir və vücudu vacib olan deyil, mümkün olan varlığın xüsusiyyətlərindəndir.

[26] Çünki O, cisim olmaqdan, zamandan və hərəkətdən pak və uzaqdır.

[27] Çünki Onun zatı eyni ilə görməsidir və eləcə də görməsi zatının özüdür.

[28] Çünki belə deyil ki, O, nədənsə xəbərsiz olsun və sonra xəbər alsın. Bundan əlavə, bir şeydən xəbər almaq nadanlığın tələblərindəndir ki, vacib varlıqda belə bir şey ola bilməz.

*bəhrələnmək vasitəsi ilədir. Allah-təala isə bundan pak və uzaqdır. Çünki o, naqislik və möhtaclığın zəruri nəticələrindəndir).* Zaman və vaxtlar onunla yoldaş deyildirlər. Alət və vasitələr Ona yardım etmirlər. *(Çünki alətləri O yaradıb və hər bir kömək və yardımdan ehtiyacsızdır.)* Onun mövcudluğu zamanlardan, varlığı yoxluqdan və əzəlilik və əbədiliyi başlanğıcdan qabaqdır. *(Çünki hər bir şey Onda sona çatır, O Özü isə sonsuzdur).* Onun hiss və idrak qüvvələrini yaratması ilə Onu dərk etmə vasitəsinin olmaması məlum olur. Əşyalar arasında ziddiyyət və ixtilaf yaratması ilə Onun zidd və müxalifinin olmaması bilinir. Onun əşyalar arasında tay və yoldaş təyin etməsi ilə Onun tay və yoldaşının olmaması başa düşülür. *(Çünki hiss, zidd və tayları yaradan Odur.)* İşıqlıqla qaranlığı, aşkarla gizlini *(ağla qaranı),* quru ilə yaşı və isti ilə soyuğu bir-birinə zidd edib. *(Müxtəlif ünsürlər kimi)* bir-birindən ayrı və uzaq olan zidd şeyləri birləşdirəndir; *(ruh ilə bədən kimi)* bir-birlərindən ayrı olanları tay və yoldaş edəndir; *(qəlbləri və müxtəlif istəkləri bir-birinə qovuşdurmaq kimi)* bir-birindən uzaq olanları yaxınlaşdırandır və bir-birinə yaxın olanları bir-birindən ayırandır *(ölüm ilə ruhla bədən arasında ayrılıq salmaq kimi).* Heç bir hədd ilə məhdud deyil *(çünki məhdudluq vacib varlığa deyil, mümkün varlığa aiddir),* ədəd və say ilə sayılmaz *(çünki O, onun üçün ikinci fərz edilməyən həqiqi təkdir).* Alətlər özlərini *(mümkün varlıqları)* məhdudlaşdırırlar və vasitələr öz bənzərlərinə işarə edirlər. *(Çünki Allah cisim deyil ki, məhdudlaşsın və Ona işarə edilsin.)* Həmin alət və vasitələrlə onların yaradanı ağıllara aşkar olub *(ağıllar tərəfindən tanınıb).*

Həmçinin onlarla, gözlərlə görünməkdən imtina edib. Durğunluq və hərəkət Ona şamil olmur. *(Onun barəsində "hardasa qalıb" və ya "bir yerə gedib" demək olmaz.)* Onun *(məxluqatda)* qoyduğu şey Onun Özünə necə cari olsun, yaratdığı şey Onun Özündə necə yaransın və icad etdiyi şey Onda necə icad olsun ki, belə olsa *(fərzən durğunluq və hərəkət Onda cari olsa)* zatı *(artıqlıq və nöqsanla, yəni hərəkət və durğunluqla)* dəyişər və mahiyyəti parçalanar. Həmçinin həmin surətdə Onun həqiqəti əzəlilik və əbədilikdən imtina edər. *(Çünki hər bir cisim hadisdir, sonradan yaranmadır.)* Əgər *(hərəkət və durğunluqda)* Onun üçün ön və qabaq tapılsa, arxa da olacaq. *(Onda O, başlanğıc olmayacaq, halbuki vacib varlıq başlanğıcların başlanğıcıdır.)* Əgər naqisliklə yoldaş olsa, kamilləşmək istəyəcək *(halbuki vacib varlığın kamilləşmək istəməsi qeyri-mümkündür)*. Bu vaxt - *(yəni əgər Onda hərəkət və durğunluq olmuş olsa)* hər bir şey Onun varlığının dəlili olduqdan, imtina və qeyri-mümkünlük dəlili ilə Onun, Ondan başqasına *(mümkün varlıqlara)* təsir edən şeyin təsirindən uzaq olması məlum olduqdan sonra, Onda məxluq olmaq nişanəsi aşkar olacaq və O, *(digər yaranmışlar kimi)* yaradanın varlığına dəlil olacaq. O Allah ki, haldan hala düşmür *(dəyişmir)*, zavala uğramır və qayib və gizli olması rəva deyil.[29] Doğmayıb ki, doğulmuş *(başqası-*

---

[29] Çünki bunun nəticəsi yerdəyişmə və hərəkətdir ki, o da hadis olmaq və yeni yaranmağa dəlalət edir. Buna görə də "Qurani-Kərim"də deyildiyi kimi Həzrət İbrahim əleyhissəlam ulduz, ay və günəşin itməsini və batmasını onların Rəbb olmamalarına dəlil gətirir. "Ənam" surəsinin 76-79-cu ayələrində buyurulur: "Gecə qaranlığı (onu) bürüdükdə o, bir ulduz görüb: "Bu mənim Rəbbimdir!" dedi. (Ulduz) batdıqda isə: "Mən batanları sevmirəm", söylədi. (Sonra) doğan

*nın nəticəsi)* olsun *(çünki doğan, mürəkkəb və başqasının nəticəsidir);* doğulmayıb ki, məhdud olsun *(çünki hər bir doğulmuş şey hadisdir və onun varlığı ata-anaya qayıdır, onlara bağlıdır).* Onun zatı övladları olmaqdan uca və qadınlarla yaxınlıq etməkdən pak və uzaqdır. Xəyal və düşüncələr Ona çatmaz ki, *(fikirdə)* Onu məhdud və mövcud etsinlər; dərk və qavrama itiliyi Onu fikrə gətirməz ki, təsəvvür etsin *(bir şəkil və formaya salsın);* hisslər Onu dərk etməz ki, Onu hissi varlıq etsin; əllər ona toxunmaz ki, Ona çatsınlar. O, bir hala dəyişmir və halların birindən digərinə keçmir. *(Çünki dəyişmək və keçmək cismin xüsusiyyətlərindəndir.)* Gecə və gündüzlər Onu köhnəltmir, qocaltmır. Aydınlıq və qaranlıq dəyişmir Onu! Hissələrdən heç biri, bədən və üzvlər, artırma xassələrdən heç biri, başqasının Onunla olması və heç bir hissə ilə vəsf edilməz.[30] Həmçinin Onun barəsində "hədd və sonu var; bitdi və tükəndi; şeylər, yuxarı qaldırmaq, yaxud endirmək üçün Onu əhatə edirlər; bir tərəfdən digər tərəfə aparmaq və ya düz saxlamaq üçün bir şey Onu götürdü" deyilməz. Əşyalara daxil ol-

---

Ayı görüb: "Bu mənim Rəbbimdir!" - dedi. (Ay) batdıqda isə: "Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım", - söylədi. (Daha sonra) doğan günəşi görüb: "Bu mənim Rəbbimdir, bu, daha böyükdür!" - dedi. (Günəş) batdıqda isə dedi: "Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan (bütlərdən, səma cisimlərindən) uzağam! Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri yaradana çevirdim. Mən (Allaha) şərik qoşanlardan deyiləm!".

[30] (Xülasə, Onun hissəsi, xassəsi, bir qismi yoxdur. Eləcə də Onunla birgə heç bir şey yoxdur, istər hissə kimi daxilində olsun, istərsə də xassə kimi xaricində. Çünki bunların olmasının nəticəsi, Onun tərkibə malik olması, mürəkkəbliyidir və bu, vacib varlıqda qeyri-mümkündür.)

mayıb və onlardan xaric də deyil *(bəlkə hər şeyi əhatə edib və hər şeyi biləndir).* Xəbər verir, amma dil və dilçəklər vasitəsilə yox; eşidir, amma dəliklərlə *(qulağın deşikləri ilə)* və alətlərlə *(eşitmə alətləri ilə)* yox; danışır, amma kəlmələrlə yox; *(hamının söz və əməllərini)* əzbər bilir, amma hafizə qüvvəsi vasitəsilə yox *(və ya hər bir şeyi qoruyur, amma Özünün başqası tərəfindən qorunmağa ehtiyacı yoxdur);* istəyir, amma düşünmədən; sevir və şad olur, amma riqqətə gəlmək və mehribanlıq səbəbindən yox; nifrət bəsləyir və qəzəblənir, amma məşəqqət və çətinliyə görə yox *(bəlkə məhəbbət və razılığı müvəffəqiyyət və rəhmət, nifrət və qəzəbi isə rəhmətindən uzaq düşməkdir).* Olmasını istədiyi hər bir şeyə "ol!" deyir və o, mövcud olur. *(Bu söz)* nə *(qulaqlara)* daxil olan səs vasitəsi ilədir, nə də eşidilən harayla. Allahın kəlamı Onun yaratdığı işindən başqa bir şey deyil. Onun bənzəri bundan qabaq mövcud olmayıb *(bəlkə yenidir)* və əgər qədim olsaydı, mütləq ikinci allah *(və vacibəl-vücud)* olardı *(və bu qeyri- mümkündür). (Allah-təala barəsində)* "yoxluqdan sonra var oldu" deyilməz. *(Çünki Onun vücudunun nə vaxtsa olmaması olmayıb. O, qədim və əzəlidir. Əgər elə deyilərsə)* onda yeni yaranmışların sifətləri Ona şamil olar, Onunla yeni yaranmışlar arasında *(seçilmə və üstünlüyə səbəb olan)* bir fərq qalmaz və Onun onlardan heç bir məziyyət və üstünlüyü olmaz. Beləliklə, yaradanla yaradılmış bərabər və vücuda gətirənlə vücuda gətirilən yeksan olar. O, məxluqatı başqasından qalmış nümunəsiz yaratdı və onları yaratmaq üçün yaratdıqlarının heç birindən kömək istəmədi. Yeri yaratdı və onu (ona) məşğul olma-

dan *(Öz kamil qüdrəti ilə)* saxladı. Onu sakitlik olmayan yer *(dalğalanan su)* üzərində möhkəmləndirdi. Yeri dirəklərsiz dikəltdi, sütunlarsız ucaltdı, əyilməkdən qorudu və düşmək və yarılmaqdan saxladı. Onun mıxlarını möhkəmləndirdi, sədlərini *(dağlarını)* basdırdı, çeşmələrini axıtdı və çaylarını yardı. Beləliklə, tikdiyi süstləşməyib və qüvvətləndirdiyi zəifləməyib. Öz səltənət və böyüklüyü *(qüdrət və bacarığı)* ilə yerə *(və onda olanlara)* hakim olan Odur. Odur Öz elm və biliyi ilə onun necəliyini bilən. Böyüklük və izzəti ilə onun hər şeyindən üstündür. İstədiyi heç bir şey Onu aciz qoya bilməz, Ondan boyun qaçıra bilməz və nəhayət, ona qalib gələr. Onların tələsəni Ondan qaça bilməz ki, Ondan qabağa keçsin, qabaqlasın Onu. Dövlətli və varlıya möhtac deyil ki, Ona pay versin. Hər bir şey Ona təvazökar və Onun əzəmət və böyüklüyü qarşısında xar və həqirdir. Onun xeyir və ziyanından *(bəxşiş və cəzalarından)* yayınmaq üçün səltənət və padşahlığından digər bir yerə qaçmaq gücləri yoxdur. Onun tay və bərabəri olmaq üçün bir bənzəri yoxdur.[31] Əşyaları varlıqlarından sonra vücudları yox olana kimi məhv edən Odur. *(Həmin şeylər elə yox edilirlər ki, sanki heç əvvəldən olmayıblar).* Dünyanın yaradıldıqdan sonra yox olması, onu icad etmək və yarat-

---

[31] (Çünki əgər Ona bənzər təsəvvür etsək, o ya vücudu mümkün olan varlıq olacaq, ya da vacib olan varlıq. Əgər vücudu mümkün olan varlıq olsa, onda o, var olmaq baxımından Ondan sonradır və buna görə də Onun bərabər və bənzəri ola bilməz. Əgər vücudu vacib olan varlıq olsa, bu onun birliyi və təkliyi ilə ziddiyyət təşkil edir və onun nəticəsi həmin varlığın mürəkkəb olmasıdır. Çünki hər nə Ona oxşar olsa, iki hissədən ibarətdir, biri birlik, digəri isə fərqlilik cəhətindən. Bütün mümkün varlıqların mənşəyi olan vacib varlığın mürəkkəb olması isə qeyri-mümkündür).

maqdan daha təəccüblü *(və ağır)* deyil. Necə də təəccüblü olsun, axı əgər dünyanın bütün canlıları: quşlar dördayaqlılar, axşamüstü öz tövlələrinə qayıdanlar, səhrada otlayanlar və onların müxtəlif növləri, qanmaz və kütbeyinlər və onların zirəkləri bir yerə toplaşsalar, bir ağcaqanadı yaratmağa gücləri çatmaz, onu yaratmaq yollarının necə olmasını dərk edə bilməz, ağıl və düşüncələri onu bilməkdə mat-məəttəl qalar və gücləri aciz və süst olar. Məğlub olmalarını bildikləri, onu yaratmaqda aciz qalmalarını iqrar və onu yox etməyə qadir olmamalarını etiraf etdikləri halda, əldən-ayaqdan düşmüş və yorğun vəziyyətdə qayıdarlar. Naqisliklərdən pak və uzaq olan Allah dünya məhv olandan sonra *(qiyamətdən qabaq)* tək qalar və onu yaratmamışdan öncə olduğu kimi Onunla birgə heç nə olmaz. Həmçinin onun yoxluğundan sonra vaxt, məkan, an və zamansız olar.[32] Dünyanın yox olması ilə müddətlər, vaxtlar, illər və saatlar da yox olarlar.[33] Beləliklə, *(hər şeyə)* qalib, tək və bütün işlərin qayıdışı Ona tərəf olan Allahdan başqa bir şey olmayacaq.[34] Yaradılışın əvvəlində məxluqat qüdrət və ixtiyara malik deyildi. Onların fanilik və yox olmaları da hər cür imtinasız və boyun qaçırmasız olacaqdır. Əgər onlar imtina edə bilsəydilər, həmişəlik qalardı-

---

[32] Çünki fələklər olmayan təqdirdə məkan da vücuda malik olmur. Hamısının mənası bir olan vaxt, an və zaman da fələyin hərəkətinin miqdarından ibarətdir. Buna görə də fələk olmayan surətdə zamanın mövcud olması üçün hərəkət də yoxdur.

[33] Çünki onların hamısı fələyin yox olması ilə yox olan zamanın hissələridir.

[34] "Qurani-Kərim"in "Ənbiya" surəsinin 104-cü ayəsində buyurulur: "İlk dəfə yaratdığımız kimi onu qaytaracağıq".

lar.[35] Yaradılış zamanı məxluqatın heç birini yaratmaq Ona çətin deyildi və vücuda gətirib yaratdıqlarını yaratmaq Onu yorub əldən salmadı. *(Çünki işin çətin gəlməsi və yorğunluq cismin xüsusiyyətlərindəndir.)* O, yaratdıqlarını Öz səltənətini möhkəmləndirmək, yox olmaq və azalmaqdan qorxduğu, *(Ondan)* qabağa düşə biləcək bənzərinə qarşı onlardan kömək istəmək, *(Ona)* hücum edə biləcək düşməndən uzaq olmaq, padşahlığını uzatmaq, hansısa bir şərik Onunla şərikliyində qalib gəldiyi və fəxr etdiyi, qorxu və vahimədə olub onlarla ünsiyyət qurmaq istəyi üçün var etməyib. Beləliklə, varlıqları yaratdıqdan sonra *(qiyamətdən qabaq)* məhv edəcək, amma onların bir haldan digər hala düşmələri və onların işlərini idarə etmək nəticəsində darıxaraq təngə gəldiyi, rahatlıq və dincliyə çatmaq və onlardan nəsə Ona ağır gəldiyi üçün yox. Onların ömürlərinin uzunluğu Onu bezikdirməyib ki, nəticədə Onu, onları tezliklə yox etməyə vadar etsin. Amma eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah varlıqların nizamını lütf və mərhəməti ilə bərqərar edib, onları Öz əmr və fərmanı ilə *(dağılmaqdan)* saxlayıb və qüdrəti ilə möhkəmləndirib. Sonra onları məhv olduqdan sonra onlara ehtiyacı olmadan və onların heç birindən kömək almadan qaytaracaq, amma bu, vahiməli və qorxulu vəziyyətdən ünsiyyət halına qayıtmağa, nadanlıq, korluq və azğınlıqdan elm və istəyə, yoxsulluq və ehtiyaclılıqdan varlılıq və

---

[35] Allah varlıqları onlardan icazə istəmədən yaratdığı kimi, onları yox etməkdə də icazə istəmir. Onlar yaradılarkən imtina edə bilmədikləri kimi, yox olmaqdan da - ki, təbii olaraq hamı ondan qaçır, - imtina etmək qüdrətinə malik deyildirlər. Buna görə də əgər onlar bacarsaydılar, imtina edərək həmişə qalardılar.

ehtiyacsızlığa və həqirlik və zəiflikdən izzətlilik və qüdrətliliyə dönməyə görə deyil. (Nəhcül-bəlağə, 228-ci Xütbədən, səh.78).

### 1.3. İslamın vəsfi

*(Təqva və itaətin vəsfindən)* sonra *(bilin),* bu İslam Allahın dinidir ki, *(O ondan başqasını bəyənmir və)* onu Özü *(Özünü tanıtdırmaq)* üçün seçib, Öz qayğısı ilə bəsləyib, onun təbliği üçün yaratdıqlarının ən yaxşısını *(Həzrət Peyğəmbəri səlləllahu əleyhi və alih)* seçib və onun sütunlarını *(qanun və hökmlərini)* Öz məhəbbəti üzərində qurub. *(Buna görə də Allahı sevən kəs İslamın hökmlərinə tabedir.)* Onun izzəti ilə *(başqa)* dinləri xar və həqir *(nəsx)* edib; onun böyüklüyü ilə millətləri cılızlaşdırıb; onun qələbəsi ilə düşmənləri qədir-qiymətsiz və kiçik edib; onun köməyi ilə müxalifləri məğlub edib; onun sütunu *(əsas kök və qanunları)* ilə azğınlıq *(nadürüst əqidələr)* dirəklərini viran edib; teşnələri *(elm və maarif susuzlarını)* onun hovuzlarından doydurub; onun su daşıyanları *(imamlar əleyhimus-salam)* vasitəsilə hovuzları doldurub *("Qurani-Kərim"in ayələrinin təfsir, yozum və hökmlərinin yerlərini bəyan edib)*. Sonra onu elə *(möhkəm və qüvvətli)* edib ki, dəstəyi ayrılan və zəncirləri açılan deyil. Təməli viran, sütunları xarab olmaz. Onun ağacı yerindən çıxarılmayacaqdır. Onun müddətinin sonu yoxdur *(qiyamətə kimi bərqərar olacaq və onu nəsx (Ləğv) etmək üçün peyğəmbər göndərilməyəcəkdir)*. Hökmləri köhnəlməyəcək və budaqları sındırılmayacaq. *(Heç vaxt hansısa bir alim, elmi əsaslarla onun hökmlərindən hansı birininsə düzlüyünü inkar edə bilməz.)* Yolları daralmayacaq, asanlıqları çətinləşməyə-

cək, ağlığı qara, düzlüyü əyri, çubuğu əyilmiş, geniş yolu qumluq, çıraqları söndürülmüş və şirinliyi acılıq olmayacaq. Buna görə də İslam, Allahın onun təməlini haqda yerləşdirdiyi *(batil və əyriliyin işləmədiyi)* və özülünü möhkəm etdiyi sütunlardır. O, arxları su ilə dolu olan çeşmələr, işıqları parlaq olan çıraqlar, gedənlərin, vasitəsilə yol axtardıqları nişanələr,[36] vasitələri ilə yollar tapılan əlamətlər və daxil olanların onlarla doyduqları *(tabe olanların dünya və axirətdə xoşbəxt olduqları)* bulaqdır. Allah razılığının sonunu, hökmlərinin ən üstününü, itaət və bəndəçiliyinin ən yüksəyini onda qoyub. Buna görə də Allah yanında bu dinin təməli möhkəm, binası uca, dəlili aşkar, işığı parlaq, səltənəti əziz və nişanələri ucadır. Onu yox etmək mümkün deyil. *(Heç kəsdə onu məhv etmək və ya ona tənə vurmaq qüdrəti yoxdur.)* Belə isə onu möhtərəm və böyük tutaraq ona tabe olun. Onun haqqını əda edin *(əmrlərini yerinə yetirərək qadağan etdiklərinin ətrafına belə fırlanmayın).* Onu öz yerinə qoyun *(hökmlərindən heç birini dəyişdirməyin ki, dünyada ziyan görər, axirətdə isə əzaba düçar olarsınız).* (Nəhcül-bəlağə, 189-cu Xütbədən).

### 1.4. Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* vəsfi

*(İslam dininin şərafət və böyüklüyünün bəyanından)* sonra (bil ki,) eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah *(onun təbliği üçün)* Muhəmmədi *(səlləllahu əleyhi və alih)*

[36] Yol gedən səfər adamı çöllükdə yolu nişanələrlə tapdığı kimi onun da dəlil və sübutları vardır ki, alimlər onlara əsaslanaraq dəlil gətirir, fikirlərini əsaslandırırlar.

haqq olaraq göndərdi, o zaman ki, *(çaxnaşma, giriftarçılıq və nahaq qan tökülməsinin çoxluğundan)* dünyanın bitməsi *(hər bir millətin dünyasının sonu, fəsad nəticəsində)* yaxınlaşmışdı, *(onların, ölümləri vasitəsilə)* axirət işindən xəbərdar olmaları *(onlara)* üz tutmuşdu, onun şadlıq və sevinci parladıqdan sonra qaranlıqlaşmışdı, öz əhlini *(çətinliklərə düçar etmişdi və çıxış yolu tapa bilmirdilər),* onun yatağı narahatlaşmışdı və cilovu qatilin əlinə verilmişdi. Bu, müddətin sona çatdığı, *(viranlıq)* əlamətlərin(in) yaxınlaşdığı, əhalinin əldən getdiyi, halqanın sındığı, kəndirin qırıldığı, nişanələrin köhnəldiyi və məhv olduğu, eyblərin aşkar olduğu və onun uzun müddətinin qısaldığı zamanda idi.[37] Eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah o Həzrəti Öz peyğəmbərliyinin təbliğatçısı, ümmətin kəramətlilik amili, zəmanə əhlinin baharı *(sevinci),* köməkçilərin baş ucalığı və yardımçılarının izzəti etdi. Sonra ona "Quran"ı nazil etdi. (Nəhcül-Bəlağə, 189-cu Xütbədən, səh.11).

### 1.5. "Quran"ın və onun göndərilməsinin vəsfi

"Quran", nuru azalmayan çıraq, işığı sönməyən məşəl, dibi bilinməyən dəniz, gedərkən azğınlığa aparmayan yol, nuru tükənməyən parlaq şüa, dəlili azalmayan ayıran *(haqqı batildən ayıran),* təməli viran olmayan bina, *(əhlinin)* xəstəliklərində qorxu olmayan *şəfa (çünki o, cismi və ruhi olmasından asılı olmayaraq qarşıya çıxa biləcək bütün xəstəliklərə*

[37] Xülasə, Allah Həzrət Peyğəmbəri dünyanın hər yerini nadanlıq və azğınlıq bürüdüyü bir zamanda göndərdi və o Həzrət az bir müddətdə insanları hidayət və qurtuluşun əsas yolu ilə, eləcə də ilahi elm və maariflə tanış etdi.

*şəfadır),* yardımçıları məğlub olmayan şərəf və izzət, köməkçiləri basılmayan haqdır. Buna görə də "Quran" imanın mədəni və onun mərkəzidir; ədalət bağları və onun hovuzlarıdır; elmin çeşmələri və onun dənizləridir; İslamın binasının daşları və onun sütunlarıdır; haqqın səhraları və onun hamar çölləridir. O, elə bir dənizdir ki, su daşıyanlar onu boşaltmazlar; elə bir bulaqdır ki, su çəkənlər onun suyunu azaltmazlar; elə bir çeşmədir ki, daxil olanlar onu əskiltməzlər *(alimlər onun bütün sirrini dərk edə bilməyəcəklər),* elə mənzillərdir ki, müsafirlər onların yolunu itirməzlər; elə nişanələrdir ki, yol gedənlər onları nəzərdən qaçırmazlar; elə təpələrdir ki, üz tutanlar onlardan aşa bilməzlər. Allah onu alimlərin susuzluqlarının yatırıcısı, müctəhidlərin qəlblərinin baharı, yaxşıların yollarının məqsəd və sonu, sonrasında ağrı qalmayan dərman, onunla zülmət olmayan nur, tutacaq yeri möhkəm olan ip, hündür qalası möhkəm olan sığınacaq, onu sevənin izzət və baş ucalığı, ona daxil olanın sülh və əmin-amanlığı, tabe olanın hidayət və qurtuluşu, onu özünə nisbət verənin üzrü, ona əsaslanaraq danışanın dəlili, onun vasitəsilə düşmənlə mübahisə edənin şahidi, onu dəlil gətirənin qələbəsi, ona əməl edənin qoruyucusu, onu işlədənin iti miniyi, nişanə axtaranın nişanəsi, başa tutanın qalxanı, yadında saxlayanın elmi, nəql edənin xəbəri, *(xalq arasında)* hökm verənin hökmü edib *(çünki "Quran" hər bir iş barəsində haqq olan hakimdir və ondan başqa bir şeyin hökm vermək haqqı yoxdur. Buna görə də "Quran"dan başqasından olan hökm nadürüstdür).* (Nəhcül-bəlağə, 189-cu Xütbədən, səh.11-12).

## 1.6. Təqva və itaətin vəsfi

Allah-təalaya həmddən və Həzrət Mustafanın mədhindən sonra, sizi pərhizkarlığa və yaradılışınızın başlanğıcı Ondan olan, qayıdış və dönüş yeriniz Ona tərəf olacaq, ehtiyac və istəklərinizin həyata keçməsi Ondan asılı olan, arzu və diləyinizin sonu olan, doğru yolunuz Ona tərəf olan və pənah və sığınacağınız O olan Allahdan qorxmağa tövsiyə edirəm. Təqva[38] və Allahdan qorxmaq *(itaət)* ürəklərinizin dərdlərinin dərmanı,[39] qəlblərinizin korluğunun görməsi,[40] cisimlərinizin xəstəliyinin şəfası,[41] sinələrinizin fəsadının düzəlməsi,[42] nəfslərinizin çirkinin təmizlənməsi,[43] göz-

[38] "Bilin ki, Allah müttəqilərlədir". ("Əl-Bəqərə", ayə 194). Dünya həyatı kafirlər üçün zinətlənmişdir. Onlar (bununla da) iman gətirənlərə istehza edərlər. Halbuki, müttəqilər qiyamət günündə onlardan üstündürlər. Allah istədiyi kəsə saysız-hesabsız ruzi verər. ("Əl-Bəqərə", ayə 212.) "(Ey Müsəlmanlar!) Sizdən əvvəl bir çox vaqilər (ibrətli əhvalatlar) olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün! Bu, (belə əhvalatlar) insanlardan (xalqdan) ötrü (olub keçənlərə dair) bir xəbər, müttəqilərdən ötrü isə hidayət (doğru yola göstəriş) və nəsihətdir". ("Ali-İmran", ayə 137-138).

[39] *(Yəni təqvalı olan şəxs "Quran"da bütün duyğu və hiss üzvlərinə (beş xarici və beş də daxili) buyurulan halala-harama əməl edərsə ürəyi sağlam olar. Q.N.)*;

[40] *(Yəni insanın bəsirət gözüdür. Bəsirət gözü qəlbə (ruha) aid olan ifadədir. Q.N.);*

[41] *(Yəni bədənə aid olan xəstəliklərin şəfası da "Quran"da göstərilən halala-harama əməl etməkdən keçir. Q.N.);*

[42] *(Yəni burada söhbət 120-ci gündə ana bətnində insan bədəninə daxil edilən ruhdan gedir ki, həmin ruh bədənlə birləşdikdən sonra əgər təqvalı olmasa və Allahdan qorxmasa fəsadlar törədər, təqva və Allahdan qorxmaq isə həmin fəsadların düzəlməsidir. Q.N.);*

[43] *(Yəni bu dünya həyatını bir imtahan olaraq yaşamaq və axirəti qazanmaq üçün insana nemət olaraq verilən nəfsin (nəbati, heyvani, insani nəfslərin) çirkinin təmizlənməsidir. Q.N.);*

lərinizin örtüklərinin aydınlığı,[44] qəlblərinizin qorxusunun əmin-amanlığı[45] və *(nadanlıq)* zülmətlərinizin qaranlıqlarının nurudur.[46] Buna görə də Allaha itaət və tabeçiliyi (bədənə yapışmayan) üst paltarı deyil, alt köynəyi kimi öz adətiniz edin. Və *(hətta onu)* köynəyin altında bədəninizin daxili bir hissəsi edin, əndamınızda gizlədin onu. *(Xülasə, elə bir iş görün ki, sizin bütün bədən üzvləriniz Allaha itaətkar və tabe olsun).* İşlərinizdə Onu hakim bilin *(bütün işlərdə Allahın əmr və qadağalarına tabe olun)* və *(onu qiyamətə)* daxil olacağınız zaman üçün çeşmə, istəyinizi almaq vasitəsi, *(çətin hadisələrdən)* qorxu gününüz üçün qalxan, qəbirləriniz arasındakı çıraqlar, qorxu və vahimənizin uzunluğunda ünsiyyət yoldaşı və kədərli yerlərinizin yüngüllüyü təyin edin. Çünki Allaha itaət və tabeçilik üz tutan təhlükəli *(və məhvə səbəb olan)* yerlərdən, qarşıya çıxması gözlənilən qorxulardan və *(günahkarlar üçün)* yandırılmış odun istiliyindən qoruyucudur. Buna görə də kim təqva və pərhizkarlığı öz peşəsi etsə, çətinliklər ona yaxınlaşandan və üz tutandan sonra ondan uzaqlaşar; işlər acılıqdan sonra onun üçün şirinləşər; dalğalar *(fitnə-fəsad)* ardıcıl gəldikdən sonra ondan uzaqlaşar, çətinliklər incidərək əziyyətə saldıqdan sonra ona asanlaşar; lütf və ehsan *(Allahın lütf və mərhəməti)* qəhətlikdən sonra ona çoxalar; rəhmət və mərhəmət uzaqlaşdıqdan sonra ona üz tutar; nemətlər azalandan sonra ona artar və bərəkət az yağışdan sonra yağan

---

[44] (Yəni gözlərin gördüyünün ağlın dərk etməsi və düzgün nəticə çıxarmasıdır. Q.N.);

[45] (Yəni burada söhbət İlahi Nurdan (ruhdan-əsl "mən"dən) gedir ki, axirətdə-məhşərdə haqq-hesab günündə hesaba çəkiləcək yuxarıda qeyd edilən bütün yaradılanların və nemət olaraq insana verilənlərin həmin imtahandan çıxmasına əmin olması. Q.N.);

[46] (Yəni burada söhbət insana verilən ağıl, iradə, qüdrət, iman kimi nemətlərin təqva nuru ilə aydınladılmasından gedir. Q.N.).

dolu yağış kimi ona çatar. Belə isə Özünün *("Qurani-Kərim"dəki)* öyüdləri ilə sizi bəhrələndirmiş, *(peyğəmbərlər vasitəsilə)* sizə Öz hökmləri ilə nəsihət vermiş və nemət verməsi ilə sizə minnət qoymuş Allahdan qorxun. Buna görə də Ona ibadət və bəndəlik üçün öz nəfslərinizi ram edin və Ona itaət haqqını yerinə yetirin *(əmr etdiklərini yerinə yetirərək qadağan etdiklərindən çəkinib uzaq olun).* (Nəhcül-bəlağə, 189-cu Xütbədən, səh. 8-9.).

## 1.7. İntellekt və dünyanın yaradılış sirri

Məlum olduğu kimi xilqətdə Allaha ən yaxın olan yaradılış insandır.[47] Allah özünə xas olan bir çox ali keyfiyyətləri insana əta etmiş, onu ən gözəl[48] bicimdə yaratmışdır.[49] Uca Qüdrət Sahibi, sirli bir xəzinə kimi aşkar olmasına qərar verdikdə ilk olaraq yaratdığı Peyğəmbərinin (s.s.) və əhli beytinin nuru *(ruhudur).* Əsl mahiyyəti Uca Rəbbimizə məlum olan yaradılış nizamının *(ardıcıllığın, yaxud proseslərin)* başlanğıcında, nədən ilkin olaraq ən

[47] "Quran" ayələrində Allahın "Biz ona şah damarlarından da yaxınıq" ("Qaf", ayə 16) deyə insanı nəzərdə tutması da bunu sübut edir.

[48] Həmd o Allaha məxsusdur ki, (zat və sifətlərində) yaratdıqlarına bənzər olmaqdan uca, vəsf edənlərin sözlərindən yüksək və (onları) aciz edəndir. (Nəhcül-bəlağə, 204-cü Xütbədən).

[49] Buna görə də Allah "nüsxeyi-kəbir" ("böyük nüsxə"), insan isə "nüsxeyi-səğir" ("kiçik nüsxə") hesab olunur. Bütün xilqət də insana xatir və insan naminə yaradılmışdır. Yaradılış nizamının özü də ilahi-bəşəri cövhərdən başlayıb bəşərdə bitir. Belə ki, əvvəlcə də deyildiyi kimi, ədəm (heçlik) Aləmi bərqərar ikən ilk yaradılış nuri-Məhəmmədlə (əqli-küll) başladı. Muhəmməd peyğəmbər isə ilahi xislətlə yanaşı, həm də bəşəri sifətlərə malikdir. Yəni həm də bəşər övladıdır. Allahın Həzrəti Muhəmmədə (s.s.) xitabən dediyi belə bir hədisi-şərif isə aləmlərin islam peyğəmbərinə, son nəticədə insana görə yaradıldığını göstərir: "Əgər sən olmasaydın, fələkləri yaratmazdım".

sonda yaradılacaq insan *(nur formasında)* yaradıldı!?[50] Həmin nur *(ruh),* ilkin olaraq Uca Rəbbimizin ilk insana *(Adəmə)* üfülədiyi öz Ruhundandır![51] Uca Rəbbimiz bir məsələyə diqqət yönəldilməsini istədikdə xitab formalarından biri də and içməsidir. And olsun səhərə və gecəyə[52], and olsun günəşə və onun ardınca çıxan aya, and olsun nəfsə[53], and olsun qələmə[54] və s. kimi diqqət yönəldilən məfhum-

---

[50] İnsanın Tanrını tanıma və ona tapınma məqamı bəşəri ruhların ilkin yaradılış günü ilə üst-üstə düşür. İnsanın cismani yaradılışından çox-çox öncə baş verən bu yaradılış günü "ruzi-ələst" və ya "ruzi-əzəl" adlanır. Həmin gün Allah çox-çox sonralar yer üzünə enib cismani bədənlə qovuşacaq bu intəhasız sayda ruhları cəm edib onlardan soruşmuşdu: "Mən sizin rəbbiniz deyiləmmi?" ("Ələsti rəbbikum?") və onda ruhlar cavab vermişdi: "Bəli, Rəbbimizsən" ("Qalu bəla"). "Quran"ın "Əraf" surəsinin 172-ci ayəsində xatırlanan bu məclis "bəzəmi-əzəl", həmin sual-cavab isə Tanrı ilə bəndə arasındakı ilk müqəddəs misaq, yəni əhd-peyman hesab olunur.

[51] İlahi zatdan qopmuş nur üçün bu Aləm gözəl olsa da, onda vücud sevgisi vardır. Həmin sevgi ona ilkin yaradılış zamanı verilmişdir. Ona görə də nur vücudla qovuşmağa can atır. Eniş yolunu davam etdirir. Doqquz fələkdən keçib maddi aləmə çatır. Burada istilik, soyuqluq, quruluq və nəmliklə üzləşir. Sonra dörd ünsürlə qovuşur. O yerdə ki, dörd ünsür (hava, od, su, torpaq) var, deməli, orda maddi həyat var. İlahi nur maddi aləmdə üç mövlud – cansız varlıq, bitki (nəbatat), heyvanat və nəhayət, insanla qovuşur. Yəni vücuda daxil olur. Surət, forma və rənglə tanınır. Beləliklə də, "qövsu-nuzul" başa çatır.

[52] "And olsun səhərə; And olsun sakitləşməkdə olan (və ya: getdikcə zülməti artan) gecəyə ki, (Sənə bir neçə gün vəhy nazil etməməklə) Rəbbin səni (ya Peyğəmbər!) nə tərk etdi, nə də sənə acığı tutdu". ("Əz-Zuha", ayə 1-3).

[53] "And olsun günəşə və onun işığına (günəşin qalxdığı vaxta); And olsun (günəşin) ardınca çıxan aya; And olsun onu (günəşi) parlaq edən gündüzə; And olsun onu (günəşi) örtən gecəyə; And olsun göyə və onu yaradana; And olsun yerə və onu döşəyənə; And olsun nəfsə və onu yaradana (ona biçim verənə); ("Əş-Şəms", ayə 1-7).

[54] "Nun! And olsun qələmə və (mələklərin) yazdıqlarına (yaxud lövhi-məhfuzda yazılanlara) ki, Sən (ya Rəsulum!) Rəbbinin ne'məti sayəsində divanə deyilsən!" ("Nun", ayə 1-2). "And olsun (aləmi zülmətə) bürüməkdə olan gecəyə; And olsun, işıqlanmaqda olan gündüzə". ("Əl-Leyl", ayə 1-2).

larda öyrənilməsi istənilən sirlər və hikmətlər gizlənir, yaxud gizlədilir! Bəşər elminin inkişafı ilə əlaqədar bu qəbildən olan bəzi sirlər və möcüzələr araşdırılaraq dərk edilir və bu proses yüksələn xətt üzrə davam etməkdədir. Bu sirlərdən biri də nəfs və qələmdir. "Quran"da bir neçə yerdə xatırlanan və and yeri sayılan qələm külli-nəfsə, ilkin yaradılışa və geniş ilahi biliyə işarədir. İlahi yaradılış nizamında da - **Allah – Söz – Külli-əql – Külli-nəfs – maddi varlıq *(və insan*[55]*)*** xüsusi bir sirli nizam *(hikmət, üsul, qayda, metod, proses)* gizlədilmişdir. Hər bir prosesin *(biznes proses, texnoloji proses, təlim prosesi, əməliyyat prosesi və s.)* özünəməxsus üsul və qaydaları olduğu kimi, yaradılış nizamının da *(prosesinin)* özünəməxsus elmi və sirli hikmətləri var. Bu yaradılış nizamı təsəvvüf və irfan düşüncəsinə sahib görkəmli şəxsiyyətlər və mütəfəkkirlər tərəfindən Müqəddəs "Quran" ayələri, Hədisi-Qüdsilər və Nəhcül-bəlağə əsasında yetərincə araşdırılmış və özündən sonrakı bütün zamanların alimlərinə, elm-irfan sahiblərinə dəyərli irs bəxş edilmişdir! Bizim məqsədimiz isə bu irsdən, müasir elm istiqaməti sayılan süni intellekt sahəsində bəhrələnməkdir.

Bu mücərrəd anlayışlara malik varlığın *(Ruh-Nur-Külli-əql)* insan adlandırılan sirli və hikmətli varlığa, İlahi yaradılış nizamının həm başlanğıcına və həm də sonuna müxtəlif təzahür formalarında *(ilkin olaraq ruhi (nur) və*

---

[55] Bu insana (onun yaradılışına) heyrətlənin (onun xilqəti barəsində düşünün ki, onu yaradanın qüdrət və bacarığını dərk edəsiniz. Yaradan onu elə yaradıb) ki, piylə (göz ilə) görür, ətlə (dil ilə) danışır, sümüklə (qulaq ilə) eşidir və dəlikdən (burundan) nəfəs alır! (Nəhcül-bəlağə, 7-ci hikmət, səh.313-314).

*sonda maddi və ruhi birləşdirilərək)* inteqrasiya olunması və ya insanın bütün fəaliyyətinin və dərketmə prosesinin əsasına hopdurulmasında dərin və sirli hikmətlər gizlədilmişdir. Bu gizli sirlərə və hikmətlərə vaqif olmadan, təbii intellektin öyrənilməsi və dolayısı ilə də süni intellektin yaradılması *(yəni insan kimi düşünən, insan kimi təfəkkür edən bir sistemin yaradılması)* qeyri-mümkündür. Bu sahənin təfəkkür və idrak prosesi bütün elm sahələri və səviyyələrinin birgə – kollektiv və sinergetik yanaşması nəticəsində yerinə yetirildiyi halda tamamlanmış ola bilər, yaxud yarana bilən və ya ehtimal olunan fəsadların qarşısı alına bilər.

Müasir dünyamızda elmin bir çox sahələrinin müvəffəqiyyətlə inkişaf etdiyi dördüncü sənaye inqilabı dövründə, yəni ilahi yaradılş nizamına və hikmətinə həmahəngliklə ilkin olaraq özünün digərləri qarşısında kimliyini və üstünlüyünü sübut etmək üçün döyüşlərdə və müharibələrdə gərəkli olan üstün silahların yaradılmasına yönəldilən elm sahələrinin, yaşayışının və sağlamlığının təmin edilməsi sahəsinə yönəldilən elm sahələrinin *(qida sənayesi, tibbi sahə, tikinti sahələri və s.),* insanın kosmik varlıq kimi gəldiyi məkana nəzəri diqqətini çevirməsi ilə kosmos və planetlərlə bağlı elm sahələrinin və nəhayət, sonda özünü dərk etməsi üçün özünə məxsus olanın – intellektinin sünisinin yaradılmasına yönəldilən elm sahələrinin inkişafı da insan maraqlarının dairəsindədir. Bu maraq dairəsi də get-gedə genişlənməkdədir. Uca Rəbbimizin din olaraq seçdiyi islamdan, son Peyğəmbər olaraq göndərdi-

yi Həzrət Muhəmməddən (s.s.) və son Kitab olaraq göndərdiyi Müqəddəs "Qurani-Kərim"dən keçən 1400 illik bir zaman ərzində qiyamət dövrünə qədəm qoyaraq yaşayan Adəm övladı, elm sahələrinin inkişafındakı İlahi nizamı da zaman-zaman təkrarlamaqdadır.

Allah-təala insanlara cisimləri görmələri üçün göz verdiyi kimi, həqiqətləri görmələri üçün də qəlb gözü olan bəsirət[56] gözü – idrak qabiliyyəti – ağıl[57] vermişdir. Kim bu qabiliyyətini doğru yolda işlətməzsə, özünə zərər vermiş olar.

### 1.8. Süni intellektin yaradılması və inkişafı əsasları

Elmi ədəbiyyatda süni intellekt (Sİ) — <u>insan məntiqini</u> maşınlarda tətbiq etmək məqsədi daşıyan riyazi elm kimi müəyyən olunur. İnsan isə mücərrəd[58] düşünmə və danışma qabiliyyətinə malikdir. Süni intellekt sisteminin yaradılmasına məntiqi yanaşma modelləşdirilmiş mühakiməyə əsaslanır.

Əslində, süni intellekt (Sİ) insan düşüncə fəaliyyətinin maşınlar, xüsusən də kompüter sistemləri tərəfindən simulyasiya[59] edilməsidir. Real həyatdakı hər hansı bir sistemin və ya prosesin işləmə prinsipinin daha çox kompü-

---

[56] "Rəbbinizdən sizə bəsirət (görüb dərk etmə qabiliyyəti) gəlmişdir. Kim görərsə, bu öz lehinə, kim də görməzsə, bu onun əleyhinədir. Mən sizin üstünüzdə gözətçi deyiləm". ("Ənam", ayə 104).

[57] "Bu ("Quran") insanların xəbərdar edilmələri, Allahın tək bir ilah olduğunu bilmələri və ağıl sahiblərinin düşünüb öyüd almaları üçün göndərilmiş bir təbliğdir" ("İbrahim", ayə 52).

[58] Konkret varlıqla əlaqəsi olmayan, ancaq xəyalda təsəvvür edilə bilən, nəzəriyyəyə əsaslanan. (Azərbaycan dilinin izahlı lüğəti. Mücərrəd isimlər: ruh, ağıl, kədər, eşq, vicdan və s.).

[59] Baudirillard və simulyasiya nəzəriyyəsi. Simulyasiya hadisənin mahiyyətini həqiqi bir obyekt üzərində təcrübələrə müraciət etmədən başa düşməkdir.

terdə yamsılanmasıdır. Simulyasiya real həyatdakı bir çox problemlərin həlli üçün əvəzolunmaz həll metodudur.

Belə proqramların işləməsi nitqin tanınması və yaradılması təbii dil emalı, maşın görmə və s. sistemlərə əsaslanmışdır. Günümüzdə demək olar ki, hər birimiz gündəlik həyatımızda belə nümunələrə rast gəlirik. Məsələn:

- Google Translate tərcümə keyfiyyətini artırmaq üçün süni bir sinir şəbəkəsindən istifadə edir;
- Səslə idarəetmə kompüterlər və smartfonlar, multimedia sistemləri, məişət texnikası, avtomobillər və s. üçün istifadə olunur;

Virtual köməkçilər *(Google Assistant, Siri, Alice və başqaları),* ADAS *(Qabaqcıl Sürücü Kömək Sistemi)* sürücülük təhlükəsizliyini təmin edir;

Digər nəqliyyat vasitələrinə yaxınlaşma sürətini izləyir, piyadaları aşkarlayır və kor nöqtələrdə cisimlərin olması barədə hesabat verir və s.

Lakin bütün bunlar heç də süni intellekti bir elm sahəsi kimi bütövlükdə xarakterizə etmir. Elmi ədəbiyyatda və virtual məkanda aparılan araşdırımalara əsasən Sİ-nin yaradılma probleminə - *"Turinq testi və intuitiv yanaşma"; "Simvolik yanaşma"; "Məntiqi yanaşma"; "Orientasiyalı yanaşma"* və s. kimi bir çox istiqamətlər olmuşdur.

Qeyd etmək lazımdır ki, hər bir elmin mahiyyəti onun nə ilə məşğul olduğu, yəni predmeti ilə müəyyənləşdirilir. Süni intellektin isə bir elm kimi fəlsəfi mahiyyəti və predmeti məlum deyil.

Bu məsələyə aydınlıq gətirmək üçün T.V. Gabay[60] sistemindən istifadə edəcəyik. Bu sxem, fəaliyyət elementlərinin, Gabay terminologiyasında - struktur məqamların konstruktiv təzahürüdür. Bunlar: obyekt, subyekt, mövzu, prosedur (texnologiya), məqsəd, məhsul və xarici şərtlərdir. Bu əsaslarda aşağıda bəzi elm sahələrinin əsas obyekti və mövzusu (predmeti) verilmişdir:

| Sıra №-si | Elm sahəsi | Obyekti | Aspekti | Predmeti |
|---|---|---|---|---|
| 1. | Fizika | Təbiət | Cisimlər və onların qarşılıqlı təsiri | Cisimlərin əlaqələri və qarşılıqlı əlaqələri |
| 2. | Dilçilik | Dil | Quruluşu | Quruluşu, funksiyala-rı və prosesləri |
| 3. | Tarix | Zaman və insanlar | Sosial hadisələr | Sosial təkamül |
| 4. | Psixologi-ya | Ruh (can) | Ruh və bədən əlaqəsi | Fərdi nəzarət prosesləri |
| 5. | Sosiologi-ya | Cəmiy-yət | Fərdlərin münasibətləri | Quruluşu və prosesləri |
| 6. | Biologiya | Canlı təbiət | Bu nədir? | Həyatın təşkili |
| 7. | Süni intellekt | İnsan – Kompüter | Ağıl – neyron şəbəkəsi | Bilik yaranma və qərar qəbuletmə prosesləri |

[60] Tatyana Vasilyevna Gabay (1939-2015) - rus psixoloqu, psixologiya elmləri doktoru, Moskva Dövlət Universiteti Psixologiya fakültəsinin Pedaqoji psixologiya və pedaqoji psixologiya kafedrasının professoru.

Fəlsəfi baxımdan və süni intellektin yaradılmasına mövcud formalaşmış istiqamətlər baxımından aydın olur ki, süni intellektə digər elm sahələrində olduğu kimi hərtərəfli araşdırmalar aparılmaqla yanaşılmır.

Fikrimizcə, bunun bir neçə səbəbi var. Əsas səbəblərdən biri bu elm sahəsinin digər elm sahələri ilə müqayisədə daha yeni və gənc olması, digər tərəfdən, daha çox praktiki-texnoloji məsələlərin həllinə yönəldilməsi, akademik səviyyədə daha üstün tədqiqatların aparılmaması və ən əsası "intellekt" və "şüur" terminlərinin mücərrəd anlayışlar olmaqla yanaşı, dünyəvi və dini elmlə məşğul olan alimlərin bu məsələyə vahid prizmadan yanaşmadıqları olmuşdur. Ən əsasların əsası isə dünyada bir çox siyasət adamlarının islamafobiya[61] hisslərini qızışdırması nəticəsində yaranan siyasi, mədəni, bürokratik və s. kimi əngəllər Sərq mütəfəkkirlərinin və islam alimlərinin sonuncu müqəddəs Kitaba və Qüdsi hədislərə istinadən yaratdıqları xəzinələrdən və dəyərli elmi əsərlərdən qaynaq kimi istifadə edilməməsinə, yaxud istifadə edilsə də üstündən sükutla keçilməsinə və ya mənimsənilməsinə səbəb olmuşdur.

Lakin elm sərhəd tanımadığı kimi, siyasət sərhədlərindən də yüksəkdədir. Süni intellektin əsas tədqiqat obyekti yuxarıda qeyd etdiyimiz kimi təbii, yəni insan intellektidir. Deməli, təcrübə də göstərir ki, bir şeyin və ya hər

---

[61] Həqiqətən, Allah yanında qəbul olunan din İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. ("Ali-İmran", ayə 19).

hansı bir maddənin sünisini yaratmadan öncə onun təbiisini tədqiq etmək və həmin maddənin tərkibinin nədən və hansı elementlərdən ibarət olduğunu bilmək lazımdır. Əgər müasir texniki və texnoloji vasitələr həmin maddənin tərkibinin tam mənada nədən ibarət olduğunu müəyyən etməyə imkan verməsə, onda yaradılan süni maddə də həmin təbii nümunənin oxşarı olmayacaqdır. Yaxud olsa da istifadə edildikdə ya həmin tamı verməyəcək və ya həmin xüsusiyyətləri daşımayacaq, yaxud tətbiq edildiyi obyektdən alınan nəticə istənilən nəticə olmayacaqdır. Məsələn, ana südü kimi. Ona görə ki, ana südünün tərkibində bu gün müasir elmə məlum olmayan elə maddələr var ki, yalnız insanın əqli inkişafına təsir edir və bu maddə *(maddələr)* yəqin ki, D.İ.Mendeleyevin cədvəlində yoxdur və s.

Süni intellekt də belədir. İntellektin yalnız insan beyni ilə əlaqəli olduğunu düşünənlər hesab edirlər ki, insan beyninin oxşarını, yaxud eynisini yaratmaqla süni intellekt problemini həll etmiş olurlar. Ona görə ki, insan beyni tibb elmi tərəfindən kifayət qədər geniş şəkildə öyrənilib və akademik K.V.Anoxinin[62] verdiyi məlumata görə 2024-cü ildə tam şəkildə insan beyninin oxşarı olan nümunəni yaradacaqlar!..

[62] Konstantin Vladimiroviç Anoxin (1957, Moskva) — rusiyalı neyrobioloq, tibb elmləri doktoru, professor, Rusiya Elmlər Akademiyasının akademiki (2019). Lomonosov adına Moskva Dövlət Universitetinin Beynin Qabaqcıl Tədqiqatları İnstitutunun direktoru, P.K.Anoxin adına Normal Fiziologiya Elmi Tədqiqat İnstitutunun Yaddaşın neyrobiologiyası laboratoriyasının müdiri.

Bu məsələ ilə əlaqədar, əsas maraq dairəsi süni intellektin tədqiqatçılarından biri olan V.K.Finn[63] qeyd edir: *"Akademik Anoxinin məruzələrini dəfələrlə dinləmişəm, onunla müzakirə aparmışam. İnanıram ki, neyrofizioloji substrat ilə müasir elm dilində biliklərin yaranması arasındakı əlaqənin psixofiziki problemi həll olunmur. Buna görə də, Sİ mövzusu* zəkanın fenomenologiyasıdır. Mənim işim də müəyyən dərəcədədir – əlbəttə ki, mənə göründüyü kimi! – yaradıcı problemləri həll edən beyin *modeli qurmağın qeyri-mümkün olduğuna bir cavab var".*

Biz Finn Viktor Konstantinoviçin fikirlərini bölüşürük. Lakin onun bu fikirlərinin haradan qaynaqlandığı bizə məlum deyil. Biz isə bu məsələyə Allah (c.c.) tərəfindən bütün bəşəriyyətə göndərilən İslam Peyğəmbərinin (s.s.) insanlığa 23 il müddətində bəyan etdiyi və özündən əvvəlki bütün Müqəddəs Kitabları *("Tövrat", "Zəbur", "İncil")* təsdiq[64] edən Müqəddəs Kitabın – "Qurani-Kərim"in müvafiq ayələrinə istinadən bəzi məsələlərə bizim baxış bucağımız yönündən aydınlıq gətirməyə çalışacağıq.

Ümumiyyətlə süni intellektin yaradılmasına giriş edilməsi üçün ilkin olaraq dünyanın və təbii intellektin yaradılışına nəzər yetirmək lazımdır. Təbii intellektin yaradılışı ilə əlaqədar isə mütləq səmavi dinlərin gətirdiyi Kitablara müraciət edilməlidir. Süni intellektlə əlaqəli dini məsələlərdən xoflanan və elmin yalnız 1-ci səviyyəsində

---

[63] Viktor Konstantinoviç Finn (1933-cü ildə anadan olub, Moskva) — sovet və rus filosofu, alim, texnika elmləri doktoru, Rusiya Dövlət Humanitar Universitetinin intellektual sistemlər kafedrasının müdiri.

[64] "Bu "Quran" uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir"; ("Yusuf", ayə 111.).

*(yalnız məntiqə və dəlilə söykənən)* çalışa bilən alimlər və mütəxəssislər qeyd etdiyimz həmin mənbələrə müraciət etmir, yaxud lazım bilmirlər. Dünyanın yaradılışı və dünya tarixinin başlanğıcı haqqında ən doğru və bitkin bir elmi məlumatı biz haradan ala bilərik? Əlbəttə ki, Müqəddəs Kitablardan, özündən əvvəlki bütün Kitabları təsdiq edən "Qurani-Kərim"dən.[65] Dünyanın, kainatın və bütün aləmlərin *(elmə məlum olan və olmayan - 18000 aləmin)* yaradılışından bəhs edən, xəbər verən və insanlara bir nur[66] olaraq göndərilən bütün elmlər haqqında məlumatın əsasında, kökündə və fövqündə duran Kitabdan.[67] Biz, bizim üçün yaradılanı[68] oxumağı, dərk etməyi, təfəkkür etməyi və idrak etməyi bacarmalıyıq. Elə sözün əsl mənasında Allahın (c.c.) insanlığa olan ilk Sözü də Müqəddəs "Oxu" kəlməsidir.[69]

Göründüyü kimi insanın hər hansı bir məsələni, yaxud predmeti dərk etməsinin kökündə və əsasında "söz" və "oxu" kəlməsi durur. Uca Rəbbimizin kainatın, insanın

---

[65] "Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O (Allah) bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!". ("Əl-Ənam", ayə 59).

[66] "Ey insanlar! (Bu Muhəmməd) sizə Rəbbiniz tərəfindən dəlil gəlmişdir. Biz sizə aydın bir nur ("Quran") endirdik". ("Ən-Nisa", ayə 174).

[67] "Tarix Allahın "OL!" kəlməsi ilə başlayır. İnsan həm özünün, həm də dünyanın tarixini ilk əvvəl Yaradandan öyrənir: Kim olduğunu? Niyə yaradıldığını? Nədən yaradıldığını?...

[68] Yer üzündə olanların hamısını sizə görə xəlq edən, sonra göyə tərəf yönəlib onu yeddi qat göy edən Odur O, hər şeyi bilir. ("Əl-Bəqərə", ayə 29).

[69] Yaradan Rəbbinin adı ilə oxu! ("Əl-Ələq", ayə 1).

və aləmlərin yaradılışına verdiyi hökm – "OL!" müqəddəs kəlməsi kimi. Deməli, insan intellektinin əsasında da söz[70] durur, kəlmə durur. Hər bir sözün və kəlmənin daşıdığı məna yükü, məzmun yükü, forma yükü var. Varlığın, xilqətin *(əşyanın)* sifətləri haqqında məlumat, informasiya var. Deməli, İlahi Yaradılışın əsasında İlahi intellektin daşıdığı sözlərdən ibarət kodlaşdırılmış, proqramlaşdırılmış xüsusi bir informasiya durur. Həmin yaradılış informasiyasının açar sözləri Allahın (c.c.) müqəddəs "OL!" (Kun-Fə-Yəkun) kəlməsidir.

Allahın (c.c.) həmin o sehrli dediyimiz açar Sözünün (Kun Fə Yəkun) arxasında, yəni həmin o Sözə qədər Onun Özü Tərəfindən Proqramlaşdırıldığı İlahi Məntiq və İlahi İdrak durur. Əslində, bu bizim bilmədiyimiz qeyb aləmi-mələkut aləmidir.

Əgər biz, məsələn, yerin və göyün, bu dünya aləminin yaradılışını Allahın (c.c.) Müqəddəs "OL!" kəlməsini təqribi düşündüyümüz proqram sxemində, realyasion modelində bir bilik freymi *(çərçivəsi, bloku)* kimi ifadə etsək bu aşağıdakı kimi görünə bilər:




[70] Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz, Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz. Artıran söz qədrini sidq ilə qədrin artırar, Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz. (Məhəmməd Füzuli) Mənası: insanın sirrini hər kəsə açan sözdür. Hər an yoxdan var olan sözdür.

Burada, "OL!" Allahın (c.c.) Müqəddəs Kəlməsini, digər dörd çərçivə (freym) Uca Rəbbimizin Əmrini icra edən dörd Müqərrəb mələyi *(Cəbrail, Azrail, Mikail, İsrafil - daha doğrusunu Uca Rəbbimiz Bilir),* sonrakı altı çərçivə (freym) 6 surədə[71] gedəcək prosesləri və sonrakı "Oldu" şərçivəsi (freymi) yaradılan aləmi simvolizə edir.

İnsanın yaratmaq istədiyi süni intellekt də buna bənzərdir. Yəni sözlərə-rəqəmlərə-işarələrə-simvollara bağlıdır. Hər bir millətin öz dilində yaratdığı, dilin linqvistik xüsusiyyətlərini ehtiva edən informasiya, bilik kimi. Hər bir xalqın dili onun linqvistik xüsusiyyətləri, eyni bir mərkəzdən, yəni qeyb, mələkut aləmindən gələn, yaxud əsası həmin aləmdə qoyulan[72] informasiyanı deşifrə etmə formasıdır. Elə bir informasiya ki, əsası mələkut *(qeyb-ruhi)* aləmində Allah (c.c.) tərəfindən həkk edilmişdir. Xalqlara və qəbilələrə ayrılan millətlərin ruh və qəlb yaddaşında əşyaların və yer üzündə yaradılanların adlarının öyrədildiyi informasiyadır. Mücərrəd düşünmə və təfəkkür etmə qabiliyyətinə malik olan insanın öz zəkasında, söz yaddaşında daşıdığı və biliklərə cevirdiyi informasiyadır. O informasiya ki, mühəndis proqramlaşdırıcı tərəfindən Lütfi Zadənin yaratdığı "Soft Komputing" modelləşməsi əsasında sözlə daşınan biliklərin, hər bir dilin linqvistik xüsusiy-

[71] "Göyləri, yeri və onların arasındakıları altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan (ərşdə bərqərar olan) Allahdır. Sizin Ondan başqa heç bir haminiz və şəfaət (əzabı dəf) edəniniz yoxdur. "Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?". ("Əs-Səcdə", ayə 4).

[72] "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq". ("Əl-Hucurat", ayə 13).

yətlərindən asılı olaraq sistemləşdirilməsi və modelləşdirilməsidir.

"Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi riyaziyyatın, kibernetikanın, informatika və hesablama texnologiyasının inkişafı tarixində yeni bir dövr açmışdır. Bu nəzəriyyə bütün dünyada elmə, texnika və texnologiyaya geniş nüfuz etmişdir".[73]

Məntiqi nəticə ondan ibarətdir ki, Ali (İlahi), insani və süni intellektin kökündə də, əsasında da sözlə *(şərti işarələrlə, rəqəmlərlə, əlifbanın hərfləri ilə və s.)* ifadə olunan və dərk-idrak olunması tələb olunan bilik durur. Bu dəfə Uca Rəbbimizin insana verdiyi ağıl, dərrakə və idrak nəticəsində yaratdığı insan kəlməsi, insan sözü. Əslində, elə həmin kəlmə də, həmin söz də Uca Rəbbimizdəndir.[74] Elə əslində, insanın özünü dərk etməsi[75] də böyük elm tələb edir.

Dünya elminə, xüsusən də riyaziyyata 2500 il hökmranlıq edən Aristotel nəzəriyyəsinin aşa bilmədiyi sərhədləri aşan qeyri-səlis məntiq və yaxud qeyri-səlis çoxluqlar barəsində 1965-ci ildə Lütfi Zadə nəzəriyyəsinin də yaranmasının kökündə söz durur. Belə ki, *"Lütfi Zadə qeyri-səlis çoxluqlar ideyasına məhz bizim gözəllik sahəsi adlandırdığımız semantik sistemə daxil olan "cazibədar" sözünün təhlilindən*

---

[73] "Dünya şöhrətli alim Lütfi Zadə - 90" Misir Mərdanov, Azərbaycan 2011- 8 fevral. S-4.

[74] "Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın". ("Əl-Ənam", ayə 59).

[75] Özünü dərk edən Allahı tanıyar. (Hz. Əli (ə) Nəhcül-bəlağə).

*sonra gəlmişdi".*[76] Yəni Azərbaycan dilinin linqvistik xüsusiyyətlərinə uyğun olaraq əgər biz hər hansı bir obyektin, məsələn, qadın gözəlliyinin təsvirini verməli olsaq "gözəl", "qəşəng", "füsunkar", "cazibədar" kimi sözlərlə ifadə edə bilərik. Bu sözlərin hər biri özünün daşıdığı məna və məlumat yükünə görə biri-birindən fərqlənir. Bizim intellektimizin ruhi yaddaşının mələkut *(qeyb-ruhi)* aləmindən genetik olaraq daşıdığı bir gözəllik anlayışı var. Bu anlayışlar forma və məzmununa görə bir-birindən fərqlənir.

Əgər biz gözəllik, məsələn, qadın gözəlliyi, təbiət gözəlliyi anlayışlarını dilimizin linqvistik dəyişənlər xüsusiyyətlərini nəzərə alaraq ifadə etməyə çalışsaq – gözəl, lap gözəl, çox gözəl, tamamilə gözəl, yaxud gözəl olmayan, lap gözəl olmayan, çox gözəl olmayan, az gözəl olan kimi ifadələrlə təsvir edə bilərik. Bəs biz bu gözəllik nisbətlərini hansı əsaslara və etalonlara söykənərək, istinad edərək dəyərləndirir və ya qiymətləndiririk!?

Sözsüz ki, bizim yaradılış olaraq ilkin daşıdığımız bir yaddaşımız mövcuddur. Əslində bu, ruhun yaddaşıdır. Lakin genetik olaraq daşıdığımız yaddaş və qabiliyyətlər də mövcuddur. İnsan beyninin anatomiyasının öyrənilməsi sahəsində aparılan tədqiqatlar da bu nöqteyi-nəzəri təsdiq[77] edir.

---

[76] Sərxan Abdullayev "Qeyri-səlis dilçilik təcrübəsi". Bakı – 2013 (Xatırladaq ki, Lütfi Zadə qeyri-səlis çoxluqlar ideyasına məhz bizim gözəllik sahəsi adlandırdığımız semantik sistemə daxil olan "cazibədar" sözünün təhlilindən sonra gəlmişdi). Səh.356.

[77] 1980-ci illərin ortalarında K.V.Anoxin öyrənmə və yaddaşın formalaşması zamanı beyində aktivləşən genləri kəşf etdi. O, "birbaşa erkən genlər" ailəsinə aid olan bu genlərin uzunmüddətli yaddaşın müxtəlif formalarının və sinir sisteminin stabil patoloji vəziyyətlərinin fiksasiyasında rolunu sübut etmişdir. Uzunmüddətli yaddaşın bütün məlum formalarının konsolidasiyasının əsasını təşkil edən "dərhal

Elmi məlumatlara və səmavi dinlərdən alınan biliklərə əsasən, biz yaradılışımız etibarilə ən ali varlıq, yer üzünün canişini-xəlifəsiyik.[78] Biz iki hissədən - həm nurdan ibarət olan ruhdan və həm də bioloji varlıq kimi bədəndən *(cisimdən)* ibarətik.[79] Deməli, süni intellektin yaradılmasının əsasında duran və ya duracaq tədqiqat materialına, maddəsinə *(obyektinə),* yaxud "insan intellektinə" də bu hər iki substansiyanın qarşılıqlı fəaliyyət prosesi nəticəsində ortaya çıxan bir məhsul kimi baxmaq lazımdır.

Yəni təkcə insan beyninin birə-bir bütün atributlarını daşıyan hər hansı bir "sistemin" yaradılması belə, insanı təşkil edən ikinci hissənin "ruhun" mahiyyətini dərk etmədən və hər iki substansiya arasında gedən psixofizioloji prosesləri öyrənmədən hər hansı bir düşünən "insan intellekti" barədə söhbət belə gedə bilməz.

Deməli, süni intellektin yaradılmasına bir elm kimi baxsaq, əgər onun birinci tədqiqat obyekti insan beynidirsə, ikinci tədqiqat obyekti insan ruhu olmalıdır. Yaxud "süni intellekt"in bir elm kimi tədqiqat obyekti insandır deyə bilərik.

---

erkən" - "gec" genlərin molekulyar siqnal yolunun diaqramı irəli sürülüb və eksperimental şəkildə əsaslandırılıb. Bu model və aşkar edilmiş genlərin funksional xassələri əsasında sinir sisteminin funksiyalarının vizuallaşdırılması və idarə edilməsinin yeni üsulları işlənib hazırlanmışdır.

[78] "(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. (Allah onlara:) "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu". ("Əl-Bəqərə", ayə 30).

[79] Bütün səmavi dinlərdə (Yəhudi, Xristian (İbrahimi), İslam) bu təsdiq olunur.

# II FƏSİL

# BİLİK MÜHƏNDİSLİYİ VƏ SÜNİ İNTELLEKTİN YARADILMA NÜMUNƏLƏRİ

II Fəsil – İntellektin öyrənilməsinə sinergetik yanaşmanın təmin edilməsi üçün bilik mühəndisliyinin əsaslarını və tətbiqinin üsul və qaydalarını oxuculara çatdırmağa çalışır. Bu fəsildə tətbiqi məsələlərin oxuculara *(müəllimlərə, mütəxəssislərə, tələbələrə və b.)* aşılanması üçün elmin 1-ci səviyyəsində *(elmi-məntiqi idrak, dəlil və sübuta əsaslanan)* "Təmir strategiyası"nın və "Peşə risklərinin monitorinqi" ilə əlaqədar qeyri-səlis məntiq və qərar qəbuletmə barədə konkret tətbiqi məsələlərin həll variantları verilir. Bu zaman müvafiq realyasion modellərin qurulmasında, dilin linqvistik xüsusiyyətlərindən istifadə qaydaları Lütfi Zadənin və akademik Rafiq Əliyevin elmi nəzəriyyələrinin konkret sahələrə tətbiqi ifadə olunur.

## 2.1. İntellektin öyrənilməsinə sinergetik yanaşma

Tarixi məlumatlara əsasən, təbii intellektin öyrənilməsinin erkən tarixi ingilis alimi F.Galton ilə əlaqələndirilir ki, bu da 1869-cu ilə təsadüf edir. Lakin Şərqdə təbii intellektin öyrənilməsi daha erkən tarixlərə, təqribən İslamdan 250 il sonraya, yaxud ingilis alimi F.Galtondan təqribən 1000 il əvvələ təsadüf edir. Şərqin görkəmli mütəfəkkirləri nəinki təbii intellekti bir elm kimi öyrənməyə çalışmış, hətta öz üzərlərində geniş təcrübələr də aparmış və

əsaslı nəticələr də əldə etmişlər.[80] Lakin görünür ki, həmin dövrdə insanlar və sivilizasiyalar arası kommunikasiya[81] əlaqələri məhdud olduğundan təbii intellektlə bağlı belə dəyərli tədqiqatlar Qərbə yetişməmiş və ya qəbul edilməmişdir. Göründüyü kimi, tarixən insanın Süni intellekti yaratmaq ideyasına gəlməmişdən öncə, təbii intellektin araşdırılması üzərində geniş tədqiqat nəticələri əldə edilmişdir. Həmin dövrdə olduğu kimi, müasir dövrdə də təbii və süni intellektlərin araşdırılması üzərində çalışan alimlərin və mütəfəkkirlərin qarşılıqlı əlaqələri və sistemli yanaşmaları yoxdur, yaxud yox dərəcəsindədir. Müasir dövrdə yuxarıda qeyd etdiyimiz kommunikasiya problemlərinin bir qismi aradan qalxsa da bu proses tam baş verməmişdir. Bu artıq dini və fəlsəfi dünyagörüş və elmin müxtəlif səviyyələri ilə məşğul olan alim və mütəfəkkirlərin qarşılıqlı əlaqələrinin problemidir.

Bəzi kəslər elm və bəsirətinin azlığından təbii intellektin aliliyini qəbul etsələr də, etməsələr[82] də Aləmləri xəlq edən Uca Rəbbimiz, Müqəddəs "Quran"da qeyd edildiyi kimi insan övladını yaratdı.[83] Bir Hədisi-Qüdsidə de-

---

[80] Daha ətraflı bax: Yaqub Babayev – Təriqət Ədəbiyyatı. Sufizm və Hurufizm.

[81] Texniki, semantik, praqmatik, nəqliyyat və informasiya mübadiləsi nəzərdə tutulur.

[82] Çarlz Darvin nəzəriyyəsinin tərəfdarları nəzərdə tutulur. Genetika elminin bu dərəcədə inkişaf etdiyi, bitkilərin, heyvanların və insanın genetikasının oxşar tərəfləri olsa da, elə genlər var ki, heyvanlarda (meymunda) yoxdur. Bir çoxları bu gün də hesab edirlər ki, insan meymundan əmələ gəlmişdir (təkamül nəzəriyyəsi).

[83] "And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq! (İnsanın adi hərəkətlərindən tutmuş,

yildiyi kimi - "Mən gizli bir xəzinə idim. İstədim ki, tanınam və insanı xəlq etdim".[84] İnsanı ən üstün, xilqətdə son məqsəd sayan, Tanrının yer və göyü zinətləndirib onun ixtiyarına verdiyini, ona ilahi ruh, ağıl, qüdrət və iradə verdiyini Müqəddəs "Quran"a əsasən söyləyən Mahmud Şəbüstəriyə görə - **"insan ən gözəl başlanğıcdır ki, ən sonda yarandı, gözəl bir sirdir ki, aşkar oldu".** Uca Rəbbimiz də insanı ən gözəl biçimdə yaratdığını bildirir.[85] Əgər bir az təfəkkür və idrak etsək ki, bu dərəcədə dəyər verilən bir varlıq *(yaradılış)* ki, Uca Rəbbimiz belə bütün aləmləri yaratdıqdan sonra ən sonda yaratdığı varlıqla *(yaradılanla)* fəxr edir, bütün aləmləri onun üçün yaratdığını bildirir, gizli bir Xəzinə kimi insanın yaradılış timsalında Tanınmaq İstədiyini Bildirir, əcəba bu varlıqda *(yaradılışda)* nə kimi və hansı hikmətlər-sirlər gizlədilmişdir ki, onun Yaradanı, onun vasitəsilə tanınmaq istəyir!?

Hər hansı bir alimi, rəssamı, konstruktoru, cərrahı və s. onun yaratdığı nəzəriyyə, rəsm əsəri, texnika, yerinə yetirdiyi cərrahi əməliyyatlarla tanıyaraq heyran oluruq, fəxr edirik, tədqiq və təhlil edirik və s. Deməli, Uca Rəbbimizi də tanımaq üçün onun əsərlərini öyrənməli, tədqiq etməli və təhlil etməliyik. Məsələn, İsaak Nyutonun ümumdünya cazibə qanunu, Albert Eynşteynin nisbilik nəzəriyyəsi, Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi,

ürəyindən keçən ən gizli hisslər, duyğular belə Allaha mə'lumdur!)" ("Qaf", ayə 16).

[84] Hədisi-Qüdsi Allah deyib ki: – "Mən gizli bir xəzinə idim, istədim tanınam və buna görə də insanı torpaqdan yaratdım". Muhəmməd peyğəmbər (s.s.).

85 "Ət-Tin", ayə 4.

Leonardo da Vinçinin "Madonna"sı, kosmik raketlərin konstruksiyası, ürək, böyrək, qaraciyər və s. kimi insan orqanlarının və toxumalarının transplantasiyası kimi elmi-nəzəri kəşfləri və elmi-paktiki yaradıcılıq əməliyyatlarını həmin sahənin hər bir mütəxəssisi edə bilirmi, yaxud başa düşür və dərk edirmi!? Digər tərəfdən, bu kimi mürəkkəb və intellektual işlərin yerinə yetirilməsi həmin icraçılardan *(yaradıcılardan)* yalnız bir elm sahəsinin və ya peşə *(sənət)* sahəsinin bilik və bacarıqlarınımı tələb edir!? Cavab qəti və birmənalıdır! Əlbəttə ki, yox!?

Məntiqi nəticə olaraq qeyd etməliyik ki, deməli, insanın və onun daşıdığı təbii intellektin öyrənilməsinə də bir elm sahəsini ən yüksək və sonsuz dərəcədə bilən bir mütəxəssis olsa belə qeyri-mümkündür! Bu baxımdan bu məsələnin və bu problemin öyrənilməsinə **sistemli – ümumi – kollektiv - sinergetik** yanaşma tələb olunur. Təkcə bununla da iş bitmir. Eyni zamanda elmin bütün səviyyələrinə *(elmin dörd səviyyəsindən söhbət gedir)* malik və vaqif olan mütəxəssislərin və alimlərin birgə fəaliyyətinin əlaqələndirilməsi tələb olunur.

Bununla yanaşı, təbii intellektin öyrənilməsi əsasında süni intellektin yaradılması və bu intellektlərin qarşılıqlı inteqrasiyasının təmin edilməsi də üçtərəfli *(analitik, kreativ, praktik)* yanaşma tələb edir.

Qeyd etmək lazımdır ki, son yüz ilə yaxın bir dövr ərzində müxtəlif elm sahələrinin diferensiasiya edilməsi nəticəsində elmi biliklər o dərəcədə şaxələnmiş və dərinliklərə nüfuz etmişdir ki, bir şəxsin *(elm adamının)* həmin

sahənin konkret mütəxəssisinin bildiyi bütün incəlikləri və dərinlikləri mənimsəməsi və geniş profilli mütəxəssis kimi bütün elm sahələrinə həmin incəlikdə və dərinlikdə nüfuz etməsi çox çətindir, zaman tələb edir, digər tərəfdən, buna heç elə bir zərurət də yoxdur. Yəni hər kəsin öz işi, öz funksiyası olmalıdır və həmin işləri və funksiyaları incəliklə və dərinliklə yerinə yetirən ayrı-ayrı mütəxəssisləri vahid bir məqsədə yönəltmək lazımdır. Başqa sözlə, menecerlik-liderlik funksiyalarını ümumi və əsas aspektlərdə və məqsədlərdə bilən, yönəldici (lider-rəhbər) şəxslərə alimlərə, mütəfəkkirlərə daha çox ehtiyac vardır.

Digər tərəfdən, incəliklərə və dərinliklərə qədər diferensiasiya edilmiş və şaxələnmiş elmi-nəzəri-hüquqi-normativ bilikləri də hər kəs öyrənə və tətbiq edə bilmir, yaxud həmin məlumat tətbiq edilmə subyektinə çatdıqda artıq qüvvədən düşmüş hesab olunur. Bu baxımdan həmin məlumatları və bilikləri vaxtında və zamanında bilən, sistemləşdirən və proqram mütəxəssislərinə təqdim edə bilən aralıq mütəxəssislərə - bilik mühəndislərinə daha çox ehtiyac var və s. Bu baxımdan 4-cü sənaye inqilabı ərəfəsində qəbul edilən qərarların, normaların və biliklərin zamanında subyektinə çatdırılması və tətbiq obyektində istifadəsi tələb olunur ki, müvafiq proqramlarda istifadə edilərək dəyişikliklər aparılsın və həmin proqramları işlədən operatorların *(icraçıların)* artıq həmin normaları bilib-bilməməsinin əhəmiyyəti yoxdur. Ona görə ki, daha bilikli və üst səviyyəli proqram təminatçıları tərəfindən bu

hüquqi-normativ-normalar proqram təminatında öz əksini tapmışdır və s.

## 2.2. Bilik mühəndisliyi və süni intellekt

Hər bir nəzəri hikmət *(sözdə-dildə olan elm – bilik)* əməli hikmətə çevrilmədən, *(tətbiq edilmədən)* dəyərə çevrilmir. İmam Əli əleyhis-səlam əməli olmayan elmi[86] məzəmmət etmişdir. Bu mənada mühəndislik[87] tətbiqi elmdir. Süni intellektin yaradılmasında əsas rola malik - proqram mühəndisliyinin əsas problemlərindən biri də mövcud nəzəri biliklərin əldə edilməsi, sistemləşdirilməsi, strukturlaşdırılması və müvafiq təsvir modellərinin işlənilməsidir. Bu prosesin təmin edilməsi bilik mühəndisliyi[88] adlanır. Biliklərin müvafiq ədəbiyyatdan əldə edilməsi, formalaşdırılması, dilin semantik xüsusiyyətlərinə uyğun təsvir modellərinin işlənilməsi və s. bu kimi işlər də bilik mühəndisliyi ilə məşğul olan mütəxəssislərdən xüsusi hazırlıq və intellektual qabiliyyət tələb edir. Aşağıdakı sxemdə biliyin yaradılması üçün müvafiq qabiliyyətlər verilmişdir:

---

[86] Elmin ən dəyərsizi, dildə yerləşən *(insanın ona əməl etmədiyi)* elmdir. Elmin ən üstünü bütün bədəndə zahir olan elmdir. *(O elmdir ki, insan ona əməl edir. Bu elmin axirətdə xeyiri vardır.)* Nəhcül-bəlağə, 88-ci hikmət.

[87] **Mühəndislik** - insanın intellektual fəaliyyət sahəsidir, bir intizamdır, vəzifəsi elm, texnika nailiyyətlərini tətbiq etmək, fizika qanunlarından və təbii ehtiyatlardan konkret problemləri, məqsəd və vəzifələri həll etmək üçün istifadə etməkdir.

[88] Bilik mühəndisliyi - baxımından bilik - formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.


Bilik
Zəka
Dərrakə
Zehin
Diqqət
Ağıl
Hafizə
Nitq

Sxemdən göründüyü kimi, biliyin yaradılma prosesi bir çox səriştəliklər tələb edir. Süni intellektin predmeti də çoxşaxəli olduğundan, bu səriştəliklərin həm də bir çox elm sahələrində təzahürü tələb olunur. Bu baxımdan da problemin həlli sinergetik yanaşma olmadan mümkün deyil.

Məlum olduğu kimi, adlandırılan azərbaycanlı alim Lütfi Zadənin "qeyri-səlis məntiq" nəzəriyyəsi əsasında dünyanın bir çox ölkəsində və ən aparıcı firmalarında ən yeni texnologiyalar tətbiq edilmiş və avadanlıqlar hazırlanmışdır. Həmin ölkələr və firmalar haqqında məlumatlar sxematik olaraq aşağıda verilmişdir:




Lütfi Zadənin "qeyri-səlis məntiq" nəzəriyyəsi, Lütfi Zadə İrsi və Süni İntellekt Assosiasiyasının prezidenti, akademik Rafiq Əliyevin "Qərar qəbul etmə" nəzəriyyəsi

ilə birlikdə koqnitiv dilçiliyin xüsusiyyətlərindən və imkanlarından istifadə edərək fənlərarası elm adlandırılan sinergetik yanaşma üsullarından və metodlarından bəhrələnməklə "Bilik mühəndisliyi"nin tətbiqi yolu ilə hər hansı bir sahədə, məsələn, risklərin idarə edilməsində çox yüksək səviyyəli intellektual qərarların qəbul edilməsi və ən mürəkkəb məsələlərin proqramlaşdırma həllində tam və bitkin modellərin yaradılması mümkündür.

Eyni zamanda, təbii intellektin də öyrənilməsinə sinergetik yanaşma olmadan müvafiq uğurlar və müvəffəqiyyətlər əldə etmək qeyri-mümkündür.

Süni intellektin əsas problemlərindən biri proseslərin modelləşdirilməsidir. Yəni hər hansı bir sahədə, məsələn, bütün növlərdən olan risklərin idarə edilməsində müvafiq qərarların qəbul edilməsinin elektron sistemlə dəstəklənməsi üçün biliyin alınması, saxlanması və modelləşdirilməsi məqsədilə bu sahədə məşğul olan mütəxəssis müvafiq yaradıcılıq prosesini keçməlidir.

Bu prosesin keçilməsi sistemləşdirilmiş xüsusi hazırlıq və müvafiq biliklər tələb edir. Müasir dövrdə "Proqram mühəndisliyi"nin əsas problemlərindən biri də biliyin əldə olunması, onun təsvir modellərinin işlənilməsi, strukturlaşdırılması, bilik bazasının yaradılması ilə təyin edilir. Bu prosesi təşkil edən mütəxəssislər Bilik mühəndisləri adlanırlar və onlar konkret predmet sahəsi haqqında faktiki biliklərə yiyələnir, məsələnin həlli üçün lazım olan proseduru, strategiyanı, emprik qaydaları bilik mənbəyindən *(ekspertdən)* əldə edir, yaxud internet

məkanından müvafiq qaydalara uyğun olaraq toplayaraq sistemləşdirir və Biliyin Əldəedilmə Strategiyasını yaradırlar.

Biliklərin hasil edilməsi *(toplanması, sərfi-nəzər edilməsi, sistemləşdirilməsi)* sahəsi də elmin yeni sahəsidir və bilik mühəndisliyi adlanır. Proqramlaşdırma sahəsində çalışan mütəxəssislərin işindən fərqli olaraq bu tamamilə yeni bir sahədir. Aşağıdakı sxemdən göründüyü kimi, bilik




əldə etmənin əsasən iki metodu var: "rabitə metodu" və "mətn metodu". Bizim imkanlarımıza uyğun olaraq mətn

metodundan istifadə edəcəyik. Gələcəkdə bir çox məsələlərlə və bu kimi mövzularla əlaqəli məsələlərin həlli məqsədilə rabitə metodundan da istifadə etmək olar. Rabitə metodunun özü də sxemdən göründüyü kimi iki növə ayrılır. "Aktiv rabitə" və "passiv rabitə" metodları. Daha ətraflı bax[89] aşağıdakı linkdə verilən sxemə.

Lakin bilikləri hasil etmə, yaxud bilikləri uyğun mətnlərdən əldə etmə prosesi daha çox proqram mühəndisliyinin süni intellekt sahəsinə tətbiqində istifadə edildiyindən, elmin yeni sahəsi olan bilik mühəndisliyini tələb edir. Bilik hasil etmə prosesi də birbaşa biliyin əldə edilmə strategiyası ilə əlaqəlidir. Bu baxımdan elmin 1-ci səviyyəsində də yeni olan bu proses, elmin 2-ci səviyyəsi ilə müqayisədə nisbətən müəyyən təcrübə toplamışdır. Ona görə də biz həm elmin 1-ci və 2-ci səviyyələri ilə qarşılıqlı əlaqələrin yaradılmasını və həm də tədqiqat obyektimizin təbii intellekt olduğunu nəzərə alaraq elmin 1-ci səviyyəsinin obyektində *(süni intellekt)* mövcud olan bilik hasil etmə təcrübəsindən istifadə edərək, elmin 2-ci səviyyəsinin obyektində *(təbii intellekt)* elm irfan sahiblərinin mövcud biliklərindən bəhrələnərək bilik hasil etmənin yeni səviyyəsinə keçid edəcəyik. Eyni zamanda, elmin 1-ci səviyyəsi üzrə tədqiqat obyektimizdə müvafiq qaydalar, normalar, qanunlar, prosedurlar, standartlar və s. kimi kütləvi qəbul edilmiş nümunələr və eyniləşdirmələr olduğundan bu təcrübə də elmin digər sahələri üçün əhəmiyyətli olacaqdır. Qeyd edilənləri nəzərə alaraq, bilik hasil etmə və bilik mü-

---

[89] http://e-lpro.blogspot.com/2013/11/blog-post_12.html

həndisliyi təcrübəsini qeyri-səlis məntiq, qeyri-səlis çoxluqlar və intellektual qərarlar qəbuletmə təcrübəsi üzərindən yerinə yetirəcəyik. Bu məqsədlə *(soft komputing metodunun məqsədləri üçün)* bilik hasiletmə təcrübəsini və nümunələrini "texniki risklər" və "peşə riskləri" üzrə biliklərin hasil edilməsi və intellektual qərarların qəbul edilməsi üçün elektron sistemdə (ES) süni intellektlə əlaqəli biliklərin təsvir modellərindən - "realyasion model", "freym model", "semantik şəbəkə modeli" və s. istifadə edilməsini və biliklər bazasının yaradılmasını tətbiq edəcəyik.

Müasir dünyamızın aktual məsələlərindən olan "Sistemli təhlil, qərar qəbuletmə və idarəetmədə soft kompütinq, söz və persepsiya ilə hesablamalar" kimi məsələlərin həllində süni intellektin inkişafı dilin koqnitiv xüsusiyyətlərinin öyrənilməsini və Bilik mühəndisliyində tətbiqini şərtləndirir. İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) inkişaf etdikcə, dünya kiçilir. Millətlər və xalqlar arasında yaxınlaşma baş verir. Ünsiyyət vasitəsi olan dil və dilçilik inkişaf edir. Müxtəlif dillər bir-birindən sözlər alır və lüğət fonduna daxil edir. Bəzən bir xalqda olan söz başqa bir xalqın lüğət fondunda olan sözlə ifadə edilə bilmir. Yanlışlıqlar yaranır. Dünyanın aparıcı dillərindən və qədim dillərdən alınma sözlər lüğət fonduna daxil edilsə də, daşıdığı ilkin təməl mənanı həmin xalqın-millətin dilində tam anlamda ifadə etmir.

Yaxud həmin sözün yaradıcısı olan xalqdan alınma söz, başqa dilə eynilə daxil edilsə də həmin sözün dərk edilməsi çətinləşir. Bu baxımdan dilin semantikası kimi

elm sahəsi yaranır. Müxtəlif proqram dillərində dilçilikdən və qeyri-səlislik nəzəriyyəsindən istifadə edilir. Qeyri-səlislik nəzəriyyəsi dilin inkişaf xüsusiyyətlərindən istifadə etməklə proqram dillərinə çevrilir. **Lütfi Zadənin** dediyi kimi, dilin linqvistik xüsusiyyətlərindən, sözlə hesablama nəzəriyyəsindən istifadə edilir. Lakin hər bir terminin, sinonimi, antonimi, omonimi və s. mövcuddur. Müxtəlif xalqlarda müxtəlifdir. Bu isə dilçiliyin elə bir problemidir ki, proqramlaşdırma mütəxəssisi bunları bilməyə bilir. Bu sahənin xüsusi mütəxəssisi olmalıdır. Yaxud aralıq elə bir mütəxəssis (məsələn, bilik mühəndisi) olmalıdır ki, proqramlaşdırmadan əvvəl həmin məsələni sadə dillə desək "ipə-sapa" düzə bilsin. Məsələn: Qərar qəbul etmə sahəsində – "Təmir strategiyasının" seçilməsi, "Peşə riskinin" müəyyən edilməsi, "Tibbi diaqnozun" qoyulması və s. kimi.

Sonrakı Fəsillərdə qeyd edilən istiqamətlərdə elmi-texniki, normativ-hüquqi elmi-irfani ədəbiyyatlardan müvafiq biliklərin hasil edilməsini və uyğun modellərin, elektron sistemlərin qurulma qaydalarını aşılamağa çalışacağıq.

### 2.3. Biliklərin təsviri, linqvistik xüsusiyyətlər və freymlər

"Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsində "doğruluq" və "ağıl" linqvistik dəyişənlərinin qiymətləri aşağıdakı kimi təyin olunur: doğru, lap doğru, çox doğru, tamamilə doğru, doğru olmayan, az və ya çox doğru, lap az düzgün, doğru, lap yalan, yalan deyil, yalan olmayan,

ağ yalan, ən çox yalan, görünməmiş yalan, tamamilə yalan; ağıllı, lap ağılsız, bir az ağıllı, müdrik, bir az müdrik, tam müdrik, lap müdrik, müdrik olmayan və s.".[90]

Məlum olduğu kimi, süni intellekt sahəsində tətbiq olunan proqramlar çoxşaxəli və müxtəlif məqsədlidir. Hər bir proqram ayrı-ayrılıqda qarşıya qoyulmuş tapşırıqların həllinə yönəldilmişdir. Nisbətən fəal inkişaf etdirilən sahələr də mövcuddur.[91] "Elektron sistemin nüvəsini biliklər bazası təşkil edir. Biliklər bazası elektron sistemin yaradılması prosesində toplanan ekspert biliklərdən təşkil olunur. Biliyin yığılması və təşkili ES-in ən vacib cəhətlərindən biridir. Əldə olunmuş biliklər müəyyən qaydalar formasında ifadə olunmaqla biliklər bazasını əmələ gətirirlər. Bu biliklərin qaydalar şəklində formalaşmasında biliklərin təsvir modelindən istifadə olunur. Biliklərin təsvir modeli kspertlərdən alınmış biliklərin müəyyən qaydalar formasında təqdim olunmasına xidmət edir.

Elektron sistemdə biliklərin təsvir modellərinin təsnifatı produkt model, semantik şəbəkə modeli, freym model, formal məntiq modeli, relyativ model, problem yönümlü model və s. kimidir.[92] Biliklərin təsvir modellərin-

---

[90] Lütfi Zadənin Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin məntiqi-qnoseoloji təhlili. Əziz Məmmədov *Fəlsəfə elmləri doktoru, professor, Bakı Dövlət Universiteti.

[91] Süni neyron şəbəkələri; Təkamül hesablamaları; Qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi; Ekspert sistemləri; Hüceyrəvi avtomatlar; Çoxagentli sistemlər. İntellektual sistemlər və texnologiyalar. (Bakı-2016. Dərs vəsaiti).

[92] https://az.wikipedia.org/wiki/Ekspert_sisteml%C9%99r

də ekspert sistemlərin qurulması və yaradılması aşağıdakı sxem modeldə göstərilən ardıcıllıqla yerinə yetirilir:




Bizim əsas məqsədlərimizdən biri bilik mühəndisliyinin üsul və qaydalarından istifadə edərək Azərbaycan dilinin linqvistik xüsusiyyətlərini nəzərə almaqla ES-də biliklərin təsvir modellərinə uyğun bu və ya digər məsələdə, daha konkret olaraq həm elmin 1-ci səviyyəsində *(məntiqi idrak),* həm elmin 2-ci səviyyəsində *(hissi-imani idrak)* və həm də elmin 3-cü səviyyəsində (irfani idrak) elektron sistemlər üçün bilik çərçivələrinin *(freymlərin)* formalaşdırılmasıdır. Daha doğrusu, bu sahədə tətbiqi məsələlərin qarşılıqlı variyasiyasının və əlaqələrin təmin edilməsidir. Yuxarıda qeyd etdiyimiz kimi elmin daha da dərin səviyyələrə nüfuz etməsində bir çox problemlər mövcuddur ki, onlardan biri də elmlərarası əlaqələrin

olmamasıdır. Bu, əslində, əsrlər boyu əsas problemlərdən biri olmuşdur. Belə bir nümunənin göstərilməsi üçün elmin 1-ci səviyyəsinin tələblərinə uyğun olaraq mənim də əsas və aparıcı müəlliflərdən olduğum, paktiki həlli təmin edilmiş və hal-hazırda SOCAR-ın tabeli qurumlarında mövcud olan avadanlıqlara təmir strategiyasının müəyyən edilməsi sahəsində ən optimal qərarların qəbul edilmə nümunəsi əsasında elmi-praktiki nəticələrin ümumiləşdirilməsidir.

Bu məqsədlə bilik mühəndisliyinin tələblərinə uyğun olaraq internet məkanından müvafiq məlumatlar toplanılmışdır. Bu proses ağrılı-acılı bir prosesdir. Xüsusi diqqət və hazırlıq tələb edir. Əldə edilən və nəzərdən keçirilən məlumatların sərfi-nəzər edilməsini-sistemləşdirilməsini-qruplaşdırılmasını tələb edir. Müxtəlif elmlər sahəsində mövcud olan nəzəri-praktiki materialların və normativ sənədlərin nəzərdən keçirilməsini, orada mövcud olan məlumatların, biliklərin qarşıya qoyulan məsələnin həllinə *(elmi mövzuya-hipotezə)* uyğun seçilməsini və nəzərdən keçirilməsini tələb edir. Əsas məsələnin həllinə aparan metodların, metodikaların, metodologiyaların, üsulların, qaydaların sərfi nəzər edilməsini, tətbiqi üsullarının araşdırılmasını, öyrənilməsini, mənimsənilməsini və qarşıya qoyulan məsələnin həllində çatışmayan həlqələrin yaradılmasını və mövcud qaydalara, normalara, metodlara uyğunluğunun təmin edilməsini şərtləndirir.

Bu məqsədlə aşağıda bəzi nümunələr verilmişdir. Məsələn, təmir strategiyasının müəyyən edilməsində mövcud olan risklərin qarşılanması üçün onların təhlili aşağıdakı sxem-modelə uyğun üç əsas suala cavab verməlidir:




Risk ehtimal olunan kateqoriyadır, ona görə də qeyri-müəyyənlik şəraitində onun kəmiyyətcə qiymətləndirilməsində müxtəlif yanaşma üsullarından istifadə edilir. Risklərin qiymətləndirilməsi məqsədlərinə xidmət edən dörd müxtəlif yanaşma mövcuddur:

**Birinci – texniki (mühəndis) yanaşma metodudur.** Bu yanaşma sınmaların və qəzaların statistikasına, təhlükəsizliyin ehtimal olunan təhlilinə (TET) söykənməklə, hadisə və nasazlıqların şəcərəsinin qurulması və hesablanması prosesinə yönəlmiş amillərlə əsaslandırılmalıdır.

**İkinci – model yanaşma metodudur.** Bu yanaşmada zərərli amillərin insanlara və ətraf mühitə təsir modelləri qurulmalıdır. Bu modellər müəssisələrin adi işinin nəticələrini, həm də qəza hadisələrini zərər kimi təsvir edə bilər.

Birinci iki yanaşma hesablamalara əsaslanır, lakin belə hesablamalar üçün həmişə etibarlı ilkin məlumatlar çatışmır, yaxud həmin məlumatların əldə edilməsi uzun müddət tələb edir və ya problematikdir.

**Üçüncü yanaşma – ekspert yanaşma metodudur.** Bu metod müxtəlif hadisələrin, onların arasında əlaqənin və qəzaların nəticələrinin ehtimallarını hesablamalarla deyil, təcrübəli ekspertlərin sorğusu əsasında müəyyən edilir.

**Dördüncü yanaşma metodu – sosioloji sorğudur.** Sosioloji sorğu metodunda, sosioloji sorğuların köməyi ilə riskin müxtəlif növlərinə işçilərin münasibəti tədqiq olunur.

Mühəndis yanaşma metodu dəqiq metod olsa da, xüsusi məlumatlar və hesablamalar tələb edən metod olduğundan həmin metod üçün ilkin mühəndis məlumatların toplanması və dəqiqliyinin təmin edilməsi uzun müddət tələb edir. Müəssisədə bu məlumatlar olmadıqda İKT sisteminin, süni intellektin qərar qəbul etmə və qeyri-səlis məntiq nəzəriyyələrinin imkanlarından istifadə etməklə texniki risklərin qiymətləndirilməsinin ilkin mərhələsində ekspert yanaşma və sosioloji sorğu metodlarından istifadə edilməsi daha səmərəli və münasib hesab edilir:




Məsələ orasındadır ki, bu suallara cavab tapmanın yolu, qeyri-səlislik nəzəriyyəsindən keçir. Belə ki, məntiq idrak elmidir. Yunan filosofu - Aristotelin belə bir fəlsəfi deyimi var: *"Bir adamın de-*

*diyi ya doğrudur, ya yalan".* Göründüyü kimi, Aristotel yalan və doğru kimi kateqoriyalar arasında qalan aralıq dərəcələri qəbul etməyib. Qeyri-səlis məntiq nəzəriyyəsinin müəllifi, azərbaycanlı alim Lütfi Zadə[93] Aristotelin kəskinliyini yumşaltdı. Başqa sözlə desək, həqiqətdə mövcud olan aralıq kateqoriyaları aşkarladı. Bu nəzəriyyə arada qalaraq aşkardakı səhnədə görün-
məyən çalarların hüquqlarını tanıtdı və bərpa etdi. Həqiqətin aşkarlanması, hesablamaların dəqiqliyi aralıq fazalara əhəmiyyət verilmədən aparıla bilməz. Bu hesablamaların aparılması isə dilin *(dilçiliyin-linqvistikanın[94])* xüsusiyyətləri nəzərə alınaraq "söz"lə *(verbal)* təsvir edilməklə aparılır. Bu, aşağıdakı sxemdə göstərildiyi kimi təsvir edilə bilər:

[93] Lütfi Zadə (Lütfəli Rəhim oğlu Ələsgərzadə) 1921-ci il fevralın 4-də Bakıda anadan olub. On yaşında ikən ailəsi Bakını tərk edərək Tehrana köçüb. Orta təhsilini İranın paytaxtındakı Amerika kollecində tamamladıqdan sonra Tehran Universitetinin Elektrik mühəndisliyi fakültəsinə daxil olub. Böyük alimin Amerika həyatı isə 1944-cü ildən – 23 yaşında başlanıb. Lütfi Zadənin altı mühüm nəzəriyyəsi hazırda elm və istehsalatda geniş tətbiq olunur, bütün dünya böyük iqtisadi səmərə gətirən bu nəzəriyyələrdən bəhrələnir.

Dünya şöhrətli azərbaycanlı alimin 90 illik yubileyi səkkiz il əvvəl Bakıda böyük təntənə ilə qeyd olunmuşdu. Böyük alim 2017-ci il sentyabrın 6-da Kaliforniyada vəfat edib. Doğma vətəni Azərbaycanda dəfn olunmaq vəsiyyəti nəzərə alınaraq nəşi Bakıya gətirilib və birinci Fəxri xiyabanda torpağa tapşırılıb.

[94] İngilis və fransız mənbələrində linqvistika işlənsə də o, dilçiliyin sinonimi kimi başà düşülür.




Göründüyü kimi, dilin linqvistik xüsusiyyətlərinə uyğun olaraq qəza hadisəsinin baş verəcəyi halda, yarana biləcək vəziyyətlərin dərəcəsi rəqəmlərlə deyil, sözlə ifadə edilir. Bu verilən qiymətlərin özü də qeyri-müəyyəndir, ehtimallardır. Bu ifadələrdə ehtimal da var, ehtimalın özünün olma ehtimalı da var. Yəni bu deyilənləri akademik Rafiq Əliyevin[95] təbirincə desək -*"Bütün klassik nəzəriyyələr Aristotel məntiqi ilə yazılırdı. İkili məntiqlə. Çünki orda ya var, ya yox." -* bizim mövzunun məqsədlə-

[95] 1942-ci ildə Ağdam rayonunda anadan olan R.Əliyev 1967-ci ildə texnika elmləri namizədi, 1975-ci ildə texnika elmləri doktoru, 1976-cı ildə professor, 1989-cu ildən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 1992-ci ildən Təbriz Universitetinin, 1999-cu ildən ABŞ-ın Corciya Dövlət Universitetinin, 2000-ci ildən Almaniyanın Siegen Universitetinin, 2003-cü ildən Yaxın Doğu Universitetinin professorudur, Lütfi Zadə İrsi və Süni İntellekt Assosiasiyasının prezidentidir. Professor Rafiq Əliyevin çoxsaylı elmi naliyyətlərindən aşağıda qeyd edilən istiqamətlər düşünürəm ki, bizim praktiki həll variantlarımıza daha uyğundur: İntellektual sənaye sistemlərində qərar qəbuletmə və idarəetmə proseslərinin inteqrasiya prinsiplərinin formalaşdırılması (1969); ESPLAN da daxil olmaqla qeyri-səlis ekspert sistemlərin işlənməsi (1987); Qeyri-səlis zaman sıraları əsasında yeni proqnozlaşdırma üsullarının yaradılması (2002).

ri üçün qeyri-müəyyənliyin abstraksiyası *(mücərrədliyi)* çox yüksəkdir. Eyni zamanda həmin məlumatlar arasında qeyri-asılılıq[96] ya var, ya yox. Professor Rafiq Əliyevin "İnperfekt *(tam olmayan)* informasiya şəraitində yeni qərar qəbul etmə nəzəriyyəsi" də xüsusi əhəmiyyətə malikdir. Bu məsələnin məğzi ondan ibarətdir ki, hər hansı bir həyatı məsələ ilə bağlı qərar qəbul edilən mühitdə informasiya tam, müəyyən olmadığı halda müvafiq, səmərəli, bütün cəhətlər nəzərə alınaraq qərar qəbul edilsin. Bu nəzəriyyə təhlükə potensiallı obyektlərdə mövcud olan avadanlıqların istismarında baş verə biləcək qəza hadisələrinin qarşısının alınması məqsədilə xüsusi əhəmiyyətə malikdir. Bizim gətirdiyimiz misallar da praktiki həll variantları yaradılmış məsələlərlə əlaqədardır və həm Lütfi Zadənin, həm də Rafiq Əliyevin nəzəriyyələrindən istifadə edilmişdir.

Lakin yuxarıda qeyd etdiyimiz kimi, hər hansı bir metoddan və ya nəzəriyyədən istifadə edəndə qarşıya qoyulmuş məsələnin həlli üçün konkret praktiki həll variantı yoxdur. Həmin həll variantını özün tapmalısan. Necə ki, riyaziyyatda verilən bir misalın və ya məsələnin həllində mövcud teoremlərdən və aksiomlardan istifadə edilən kimi.

Biz də avadanlığın qəza halı üçün məsələnin həll variantını tapmalıyıq. Bunun üçün dilin linqvistik xüsusiyyətlərindən və hər hansı bir hadisənin ekspert yolla qiymətləndirilmə metodunun tələblərinə uyğun olaraq bizim misaldakı hadisə üçün həmin hadisənin verbal təsviri-

[96] **(**İndependence (независимый, самостаятельность, сувернитет)

nin balla verilən qiymətlərin və hadisələrin sözlə təsvirini müəyyən etməliyik. Bu, aşağıdakı cədvəldəki[97] kimi ola bilər:

| **Balla Qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
|---|---|---|
| 1 | Təsirsizdir | Çirklənmə mümkün deyil |
| 2 | Təsiri kiçikdir | Ətraf mühitin çirklənməsi az ehtimal olunandır və nəticəsi əhəmiyyətsizdir (məs.: ətraf mühitə dəymiş ziyan ən azı 1 il müddətə bərpa olunandır) |
| 3 | Təsiri orta dərəcəlidir | Ətraf mühitin çirklənməsi orta risklidir (məs.: ətraf mühitə dəymiş ziyan ən azı 3 il müddətə bərpa olunandır) |
| 4 | Təsiri ciddidir | Ətraf mühitin çirklənməsi daha çox ehtimal olunandır və nəticəsi ağırdır (məs.: ətraf mühitə dəymiş ziyan ən azı 10 il müddətə bərpa olunandır) |
| 5 | Təsiri fəlakətlidir | Ekoloji fəlakət qaçılmazdır (məs.: ətraf mühitə dəymiş ziyan ən azı 30 il müddətə bərpa olunandır və ya heç bərpa olunmayandır) |

Bu təsvirlər verilməlidir ki, sonradan proqramlaşdırılacaq və yaradılacaq ekspert qiymətləndirmə sistemində, konkret hal üçün ekspert mütəxəssis qiymətləndirməni apara bilsin. Sonrakı addım dilin linqvistik xüsusiyyətlərinin Elektron Sistemdə bilik freyminə (çərşivəsinə) çevrilməsidir. Bu, aşağıdakı sxemdə verildiyi kimi ola bilər:

[97] Q.Qasımov. Təmir strategiyasının müəyyən edilmə modeli




Effektiv qərarların qəbul edilməsi nəzəriyyəsi,[98] eyni zamanda həm də həmin informasiyaların elə formalaşdırılmasını və tərtibini tələb edir ki, həmin məlumatların faydalılıq funksiyası *(utility (faydalı-полезность)* təmin edilmiş olsun. Həmin məlumatlar həm də qeyri-səlis olmalıdır. Qeyd etmək lazımdır ki, bilik mühəndisliyi elə bir yaradıcılıq prosesidir ki, bu işlə məşğul olan mütəxəssis yüksək biliyə, zəkaya, dərrakə qabiliyyətinə, əldə etdikləri məlumatları və bilikləri dərk etmək, sərfi-nəzər etmək, baxılan mövzuya yararlılıq dərəcəsini müəyyən etmək, yararlı olanları tətbiq edərək sınaqdan keçirmək və s. kimi qabiliyyətlərə və bacarıqlara malik olmalıdır. Yəni bilik mühəndisi araşdırılan məsələ üzrə mövcud olan nəzəri və praktiki biliklərə malik olmalıdır. Elektron sistemdə proqramlaşdırma prosesində bir çox qarşılıqlı məsələlərin uzlaşdırılmasını və həllini təmin etmək üçün, dilin linqvistik xüsusiyyətlərinə uyğun olaraq yaradılan bilik bazası elə tərtib edilməlidir ki, semantik şəbəkənin tələblərinə[99] cavab versin. Semantik şəbəkədə anlayış hər hansı abstrakt və ya konkret obyektləri, münasibət isə bu obyektlərarası

---

[98] Professor. R.Əliyevin "İnperfekt *(tam olmayan)* informasiya şəraitində yeni qərar qəbuletmə nəzəriyyəsi".
[99] Bu model (semantik şəbəkə modeli) amerikan psixoloqu Kuillian tərəfindən təklif olunub.

əlaqələri ifadə edir. Semantik şəbəkədə olan münasibətlər: "hissə - tam" tipli əlaqələr *(sinif-qrup, element-çoxluq);* funksional əlaqə *("baş verir", "təsir edir" və s.);* kəmiyyət xarakterli əlaqə *(çox, az, bərabər və s.)*; məkan xarakterli əlaqə *(uzaq, yaxın, altında, üstündə, içində və s.);* atribut əlaqələr *(cəhətlərə malikdir, mahiyyəti var və s.);* məntiqi əlaqələr *(və, və ya, yox);* linqvistik əlaqələr və i.a. Semantik şəbəkə tipli Biliklər Bazasında həllin axtarışı bazaya verilmiş hər hansı altşəbəkəyə uyğun sorğunu əks etdirən şəbəkə fraqmentinin axtarışı məsələsinə gətirilir.

Bilik mühəndisliyi texnologiyası əsasında atılmalı olan addımların *(biznes proseslərin)* ardıcıllığı aşağıdakı sxemdə verilmişdir:




**1-ci addım:** problemin nəzərdən keçirilməsi: Birinci addım üzrə məsələnin araşdırılması üçün biz ümumiyyətlə istehsal prosesi haqqında müəyyən nəzəri və praktiki

biliklərə malik olmalıyıq. Bu məlumatları və bilikləri internetdən də əldə etmək olar.

**İstehsal prosesi** – İstehsal vasitələrinin və bütün işçilərin məhsul istehsalına yönəldilmiş fəaliyyətinin məcmusudur. İstehsal prosesi bir neçə prosesdən ibarətdir:

**1. Əsas proseslər** – bunlar texnoloji proseslərdir. Bu proses nəticəsində məhsulun *(əmtəənin, pəstahın, detalın və s.)* fiziki-kimyəvi xüsusiyyətlərində, həndəsi ölçülərində və formasında dəyişikliklər baş verir.

**2. Köməkçi proseslər** – Bu proses nəticəsində əsas texnoloji proseslərin fasiləsiz yerinə yetirilməsi təmin edilir. Alət və tərtibatların hazırlanması, avadanlıqların təmiri, bütün enerji növləri ilə – buxar, qaz, elektrik enerjisi və digər bütün mal-materiallarla istehsalın fasiləsiz təmin edilməsi və s. bu kimi işlər köməkçi istehsal proseslərinə aiddir.

**3. Xidmət prosesi** – Bu proses həm əsas texnoloji proseslə, həm də köməkçi texnoloji proseslə sıx əlaqəlidir və hər iki istehsal prosesinə xidməti təmin edir. Bu proseslər aralıq məhsulların, yarımfabrikatların, hazır məhsulların və s. saxlanılması, daşınması, texniki nəzarət və s. bu kimi işlərdən ibarətdir ki, məhsul yaratmasa da məhsulun yaradılmasında bilavasitə iştirak edir. Məsələn, maşınqayırma sənayesində texnoloji proseslər əsasən üç əsas fazaya bölünür: Texnoloji proses – özü fazalardan ibarətdir. Faza – əmək predmetinin keyfiyyətcə bir vəziyyətdən digər vəziyyətə keçməsi ilə əlaqədar texnoloji prosesin tamamlanmış bir hissəsini xarakterizə edən işlərin məcmusudur. Maşınqayırma sənayesində texnoloji proseslər əsasən 3 fazaya bölünür:




**2-ci addım:** tapşırıq barədə məlumat bazalarına sorğu: İkinci addım üzrə *(tapşırıq barədə məlumat bazalarına sorğu).* Bizim texniki tapşırığımız olmalıdır. Bizim misalda tapşırığımız: *"Təmir prosesində risklərin idarə edilməsidir.* Ona görə də biz məlumat bazasından risklər haqqında geniş nəzəri və praktiki bilikləri almalıyıq. Eyni zamanda təmir texnologiyasını və avadanlıqların istismarı prosesində baş verə biləcək qəza hadisələrinin ehtimalları haqqında müvafiq biliklərə malik olmalıyıq. Bütün bu bilikləri istifadə edilən avadanlıq tiplərinə uyğun olaraq müvafiq elmi-texniki ədəbiyyatdan, avadanlıqların texniki pasportlarından və bu sahədə müvafiq biliklərə malik olan ekspertlərdən əldə edirik. Bütün bu məlumatlar əldə edilərək riskin növünə, riskin obyektinə, riskin mənbəyinə uyğun olaraq arzu olunmayan hadisələrin qısa verbal təsviri verilir. Aşağıdakı cədvəldə bu qeyd edilənlər verilmişdir:

| **Risk növü** | **Risk obyekti** | **Risk mənbəyi** | **Arzu olunmayan hallar** |
|---|---|---|---|
| Fədri | Adam | İnsanın həyat və fəaliyyət şəraiti | Xəstələnmə, zədələnmə, əlillik, ölüm |
| Texniki | Texniki sistem və obyektlər | Texniki sistem və obyektlərin istismar qaydalarının pozulması, texniki sistemin qeyri-mükəmməlliyi | Qəza, partlayış, fəlakət, yanğın, ölüm |
| Ekoloji | Ekoloji sistem | Təbii mühitə insanın müdaxiləsi, fövqəladə texnogen vəziyyət | Təbii fəlakətlər, antropogen qəzalar |
| Sosial | Sosial qruplar | Fövqəladə vəziyyət, yaşayış keyfiyyətinin aşağı düşməsi | Qrup travmaları, xəstəliklər, insanların ölümü, ölümün artımı |
| İqtisadi | Material obyektləri | İstehsalın, yaxud təbii mühitin yüksək təhlükəliliyi | Qənaətbəxş mühafizə olunmamaya görə zərər, təhlükəsizliyin təmin olunma xərclərinin artımı |

Texniki risklərin kəmiyyət təhlili metodikasına əsasən risklərin müəyyən edilməsi prosesinin məntiqi ardıcıllığın ümumi mərhələləri aşağıdakı sxemdə verilmişdir:




**3-cü addım:** alınan məlumatların daxil edilməsi və strukturlaşdırılması prosesidir. Risk, faktiki olaraq təhlükə ölçüsünün varlığını bildirir. İfadə olunan bütün oxşar "risk" terminlərinin məzmunu, hal-hazırda təhlükə törədən bütün xətaların *(qəzaların, qüsurların, zədələrin və s.)* təhlilində, texnoloji proseslərin və istehsalın təhlükəsizliyinin idarə edilməsində istifadə olunur.

Texniki risklər, müəssisədaxili risklər qrupuna aiddir və bir qayda olaraq bu risk növü müəssisənin özünün fəaliyyətindən asılıdır. Texniki risklərin təhlili aşağıdakı sxemdə verilən üsul və qaydalara əsasən aparılır:




Texniki riskin təhlilinin blok - sxemi

Risklərin idarə olunması prosesinə aşağıdakılar daxildir:

- obyektdə yoxlamalar zamanı əldə edilmiş mürəkkəb məlumatların, eləcə də digər məlumatların toplanması;
- verilənlər bazasının yaradılması və məlumatların işlənməsi;
- texnoloji proseslərin təhlili;
- yaranan nasazlıqların şəcərəsinin təhlili;
- rejimin, fəsadların xarakterinin və qəzaların (təhlükənin) əhəmiyyətinin təhlili;
- risk faktorları nəzərə alınmaqla audit prosedurlarının inkişafı üçün risklərin müəyyən edilməsi və problemlərin prioritetliyi;
- quraşdırma və istehsal avadanlıqlarına profilaktik xidmətin planlaşdırılması;
- sistemin etibarlılığını və işini yaxşılaşdırmaq üçün tədbirlərin icrası ilə əlaqədar xərclərin təhlili.

Eyni zamanda nəzərə almaq lazımdır ki, Beynəlxalq standarta uyğun olaraq (OHSAS 18001 Standartı) bütün siniflərdən olan avadanlıqların istismarı prosesində ətraf mühit və personal üçün yaranan risk növlərinin identifikasiyası aşağıdakı kimidir:

Mexaniki risklər; Elektrik riskləri; Termiki risklər; Səs-küy riskləri; Titrəyiş riskləri; Şüalanma riskləri; Maddələrin və materialların yaratdığı risklər; Avadanlığın erqonomik prinsiplərinin pozulmasından yaranan risklər; Sürüşməkdən və yıxılmaqdan yaranan risklər; Risklərin qarşı-

lıqlı kombinasiyasından yaranan risklər; Avadanlığın istismarından ətraf mühitlə yaranan risklər.

Yuxarıda qeyd edilən araşdırmaların və mütəxəssislərlə aparılan müzakirələrin nəticələrinə uyğun olaraq SOCAR-da istismar olunan bütün siniflərdən olan avadanlıqlar üçün risk növlərinin identifikasiyasının aşağıdakı əsas meyarlar üzrə aparılması qəbul edilmişdir:

**Ehtimal olunan qəza hadisəsindən kritik riklərin verbal təsviri**

| «Ətraf mühitə təsiri» | «Personalın həyatı üçün təsiri» | «İstehsal prosesinə təsiri» | «Qəza təmirlərinin davametmə müddətinə təsiri» | «Qəza təmirlərinin mürəkkəbliyinə təsiri» |
|---|---|---|---|---|
| •Təsirsizdir<br>•Təsiri kiçikdi<br>•Təsiri ortadır<br>•Təsiri ciddidir<br>•Təsiri fəlakətlidir | •Təsirsizdir<br>•Təsiri kiçikdi<br>•Təsiri ortadır<br>•Təsiri ciddidir<br>•Təsiri fəlakətlidir | •Təsirsizdir<br>•Təsiri kiçikdi<br>•Təsiri ortadır<br>•Təsiri ciddidir<br>•Təsiri fəlakətlidir | •Az müddətli<br>•Qısa müddətli<br>•Orta müddətli<br>•Nisbətən uzun müddətli<br>•Uzun müddətli | •Az müddətli<br>•Qısa müddətli<br>•Orta müddətli<br>•Nisbətən uzun müddətli<br>•Uzun müddətli |

1. **Ətraf mühitə təsiri; 2. Personalın həyatı üçün təsiri; 3. İstehsal proseslərinə təsiri; 4. Qəza təmirlərinin davametmə müddəti; 5. Qəza təmirlərinin mürəkkəbliyi.**

Yuxarıda qeyd edilən risk növlərinin (qəza hadisələrinin) ehtimalı ilə yanaşı, **"Qəza hadisələrinin ehtimal tezliyi"**ni də müəyyən etmək zəruridir. Bu həmin risk növlərinin baş vermə tezliyini nəzərdə tutur. Bütün bu qeyd edilənlərlə yanaşı, həmin risk növlərinin yarandığı anda gözlənilən və ya ehtimal olunan hadisələrin rəqəmlə təsvi-

ri mümkün olmadığından, dilin linqvistik xüsusiyyətlərinə uyğun olaraq aşağıdakı sxemdə göstərildiyi kimi verbal təsviri verilməlidir:




Təmir strategiyasının daha dəqiq və düzgün seçilməsinin təmin edilməsi məqsədi ilə yuxarıdakı şərtlərlə *(meyarlarla və ya göstəricilərlə)* yanaşı, aşağıdakı **ƏLAVƏ ŞƏRTLƏR-in** tətbiqi də məqsədəuyğundur:

**a) Təmir xərclərinin qiymətləndirilməsi:**

**“Təmir xərcləri > Dəymiş zərər”; “Təmir xərcləri < Dəymiş zərər”.**

**b) Qəzanı proqnozlaşdırmağın mümkünlüyü:**

**“Mümkündür”; “Mümkün deyil”.**

Aşağıdakı cədvəldə identifikasiya edilmiş *(tanınmış)* risk növlərinin hər biri üzrə dilimizin linqvistik xüsusiyyətlərinə uyğun olaraq təsir etmə dərəcələri sözlə təsvir edilərək *(risklərin verbal təsviri)* 4-5 ballıq şkalaya uyğun olaraq qiymətləndirilmiş və ekspertlərin hər bir avadanlığı qiymətləndirməsini asanlaşdırmaq üçün həm də risklilik dərəcəsinə uyğun qısa məzmun verilmişdir:

| **Qəza hadisələrinin personalın həyatı üçün təsiri** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Təsirsizdir | Personalın həyatı üçün təhlükəsizdir |
| 2 | Təsiri kiçikdir | Zədələr az ehtimal olunandır (məs: bədən üzvlərinin yanması, əzilməsi) |
| 3 | Təsiri orta dərəcə-lidir | Zədə təhlükəlidir (məs.: bədən üzvləri-nin sınması, çıxması və s.) |
| 4 | Təsiri ciddidir | Personalın həyatı və sağlamlığı üçün ciddi risklidir, məsələn, əlil qalma |
| 5 | Təsiri fəlakətlidir | Ölüm qaçılmazdır |

| **Qəza hadisələrinin ətraf mühitə təsiri** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Təsirsizdir | Çirklənmə mümkün deyil |
| 2 | Təsiri kiçikdir | Ətraf mühitin çirklən-məsi az ehtimal olu-nandır və nəticəsi əhə-miyyətsizdir (məs.: ət- |

| Qəza hadisələrinin ətraf mühitə təsiri | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| | | raf mühitə dəymiş ziyan ən azı 1 il müddətə bərpa olunandır) |
| 3 | Təsiri orta dərəcəlidir | Ətraf mühitin çirklənməsi orta risklidir (məs.: ətraf mühitə dəymiş ziyan ən azı 3 il müddətə bərpa olunandır) |
| 4 | Təsiri ciddidir | Ətraf mühitin çirklənməsi daha çox ehtimal olunandır və nəticəsi ağırdır (məs.: ətraf mühitə dəymiş ziyan ən azı 10 il müddətə bərpa olunandır) |
| 5 | Təsiri fəlakətlidir | Ekoloji fəlakət qaçılmazdır (məs.: ətraf mühitə dəymiş ziyan ən azı 30 il müddətə bərpa olunandır və ya heç bərpa olunmayandır) |

| Qəza hadisələrinin istehsal proseslərinə təsiri | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Təsirsizdir | İstehsal proseslərinə təsir etmir |
| 2 | Təsiri kiçikdir | Sahənin (bölmənin) işinə təsir edir |
| 3 | Təsiri orta dərəcəlidir | Bir neçə sahənin (bölmənin) işinə təsir edir |
| 4 | Təsiri ciddidir | İstehsal prosesinə təsir edir |
| 5 | Təsiri fəlakətlidir | Bütün müəssisənin işinə təsir edir |

| Qəza təmirlərinin davam etmə müddətinə təsiri | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Az müddətli | Bir neçə saat ərzində |
| 2 | Qısa müddətli | Gün ərzində |
| 3 | Orta müddətli | Həftə ərzində |
| 4 | Nisbətən-uzun müddətli | Ay ərzində |
| 5 | Uzun müddətli | 3 aydan çox |

| Qəza təmirlərinin mürəkkəbliyi | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Sadə təmir | Maddi texniki vasitələrin sərfi olmadan öz gücünə təmir |
| 2 | Qismən mürəkkəb təmir | Müntəzəm istifadə və qəza texniki ehtiyat materiallarının sərfi ilə öz gücünə təmir |
| 3 | Orta mürəkkəb təmir | Maddi texniki resursların sərfi və/ və ya xüsusi texnika cəlb etməklə öz gücünə təmir |
| 4 | Çox mürəkkəb təmir | Yalnız xüsusi kənar təşkilatlar və ya istehsalçı-zavod tərəfindən təmir |
| 5 | Mümkünsüz təmir | Təmir qeyri-mümkündür |

| Qəza təmirlərinin ehtimal tezliyi | | |
|---|---|---|
| **Balla qiymət** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Praktik olaraq | Qəza hadisələrinin yaranması |

| | | |
|---|---|---|
| | ehtimal Olunmayan | praktik olaraq mümkün deyil. (Q(t) <= 0.05) |
| 2 | Nadir hallarda baş verən | Qəza hadisələrinin yaranma ehtimalı azda olsa, nadir hallarda baş verir. (Q(t) = 0.05>0.2) 3 |
| 3 | Ehtimal olunan | Qəza hadisələrinin yaranma ehtimalı orta səviyyədədir, gözlənilmədən yarana bilər. (Q(t) = 0.2>0.5) |
| 4 | Tez-tez baş verən | Yaranma ehtimalı çox yüksəkdir. (Q(t) >= 0.5) |

"Xərclərin qiymətləndirilməsi" parametrinin köməyi ilə texniki xidmət və təmir üzrə planlaşdırılmış xərclərin avadanlığın sıradan çıxması ilə bağlı planlaşdırılmış xərclərə nisbəti qiymətləndirilir. Planlaşdırılmış qəza xərclərinin qiymətləndirilməsi zamanı həm avadanlığın təmiri/əvəz olunması, həm də istehsalat və təsərrüfat prosesləri üçün sıradan çıxmasının nəticələri nəzərə alınmalıdır. Bu müqayisə ekspert rəyi əsasında aşağıdakı göstəricilərdən biri seçilməklə həyata keçirilir:

**"Təmir xərcləri > Dəymiş zərər"** – texniki xidmət və təmir xərcləri sıradan çıxma nəticələri üzrə xərclərdən artıqdır.

"**Dəymiş zərər > Təmir xərcləri"** – xidmət və təmir xərcləri sıradan çıxma nəticələri üzrə xərclərdən artıq deyil.

**"Qəzanı proqnozlaşdırma mümkünlüyü"** - parametri vasitəsilə texniki baxış və texniki xidmət zamanı avadanlığın sıradan çıxmasının qarşısının alınması ehtimalı qiymətləndirilir. Avadanlığın növündən asılı olaraq, nəzarət-ölçü cihazlarının göstəriciləri, vibrasiya dərəcəsi, səs-küy dərəcəsi, temperaturun dəyişməsi, nəzarətdən kənar iş rejimi dəyişiklikləri, korroziya dərəcəsi və s. vasitəsilə sıradan çıxma hallarının qarşısının alınması mümkündür. Avadanlığın kritikliyinin qiymətləndirilməsi matrisasında aşağıdakı göstəricilər üzrə sıradan çıxma hallarının qarşısının alınması ehtimalı qiymətləndirilir: "**Mümkündür"; "Mümkün deyil".**

Bunlarla yanaşı, avadanlıqların sinfindən, istehsal prosesinə cəlb edilmə dərəcəsindən *(texnoloji prosesə ardıcıl və paralel qoşulmasından və s.)* ətraf mühitə, personala, əmlaka və s. qəza anında yarada biləcəyi təhlükəlilik dərəcəsindən və s. asılı olaraq risk növlərinin identifikasiya meyarlarının xüsusi çəkisi *(avadanlığın sinfindən asılı olaraq təsir dərəcəsi)* prioritetliyə görə fərqləndirilir.

Bu meyarlar üzrə prioritetlik göstəricilərinin cəmi vahidə (1,0) bərabər olmalıdır. Avadanlıqların sinfindən asılı olaraq hər bir meyar üzrə prioritetlik göstəricisi 0 -:- 1,0 intervalında müəyyən oluna bilər. Bu qeyri-səlis məntiq nəzəriyyəsinin[100] tələbinin təmin olunma şərtidir:

[100] Qeyri-səlis məntiq nəzəriyyəsinə görə çoxluğun böyük bir hissəsinin elementlərinin mənsubiyyət dərəcəsi vahidə bərabərdir. Bu hissəyə qeyri-səlis çoxluğun nüvəsi deyilir. Çoxluğun digər hissəsinin isə elementlərinin çoxluğuna mənsubiyyət dərəcəsi vahidlə sıfır arasında yerləşən hər hansısa bir həqiqi ədədə bərabər olacaqdır. Bu elementlərə çoxluğun sərhəd elementləri deyilir. Daha

| Sıra №-si | Avadanlıqların təsnifatı (siniflər və yarımsiniflər) | Ətraf mühitə təsiri | Personalın həyatı üçün təsiri | İstehsal proseslərinə təsiri | Qəza təmirlərinin davametmə müd- dəti | Q əza təmirlərinin mürəkkəbliyi |
|---|---|---|---|---|---|---|
| **1.** | **D - Quyular, bina və qurğular** | | | | | |
| 1.1 | Neft və qaz quyuları | 0,3 | 0,3 | 0,2 | 0,1 | 0,1 |
| 1.2. | Yaşayış binaları | N/A | 0,3 | 0,3 | 0,2 | 0,2 |
| 1.3. | Texniki obyektlər | N/A | 0,3 | 0,3 | 0,2 | 0,2 |
| 1.4 | Platformalar | N/A | 0,3 | 0,3 | 0,2 | 0,2 |
| 1.5. | Digər (D) | N/A | 0,3 | 0,3 | 0,2 | 0,2 |
| **2.** | **P – Qazıma avadanlıqları** | | | | | |
| 2.1. | Qazıma avadanlıqları | 0,1 | 0,2 | 0,3 | 0,2 | 0,2 |
| **3.** | **M – Maşın və avadanlıqlar** | | | | | |
| 3.1. | Neft və qaz çıxarma avadanlıqları<br>Digər elektrik avadanlıqları | **0,3** | **0,3** | **0,2** | **0,1** | **0,1** |
| 3.2. | Kimyəvi və neft-qaz emalı avadanlıqları | 0,3 | 0,2 | 0,3 | 0.1 | 0,1 |

ətraflı, bax: Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsinin məntiqi-qnoseoloji təhlili. Əziz Məmmədov və Fuad Qurbanov.

| Sıra №-si | **Avadanlıqların təsnifatı (siniflər və yarımsiniflər)** | **Ətraf mühitə təsiri** | **Personalın həyatı üçün təsiri** | **İstehsal proseslərinə təsiri** | **Qəza təmirlərinin davametmə müd- dəti** | **Q əza təmirlərinin mürəkkəbliyi** |
|---|---|---|---|---|---|---|
| 3.3. | Digər elektrik avadanlıqları | 0,2 | 0,3 | 0,3 | 0,1 | 0,1 |
| 3.4. | Digər mexaniki avadanlıqları | 0,2 | 0,3 | 0,3 | 0,1 | 0,1 |
| 3.5. | Məişət avadanlıqları | N/A | 0,3 | 0,3 | 0,2 | 0,2 |
| **4.** | **L – Kommunikasiya avadanlıqları (obyektləri)** | | | | | |
| 4.1. | Elektrik ötürücü xətlər | N/A | 0,3 | 0,3 | 0,2 | 0,2 |
| 4.2. | Neft və qaz kəmərləri | 0,3 | 0,3 | 0,2 | 0,1 | 0,1 |
| 4.3. | Mühəndis-texniki təminat şəbəkəsi | N/A | 0,3 | 0,3 | 0,2 | 0,2 |
| 4.4. | Digər (L) | 0,3 | 0,3 | 0,2 | 0,1 | 0,1 |
| **5.** | I - Nəzarət-ölçü cihazları və avtomatika avadanlıqları | | | | | |
| 5.1. | Nəzarət-ölçü cihazları və avtomatika avadanlıqları | N/A | N/A | 0,4 | 0,3 | 0,3 |
| **6.** | **V - Rezervuarlar və** | 0,3 | 0,3 | 0,2 | 0,1 | 0,1 |

| Sıra №-si | Avadanlıqların təsnifatı (siniflər və yarımsiniflər) | Ətraf mühitə təsiri | Personalın həyatı üçün təsiri | İstehsal proseslərinə təsiri | Qəza təmirlərinin davametmə müd- dəti | Q əza təmirlərinin mürəkkəbliyi |
|---|---|---|---|---|---|---|
| | **tutumlar** | | | | | |
| 6.1. | Neft məhsulları və reagentlər üçün rezervuarlar | 0,3 | 0,3 | 0,2 | 0,1 | 0,1 |
| 6.2 | Yanacaq sürtkü maddələri üçün tutumlar | 0,3 | 0,3 | 0,2 | 0,1 | 0,1 |
| 6.3. | Qaz tutumları | 0,3 | 0,3 | 0,2 | 0,1 | 0,1 |
| 6.4. | Digər (V) | | | | | |
| **7.** | **T - Nəqliyyat** | | | | | |
| 7.1. | Xüsusi texnika | N/A | 0,3 | 0,3 | 0,2 | 0,2 |
| 7.2. | Sərnişin nəqliyyatı | N/A | N/A | 0,4 | 0,3 | 0,3 |
| 7.3. | Digər (T) | N/A | N/A | 0,4 | 0,3 | 0,3 |
| **8.** | **J - İnformasiya texnologiyaları və rabitə avadanlıqları** | | | | | |
| 8.1. | Şəbəkə avadanlıqları | N/A | N/A | 0,4 | 0,3 | 0,3 |
| 8.2. | Ofis avadanlıqları | N/A | N/A | 0,4 | 0,3 | 0,3 |
| 8.3 | Digər (J) | N/A | N/ | 0,4 | 0,3 | 0,3 |

| Sıra №-si | Avadanlıqların təsnifatı (siniflər və yarımsiniflər) | Ətraf mühitə təsiri | Personalın həyatı üçün təsiri | İstehsal proseslərinə təsiri | Qəza təmirlərinin davametmə müd- dəti | Q əza təmirlərinin mürəkkəbliyi |
|---|---|---|---|---|---|---|
| | | | A | | | |

Yuxarıdakı cədvələ əsasən, qəza nəticələrinin ağırlığı (şiddəti) **Ş** aşağıdakı düstur vasitəsilə hesablanır:

$$Ş = (P_1 \times K_1) + (P_2 \times K_2) + (P_3 \times K_3) + (P_4 \times K_4) + (P_5 \times K_5)$$

**Burada:**

**Ş** – qəza nəticələrinin ağırlığı (şiddəti), balla;

$P_n$ – seçilmiş kritikliyin qiymətləndirilməsi parametrinin göstəricisi;

$K_n$ – seçilmiş avadanlıq yarımsinfinə uyğun olaraq, kritikliyin qiymətləndirilməsi parametrinin əmsalı;

Xidmətdən imtina ehtimalı – müəyyən müddət ərzində *(sözügedən halda 1 il)* qəza halları ilə müəssisədə eyni tipli avadanlıqların ümumi sayına nisbəti:

$$Q_{(t)} = n_{(t)} / N_0$$

**Burada:**

$Q_{(t)}$ – vaxt ərzində sıradan çıxma ehtimalı **t;**

$n_{(t)}$ – vaxt ərzində qəza hallarının sayı **t;**

$N_0$ – işləmə qabiliyyətli olan obyektlərin ilkin sayı;

Avadanlığın hər alt sinfi üçün əmsallar nəzərə alınmaqla, ümumi balın hesablanması aşağıdakı düstur əsasında aparılır:

$$R = Ş \times Q$$

**Burada:**

**R** – riskin balla qiyməti;

**Ş** – qəza nəticələrinin ağırlığı (şiddəti), balla;

**Q** – xidmətdən imtina ehtimalı.

Təmir strategiyasının müəyyən edilmə məqsədləri üçün elmi-texniki ədəbiyyatlardan, normativ-hüquqi sənədlərdən zəruri olan əsas bilikləri əldə etdikdən sonra, həmin biliklər qeyri-səlis çoxluqlar nəzəriyyəsinə, qərar qəbuletmə nəzəriyyəsinə, dilimizin linqvistik xüsusiyyətlərinə, ekspert qiymətləndirmənin üsul və qaydalarına uyğun olaraq sinergetik yanaşmanın təmin edilməsi ilə qiymətləndirmə matrisinin qurulması təmin edilməlidir.

Bu məqsədlə "**Risklərin ehtimal tezliyi – Nəticələrin ağırlığıdır"** matrisindən istifadə edərək risklik dərəcəsinin qiymətləndirməsini və prioritetlik funksiyasının müəyyən edilməsinin müvafiq meyarlarından (göstəricilərindən) istifadə edəcəyik.

Yuxarıdakı düstur əsasında müvafiq hesablamaları, qiymətləndirmə meyarları və balla müəyyən edilmiş şkalalardan istifadə edərək

risklərin qiymətlindirmə matrisi üzrə aşağıdakı qiymətləri əldə edirik:

| Qəza nəticələrinin ağırlığı (şiddəti) | Qəzaların baş vermə ehtimalı (tezliyi) | | | |
|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 |
| 1 | 1 | 2 | 3 | 4 |
| 2 | 2 | 4 | 6 | 8 |
| 3 | 3 | 6 | 9 | 12 |
| 4 | 4 | 8 | 12 | 16 |
| 5 | 5 | 10 | 15 | 20 |

**"Risklərin ehtimal tezliyi – Nəticələrin ağırlığıdır"** matrisindən aldığımız nəticələrə uyğun olaraq aşağıdakı təmir strategiyaları müəyyən edilə bilər:

**$S_1$ – "Reqlamentləşdirilmiş təmir strategiyası"** *(ən kritik avadanlıqlara tətbiq edilir);*

**$S_2$ – "Etibarlılığa yönəldilmiş texniki xidmət və təmir strategiyası";**

**$S_3$ – "Texniki vəziyyətə görə təmir strategiyası";**

**$S_4$ – "Avadanlığın sıradan çıxana qədər istismarı strategiyası".**

Matrisdən alınan nəticələrin sistemləşdirilməsinə əsasən yuxarıda qeyd edilən təmir strategiyasının müvafiq növlər üzrə müəyyən edilməsi ekspert qiymətləndirmənin aşağıdakı nəticələrinə uyğun olaraq müəyyən edilir:

| | |
|---|---|
| Strategiya $S_1$ | 10 – 20 |
| Strategiya $S_2$ | 5 – 9 |
| Strategiya $S_3$ | 3 – 4 |
| Strategiya $S_4$ | 1 – 2 |

Bu matris risklilik dərəcəsini qiymətləndirmə matrisi adlanır. Bu matrisin qurulması xüsusi bir tapşırıq haqqında məlumat olaraq bir ***evristik funksiya*** *(mürəkkəb intellektual problemləri həll edərkən seçmə axtarışının təşkilindən ibarət yaradıcı funksiyanı ifadə edir)* kimi formalaşır. Hər bir əməliyyat mərhələsindəki evristik funksiya saymağın hansı istiqamətdə aparılması barədə qərar qəbul etmək üçün əlavə məlumatlar əsasında alternativləri qiymətləndirir. Evristik funksiya, mürəkkəb intellektual problemləri həll edərkən seçmə üsulla axtarış təşkil etməkdən ibarət olan yaradıcı bir funksiyadır.

## 2.4. Biliklərin realyasion model təsviri

Biz əvvəlki bölmədə "Riskin" *(hadisə, sapma, qəza)* prioritetliliyinin aşağıdakı düsturla müəyyən edildiyini qeyd etmişdik:

$RPN = Ş \cdot O \cdot D$ düsturu əsasında aparılır.

**Burada:**

***RPN**** – Risk Priority Number *(Riskin əhəmiyyəti);*

**Ş –** nəticələrin şiddətinin əhəmiyyəti;

**O –** müəyyən edilmiş dövrdə qəza halının baş vermə ehtimalını ifadə edir. Bizim misalda bu A; B; C; Ç; D meyarları ilə ifadə olunur, yəni O = A+B+C+Ç+E;

**D –** sistem üçün nəticələrin yaranmasına qədər aşkar edilməsi və aradan qaldırılma ehtimalıdır.

Müəyyən edilmiş dövrdə qəza halının baş verməsi ehtimal olunan hadisənin A; B; C; Ç; D meyarlarının *(A=Ətraf mühitə təsiri; B= Personalın həyatı üçün təsiri; C=İstehsal proseslərinə təsiri; Ç=Qəza təmirlərinin davametmə müddəti; E=Qəza təmirlərinin mürəkkəbliyi;) hər birinin ayrı-ayrılıqda yuxarıdakı cədvəllərdə verilən göstəricilər üzrə dilimizin linqvistik xüsusiyyətlərinə uyğun olan verbal təsvirinin* 5 ballıq şkala ilə qiymətləndirilməsini Elektron Sistemin tələblərinə uyğun olaraq müvafiq bilik freymini (çərçivəsini) aşağıdakı sxemlərdəki kimi təsvir edirik:




Ehtimal olunan qəza hadisəsində hər bir meyar (göstərici) üzrə ayrı-ayrılıqda qiymətləndirdiyimiz hadisələr çoxluğuna bitkin bir sistem kimi, yəni eyni bir hadisələr zəncirinin halqası kimi baxmaq lazımdır.

Bu zaman Elektron Sistemin tələblərinə uyğun olaraq müvafiq bilik freymini *(ayrı-ayrı çərçivələri vahid bir karkas olaraq)* aşağıdakı sxemdəki kimi ifadə edə bilərik:




Yuxarıdakı təsvirlərdən də göründüyü kimi, ehtimal olunan qəza hadisəsində hər bir meyar *(göstərici)* üzrə biliklərin təsvirinin qeyri-səlis realyasion modelindən istifadə edilmişdir. Yəni hər bir meyar *(göstərici)* dilimizin linqvistik xüsusiyyətlərindən istifadə edilməklə 5 ballıq şkala ilə səciyyələndirilmişdir. Bu o deməkdir ki, əgər istismar olunan avadanlıq *(neft quyusu, qurğu, generator, maşın, avadanlıq və s.)* vaxtında təmir olunmazsa, yaxud hər hansı bir texniki xidmət vaxtında göstərilməzsə və texniki xidmətin uyğun növü düzgün seçilməzsə ehtimal olunan qəza hadisəsi müvafiq fəsadlar törədə bilər.

Həmin fəsadlar baş verməsin deyə, ən uyğun texniki xidmətin və təmirin vaxtında tətbiqi üçün ən optimal və düzgün qərar qəbul edilməlidir. Bu məqsədlə müəyyən edilmiş meyarların *(göstəricilərin)* həmin qəza situasiyanı baş verdiyi anda nə dərəcədə xarakterizə etməsi [0:1] in-

tervalında təyin edilmiş mənsubiyyət funksiyası ilə ifadə olunur. Bu xüsusiyyətlərin obyektə *(ekspert qiymətləndirilməsi həyata keçirilən obyektə - bizim misalda neft quyusu, qurğu, generator, maşın, avadanlıq və s.)* uyğunluğunu əks etdirən mənsubiyyət funksiyası realyativ matrisdə təsvir edilir. Matrisin elementləri *fk(x) Î[0-:-1],* x obyektinin K kriteriyasını nə dərəcədə ödəməsini, ona nə dərəcədə uyğun gəlməsini ifadə edir.

Yuxarıda qeyd edildiyi kimi, ehtimal olunan qəza hadisəsində hər bir meyar *(göstərici)* üzrə ayrı-ayrılıqda qiymətləndirdiyimiz hadisələr çoxluğuna bitkin bir sistem kimi, yəni eyni bir hadisələr zəncirinin halqası kimi baxmaq lazımdır. Bu zaman hər bir çərçivənin ümumi halqada özünün xüsusi çəkisi müəyyən edilməli və cəmi vahidə (1,0) bərabər olmalıdır. Bu qayda matrisdə öz əksini tapmalıdır. Bu halı aşağıda elektron sxemdəki kimi ifadə edə bilərik:



Yuxarıdakı sxem model intellektual qərarların qəbul edilməsi *(yəni təmir strategiyasının seçilməsi)* üçün atılacaq addımlar zəncirində əsas halqalardan biridir. Belə ki, müəyyən dövrdə qəza halının başvermə ehtimalının *(O = A+B+C+Ç+E)* qiymətləndirilmə meyarlarının hər birinə aid olan cədvəldə verilmiş 5 ballıq şkalanın uyğun göstəriciləri üzrə hər bir avadanlıq və iş yeri üçün prioritetlilik göstəriciləri və əmsalları nəzərə alınmaqla ekspert mütəxəssis tərəfindən qiymətləndirilməklə nəticələrin şiddətinin əhəmiyyəti (**Ş**) müəyyən olunur.

Biz aydınlıq üçün bu düstur üzrə hesabatı yuxarıdakı cədvəllərdə verdiyimiz məlumatlar üzrə hesabatı, məsələn, Generator üçün hər bir meyar üzrə 5 ballıq şkala üzrə qiymətləndirməklə təqdim edirik:

| **Sıra №-si** | **Avadanlıqların təsnifatı (siniflər və yarımsiniflər)** | **Ətraf mühitə təsiri** | **Personalın həyatı üçün təsiri** | **İstehsal proseslərinə təsiri** | **Qəza təmirlərinin davametmə müddəti** | **Qəza təmirlərinin mürəkkəbliyi** |
|---|---|---|---|---|---|---|
| 3.1. | Neft və qaz çıxarma avadanlıqları Digər elektrik avadanlıqları | **0,3** | **0,3** | **0,2** | **0,1** | **0,1** |

$$Ş = (P_1 \times K_1) + (P_2 \times K_2) + (P_3 \times K_3) + (P_4 \times K_4) + (P_5 \times K_5) = (5x0{,}3)+(4x0{,}3)+(3x0{,}2)+(4x0{,}1)+(5x0{,}1)= 1{,}5+1{,}2+0{,}6+0{,}4+0{,}5 = 4{,}2.$$

Deməli, biz yuxarıdakı qiymətləndirmə əsasında ehtimal olunan bütün risk növlərini və həmin risk növlərinin uyğun avadanlığa və iş yerinə nisbətdə qiymətini – əhəmiyyətini müəyyən etdik. Bu rəqəm qeyri-səlis məntiq nəzəriyyəsinin və qərar qəbuletmə nəzəriyyəsinin də tələbləri nəzərə alınmaqla 4,2-yə bərabərdir.

Sonrakı atılacaq addım "**Risklərin ehtimal tezliyi – Nəticələrin ağırlığıdır"** matrisindən istifadə edərək risklilik dərəcəsinin qiymətləndirməsini və prioritetlik funksiyasının müəyyən edilməsinin müvafiq meyarlarından (göstəricilərindən) istifadə etməkdir. Bu məqsədlə qəza təmirlərinin ehtimal tezliyi cədvəlindən istifadə edəcəyik.

Bu cədvəldən göründüyü kimi hər bir hadisənin başvermə ehtimalı 4 ballıq şkala üzrə qiymətləndirilir. Qiymətləndirmə prosesində avadanlığın istismar müddəti, texniki vəziyyəti, istehsal prosesində hadisənin baş verdiyi anda digər istehsal proseslərinə təsir etmə dərəcəsi və s. kimi əlamətlər də nəzərə alınır. Təqdim edilən cədvəldəki ball qiymətləri və risklilik dərəcəsi nəzərə alınmaqla şərti olaraq biz generatorun risklilik dərəcəsini (Ş) = 3 ballıq şkala ilə qiymətləndirə bilərik. O zaman matrisin tələblərinə uyğun olaraq riskin yekun qiyməti düstura əsasən R= ŞxO = 4.2x3,0 = 12,6 olacaqdır.

Nəzərə almaq lazımdır ki, digər bir əhəmiyyətli göstərici sistem üçün nəticələrin yaranmasına qədər aşkar edilməsi və aradan qaldırılma ehtimalının müəyyən edilməsinin (D) mümkün olmasıdır. Belə ki, Yuxarıdakı hesabata əsasən biz beş meyarın hər birinin konkret avadanlıq üçün

prioritetlik göstəricilərini (0:1,0) və hər bir göstəricinin avadanlığın qarşılıqlı əlaqədə olduğu istehsal və texnoloji proses şərtlərini nəzərə almaqla qiymətləndirdik. Matrisdən alınan nəticəyə *(evristik funksiyaya)* əsasən seçilən təmir strategiyası $S_1$ olacaqdır. Ona görə ki, yuxarıda verilən matris məlumatlarına əsasən $S_1 = 10 \div 20$ intervalındadır. Bu funksiyanın korreksiya edilməsi üçün aşağıdakı əlavə şərtlərdən istifadə edilir:

***a) Təmir xərclərinin qiymətləndirilməsi:*** *"Təmir xərcləri > Dəymiş zərər"; "Təmir xərcləri < Dəymiş zərər".*

***b) Qəzanı proqnozlaşdırmağın mümkünlüyü****: "Mümkündür"; "Mümkün deyil".*

Ekspert qiymətləndirmə nəticəsində bu şərtlər də hər bir konkret avadanlıq üçün müəyyən edilməlidir. Burada yenə də bir çox amillər *(avadanlığın xidmət müddəti, istehsalat zəncirində yeri və rolu, təhlükə potensiallığı, nəzarət-ölçü indiqatorlarının olub-olmadığı və s.)* nəzərə alınmaqla əlavə şərtlər qiymətləndirilməlidir. Burada bir neçə versiyalar ola bilər, məsələn:

1. Əgər 1-ci variantda nəzərə alsaq ki, *"Təmir xərcləri > Dəymiş zərər" və qəzanı proqnozlaşdırmaq "Mümkündür".* Bu halda, **$S_2$ – "Etibarlılığa yönəldilmiş texniki xidmət və təmir strategiyası"nı qəbul edə bilərik. Yəni $S_1 = S_2$ qəbul edilə bilər;**

2. Əgər 2-ci variantda nəzərə alsaq ki, *"Təmir xərcləri < Dəymiş zərər" və qəzanı proqnozlaşdırmaq yenə də "Mümkündür".* Bu halda, **$S_1$ – "Reqlamentləşdirilmiş təmir stra-**

**tegiyası"nın seçilməsi daha məqsədəuyğundur; Yəni $S_1$ = $S_1$ qəbul edilə bilər;**

3. Əgər 3-cü variantda nəzərə alsaq ki, *"Təmir xərcləri < Dəymiş zərər" və qəzanı proqnozlaşdırmaq "Mümkün deyil".* Bu halda, sözsüz ki, ən doğru qərar yenə də **$S_1$ – "Reqlamentləşdirilmiş təmir strategiyası"nın seçilməsi daha məqsədəuyğundur. Ona görə ki, $S_1$ – təmir strategiyası ən kritik və təhlükə potensiallı avadanlıqlara tətbiq edilir; Yəni $S_1$ = $S_1$ qəbul edilməlidir;**

4. Əgər 4-cü variantda nəzərə alsaq ki, *"Təmir xərcləri > Dəymiş zərər" və qəzanı proqnozlaşdırmaq "Mümkün deyil".* Bu halda, **$S_1$ – "Reqlamentləşdirilmiş təmir strategiyası"nın seçilməsi daha məqsədəuyğundur. Yəni $S_1$ = $S_2$ qəbul edilməlidir.**




Beləliklə, təmir strategiyasının bütün versiyaları üçün nəticələrin yaranmasına qədər *(yəni qəza halının baş verməsinə qədər)* aşkar edilməsi və aradan qaldırılma ehtimalının müəyyən edilməsinin (D) mümkün olması və qəza halı baş verərsə dəymiş zərərin, yaxud təmirə çəkilən xərclərin çox və ya az olması məsələləri dəyərləndirilərək müvafiq qərar qəbul edilir. Texniki risklərin qiymətləndirilməsi üçün düsturda yerini

alan hər iki meyarın (Ş; D) realyasion model üzrə sxemi aşağıda ifadə edilmişdir:

Elmi-texniki ədəbiyyatda, normativ-hüquqi sənədlərdən, dövlət standartlarından və beynəlxalaq standartlardan əldə edilmiş biliklərə uyğun olaraq təmir strategiyası üzrə dörd evristik funksiyanın müəyyən edilməsi məqsədəuyğun hesab edilmişdir. İntellektual qərarların qəbul edilməsinin asanlaşdırılması məqsədilə bu strategiyaların hər birinin mahiyyəti qısaca təsvir edilmişdir. Bu təsvirin mahiyyəti aşağıdakı kimidir:

**$S_1$** – reqlamentləşdirilmiş təmir strategiyasının mahiyyəti, təmir prosesinin başlanğıcında avadanlıq komponentlərinin texniki vəziyyətindən asılı olmayaraq, vaxtaşırı və texniki sənədlərdə göstərilən miqdarda həyata keçirilməsidir və məqsədi avadanlıq vahidi, yaxud avadanlıq komponentləri üçün sistematik olaraq qəza (LoF) və qəza nəticələrinin (CoF) ehtimalını müəyyən etmə prosesindən ibarətdir. Strategiya hər bir avadanlıq üçün riskin kəmiyyət qiymətləndirilməsinə əsaslanaraq, statik avadanlıqların (gəmilər, aparatlar, boru kəmərləri və s.) texniki vəziyyətinin inspeksiyası və növbəti sertifikatlaşdırma müddətinin müəyyən edilməsinin optimal müddətlərinin təyini üçün tədbirlər planı hazırlamağa imkan yaradır. $S_1$ – istismarı xidməti personal və ətraf mühit üçün yüksək təhlükə mənbəyi ilə əlaqəli olan və texniki təhlükəsizliyinə dövlət nəzarətinin tətbiq edildiyi maşın və avadanlıqların təmirinə şamil edilir. Həmin avadanlıqların və iş yerlərinin (obyektlərin, sahələrin) siyahısı “Texniki təhlükəsizlik haq-

qında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**$S_2$** – strategiyası, avadanlığın texniki vəziyyətinə gündəlik texniki xidmətlə nəzarətinə və diaqnostik metodlara əsaslandığına görə proqnoz strategiyası da adlandırılır. Bu strategiya avadanlıq istehsalat prosesi ilə yüksək dərəcədə əlaqəli olduqda və diaqnostik parametrlərin olmadığı avadanlıqlara tətbiq edilir. Diaqnostik parametr – sökülmədən, maşının texniki vəziyyətinin qiymətləndirilməsində istifadə edilən çıxış prosesləri – diaqnostik əlamət və belə proseslərin parametrləridir.

**$S_3$** – strategiyasının mahiyyəti avadanlığın resurslarından maksimum istifadə etmək üçün gərəksiz təmir işlərinin sayının azaldılmasına yönəldilmişdir. Bu strategiya PXT Sistemini real vaxtda olan monitorinqlə birləşdirməyə imkan verir. Texniki vəziyyətə görə təmir – bir və ya bir neçə göstərici indiqatorun avadanlığın sıradan çıxmağa yaxın olduğunu və ya məhsuldarlığının azalmasını göstərən zaman həyata keçirilir. Texniki vəziyyətə görə təmirin mahiyyəti ondan ibarətdir ki, avadanlığın bütün təmir növləri və təmir müddəti, vaxtaşırı texniki baxış zamanı avadanlığın mövcud texniki vəziyyətinə əsasən müəyyən edilir.

**$S_4$** – strategiyası "Tələbata görə təmir" *(Plandankənar təmir)* növünü tətbiq etməklə reallaşdırılır. Bu strategiyanın mahiyyəti təmir işlərinin, avadanlığın kritik həddə çatdığı və lazımi funksiyaları yerinə yetirməsinin mümkün olmadığı vaxtda aparılmasından ibarətdir. Bu strate-

giya o avadanlıqlara tətbiq edilir ki, həmin avadanlığın istismar müddəti 1-2 ildir və sıradan çıxdığı, dayandığı halda istehsal prosesinə və texnoloji prosesə, işçi personal və ətraf mühit üçün təhlükə mənbəyinə çevrilmir.

Beləliklə, yuxarıda təmir strategiyası ilə deyilənləri ümumiləşdirərək aşağıdakı kimi ifadə edə bilərik:

**$S_1$ – “Reqlamentləşdirilmiş təmir strategiyası” (ən kritik avadanlıqlara tətbiq edilir);**

**$S_2$ – “Etibarlılığa yönəldilmiş texniki xidmət və təmir strategiyası”;**

**$S_3$ – “Texniki vəziyyətə görə təmir strategiyası”;**

**$S_4$ – “Avadanlığın sıradan çıxana qədər istismarı strategiyası”.**




Texniki risklərin qiymətləndirilməsi üçün düsturda yerini alan ***RPN*** ***** – Risk Priority Number *(Riskin əhəmiyyəti)*, yaxud ***(RPN)*** = $(S_1; S_2; S_3; S_4)$ realyasion model üzrə solda verilən sxemdəki kimi ifadə edilmişdir:

Bilik mühəndisliyinə əsaslanaraq əldə edilmiş biliklərin hissə-hissə realyasion modeldə təsvirini verdikdən sonra yekun olaraq aşağıdakı sxemdə şərti neft avadanlığının təmir strategiyasının müəyyən edilməsinin intellektual elektron modelini təqdim edə bilərik. Sistemdə məşhur

alim Lütfi Zadənin və akademik Rafiq Əliyevin nəzəriyyələrindən və digər nəzəriyyələrdən və bilik texnologiyalarından istifadə edilməklə praktiki həll variantı verilmişdir:




Bu model təqdim edilmiş sxemə tam uyğun olaraq Excel-Macrosda müvafiq proqram dillərinə uyğun olan alqoritmlərlə proqramlaşdırılmışdır. Nəticələri təcrübədə tam yoxlanılmış və hal-hazırda tətbiq edilir. Aşağıda Excel-Macrosda proqramlaşdırılmış görüntülərdən əyanilik üçün bəzi təsvirlər təqdim edilir:

| Avadanlığın yarımsinifi | əsas meyarlar | | | | | əlavə şərtləri | | | Hesablama | Strategiya seçimi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Avadanlığın yarımsinifi | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | Qəza hadisələrinin ehtimalı (tezliyi) | Xərclərin qiymətləndirilməsi | Qəzanı proqnozlaşdırmağın mümkünlüyü | Avadanlığın hər alt sinfi üçün amillər nəzərə alınmaqla, ümumi balı | Ümumi balla və əlavə parametrlərə uyğun strategiya | Strategiya indikatoru |
| Digər elektrik avadanlıqları | 5 | 5 | 5 | 5 | 5 | 4 - Tez-tez baş verən | Təmir xərcləri < Dəymiş zərər | Mümkündür | 20 | S1 Strategiyası | ● |
| Digər elektrik avadanlıqları | 5 | 2 | 2 | 4 | 3 | 4 - Tez-tez baş verən | Təmir xərcləri < Dəymiş zərər | Mümkün deyil | 11,6 | S1 Strategiyası | ● |
| Digər mexaniki avadanlıqları | 5 | 5 | 5 | 5 | 5 | 3 - Ehtimal olunan | Təmir xərcləri > Dəymiş zərər | Mümkündür | 15 | S1 Strategiyası | ● |
| | | | | | | | | | 0 | | |
| Digər elektrik avadanlıqları | 3 | 3 | 4 | 4 | 3 | 3 - Ehtimal olunan | | | 10,2 | S1 Strategiyası | ● |
| | | | | | | | | | 0 | | |
| | | | | | | | | | 0 | | |
| Yaşayış binaları | 4 | 2 | 4 | 5 | 3 | 3 - Ehtimal olunan | Təmir xərcləri > Dəymiş zərər | Mümkün deyil | 10,2 | S1 Strategiyası | ● |
| | | | | | | | | | 0 | | |
| Nəzarət-ölçü cihazları və avtomatika avadanlıqları | 3 | 2 | 1 | 4 | 3 | 2 - Nadir hallarda baş verən | Təmir xərcləri < Dəymiş zərər | Mümkündür | 8 | S2 Strategiyası | ● |
| Qazıma avadanlıqları | 4 | 2 | 3 | 5 | 3 | 2 - Nadir hallarda baş | | | 6,6 | S2 Strategiyası | ● |

Bilik mühəndisliyindən istifadə edərək intellektual qərarların qəbul edilməsinin təqdim edilən versiyasında əsas məqsəd, bu məlumatların və biliklərin üzərindən təbii intellekt barəsində müvafiq məlumatların əldə edilməsi, sistemləşdirilməsi, müasir dünyagörüşə uyğun texniki dildə ifadə edilməsinin təmin edilməsidir.

Əsas məqsəd isə müasir dünyamızda, dilin linqvistik və semantik xüsusiyyətlərinə uyğun olaraq, süni intellektin inkişafında mühüm rol oynayan maddənin dördüncü halının *(söz-bilik-quantum)* yarandığı "xəzinənin" – "təbii intellektin" alqoritminin müasir elmi nəzəriyyələrə uyğun mahiyyətinin dərk edilməsidir.

| v. 1.0 | Avadanlıqların siyahısı | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| S/S | Zavod/Kodu | Avadanlığın nömrəsi | Avadanlığın təsviri | İş mərkəzi | Əsas vəsaitin nömrəsi | Funksional sahəsinin nömrəsi | Funksional sahəsinin təsviri | Xərc mərkəzi | Avadanlığın sinifi |
| 1 | 3104 | 40002907€ | Qaynaq ap | 10004-00 | 7017256 | 3104/S004 | Qaz məhs | 3104ES05 | M |
| 2 | 3104 | 40002908( | Corken ko | 10004-00 | 7018021 | 3104/S004 | Texniki pa | 3104ES05 | M |
| 3 | 3104 | 400029081 | Corken ko | 10004-00 | 7018022 | 3104/S004 | Texniki pa | 3104ES0520 | |

## 2.5. Peşə risklərinin monitorinqi və realyasion modellərin qurulması

Peşə risklərinin müəyyən edilməsi baxımından iş yerlərinin monitorinqinin aparılması üçün, məsələnin həllinə sistemli yanaşmanı təmin etmək lazımdır. Bu məqsədlə ilkin olaraq bilik hasiletmə sxeminə və bilik mühəndisliyi təcrübəsinə uyğun olaraq elmi-texniki ədəbiyyatdan, qüvvədə olan normativ-hüquqi aktlardan və müəssisə daxili lokal aktlardan mövzu üzrə müvafiq məlumatları və bilikləri əldə etmək lazımdır. Elmin 1-ci səviyyəsinin tələblərinə uyğun olaraq məntiqi idrakın köməyi ilə mövzu üzrə nəzəri bilikləri əldə etmək lazımdır. Mövzu üzrə ilkin nəzəri biliklər terminlərdən (məfhumlardan) anlayışlardan başlayır. Ona görə də aşağıdakı terminlərin anlayışlarını müvafiq mənbələrdən əldə etmək lazımdır. Bu baxımdan mənbələr haqqında anlayışımız olmalıdır. Hansı nəzəri bilikləri haradan əldə etmək lazımdır. Hansı mənbə daha etibarlıdır. Hansı mənbəyə istinad etmək olar, hansı mənbəyə istinad etmək olmaz və s. Qeyd edilənlərə əsasən aşağıda istifadə edəcəyimiz elmi-texniki ədəbiyyatın, qanunvericilik aktlarının, normaların və standartların sxem modeli verilmişdir:




Yuxarıda sözükeçən sənədlərdən əldə edilmiş terminlərin mahiyyəti barədə müvafiq biliklər əldə edilərək bu elmi monoqrafiyanın I Fəslində verilmişdir.

Peşə riskləri üzrə müvafiq terminləri *(məfhumları)* və onların daşıdığı anlayışları bilik mənbələrindən hasil etdikdən sonra onların məna və məzmununa nüfuz etməyi bacarmalıyıq. Belə ki, ilkin olaraq qeyd edək ki, biz monitorinqi iş yerində aparacayıq. Bu baxımdan iş yerinin nə olduğu və nə kimi keyfiyyətlərə malik olduğu haqqında yenə də müvafiq nəzəri bilikləri əldə etməliyik. Belə ki, iş yeri – "əmək prosesinin avtomatlaşdırma dərəcəsi", "işçilərin yerinə yetirdiyi funksiyalar", "müasir texniki – texnoloji tələblərə uyğunluq dərəcəsi", "avadanlığın xidmət sayı", "ixtisaslaşma dərəcəsi" kimi əsas meyarlarla təsnif-

ləşdirilir. Bilik mənbələrində aparılmış araşdırmalar əsasında, iş yeri anlayışına uyğun olaraq onun mahiyyətini xarakterizə edən bütün məlumatlar və yarana bilən risk növləri, həmin təsnifləşdirmə meyarlarına uyğun olaraq müvafiq elmi-metodiki və normativ-hüquqi mənbələrdən əldə edilmiş və aşağıdakı cədvəldə sistemləşdirilmişdir:






Deməli, iş yerlərində yerinə yetirilən əmək funksiyalarının xarakterindən, əməyin mexanikləşdirilmə – avtomatlaşdırılma, texniki təchizat dərəcəsindən, peşə və vəzifə növündən asılı olaraq yaranan peşə riskləri də dəyişir. Ona görə də peşə risklərinin də ehtimal olunan növlərini nəzərdən keçirmək lazımdır. Belə ki, iş yerinə müvafiq normativlər əsasında müəyyənləşdirilən[101] tələblər: 1) əmək fəaliyyətinin həyata keçirilməsi üçün kifayət qədər

[101] Общие эргономические требования к организации рабочих мест определяет ГОСТ 12.2.049-80, при выполнении работ сидя — ГОСТ 12.2.032-78, при выполнении работ стоя — ГОСТ 12.2.033-78, Общие требования безопасности к рабочим местам — ГОСТ 12.2.061-81.

işçi sahənin mövcudluğu; 2) əsas və köməkçi istehsal avadanlığının mövcudluğu; 3) istehsal prosesinin personalı arasında kifayət qədər fiziki, vizual və eşitmə əlaqələrinin təminatı; 4) avadanlığa rahat yanaşmaların mövcudluğu; 5) təhlükəli istehsal amillərindən müdafiə vasitələrinin mövcudluğu və təhlükəsizlik texnikasına riayət etmə; 6) iş aktivliyinin saxlanılmasına yönəldilmiş tədbirlərin keçirilməsi; 7) işçi mühitin mümkün səs səviyyəsi, hava mühitinin çirkləndirilməsi, temperatur rejimi və digər normalara uyğunlq nəzərə alınmalıdır. Peşə riskləri müəyyən edilərkən vəzifə arxitekturasına uyğun olaraq personalın: idarəedicilər, yüksək ixtisaslı mütəxəssislər, ofis qulluqçuları və istehsalat personalının iş yerinin xüsusiyyətlərindən irəli gələn xüsusiyyətləri də ayırırlar.

Qeyd etmək lazımdır ki, elmi-texniki ədəbiyyata və normativ sənədlərə, müvafiq standartlara uyğun olaraq peşə risklərinin qiymətləndirmə meyarları və bu meyarları müəyyən etmək üçün risklərin kəmiyyət və keyfiyyət təhlili üsulları aşağıdakı sxem-modelə uyğun apara bilər:



Ümumiyyətlə, bütün növlərdən olan risklərin o cümlədən personalın təhlükəsizliyi ilə bağlı risklərin idarə edilməsi fasiləsiz və ardıcıl prosesdir. Aşağıdakı sxemdə bu proses qrafik olaraq verilmişdir:




Sxemdən göründüyü kimi risklərin idarəedilmə prinsipi aşağıdakı ardıcıllıqla təmin edilir: ***Müəyyən etmə - Qiymətləndirmə - Tədbirlər planı - Tətbiq - Monitorinq - Nəzarət.***

Bu baxımdan ilkin olaraq risklərin əsas qiymətləndirmə meyarlarını müəyyən etməliyik. Bilik əldə etmə texnologiyasına uyğun olaraq elmi-texniki ədəbiyyatdan, normativ sənədlərdən və beynəlxalq standartlardan əldə etdiyimiz normalara, qaydalara və tələblərə əsasən bütün hallarda peşə riskini qiymətləndirmək üçün onun yaranması-

nı xarakterizə edən mühit – *“**əmək şəraiti**”* və həmin şəraitdən gözlənilən – *“**təhlükənin nəticələri**”*dir. Deməli:

**Əmək şəraiti** – *əmək proseslərinin ağırlıq və zərərlilik dərəcələrinə görə peşə xəstəliyinin yaranma ehtimalını -* **(P); təhlükə nəticələri** - isə təhlükənin personala təsiretmə nəticələrinin ciddiliyini - **(S)** ifadə edir.

Riskin gözlənilən tezliyini və ya müəyyən sinif təhlükələrin yaranmasının və ya arzu edilməyən hadisədən mümkün zərərin *(itkilərin, ziyanın)* ölçüsünü və ya bu ölçülərin bəzi kombinasiyasının ehtimalını təsəvvür etmək və qiymətləndirmək lazımdır. Bu məqsədlə beynəlxalq praktikaya və peşə risklərinin qiymətləndirilməsi metodlarına uyğun olaraq – “**Ehtimal – Nəticələrin Ağırlığıdır” MATRİSİ-indən istifadə edilir.** Aşağıdakı cədvəldə bu matris verilir:

| Qəza hadisələrinin baş vermə tezliyinin ehtimalı - P | Qəza hadisələrinin nəticələrinin ağırlığı - S | | | | |
|---|---|---|---|---|---|
| | Fəlakətli qəza hadisəsi | Böhranlı qəza hadisəsi | Nisbətən ağır qəza hadisəsi | Əhəmiyyətli qəza hadisəsi | Az əhəmiyyətli qəza hadisəsi |
| Ehtimalı çox yüksək (tez-tez baş verən) | A | A | A | A | B |
| Ehtimalı yüksək (yəqin) olan | A | A | A | B | C |
| Ehtimalı gözlənilən | A | A | A | B | C |
| Nadir hallarda baş verən | B | B | B | C | D |
| Praktiki ehtimal olunmayan | C | C | C | D | D |

Burada: **R** – balla riski, **P** – balla təhlükənin yaranma ehtimalını, **S** – balla təhlükənin təsiretmə nəticələrinin ciddiliyini ifadə edir. Təhlükənin yaranma ehtimalı – **"P"**, balla aşağıda müəyyən edilən göstəricilər üzrə təyin edilir:

**1. Əmək şəraitinin qiymətləndirmə meyarları üzrə:**

1.1. Əmək proseslərinin ağırlıq və zərərlilik dərəcələrinə görə peşə xəstəliyinin yaranma ehtimalı – (P) aşağıdakı göstəricilərlə qiymətləndirilə bilər:

**P =** İş yerinin balla zərərlilik dərəcəsindən, peşə xəstəliyinin yaranma ehtimalına keçid şkalası *(İpx peşə xəstəliyi indeksi):*

| **Əmək şəraitinin qiymətləndirmə meyarları üzrə:** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Ehtimalı cüzidir | Zərərlilik dərəcəsi - 2 bal olduqda |
| 2 | Ehtimalı çox aşağıdır | Zərərlilik dərəcəsi 4 bal olduqda |
| 3 | Ehtimal olunandır | Zərərlilik dərəcəsi 6 bal olduqda |
| 4 | Ehtimalı yüksəkdir | Zərərlilik dərəcəsi 8 bal olduqda |
| 5 | Ehtimalı çox yüksəkdir | Zərərlilik dərəcəsi 10 bal və yuxarı olduqda |

Düstur: İpx = 1/Ka ● Kt;

Burada: Ka – aşkar edilən peşə xəstəliyi (həmin sayın 1000-ə bölünməsi ilə müəyyən edilir);

Kt – aşkar edilən peşə xəstəliyinin ağırlıq kateqoriyası (həmin peşə xəstəliyi nəticəsində əmək qabiliyyətinin itirilmə günlərinin sayının 1000-ə bölünməsi yolu ilə müəyyən edilir).

**2. Təhlükə nəticələrinin qiymətləndirmə meyarları üzrə:**

2.1. Təhlükənin personala təsiretmə nəticələrinin ciddiliyi – (S) aşağıdakı göstəricilərlə qiymətləndirilə bilər:

**S =** Təhlükənin təsir etmə nəticələrinin ciddiliyi – ağırlığının (Ka) balla qiyməti:

| **Təhlükə nəticələrinin qiymətləndirmə meyarları üzrə:** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Əhəmiyyətsiz təsir | İlk tibbi yardım, mikrotravmalar. Əmək qabiliyyətinin 1(bir) iş gününə qədər itirilməsi |
| 2 | Həyati təhlükə (təhdid) yoxdur | İZ Aktının (formasının) rəsmiləşdirilməsi, əmək qabiliyyətinin 1 gündən çox (30 günə qədər) itirilməsi |
| 3 | Sağlamlıq üçün potensial | Əmək qabiliyyətinin 6 aya qədər itirilməsi möv- |

| Təhlükə nəticələrinin qiymətləndirmə meyarları üzrə: | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| | risk və ağır travma | cuddur |
| 4 | Ağır nəticələrlə qrup halında bədbəxt hadisələr | Ölümlə nəticələnən bədbəxt hadisə |
| 5 | Qrup halında ölümlə nəticələnən bədbəxt hadisələr | Ölümlə nəticələnən bir neçə bədbəxt hadisələr |

Düstur:

Ka = Baş verən bədbəxt hadisə nəticəsində əmək qabiliyyətini itirmə günlərinin sayı/1000.

**3. İş yerlərinin texniki səviyyəsinin qiymətləndirmə meyarları üzrə:**

3.1. Avadanlıqlı iş yerləri aşağıdakı göstəricilərlə qiymətləndirilə bilər:

| İş yerlərinin texniki səviyyəsinin qiymətləndirilməsi: Avadanlıqlı iş yerləri üzrə qiymətləndirmə meyarları | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Heç biri uyğun deyil | a).Tətbiq edilən avadanlığın məhsuldarlığı;<br>b). Məhsulun keyfiyyət tə- |
| 2 | Bir göstərici | |

| **İş yerlərinin texniki səviyyəsinin qiymətləndirilməsi: Avadanlıqlı iş yerləri üzrə qiymətləndirmə meyarları** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| | uyğundur | ləblərinə avadanlığın uyğunluğu; c). Tətbiq edilən texnoloji prosesin mütərəqqiliyi; d). İş yerinin texnoloji təchizatı |
| 3 | İki göstərici uyğundur | |
| 4 | Üç göstərici uyğundur | |
| 5 | Bütün göstəricilər uyğundur | |

3.2. Avadanlıqsız iş yerləri aşağıdakı göstəricilərlə qiymətləndirilə bilər:

| **İş yerlərinin texniki səviyyəsinin qiymətləndirilməsi: Avadanlıqsız iş yerləri üzrə qiymətləndirmə meyarları** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Heç biri uyğun deyil | a) Əl əməyindən istifadənin əsaslılığı; b) İşçinin alətlərlə təchizatı; c) İstifadə edilən alətlərin texniki səviyyəsi və keyfiyyəti; d) İş yerinin və əməyin |
| 2 | Bir göstərici uyğundur | |
| 3 | İki göstərici uyğundur | |
| 4 | Üç göstərici uyğundur | |

| **İş yerlərinin texniki səviyyəsinin qiymətləndirilməsi: Avadanlıqsız iş yerləri üzrə qiymətləndirmə meyarları** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 5 | Bütün göstəricilər uyğundur | təşkili səviyyəsi. |

3.3. İş yerlərinin təşkilati səviyyəsi aşağıdakı göstəricilərlə qiymətləndirilə bilər:

| **İş yerlərinin təşkilati səviyyəsini qiymətləndirmə meyarları üzrə:** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu** |
| 1 | Heç biri uyğun deyil | a) İş yerinin planlaşdırılmasının rasionallığı;<br>b) Yerinə yetirilən işlərin sayı və əmək tutumu;<br>c) İş növbəliliyi:<br>d) İdarəetmə və iş vaxtından istifadə. |
| 2 | Bir göstərici uyğundur | |
| 3 | İki göstərici uyğundur | |
| 4 | Üç göstərici uyğundur | |
| 5 | Bütün göstəricilər uyğundur | |

3.4. Əmək şəraiti və təhlükəsizlik təminatı aşağıdakı göstəricilərlə qiymətləndirilə bilər:

<table>
<tr><th colspan="3">Əmək şəraiti və təhlükəsizlik təminatı səviyyəsini qiymətləndirmə meyarları üzrə:</th></tr>
<tr><th>Balla qiyməti</th><th>Risklilik dərəcəsi</th><th>Qısa məzmunu</th></tr>
<tr><td>1</td><td>Heç biri uyğun deyil</td><td rowspan="5">a) İş yerinin sanitar - gigiyenik şərtlərinin normativ tələblərə uyğunluğu;<br>b) Təhlükəsizlik tələblərinə uyğunluğu və təmin edilməsi;<br>c) İşin monotonluğu;<br>d) Ağır əl əməyinin tətbiqi.</td></tr>
<tr><td>2</td><td>Bir göstərici uyğundur</td></tr>
<tr><td>3</td><td>İki göstərici uyğundur</td></tr>
<tr><td>4</td><td>Üç göstərici uyğundur</td></tr>
<tr><td>5</td><td>Bütün göstəricilər uyğundur</td></tr>
</table>

**4. Bədbəxt hadisələrin ehtimalının qiymətləndirmə meyarları üzrə:**

4.1. Təhlükəli vəziyyətə səbəb olan hadisələrin ehtimal tezliyinin qiymətləndirilməsi **(P)** aşağıdakı göstəricilərlə qiymətləndirilə bilər. Belə ki, bədbəxt hadisələrin ehtimalı *(tezliyi (Kt) 1000 nəfər işçiyə, bir il ərzində)* dilin linqvistik xüsusiyyətlərinə uyğun olaraq sözlə təsvir edilir. Eyni zamanda, sözlə təsvir edilən ehtimal əmək şəraitinin konkret xüsusiyyətləri ilə əlaqələndirilir. Belə ki, hər bir istehsalatda baş verən bədbəxt hadisələrin statistik uçotu

aparılır. Ekspert qiymətləndirilmənin monitorinqi yerinə yetirilən iş yeri ilə əlaqədar əldə olan statistik məlumatlardan istifadə olunur. Bu zaman "promil" anlayışından istifadə edilir. Promil- hər hansı bir kəmiyyətin mində bir hissəsidir. Bu məqsədlə aşağıdakı düsturdan istifadə edilərək baş verəcək bədbəxt hadisələrin ehtimal tezliyi qiymətləndirilir:

Düstur:

Kt = Bədbəxt hadisələrin sayı/1000.

Bədbəxt hadisələrin ehtimalının qiymətləndirmə şkalası isə aşağıdakı cədvəldə təsvir edilmişdir:

| **Bədbəxt hadisələrin ehtimalının qiymətləndirmə meyarları üzrə:** | | |
|---|---|---|
| **Balla qiyməti** | **Risklilik dərəcəsi** | **Qısa məzmunu Bədbəxt hadisələrin ehtimalı (tezliyi (Kt) 1000 nəfər işçiyə, bir il ərzində):** |
| 1 | Praktik olaraq ehtimal olunmayan | - 0,01 hadisə; |
| 2 | Nadir hallarda baş verən | - 0,1 -:- 0,5 hadisə; |
| 3 | Ehtimal olunan | -1,0 -:- 5,0 hadisə; |
| 4 | Yaranma ehtimalı yüksəkdir | -10 -:- 20 hadisə; |
| 5 | Yaranma ehtimalı çox yüksəkdir (tez-tez baş verən) | - 50 -:- 100 hadisə. |

**5. Qiymətləndirmənin əlavə şərtlərinin meyarları üzrə:**

5.1. Xərclərin qiymətləndirilməsi – Texniki təmir xərcləri > Dəymiş zərər; Texniki təmir xərcləri < Dəymiş zərər.

5.2. Hadisəni proqnozlaşdırmağın mümkünlüyü – Mümkündür / Mümkün deyil.

"Ekspert qrupu" yuxarıda göstərilən "peşə xəstəliyi" və "istehsalat zədəsi" üzrə hər bir "Risk"in **(R)** kateqoriyalarını ayrı-ayrılıqda təsnifat matrisi üzrə 5 ballıq şkala əsasında müəyyən edə bilər. Risklərin qiymətləndirilməsində istifadə edilən bal metodu əsasında nəticələrin qiymətləndirilməsi aşağıdakı düstur əsasında aparılır:

$$R = P \times S$$

Burada: R - balla riski; P - balla təhlükənin yaranma ehtimalını; S - balla təhlükənin təsiretmə nəticələrinin ciddiliyini ifadə edir. Matrisin tələblərinə və risklərin müəyyən edilmə düsturuna uyğun olaraq aparılan hesablamalar nəticəsində aşağıdakı məlumatları əldə edirik:

| Qəza hadisələrinin baş vermə tezliyinin ehtimalı -P | Qəza hadisələrinin nəticələrinin ağırlığı -S | | | | |
|---|---|---|---|---|---|
| | Fəlakətli qəza hadisəsi | Böhranlı qəza hadisəsi | Nisbətən ağır qəza hadisəsi | Əhəmiyyətli qəza hadisəsi | Az əhəmiyyətli qəza hadisəsi |
| Ehtimalı çox yüksək (tez-tez baş verən) | 25 | 20 | 15 | 10 | 5 |
| Ehtimalı yüksək (yəqin) olan | 20 | 16 | 12 | 8 | 4 |
| Ehtimalı gözlənilən | 15 | 12 | 9 | 6 | 3 |
| Nadir hallarda baş verən | 10 | 8 | 6 | 4 | 2 |
| Praktiki ehtimal olunmayan | 5 | 4 | 3 | 2 | 1 |

"Risklər"in kateqoriyaları aşağıdakı kimi bölünür:

- Qəbul edilə bilən (R < 9);
- Qəbul edilməyən (R ≥ 9).

*"**Qəbul edilə bilən**"* kateqoriyalara aid edilmiş risklər, müəssisədə həyata keçirilən idarə etmə sahəsində sənaye, yanğın və elektrik təhlükəsizlikləri ölçülərinə uyğun olaraq qanunvericilik tələblərinin təminatı üzrə lazımi prosedurların və vasitələrin həyata keçirilməsində istifadə edilir.

*"**Qəbul edilməyən**"* kateqoriyalara aid edilmiş risklər yolverilməz hesab edilir və bu riskləri idarə etmə üzrə əlavə tədbirlərin hazırlanması tələb olunur.

Yuxarıda cədvəl x-də verilən risk qiymətləndirmə və idarəetmə matrisi üzrə risk şiddətinin kateqoriyalar üzrə bölgüsü aşağıdakı kimidir:

**A** (9 -:- 25 bal) - Riskin ətraflı təhlili məcburidir, riskin azaldılması üçün xüsusi təhlükəsizlik tədbirləri tələb olunur;

**B** (5-:- 8 bal) - Riskin ətraflı təhlili faydalıdır (arzu olunandır,) təhlükəsizlik tədbirləri tələb olunur;

**C** (3 -:-4 bal) - Riskin təhlilinin keçirilməsi və təhlükəsizlik tədbirlərinin qəbul edilməsi tövsiyə edilir;

**D** (1 -:-2 bal) - Riskin təhlili və təhlükəsizlik tədbirləri tələb olunmur.

Personalın təhlükəsizliyinin təmin edilməsi məqsədilə ehtimal olunan risklərin identifikasiyası *(tanınması)* üzrə müvafiq meyarlar müəyyən edildikdən və risk matrisi qurulduqdan sonra elektron modellərin tərtib edilməsi prosesini təmin etmək olar.

Nəzərə almaq lazımdır ki, hər hansı ölçü meyarının daxil edilməsindən asılı olmayaraq, qeyri-səlis məntiq nəzəriyyəsinin şərti təmin edilməlidir. Yəni qeyri-səlis çoxluqlarda, hər hansı bir ölçü meyarının peşə riskinin əmələ gəlməsində edə biləcəyi təsirin əhəmiyyətliliyi də, digər meyarlarla müqayisədə verilməli və həmin meyarların bütövlükdə cəminin 1,0-a bərabər olması şərti təmin edilməlidir. Bu aşağıda verilmiş sxemdəki kimi ola bilər:




Risklərin təhlilinin bu xəritələrinə əsasən, "ekspert qrupu" "struktur bölmənin" qəbuledilməz risklərinin reyestrini hazırlayır və onları "Əməyin Mühafizəsi Xidməti"nə təhvil verir.

"Ekspert qrup"dan alınmış məlumatları rəhbər tutaraq, "Əməyin mühafizəsi xidməti" müəssisənin qəbuledilməz risklərinin Reyestrini formalaşdırır, "Əməyin Mühafizəsinin İdarə Edilməsi Sistemi"nin rəhbərliyinin nümayəndəsi ilə razılaşdıraraq təsdiq edilməsi üçün müəssisə rəhbərinə təqdim edir.

Təhlükələrin eyniləşdirilməsi və mühafizə tədbirlərinin hazırlanması vaxtı bu və ya digər maşın və ya avadanlığa, yaxud onlar üçün tipik təhlükələrə aid olan standart-

ları istinad materialları (RD, TU, SNİP, QOST, AzStandart və digər ) kimi istifadə etmək faydalıdır.

Təhlükələrin eyniləşdirilməsi qiymətləndirilmənin əhəmiyyətli mərhələsidir. Yalnız təhlükə müəyyən edildikdən sonra, onun azaldılması üzrə hər hansı hərəkət və ya təşəbbüs edilmiş ola bilər.

Göründüyü kimi, peşə risklərinin idarə edilməsi çətin strukturlaşdırılan və idarə olunan məsələlərdəndir. Məhz belə sistemlərin idarə edilməsində ən optimal və ən effektiv qərarların qəbul edilməsi üçün süni intellektin imkanlarından istifadə edilir. Bu qeyd edilənlərin araşdırılmasında və sistemləşdirilməsində bilik mühəndisliyinin imkanlarından və bilik hasil etmə metodlarından istifadə edilmişdir. Burada qeyri-səlis məntiq və qərar qəbuletmə nəzəriyyələrinin imkanlarından da yararlanmaq mütləqdir. Bu məqsədlə sonrakı addımlarda bilik mühəndisliyinin realyasion model və freym model üsullarından istifadə etməklə peşə risklərinin identifikasiyasının və idarə edilməsinin elektron sistem üçün sxem modelini qururuq:



Yuxarıda qeyd edilən intellektual model əsasında iş yerlərinin zərərlilik və ağırlılıq dərəcələrinə görə monitorinqi nəticəsində alınan qərarlar qüvvədə olan sanitar-gigiyenik normalar əsasında aparıldığından əmək prosesinin və iş mühitinin gigiyenik normativlərdə göstərilənlərdən faktiki kənarlaşma dərəcəsindən asılı olaraq, əmək şəraiti zərərlilik və təhlükəlilik dərəcəsinə görə 4 sinifə bölünür:

**Optimal əmək şəraiti (1-ci sinif)** - işçinin sağlamlığının mühafizə olunmasına və yüksək iş qabiliyyətini saxlamağa imkan verən iş şəraitidir. Optimal kimi, şərti olaraq zərərli faktorların olmadığı və ya personal üçün təyin olunan təhlükəsizlik həddini keçməyən iş şəraiti qəbul edilir.

**Yol verilə bilən əmək şəraiti (2-ci sinif)** - iş yerləri üçün müəyyən olunmuş gigiyenik normativləri aşmayan əmək prosesi və mühit amillərinin səviyyəsi ilə xarakterizə olunur. Yol verilə bilən əmək şəraitini şərti olaraq təhlükəsizlər sırasına aid edirlər.

**Zərərli əmək şəraiti (3-cü sinif)** - üçüncü zərərlilik sinfinə uyğundur. Belə əmək şəraitləri üçün bu və ya digər zərərli istehsalat amillərinin nəinki mövcudluğu, həm də bu amillərin yol verilə bilən həddi aşması xarakterikdir. Gigiyenik normativləri aşma həddinə görə zərərli əmək şəraiti 4 zərərlilik sinfinə bölünür:

**Üçüncü sinfin birinci dərəcə zərərli əmək şəraiti (3.1.)** – gigiyenik normaları aşma cüzidir və orqanizmin bərpasına sərf olunan vaxt optimal şəraitdə tələb olunan vaxtdan bir qədər artıqdır. Yəni orqanizm adi iş və istirahət rejimində növbəti iş gününədək bərpa olunmur. Əgər

belə iş şəraitində iş və istirahət rejimini dəyişmədən işləmək davam etdirilərsə, funksional dəyişikliklər toplanaraq gec-tez hər hansı bir peşə xəstəliyinə gətirib çıxaracaqdır. Bir sözlə, birinci dərəcə zərərli əmək şəraitində sağlamlığın zədələnmə riski, yol verilə bilən əmək şəraitində işləməkdən daha yüksəkdir.

**Üçüncü sinfin ikinci dərəcə zərərli əmək şəraiti (3.2.)** - gigiyenik normaları aşma həddi nəzərə çarpacaq dərəcədədir və belə şəraitdə işləyənlərin orqanizmi bərpa olunmağa vaxt tapmır. Belə şəraitdə işçilər tez-tez xəstələnir və əmək qabiliyyətlərini müvəqqəti itirirlər. Xüsusən də gigiyenik normaları aşan zərərli istehsalat amillərinin təsir etdiyi orqanlar daha həssasdır. Belə əmək şəraitində kifayət qədər uzun müddət (15 il və daha çox) iş stajı ümumi əmək qabiliyyətinin və ya peşə əmək qabiliyyətinin itirilməsinə səbəb olmayan peşə xəstəliyinə, yaxud onun yüngül formasına gətirib çıxarır.

**Üçüncü sinfin üçüncü dərəcə zərərli əmək şəraiti (3.3.)** - gigiyenik normaları aşma həddi daha çox nəzərə çarpacaq dərəcədədir. İşçilərdə tez-tez residivlərlə (tam müalicə oluna bilməyən və təkrarlanan) xroniki xəstəliklər aşkar oluna bilər. Əmək qabiliyyətini itirmə müddəti daha geniş intervallarda baş verir. Peşə xəstəliyinin yüngül və orta forması, çox da uzunmüddətli olmayan əmək fəaliyyəti dövründə inkişaf edə bilər və çox vaxt peşə əmək qabiliyyəti itirilir, işçi öz peşəsi üzrə işləyə bilmir və yeni elə bir peşəni mənimsəməlidir ki, əmək şəraiti əvvəlki peşəsində olduğu kimi zərərli olmasın. Əgər belə iş və istirahət

rejimində işçi uzun müddət işləyərsə xəstəliyin daha ağır formalarına səbəb ola bilər.

**Üçüncü sinfin dördüncü dərəcə zərərli əmək şəraiti (3.4.)** - fəhlələr tez-tez və daha ağır, xroniki xəstəliklərə tutulur, demək olar ki, işdən çox xəstəlik vərəqəsi götürürlər. Belə xəstəliklər içərisində daha ağır elə peşə xəstəliyi ola bilər ki, nəinki əmək qabiliyyətinin tez-tez itirilməsinə, hətta əlilliyə də səbəb ola bilər.

**Təhlükəli əmək şəraiti (4)** - ekstremal əmək şəraiti adlanır və dördüncü zərərlilik sinfinə uyğundur. Bu sinfə aid edilən əmək şəraitində zərərli istehsalat amillərinin səviyyəsi o dərəcədə yüksəkdir ki, peşə sağlamlığının kəskin itirilməsi bir növbə ərzində də baş verə bilər.

Qeyd etmək lazımdır ki, istehsalat qəzalarının aradan qaldırılmasında istifadə olunan bəzi peşələr istisna olmaqla, ümumiyyətlə, ekstremal şəraitdə işləmək qəti qadağandır. Belə şəraitdə işləmək məcburiyyətində olan işçilər üçün xüsusi iş və istirahət rejimi və məcburi qaydada səmərəli FMV-lərdən istifadə tətbiq olunur. Əmək şəraitinin 4-cü təhlükəlilik sinfinə aid olunduğu halda, iş yeri attestasiya olunmamış sayılır və təcili olaraq yenidən təchiz edilməli və yaxud ləğv edilməlidir.

Əmək proseslərinin ağırlıq və gərginlik göstəriciləri üzrə əmək şəraitinin təsnifatı aşağıda sxem 1-də verilmişdir:




Yuxarıda hesabatı verilən risk matrisi və göstəriciləri əsasında tərtib edilən elektron sxem-model əsasında proqramlaşdırılan intellektual qərar qəbuletmə sisteminə uyğun olaraq:

1. Əgər ekspertlər tərəfindən əmək şəraitinin müəyyən edilmiş göstəricilər üzrə qiymətləndirilməsi prosesində elektron sistem - **A** = *(9 -:- 25 bal)* intervalında nəticə təqdim edirsə - Riskin ətraflı təhlili məcburidir, riskin azaldılması üçün xüsusi təhlükəsizlik tədbirləri tələb olunur. Ona görə ki, bu intervalda qiymətləndirilən iş yerləri əmək şəraitinin ağırlıq və gərginlik göstəriciləri üzrə 3.1; 3.2; 3.3; 3.4; 4; dərəcələrindən birinə uyğun gəlir.

2. Əgər ekspertlər tərəfindən əmək şəraitinin müəyyən edilmiş göstəricilər üzrə qiymətləndirilməsi prosesində elektron sistem - **B** = *(5-:- 8 bal)* intervalında nəticə təqdim edirsə - Riskin ətraflı təhlili faydalıdır *(arzu olunandır),* təhlükəsizlik tədbirləri tələb olunur. Ona görə ki, bu intervalda qiymətləndirilən iş yerləri əmək şəraitinin ağırlıq və gərginlik göstəriciləri üzrə 2-ci sinif *(yol verilə bilən)* əmək şəraitidir. Yəni belə əmək şəraitində zərərli istehsalat amilləri mövcuddur, lakin sanitar-gigiyenik normalar intervalındadır.

3. Əgər ekspertlər tərəfindən əmək şəraitinin müəyyən edilmiş göstəricilər üzrə qiymətləndirilməsi prosesində elektron sistem – **C =** *( 3 -:-4 bal)* intervalında nəticə təqdim edirsə - Riskin təhlilinin keçirilməsi və təhlükəsizlik tədbirlərinin qəbul edilməsi tövsiyə edilir.

4. Əgər ekspertlər tərəfindən əmək şəraitinin müəyyən edilmiş göstəricilər üzrə qiymətləndirilməsi prosesində elektron sistem - **D** = *(1 -:-2 bal )* intervalında nəticə təqdim edirsə - Riskin təhlili və təhlükəsizlik tədbirləri tələb olunmur. Ona görə ki, bu intervalda qiymətləndirilən iş yerləri əmək şəraitinin ağırlıq və gərginlik göstəriciləri üzrə 1-ci sinif *(optimal əmək şəraiti)* əmək şəraitidir. Yəni işçinin sağlamlığının mühafizə olunmasına və yüksək iş qabiliyyətini saxlamağa imkan verən iş şəraitidir. Optimal kimi, şərti olaraq zərərli faktorların olmadığı iş şəraiti qəbul edilir.

Yuxarıda qeyd edilən nəticələr ekspertlərə Excel Macrosda təqdim edilən proqramlaşdırma və qiymətləndirmə siste-

mi əsasında aparılır. Bu məqsədlə elektron sistemə iş yerləri haqqında məlumatlar da daxil edilir. Aşağıdakı cədvəldə əsas qiymətləndirmə meyarları təqdim edilmişdir:

| Risklərin identifikasiyası | | | | | | | | | | | Risklərin idarəedilməsi | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Beynəlxalq standarta - İSO 12001 və OHSAS 18001 uyğun olaraq bütün siniflərdən olan avadanlıqların istismarında yaranan peşə risk növləri | | | | | | | | | | | Zərəli təsirlərin qarşısının alınma mümkünlüyü – aşağıda qeyd edilənlərdən tətbiq etməklə | | | | | | |
| Mexaniki risklər | Elektrikli risklər | Termiki risklər | Səs – küy riskləri | Titrəmə riskləri | Şüalanma riskləri | Material və maddələrin yaratdığı risklər | Avadanlığın erqonomik prinsiplərinin pozulmasından yaranan risklər | Sürüşməkdən və yıxılmaqdan yaranan risklər | Risklərin kombinasiyasından yaranan risklər | Avadanlığın istismarından yaranan risklər | Fərdi mühafizə vasitələrini | Kollektiv mühafizə vasitələrini | Vaxtla mühafizə tədbirlərini | Normativ sənədlərin tələblərini | Zədə təhlükəsizliyindən qoruyucu vasitələri | Yeni texnika və texnologiya tətbiqi | Vasitə ilə mümkün deyil istehsal (iş) dayandırılmalıdır. |

Qiymətləndirmə meyarları üzrə Excel Macrosda müvafiq qiymətləndirmələr aparıldıqdan sonra nəticələrin idarə edilməsi məqsədilə aşağıdakı cədvəldə verilən məlumatlardan istifadə edilir. Belə ki, hər bir peşə riskinin növünə uyğun olaraq zərərli təsirlərin qarşısının alınma mümkünlüyünə uyğun olan vasitə seçilir:

| Əsas qiymətləndirmə meyarları | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Əmək şəraiti üzrə | Təhlükə nəticələri üzrə | İş yerlərinin texniki səviyyəsi üzrə | | | | Bədbəxt hadisələrin ehtimalı | Qiymətləndirmənin əlavə şərtləri | |
| Əmək proseslərinin ağırlıq və zərərlilik dərəcələrinə görə peşə xəstəliyinin yaranma ehtimalı - | Təhlükənin personala təsiretmə nəticələrinin ciddiliyi - (S) | Avadanlıqlı iş yerləri | Avadanlıqsız iş yerləri | İş yerlərinin təşkilati səviyyəsi | Əmək şəraiti və təhlükəsizlik təminatı | Təhlükəli vəziyyətə səbəb olan hadisələrin *(iş yerində zərərli faktorların)* ehtimalı tezliyinin qiymətləndirilməsi (P) | Xərclərin qiymətləndirilməsi | Hadisəni proqnozlaşdırmağın mümkünlüyü |

Yuxarıda qeyd edilən qiymətləndirmə prosesi Excel-Macrosda proqramlaşdırılmış və aşağıdakı şəkillərdə görüntüsü verilmişdir:




Şəkildən göründüyü kimi sistemə zərərli iş yerləri haqqında müvafiq məlumatlar da daxil edilməlidir. Sistemdə müəssisənin, sexin (sahənin, bölmənin), iş yeri və peşənin (vəzifənin) adı, iş yerinin sayı, sonuncu attestasiya

nəticəsində qiymətləndirmə nəticələri əsasında 10 ballıq şkala əsasında müəyyən edilən zərərlilik dərəcəsinin qiyməti balla və avadanlığın sinfi və yarımsinfi də qeyd olunmalıdır.

Yuxarıdakı şəkildən də göründüyü kimi yuxarıda sözükeçən qiymətləndirmə matrisi üzrə qiymətləndirmə meyarlarından əlavə, idarə edilmə strategiyası üzrə də müvafiq qiymətləndirmə meyarları olmalıdır ki, elektron sistemin təyin etdiyi risk növü barədə ekspert hər bir iş yeri üzrə monitorinqin son nəticəsini yekunlaşdıra bilsin.

Yəni Beynəlxalq standarta - İSO 12001 və OHSAS 18001 uyğun olaraq bütün siniflərdən olan avadanlıqların istismarında yaranan peşə risk növləri və zərəli təsirlərin qarşısının alınma mümkünlüyü barədə müvafiq normalara uyğun məlumatlar sistemə uyğun əldə edilməlidir.

Bu bölmədən əvvəlki 2.4. bölməsində *(Biliklərin realyasion model təsviri)* avadanlıqların təmir strategiyasının müəyyən edilməsi ilə əlaqədar bilik mühəndisliyindən istifadə edərək intellektual qərarların qəbul edilməsinin təqdim edilən versiyasında əsas məqsədin, bu məlumatların və biliklərin üzərindən təbii intellekt barəsində müvafiq məlumatların əldə edilməsi, sistemləşdirilməsi, müasir dünyagörüşə uyğun texniki dildə ifadə edilməsinin təmin edilməsi olduğu qeyd edilmişdir. Bu fikri digər bir məsələnin – peşə risklərinin qiymətləndirilməsinin və idarə edilməsinin tətbiqində sınanması da bu praktikanın əsaslılığını və mümkünlüyünü bir daha təsdiq etməkdir.

Həmin bölmədə qeyd edildiyi kimi, yenə də əsas məqsədimiz müasir dünyamızda, dilin linqvistik və semantik xüsusiyyətlərinə uyğun olaraq, süni intellektin inkişafında mühüm rol oynayan maddənin dördüncü halının *(söz-bilik-quantum)* yarandığı "xəzinənin" –"təbii intellektin" alqoritminin müasir elmi nəzəriyyələrə uyğun mahiyyətinin dərk edilməsini aşılamaqdır.

Qeyd etmək lazımdır ki, eyni zamanda, bu elmi monoqrafiyada "avadanlıqların təmir strategiyasının müəyyən edilməsi" və "peşə risklərinin idarə edilməsi" kimi məsələlərin həllinin özü də ayrı-ayrılıqda hər biri qeyri-səlis məntiq və qərar qəbul etmə nəzəriyyələrinin praktiki həll variantlarına elmi-praktiki əhəmiyyəti olan nümunələrdir.

# III FƏSIL

# BİLİK MÜHƏNDİSLİYİ VƏ TƏBİİ İNTELLEKTIN ÖYRƏNİLMƏSİ

III Fəsil – Təbii intellektin alqoritminin mahiyyətini, tərkibini, formalaşmasının əsaslarını əhatə edir. Bu monoqrafiyanın II Fəslində oxuculara aşılanmağa çalışılan bilik mühəndisliyinin üsul və qaydalarının tətbiqi məsələlərinin yeni bir sferaya – təbii intellektin mahiyyətinin öyrənilməsinə tətbiqi ifadə olunur. Biliklərin əldə edilmə texnologiyasına uyğun olaraq tamamilə yeni bir məsələ aydınlığı ilə aşkar olur. Belə ki, İsaak Nyutonun ümumdünya cazibə qanunu kimi, Lütfi Zadənin də qeyri-səlis məntiq nəzəriyyəsinin yaradılışın *(ən azı mülk aləminin)* əsasına hopdurulduğu aşkar olur. Yəni təbii intellektin alqoritminin əsasında da həmin məntiqi formalaşdıran yaradılanların ***(nəfs, ağıl, qəlb)*** və onların hər birinin tərkib elementlərinin keyfiyyət cəminin "1.0" bərabərliyini təmin etməsidir.

## 3.1. Dodaqdan qəlbə axan sözün mənası hikmətdir

Mövlana Cəlaləddin Rumi "Məsnəvi"də yazırdı: "Sözün dəyəri yoxdur" sözünü eşidirik səndən, necə dəyəri olmaz sözün ki, "Sözün dəyəri yoxdur" sözünü də sözlə söyləyirsən".

Hansı şəxslər bir-birini anlayır və başa düşür? Eyni dildə danışanlarmı!? Yaxud eyni mənəvi dəyərləri bölüşənlər!? Bu məsələlər müasir dünyamızın təkcə görmə, oxuma, dinləmə düşünmə, fikirləşmə və dərketmə problemi deyil, həm də mənəviyyat problemidir. "İnsanların ço-

xu sizi başa düşmək üçün deyil, cavab vermək üçün dinləyir". Dərk etmək üçün nə etmək lazımdır!? Təsəvvür etmək – xatırlamaq! Fikirləşmək! Düşünmək! Sözün daşıdığı məna bədəndə ruh kimidir. İnsanın ruhunu duymadan dediyi sözü də başa düşmək olmur, yaxud çətindir. Sözün də hansı mənanı daşıdığını başa düşmək *(sözün əsl mənasında oxumaq)* üçün nəyi qəsd etdiyini bilmək *(idrak etmək)* lazımdır. Yəni sözün bir zahiri mənası, bir batini mənası var, batini məna içində, qəsd edilən bir, hikmət mənası, nur mənası var! Əslində, sözün mənası, onun qabığı olan hərflərdə *(xəzinədə)* gizlədilmişdir. Ona görə də sözün mənasını anlamaq üçün hərf qabığını sındırmaq lazımdır. Bu qabığın sındırılması isə artıq irfan məsələsidir. Elə bir irfana sahib olmaq lazımdır ki, məlum olanları nizamlaya, sistemləşdirə və dərk *(idrak)* edə biləsən. Yəni aşağıdakı sxemdəki prosesi keçə biləsən:



Əslində bu proses qəlbin nurlandırılması prosesidir. Bu baxımdan haqqı-batildən *(həqiqəti-yalandan; düzü-əyridən)* ayırmaq üçün ağıl yetərli deyil, qəlbi *(könlü-ruhu)* də sistemə qoşmaq lazımdır. Bu sistem sxematik olaraq aşağıdakı kimi ifadə oluna bilər:




Lakin düzgün anlamaq və başa düşmək *(haqqı-batildən ayıra bilmək)* üçün qəlbin də yetərincə tərbiyə olunması gərəklidir. Qəlbə *(könülə)* yerləşdirilən ilahi Nuru, iman nuru ilə aydınlatmaq zəruridir ki, iradə və qüdrət düzgün istiqamətə yönləndirilə bilsin. Bu məsələ isə ağlın sistemə qoşulmasını tələb edir:




Ağlın tərkibi haqqında sonrakı bölmələrdə ətraflı məlumat veriləcəkdir. Bu bölmədə isə əsas məsələ bu sistemlərin qarşılıqlı əlaqəsinin qurulması, sözün daşıdığı

mənanın düzgün dərk edilməsi, haqqı-batildən ayırmaq üçün zəruri insani keyfiyyətlərin izah edilməsinə çalışılmasıdır.

Məsələ ondadır ki, sözün hərf qabığını sındırmaq və oradakı mənaya nüfuz etmək, daha doğrusu, maddənin dördüncü halı olan biliyi formalaşdıran və yetişdirən "sistemin" keyfiyyətli və mükəmməl olmasını təmin etmək zəruridir. Belə bir "sistem" üçün həm ağlın, həm qəlbin *(könülün)* və həm də nəfsin düzgün tərbiyə olunması mütləqdir. Bu məqsədlə nəfsin də tərkibini bilmək lazımdır ki, onu bu tərbiyələndirmə və idarəetmə sisteminə *(ağıl və qəlb)* qoşulmasını ifadə edə bilək. Daha doğrusu, bizim özümüzü tanımağımız lazımdır. Aşağıda nəfsin tərkibi sxematik olaraq verilmişdir:




Nəfsin düzgün tərbiyəsi, insanın mənəvi tərbiyəsidir. Nəfsin düzgün tərbiyəsi, ona lazımi hədləri tanıtmaqdır. Bu isə nəfsin ağıl sisteminə düzgün qoşulması ilə mümkündür. Ağıl sistemi də lazımi nəzəri və praktiki biliklərə malik olmalıdır ki, nəfsi məlumatlandıra bilsin. Nəfsin istəklərinin düzgün yönəldilməsi isə sistemə qəlbin qoşulması ilə mümkündür.

Deməli, yuxarıda verilmiş sxemlərdən də göründüyü kimi insan dodaqlarından söz formasında süzülən və nəfsin, ağlın süzgəcindən keçməklə qəlbə axan – hopan – bərqərar olan söz-kəlmə hikmətdir. Qeyd etmək lazımdır ki, sözün həqiqi mənasında oxumaq, həmin sözün daşıdığı məna yükünü bilmək, ruhunu duymaq və dərk etməkdir.

Ümumiyyətlə Bilik nədir? Qısa olaraq, hər bir bilik xüsusi kodlara və alqoritmlərə malik şifrələnmiş məlumat mənbəyidir. Elmin bugünkü səviyyəsindən maddənin 4-cü halıdır. Həmin kodları və alqoritmləri bilməyən şəxs həmin biliyin daşıdığı məlumatları deşifrələyə bilərmi!? Cavab birmənalıdır! Əlbəttə ki, yox! Bu baxımdan ilk baxışda sadə görünən bir hikmətli kəlamı oxumağa *(dərk etməyə, təfəkkür etməyə, idrak etməyə, deşifrələməyə)* çalışaq. Belə ki, Hz. Əli (ə) buyurur: "Dövlətin dini ədalətdir. Ədalətsiz dövlət, zatən dinsizdir!". Bu kəlam maddənin 4-cü halı kimi bir bilik *(Quantum-Plazma),* kodlaşdırılmış və alqoritmlərə malik məlumatlardan ibarətdir. Bu məlumatlar mənbəyini deşifrələməyə çalışaq. Hikmətli kəlamda kodlaşdırılmış və alqoritmləşdirilmiş əsas söz *(məna yükü)* "ədalət" kəlməsidir. Hər bir elmin dərk edilməsi üçün ilkin olaraq o elmə aid olan məfhumların *(terminlərin)* daşıdığı anlayışı qavramaq *(başa düşmək)* zəruridir. Hər bir termin də müxtəlif xalqların daşıdığı müxtəlif dillərin semantik quruluşuna, xalqların və qövmlərin əsrlər boyu formalaşmış ruhuna uyğun olaraq çevrildikdə və ya tərcümə edildikdə, həmin terminin *(məfhumun)* daşıdığı mənanı

şəxsin başa düşmə və ya oxuma dərəcəsindən asılı olaraq terminin orijinalı bu və ya digər dərəcədə təhrif olunur, yaxud elə bir kəlmə ilə ifadə oluna bilmir ki, orijinal kəlmənin daşıdığı əsl mənanı ifadə edə bilsin. Bu da ayrı bir söhbətin mövzusudur.

İndi isə gələk "ədalət" anlayışına. İnsan bir çox əxlaqi sifətlərə *(fəzilətlərə)* sahibdir. Fəzilətin ədalət cinsi də həmin sifətlərdən biridir. Məsələ orasındadır ki, insanın ədalətli ola bilməsi üçün o, digər müvafiq fəzilətlərə malik olmalıdır. Əks halda, həmin şəxs ədalətli ola bilməz, yaxud hər hansı bir kritik, fors-major hallarda və məsuliyyətli anlarda və hallarda ədalətli davranış nümayiş etdirə bilməz. Bu fəzilətlərə - "hikmət",[102] "şücaət",[103] "iffət"[104] kimi terminlərin daşıdığı məna və məzmun yükü daxildir. Eyni zamanda, ayrı-ayrılıqda hər bir fəzilətə sahib olmaq üçün, həmin fəziləti xarakterizə edən müvafiq keyfiyyətlərə sahib olmaq lazımdır. Aşağıda insanın hər hansı bir is-

---

[102] İmam Əli əleyhissəlam (hikmət barəsində) buyurmuşdur: Hikməti (düz və haqqa uyğun sözü) harda olsa əldə edin (istər yaxşı əməl sahibindən olsun, istərsə də pis əməllidən). Çünki hikmət münafiq və ikiüzlünün sinəsində də var və (onun dilindən) xaric olub öz sahibi olan möminin sinəsində məskən salıncaya qədər orada (hikmətin saxlanılmasına layiq olmayan yerdə) iztirab və sıxıntıdadır.

[103] İmam Əli əleyhissəlam (səbr barəsində) buyurmuşdur: Səbr iki cürdür: (Biri) bəyənmədiyin şeyə səbr etmək (ki, bu növ səbr **şücaət və cəsurluqdur**) və (digəri) sevdiyin şeyə səbr etmək (ki, bu cür səbr namus və ismətdəndir). Nəhcül-bəlağə, 52-ci kəlam.

[104] İmam Əli əleyhissəlam iffətliliyin mədhində buyurmuşdur: Allah yolunda şəhid olmuş mücahidin savabı (haram və nalayiq işlər görmək) qüdrət və imkanı olan, amma iffət-ismət göstərən kəsdən çox deyil. (Haram və nalayiq işlərdən çəkinən) iffətli şəxsin mələklərdən biri olması daha yaxındır. Nəhcül-bəlağə, 466-cı kəlam.

tənilən hadisə qarşısında ədalətli ola bilməsi üçün lazım olan mənəvi keyfiyyətləri ehtiva edən məfhumların daşıdığı məna yükünün sözlərlə ifadə edilən açıqlaması, dilimizin semantik xüsusiyyətlərinə uyğun sxem-modeli verilmişdir:




Burda uzun bir haşiyə çıxmağa ehtiyac duyuruq.

“Qurani-Kərim”ə görə ədalət anlayışı nədir: “Həqiqətən, Allah (“Quran”da insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edər. (Allah) sizə, bəlkə, düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!”.

Hüseyn Cavid də “Peyğəmbər” dramında məhz bu ayənin poetik tərcüməsini vermişdi:

“Ulu Tanrı, o görünməz Yaradan
Əmr edər yalnız ədalət, ehsan.
O fəna işləri fuhşiyyatı
Nəhy edər varlığının isbatı

Şu təbiət, şu məhabətli fəza...
Onca birdir, ulu, zəngin, füqəra".

Yenə də Hüseyn Cavidin "Hübuti-Adəm" şeirinə istinad etmək yerinə düşür:

Diyorlar bir zaman Adəmlə Həvva
Yaşarmış rövzeyi-cənnətdə tənha.
O bir mə'va ki, pək biganəyiz biz,
Bu topraqdan uzaq, qəmsiz, kədərsiz.
O bir mə'va ki, ruhani, münəvvər,
Uçarmış orda zərrinpər mələklər.
O bir mə'va ki, nəşr eylər sərasər
Əməllər, nəş'ələr, güllər, çiçəklər.
Gözəl, asudə bir mə'vayi-sevda;
Geniş, azadə bir səhrayi-xülya.
Xəzansız bir baharistani-cavid,
Ki solmaz orda əsla bərgi-ümmid.
Fərəhdən ağlar insan bəlkə, bilməm!
Bulunmaz orda lakin hüznü matəm.
Əvət, bir öylə xoş mə'vada tənha
Yaşarmış qayğısız Adəmlə Həvva.
Yaşarmış məstü şeyda, şadü xəndan;
Yaşarmış vəqfi-sevda, safü üryan.
Degilmiş süs geyim onlarca adət;
Fəqət geydikləri bir tül ki, iffət.
İki dildadeyi-zevqü şətarət,
Olub vüslətgüzini-bəzmi-ismət;

Gülümsər daimi bir sur içində,
Yaşarkən öylə nuranur içində,
Hücum etmiş də süfli ehtirasat,
Qabarmış adəmiyyət hissi... heyhat!
O ülviyyət, o ülvi sərmədiyyət
Zəbuni-ehtiras olmuş nihayət,
Nihayət, incə bir vəhşi təmayil,
O ülvi eşqi etmiş məhvü zayil.
Birər heykəl kibi məbhutü heyran,
Hicab altında qalmışlar hərasan.
Sararmış bət-bəniz, uçmuş təravət;
Hücum etmiş haman rəngi-səfalət,
O dəm ənvarə müstəğrəq, sərazad;
Gözəl bir qız, səmavi bir pərizad
Gəlib Həq canibindən əldə fərman,
Demiş: Çıq, ey səfalətpərvər insan!
Çıq, ey qafil bəşər! Dəf ol, çəkil, get!
Bu lahuti təfərrücgahı tərk et!
Degil layiq sana gülzari-cənnət...
O süfliyyətlə hissi-adəmiyyət
Bu ülviyyatı hiç eylərmi idrak?
"Çe nesbət xakra ba aləm-e pak!?"105
Düşün, baq nerdəsin, bir kərrə anla!
Bu mə'va öylə bir firdevsi-ə'la
Ki, hər bir levsdən, hər məfsədətdən,
Bütün vəhşətdən ari bir nişimən...
Sən əvvəl xeyrü şərdən bixəbərdin,

[105] Torpaq pak aləmə yaraşarmı?

Çocuq ruhilə bipərva gəzərdin;
Nə buldun, qürbi-Həqdən böylə sapdın?
Düşün! Naqis bəşər, bir baq nə yapdın!?
Bu gün qüdsiyyətin olmaqda bərhəm;
Yazıq! Aldandın, ey biçarə Adəm!
Təəssüf biəsər... Pək çoq yanıldın,
Nədamət bisəmər... Pək gec ayıldın.
Edər lahutiyan səndən şikayət,
Səninçin burda pək müşkül iqamət.
Çəkil, get! Rəhbərin şəhmari-isyan;
Açılmış onda baq bir qövri-nisyan
Ki, həp müzlim, kədərza, tabfərsa,
Müləvvəs bir cədəlgah: iştə dünya!
Degilmişsin hərimi-qüdsə məhrəm;
Eşin Həvvayı al kəndinlə bahəm.
Enib qıl aləmi-nasuti məskən,
Nədir əzvaqi-dünya anla, ögrən!
Əzil, qəhr ol, keçənlər keçdi, heyhat!
Budur Həqdən səninçin son mükafat!
Qoşarsın bir zaman məhkumi-xüsran,
Ararsın gülşəni-lahuti giryan.
Yaşarsın vadiyi-zillətdə mə'yus,
Fəqət dönməz, o günlər geçdi, əfsus!
Cihan durduqca həp nəslin bərabər,
Bu müdhiş zərbədən qurtulmaz, inlər.
Bu qəflət, öylə bir süfli cinayət
Ki, verməz kimsəyə bir ləhzə rahət.
Bu gün əxlaf için səndən əmanət

Qalan yalnız fəlakətdir, fəlakət!
Əmin ol, nerdə nəfs olmuşsa hakim;
Həqiqi eşqi məhv etmiş məzalim.
Kimin ülviysə ruhu, söz onundur,
Əsiri-nəfs olan daim zəbundur.

Deməli, nəzəri elmi qüvvənin, əməli elmi qüvvənin, qəzəb qüvvəsinin, şəhvət qüvvəsinin saflaşdırılması, bu qüvvələrin vahid ittifaqı və idrakın yaxşını pisdən ayıran qüvvəsinin böyük seçilməsi nəticəsində ədalətli olmaq olar. Bu mənada yuxarıda sxem-modeldə *(freymdə)* verilmiş və fəzilətin şücaət cinsinə daxil olan "qeyrət"[106] və "riqqət" hissinin də nümunə üçün nə olduğunu dərk etməyə çalışaq: Azərbaycan dilinin izahlı lügətinə əsasən: "Qeyrət - vətən, xalq, ailə namusu; ən əziz və müqəddəs sayılan bir şeyin təəssübünü çəkmə, şərəfini, heysiyyətini qoruma, vətənin qeyrəti naminə heç nəyi əsirgəməmək, canını olsa belə qurban vermək *(Məsələn: İmam Hüseynin (ə) İslam dininin və "Qurani-Kərim"in qorunması uğrunda, Haqqın - batildən ayrıd edilməsi uğrunda həm özünün, həm əhli-əyalının və həm də qohum-əqrəbasının şəhid olması; Qarabağ müharibəsində vətən torpağının mənfur düşməndən azad edilməsi uğrunda əsgərlərimizin şəhid olması və s. buna əyani sübutdur)*". Yenə də, Azərbaycan dilinin izahlı lügətinə əsasən: "Riqqət - ürək yumşaqlığı, ürək incəliyi, şəfqəti ifadə

---

[106] İmam Əli əleyhissəlam (zina barəsində) buyurmuşdur: Qeyrətli şəxs heç vaxt zina etməz. (O, kiminsə onun yaxınları ilə zina etməsini qəbul etmədiyi kimi, qeyrəti, onun özünün də ona haram olan qadınla yaxınlıq etməsinə icazə vermir.) Nəhcül-bəlağə, 297-ci kəlam.

edir”. Bu keyfiyyətlər haqqında Nəsrəddin Tusinin “Əxlaqi-Nasiri” əsərində və digər təsəvvüf-irfan əhlinin dəyərli kitablarında ətraflı məlumat verilmişdir.

Qeyd etmək lazımdır ki, sözün həqiqi mənasında oxumaq, həmin sözün daşıdığı məna yükünü bilmək, dərk etməkdir. Məsələn, “əfv”[107] və “səxavət”[108] terminləri kimi. Yəni əfv edilməyə layiq olan insanı, cəzalandırmağa qüdrəti və imkanı olan şəxs edə bilər. Əks təqdirdə əfv hadisəsinin yerinə yetirilməsi və əməl edilməsi baş verməz. Yaxud səxavət sözünün daşıdığı əsl həqiqi məna yükü ondan ibarətdir ki, layiq olan hər hansı bir insana bir şeyin *(qiymətli hədiyyənin)* bağışlanması, onun istənilmədən edilməsidir. İstəklə *(hədiyyənin bağışlandığı şəxsin istəyi)* edilən şey, xəcalətdən, tənədən, töhmətdən qorxmaqla da edilə bilər. Belə olan halda, o səxavət adlanmır.

Yuxarıda aparılan araşdırmalardan və verilən sxem - modellərdən də göründüyü kimi, təbii intellektin qəlb xəzinələrində formalaşdırdığı xüsusi məna və əhəmiyyət kəsb edən kəlamların-biliklərin-hikmətlərin süni intellekt formasında kompüter proqramlarına inteqrasiyası həqiqətən də koqnitiv dilçiliyin inkişafını tələb edir. Koqnitiv dil-

---

[107] İmam Əli əleyhissəlam (əfv etmək barəsində) buyurmuşdur: İnsanların əfv etmək və bağışlamağa ən layiq olanı, onların cəzalandırmağa ən çox qüdrət və imkanı olanlarıdır. (Çünki əfv etmək qüdrətdən asılıdır. Buna görə də zəifin əfv etməsi mənasızdır.) Nəhcül-bəlağə, 48-ci kəlam.

[108] İmam Əli əleyhissəlam (səxavətin mənası barəsində) buyurmuşdur: Səxavət və (layiq olan kimsəyə bir şey) bağışlamaq, onu istənilmədən etməkdir. İstək ilə edilən şey isə xəcalətlilik və məzəmmətdən (istəyən şəxsin və ya xalqın töhmətindən) qurtulmaqdır. Nəhcül-bəlağə, 50-ci kəlam.

çiliyin inkişafının təmin edilməsi mümkün olmadan, həmin sözlərdə daşınan hikmət və nur mənalarının freymlərə və kompüter proqramlarına çevrilməsi problematikdir. Bu problemin həlli yollarının əsaslarından biri də qeyd edildiyi kimi bilik mühəndisliyinin inkişafıdır.

Bizim araşdırdığımız məsələlər "Bilik mühəndisliyi" və bu biliklərin sistemləşdirilərək süni intellektlə əlaqəli müvafiq freymlərin *(çərçivələrin)* qurulması və kompüter proqramlarına inteqrasiya və transformasiya olunması məqsədini daşıdığından bu istiqamətdə əsasən bir yol xəritəsi olmaqdır. Dahi Lütfi Zadənin terminologiyası ilə "həqiqətin reallığa münasibəti dil işarələri ilə ifadə edilir". Koqnitiv dilçiliyin əsasını təşkil edən "ifadə", "müraciət" və "təsvir" forması İKT-nin inkişafında xüsusi əhəmiyyət kəsb edir.

**Ona görə də bilik mühəndisləri "nəfsi", "ağlı", "qəlbi" elə yetişdirməli və tərbiyələndirməlidirlər ki, ağızdan-dildən çıxan-süzülən-axan, elmi-bədii ədəbiyyatdan oxunan-dinlənilən söz qəlbə axa bilsin. Dodaqdan qəlbə axan sözün – kəlamın hikmət və nur mənalarını dərk və idrak edə və ya sözün hərf qabığını sındıra bilsinlər.**

## 3.2. "Quran"da elmi – metodiki dəlillər

Hər hansı bir mütəxəssisin hazırladığı texniki qurğu, maşın və ya unikal bir avadanlığın iş prosesində fəaliyyəti yoxlanılır, yaxud ehtimal olunan təhlükələrdən gözlənilən riskləri qarşılamaq, müvafiq korreksiyaların

aparılmasını təmin etmək məqsədilə sınaqdan keçirilməklə müşahidə edilir, zəruru texniki-konstruktiv dəyişikliklər aparılır və texniki pasportunda müvafiq düzəlişlər edilir. Əslində bu xüsusiyyət, insana onu xəlq edən tərəfindən apriori *(başlanğıc şüura xas olan bilik)* olaraq fitrətində yerləşdirilmişdir. "Quran" ayələrinin xitab formasına, insanın yaradıldığı andan və yer üzünə endirildiyi, Peyğəmbərlərin bir-birini əvəz edilərək göndərildiyi, müxtəlif xalqların, qövmlərin və tayfaların yaradıldığı, məhv edildiyi, məhv edilənlərin daha yeniləri ilə əvəz edildiyi, hər dəfə yenilənən xalqlara onların öz dilində danışan Peyğəmbərlərlə yanaşı, müvafiq Kitabların göndərilməsi də real şəraitin *(insan və onu əhatə edən kainatla birlikdə bütün aləmlərin)* Uca Yaradan tərəfindən nəzərə alınmasına və müvafiq korreksiyaların təmin edilməsinə işarədir. "Quran" ayələrinin üslubundan da göründüyü kimi, müxtəlif xalqlara, tayfalara və qövmlərə göndərilən Peyğəmbərlərə verilən möcüzələr, Kitablar və göndərilən bəlalar da onların xarakterinə, düşüncə tərzinə və Uca Rəbbimizin öz elmi ilə ehtiva etdiyi və bildiyi daxili keyfiyyətlərinə uyğun və adekvatdır. Bu adekvatlılıq təkcə insana göndərilən peyğəmbərlərdə, müqəddəs kitablarda, bəlalarda deyil, həm də insanı əhatə edən xarici aləmlə[109] *(mələklər, şeytan-*

[109] "(Biz həm də göyü) itaətdən çıxmış hər bir şeytandan qoruduq. Onlar ali bəzmə (yuxarı aləmə, mələklər aləminin söhbətlərinə) qulaq asa bilməz və hər tərəfdən (axan ulduzlar vasitəsilə) qovulub atılar. (Səmadan) kənar edilərlər. Onları daimi bir əzab gözləyir! Ancaq (şeytanlar içərisində mələklərin söhbətlərindən bir sözü, bir xəbəri) çırpışdıran (oğrun-oğrun öyrənən) olsa, onu da dərhal yandırıb-yaxan bir ulduz (hər şeyi dəlib keçən bir məşəl) təqib edər". ("Əs-Saffat", ayə 7-10).

*lar, ulduzlar və s.)* əlaqəli özünü göstərir. Necə ki, uca göylərdə *(ülvi aləmdə)* mələklərin sözünə-danışığına qulaq asan şeytanlar həmin xəbərləri onların dostları olan bəzi insanlara özlərinin də əlavəsi ilə qeyb xəbərləri kimi çatdırıb yaymaqla yer üzündə və insanlar arasında fitnə-fəsad törədirdilər. Sonuncu Peyğəmbərin *(Hz. Muhəmmədin (s.s.))* və sonuncu Kitabın *("Quranın")* göndərilməsi və Uca Rəbbimizin dinimizi tamamlaması prosesində, yuxarıda qeyd etdiyimiz kimi, bütün gözlənilə bilən risklərin qarşısının alınması, yalnız Uca Rəbbimizə məlum olan yaradılışa uyğun xarici aləmdə *(kainatda və s.)* ehtimal olunan və insanın gücü xaricində olan bütün anlamlarda gözlənilə bilən xətalardan -risklərdən sığortalanmasıdır. Hətta insanın öz cinsindən olanlardan *(kafirlərin, müşriklərin, münafiqlərin qəlblərinin möhürlənməsi, gözlərinə pərdə çəkilməsi, qulaqlarının kar olması və s.)*[110] belə mühafizə edilməsi məqsədi ilə[111] Uca Rəbbimiz bütün korreksiyaların zaman-zaman yerinə yetirilməsini təmin etdikdən *(qeyb xəbərlərinin şeytanlar tərəfindən oğurlanması nəticəsində insanlar arasında fit-*

---

[110] "(Ya Rəsulum!) De: "Bir deyin görüm, əgər Allah sizin qulaqlarınızı və gözlərinizi əlinizdən alsa, ürəklərinizə möhür vursa, onları sizə Allahdan qeyri hansı tanrı qaytara bilər?". Gör Biz ayələrimizi onlara necə izah edirik, sonra onlar ondan gör necə üz döndərirlər. ("Əl-Ənam", ayə 46). "Məgər Allahın köksünü (qəlbini) islam üçün açmaqla Rəbbindən nur üzərində olan kəs (qəlbi möhürlənmiş kimsə kimi ola bilərmi)?! [Və ya: Məgər Allahın köksünü (qəlbini) islam üçün açdığı kəs Rəbbindən bir nur üzərində deyilmi?!] Elə isə vay qəlbləri Allahın zikrinə ("Qurana") qarşı sərt olanların halına! Onlar (haqq-yoldan) açıq-aydın azmışlar. ("Əz-Zumər", ayə 22).

[111] "Onlar Allahın nurunu (islam dinini) öz ağızları (öz iftiraları və şər sözləri) ilə söndürmək istəyirlər. Allah isə - kafirlərin xoşuna gəlməsə də, öz nurunu (dinini) tamamlayacaqdır". ("Əs-Səff", ayə 8).

*nə-fəsad toxumunun səpilməsi və s. kimi risklərin qarşısının alınması,)*[112] və həmin ayələri öz sevimli Peyğəmbərinə Ruhul Qüds vasitəsilə vəhy etdikdən *(yəni bizim müasir texniki dillə ifadə edə biləcəyimiz anlamda - avadanlığın (yaradılanın) texniki pasportunda bütün müvafiq dəyişiklikləri və əlavələri təmin etdikdən sonra)* dinimizi tamamladığını və din olaraq islamı seçdiyini bəyan etdi[113] *(daha doğrusunu Uca Rəbbimiz bilir).* Əslində digər tərəfdən bu həm də onu ifadə edir ki, insan və onu əhatə edən xarici aləm elə bir qarşılıqlı uyğun ahəngdarlıqda və mükəmməllikdə yaradılmışdır ki, ona göndərilən sonuncu Peyğəmbərdən *(Hz. Muhəmməd (s.s.))* və Kitabdan *(Nurdan*[114] *- "Quran"dan)* sonra yolunu

---

[112] "Doğrusu, bizim səfehimiz (İblis) Allah barəsində tamamilə yalan (haqdan uzaq sözlər) söyləyirmiş. Biz elə güman edirdik ki, nə insan, nə də cin tayfası Allah barəsində yalan danışmaz. Həqiqətən, (Cahiliyyət dövründə) bəzi insanlar bir para cinlərə pənah aparır, bununla da onların təkəbbürünü (azğınlığını) artırırdılar (cinlər özləri haqqında çox böyük fikirlərə düşürdülər). Onlar (o insanlar) da siz (cinlər, yaxud o cinlər də siz insanlar) təkin elə güman edirdilər ki, Allah heç kəsi (öləndən sonra) diriltməyəcəkdir. Biz (cinlər yuxarı aləm əhlinin söhbətinə oğrun-oğrun qulaq asmaq üçün) göyə qalxmaq istədik (səmanı yoxladıq), amma onun (mələklərdən ibarət) güclü gözətçilər və yandırıb-yaxan (axan) ulduzlarla dolu olduğunu gördük. Biz (Muhəmməd əleyhissəlamın peyğəmbər göndərilməsindən əvvəl mələklərin söhbətinə) qulaq asmaq üçün (göyün) bəzi yerlərində otururduq. Lakin indi kim (onların söhbətinə) qulaq asmış olsa, yandırıb-yaxan bir ulduzun onu gözlədiyini görər. Biz bilmirik ki, (göyün gözətçi mələklərlə, axan ulduzlarla doldurulması və mələklərin söhbətinə qulaq asmağın bizə qadağan edilməsi ilə) yerdə olanlara bir pislik etmək istənilmişdir, yoxsa Rəbbi onlara bir xeyir diləmişdir. ("Əs-Cinn", ayə 4-10).

[113] "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim. ("Əl-Maidə", ayə 3).

[114] "Ey insanlar! (Bu Muhəmməd) sizə Rəbbiniz tərəfindən dəlil gəlmişdir. Biz sizə aydın bir nur ("Quran") endirdik". ("Ən-Nisa", ayə 174).

azması, rəzalətə düşməsi yalnız və yalnız özünün günahı və zəfliyi səbəbindən nəfsinin istəklərinə nəzarət etməməsi, yaxud belə bir nəzarətin təmin edilməsi üçün oxumaması, təfəkkür etməməsi, zəruri bilikləri öyrənməməsidir. Yəni əgər şeytan ona vəsvəsəsini diktə etdirə bilirsə şeytanın mələklərdən oğurladığı qeyb xəbərlərindən yox *(ona görə ki, onun qarşısı Uca Rəbbimiz tərəfindən alınmış, dinimiz tamamlanmış, halal-haramın sərhədləri müəyyənləşdirilmiş, insan ən gözəl şəkildə (əhsən-i təqvim) yaradılaraq qəlb, ağıl, göz, qulaq və s. kimi bütün nemətlər verilmişdir),* insanın anormal həyat tərzi, genetik koduna uyğun olaraq qidaların halalından yeməməsi, daxili mənəvi qüvvələrin qayğısına qalmaması, bir sözlə, "Quran" əxlaqını və islam dininin qoyduğu qayda-qanunla yaşamamasıdır.[115]

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi, Uca Rəbbimiz Adəmdən-Xatəmə bütün qövmləri, qövmlərə göndərilən Peyğəmbərləri (s.s.) və Peyğəmbərlərə göndər-

---

[115] "Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqqı ayırd edən (bir nur) verər (dünyada və axirətdə çıxış yolu göstərər), günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf (mərhəmət) sahibidir!". ("Əl-Ənfal", ayə 29). Təfsiri: İnsanın yaşama tərzinin; aldığı qidaların miktar, cins ve kalitesinin, psikolojik temrinlerin (alıştırmalar) ve ibadetlerle yapılan eğitimin bilgi kaynaklarını etkilediği, ilham, keşif ve sezgi kapılarını açtığı konusunda tecrübeye dayalı bir genel kabul vardır. İbadet ve bilginin imanı arttırması da, amelle zihin ve kalp arasında bir etkileşimin bulunduğunu göstermektedir. Kur'an-ı Kerîm'in başka âyetlerinde de takvânın, insana problemlerden çıkış yolu sunduğu, hayat yolunda yürürken önünü aydınlatan bir nur oluşturduğu ifade buyurulmuştur (et-Talâk 65/2; el-Hadîd 57/28). İnsanın akıl ve vicdanının işlevini amaca uygun bir şekilde yerine getirmesini engelleyen maddî ve özellikle mânevî faktörlere karşı takvâ ilâcının tavsiye edilmiş bulunması müminler için eşi bulunmaz bir fırsat ve imkân teşkil etmektedir. Kaynak : Kur'an Yolu Tefsiri Cilt: 2 Sayfa: 683.

diyi Müqəddəs Kitabları hər dövrə və qövmə uyğun olaraq təkmilləşdirməklə, bəzi ayələrin hökmlərini qaldırmaqla, yeni hökmlər gətirməklə və yaratdığı bütün aləmlərin sonuncusu olan insanla qarşılıqlı və adekvat uzlaşdırılmasını və korreksiyalarını təmin etdikdən sonra mükəmməl din olaraq İslamı və Kitab olaraq "Qurani-Kərim"i seçmişdir.

Digər səmavi dinlərdə və müqəddəs Kitablarda göstərilənlər *(əgər təhrif olunmayıbsa),* yaxud "Quran"ın hökmləri[116] əbədi həyat yoluna və seyrə çıxmış yaradılanın - insanın *(yuxarıda texniki dillə ifadə etdiyimiz kimi)* özünün-özü tərəfindən səmərəli, qəzasız və təhlükəsiz fəaliyyətinin təmin edilərək, ona vəd edilən cənnəti qazanması üçündür. Əks təqdirdə fəaliyyət prosesində "texniki pasportda" müəyyən edilən şərtlərə əməl edilməməsi *(avadanlığın – texniki pasportunda göstərilən istismar qaydalarının pozulması)* risklərin artmasına və təhlükə potensiallı "obyekt" kimi "partlayışa" və "yanğına" *(məsələn: cəhənnəm odunda)* səbəb ola bilər.

Ona görə də belə risklərin qarşısının alınması üçün insan özünü tanımalı, *"istismar qaydalarını"* öyrənməli və əməl etməlidir. Bu baxımdan aşağıdakı bölmədə insan nəfsinin idarəedilmə tələbləri verilmişdir.

---

[116] "Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və ismətli (özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan) qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır. İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar! ("Əl-Maidə", ayə 5).

## 3.3. Nəfsin strukturu və tərkib elementləri

Uca Rəbbimiz "Ər-Rum" surəsinin 30-cu ayəsində buyurur: *"(Ya Rəsulum! Ümmətinlə birlikdə)* batildən haqqa tapınaraq *(pak bir müvəhhid, xalis təkallahlı kimi)* üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini *(Onun yaratdığı tövhid dini olan islamı)* heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti *(haqq dininin islam olduğunu)* bilməz. *(Allah bütün insanları xilqətcə müsəlman - təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə - bütpərəstliyə uymuşlar)"*. Deməli, yer üzünün xəlifəsi olan insan özünü tanımalıdır. Bununla əlaqədar Hz. Peyğəmbərdən (s.s.) və Hz. Əlidən (ə) hədislər və rəvayətlər söylənilir. Bildirilir ki, özünü tanıyan Allahını tanımışdır. Özünü tanıyan, Yaradanının əzəmət və cəlalını dərk edər. Bəs biz özümüzü tanıyırıqmı!? Özümüzü tanımaq üçün ilkin olaraq nəfsimizə hakim olmağı bacarmalıyıq. Daxili mənəvi dünyamıza səyahətə çıxmalıyıq. Necə ki, sağlamlığımızı qorumaq üçün həkim yanına gedirik, yaxud bədən üzvlərimizin və daxili orqanlarımızın iş prinsipi ilə tanış oluruq, hansı qidaların qəbul edilməsi barədə məlumatlar toplayır, araşdırmalar aparırıq, eyni ilə də mənəvi sağlamlığımızla məşğul olmalıyıq. Bunun üçün mənəvi dünyamıza səyahətdə ilk tanış olmalı mücərrəd varlıq nəfsdir.[117] Lakin nəfsin tərkibini və strukturunu bilmək də onun da-

---

[117] Nəfsə termin olaraq verilən tərif isə belədir: "Nəfs, şəhvət, qəzəb, kin, nifrət və s. bənzəri duyğuların əsası, mərkəzi, insan bədənində olan haldan-hala düşən və mənəvi olaraq kamilləşə bilən cövhərdir».

ha mükəmməl idarə edilə bilməsi üçün bizə müvafiq biliklər verə bilər. Müqəddəs "Quran"a nisbətdə elm və irfan sahiblərinin apardıqları araşdırma və təcrübələrdən zərrə-zərrə toplanan biliklərə əsasən bədən nəfsani ehtiraslara, həvavü-həvəsə, ruh isə ilahi aləmə meyillidir. Ruhla bədən arasındakı ziddiyyətin başlıca səbəbi nəfsdir. İrfani düşüncəyə əsasən nəfs insanı onun ilahi nurundan (əsl "məndən"[118]) ayıran bir pərdədir. Ümumi anlamda insan nəfsinin tərkibi – "nəbati nəfs", "heyvani nəfs" və "insani nəfs" kimi hissələrdən ibarətdir. Bu, sxematik olaraq aşağıdakı kimidir:




[118] Yunus Əmrənin: "Məni məndə demə məndə deyiləm, bir mən vardır məndə məndən içəri" – deyərkən nəzərdə tutduğu "mən" həmin "mən"dir. Mövlana Cəlaləddin Ruminin: "Ruh sədəfdir, könül sədəf üstündə pəncərədir. Sədəf içindəki inci ruhun nurudur. Üçüncü can ruhun Nurunun Nurudur. Bədən isə incinin içində olduğu dənizdir ki, onu qaranlıqlara qərq edib"- deyərkən nəfslə (canla-ruhla, (yəni insan ana bətnində olarkən 120-ci gündə mələklər tərəfindən daxil edilən ruh) bədənin və Allah-təalanın ("Əl-Hicr" surəsinin 29-cu ayəsində "Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, təzim məqsədilə) səcdə edin!". Adəmə (ilk insana!) surət verib ona öz ruhundan üfürdüyü aşkar şəkildə nəzərə çatdırılan həmin müqəddəs Ruhla iç-içə olan qarşılıqlı mücərrəd münasibətlərin təsviridir.

Deməli, insanın özünü tanıması, idarə etməsi və bu prosesdə qarşıya çıxan risklərin doğru və düzgün qarşılanması *(həm bu dünyaya özünü qaptırmaması və həm də axirətinin əldən verilməməsi)* üçün necə bir mürəkkəb və həm də sirli bir varlıq olduğunu, hər bir qüdrətə malik olan Uca Xaliqin onu (insanı) xəlq edəndə Özünə Əhsən Deməsinin[119] sirrinə vaqif olmalıdır. Uca Rəbbimiz Müqəddəs "Quran"ın "Ət-Tin" surəsinin 4-cü ayəsində[120] insanı ən gözəl biçimdə *(əhsən-i təqvim)* yaratdığını bildirərək, "Əl-Maidə" surəsinin 105-ci ayəsində[121] insana öz nəfsini tanımasını əmr edir.

---

[119] "Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) bir məxluqat olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!" ("Əl-Muminun", ayə14).

[120] "Biz insanı ən gözəl biçimdə yaratdıq! ("Ət-Tin", ayə 4). Təfsiri: ""En güzel biçim" diye çevirdiğimiz ahsen-i takvîm tamlaması bu bağlamda insana Allah tarafından verilen en güzel ve en mükemmel biçim ve yapıyı, bu sayede insanın, yeryüzü varlıkları içinde gerek fizyolojik gerekse ruhsal ve zihinsel yetenekler bakımdan en mükemmel ve en seçkin canlı olarak yaratılmış olmasını ifade eder. Yaratılmışların en mükemmeli olan insanda bulunan –âyetteki deyimiyle– bu güzelliğin kaynağı, Allah'ın onu kendi eliyle yaratıp ruhundan üflemesi (bk. Sâd 38/72, 75), "kendi sûreti üzere" (kendi sıfatlarından ona –insanlık düzeyinde olmak üzere– lütufta bulunarak) yaratması (bk. Buhârî, "İsti'zân", 1; Müslim, "Birr", 115), onu yeryüzünde halife kılması (bk. Bakara 2/30; bilgi için bk. Süleyman Uludağ, "Ahsen-i Takvîm", DİA, II, 178) vb. lütuf ve inayetleridir. Müfessirler Allah'ın insandan daha güzel mahlûku olmadığı kanaatindedirler. Zira Allah insanı canlı, bilen, irade sahibi, konuşan, işiten, dinleyen, gören, düşünüp tedbir alan, hikmetle hareket eden ve bütün bu özellikleri sayesinde fizik bakımdan kendisinden daha güçlü varlıklar üzerinde bile hâkimiyet kurabilen , kültürler ve medeniyetler geliştirebilen bir varlık olarak yaratmıştır ki bütün bu vb. sıfatlar aynı zamanda ilâhî sıfatların bir kısmının ondaki yansımaları, tecellileridir" (krş. Şevkânî, V, 546). Kaynak : Kur'an Yolu Tefsiri Cilt:5 Sayfa:646-647

[121] "Ey iman gətirənlər, nəfsinizə diqqət edin!". ("Əl-Maidə", ayə 105).

Ona görə də Müqəddəs "Quran"a və hədislərə əsaslanan elm-irfan sahibi şəxslərin əsərlərindən əxz elədiyimiz biliklərə uyğun olaraq aşağıda nəbati və insani nəfslərin tərkibinin əks edildiyi sxem-modellər verilmişdir:




Sxemdən göründüyü kimi, nəbati nəfs – "qidalanma", "böyütmə" və "törəmə" qüvvələrindən, insani nəfs – "nitq" qüvvəsindən ibarətdir.

Nəfsin strukturunda ən mürəkkəb quruluşa heyvani nəfs malikdir. Yenə də Müqəddəs "Quran"a və hədislərə söykənərək elm-irfan sahibi şəxslərin əsərlərindən əldə edilmiş biliklərə əsasən heyvani nəfsin tərkibi aşağıdakı sxem-modeldə verilmişdir:




Sxem modeldən göründüyü kimi, mürəkkəb quruluşa malik olan heyvani nəfs – "qeyri-ixtiyari duyğu" və "ixtiyari-iradi təhrik" qüvvələrindən ibarətdir. Eyni zamanda "qeyri-ixtiyari duyğu" qüvvəsinin özü də "zahiri"

və "daxili" duyğu vasitələrindən ibarətdir. Bununla yanaşı, "ixtiyari-iradi təhrik" qüvvəsi də "şəhvət" və "qəzəb" qüvvəsindən ibarətdir. Digər tərəfdən, "zahiri" və "daxili" duyğu vasitələrinin hər birinin özünə məxsus tərkib hissələri mövcuddur. Belə ki, "zahiri" duyğu vasitələri – "görmə", "eşitmə", "qoxu", "dad", "lamisə" və "daxili" duyğu vasitələri – "müştərək duyğu-qavrayış, təsəvvür", "vəhm-qorxu, şübhə, instinkt, intuisiya", "maraq-meyil, arzu, şövq", "xəyal" və "hafizə" kimi duyğu vasitələrindən ibarətdir.

Bütün bunlarla yanaşı, nəfsin quruluşu, strukturu və tərkib elementləri bununla da məhdudlaşmır. Nəfsin həm də mərtəbələri mövcuddur. Nəfsin hər bir mərtəbəsi insanın müvafiq daxili keyfiyyətlərinə uyğundur. İnsanın öz nəfsinin istəklərini idarə etməsi nəticəsində bu mərtəbələrə çatmaq mümkündür. Bu isə insandan səy, dözüm və elm tələb edir. İnsan lazımi keyfiyyətləri əldə etdikcə nəfsin müvafiq mərtəbələrinə yüksələ bilir. Lakin bu fəzilətlərin əldə edilməsi elə də asan məsələ deyil. Bununla yanaşı, "Quran" ayələrindən göründüyü kimi, insanın öz nəfsini idarə etməsi üçün ona bütün qabiliyyətlər *(gözəl bədən, ağıl, ruh, düşünmə qabiliyyəti və s.*) kimi nemətlər verilmişdir. Məsələ orasındadır ki, bizə verilən bu qabiliyyətləri hərəkətə gətirmək və düzgün rejimdə işləməsini təmin etmək lazımdır. Bu məqsədlə, məcazi mənada nəfsi "viruslardan" qorumalıyıq. Aşağıdakı sxem-modeldə nəfsin mərtəbələri və növlərinin qarşılıqlı əlaqələri verilmişdir:


Nəfsin
mərtəbələri
Nəfsin növləri
1. Nəbati
nəfs
2.Heyvani
nəfs
2.İnsani
nəfs
Nəfsi əmmarə
Nəfsi ləvvamə
Nəfsi mülhəmə
Nıfsi mütməinnə
Nəfsi raziyyə
Nəfsi mərziyyə
Nəfsi kamilə

Cxem-modeldən göründüyü kimi, nəfsi hər bir növü və səviyyəsi daimi bir-birilə əlaqədədir. Bu əlaqələrə nəzarət edən və səviyyələri qoruyan digər qüvvələr də mövcuddur. Ona görə ki, insanın həyat və fəaliyyəti prosesində hər bir səviyyənin özünə xas insani keyfiyyətləri və fəzilətləri qazanılmışdır. Aşağıdakı cədvəldə nəfsin hər bir mərtəbəsinə uyğun olan keyfiyyətlər verilmişdir:




Bu keyfiyyətlərin əldə edilməsi sözsüz ki, insandan iradə və səbr tələb edir. Bu fəzilətlər haqqında sonrakı bölmələrdən birində ətraflı məlumat veriləcəkdir. Bu bölmə-

nin əsas məqsədi nəfsin strukturu və tərkib elementlərinin araşdırılması olduğundan yuxarıda ayrı-ayrı bloklarla verilmiş nəfsin vahid bir mücərrəd varlıq kimi elektron sxem-modelini təsvir etməyə çalışaq. Nəfs müvafiq struktura və tərkib elementlərə malik olsa da bütün bu hissələr *(insanın daxili hissi qüvvələri)* elə bir dəqiqlik, incəlik və elmlə əlaqələndirilmişdir ki, tamlıq və vahidlik pozulmasın. Biri artanda o biri azalır, o biri azalanda digəri artır. Yəni balanslaşdırılmış mükəmməl bir sistem qurulmuşdur.

İnsan nəfsinin tərkib və struktur elementlərinin onun ağıl və qəlb kimi mücərrəd varlıqlarla qarşılıqlı əlaqələrinin təmin edilməsi, idarə edilməsi və s. nəticəsində yüzlərlə, minlərlə, milyonlarla çalarların, yaxud insan xarakterlərinin yaranması timsalında həqiqətən də mütləq heç nə olmadığı və dahi Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyyəti ilə əlaqədar dediyi fikrin əksini və təsdiqini tapdığı, həm də akademik Rafiq Əliyevin persepsiya *(duyğu orqanları ilə gerçəkliyin qavranması)* qanununun da bu prosesdə özünü göstərdiyi aydın olur.

**Bu məqamda dahi Eynşteynin dəyərli kəlamlarını xatırlamaq yerinə düşərdi. Belə ki, dahi alim buyurur: "Dinsiz elm topaldır, elmsiz din kordur", "Yaxud dərin inancı olmayan gerçək bir elm adamı düşünmürəm".**

Aşağıdakı sxem-modeldə nəfsin vahid-tam və bitkin bir mücərrəd varlıq kimi təsviri verilmişdir:




Nəfsin təqdim olunan bu mürəkkəb sxem-modelindən göründüyü kimi, nəfsin bütün növləri və hər bir növün tərkib hissələri bir-birilə qarşılıqlı əlaqədə fəaliyyət göstərərək nəfsin mərtəbələrini formalaşdırır. Nəfsin mərtəbələrinin formalaşmasında sözsüz ki, insanın "ağıl" və "qəlb" sistemi də xüsusi rola və qarşılıqlı əlaqələrə malikdir.

## 3.4. Təbii intellektin əsasları

Bugünkü elmi-texniki biliklərin insanlara aşıladığı biliklərə, sosial şüura, bir sözlə, ümumi mədəniyyətə əsaslanaraq süni intellektin tətbiq edildiyi kompüterin quruluşu ilə, təbii intellektin daşıyıcısı olan insanı qarşılıqlı müqayisə etsək, hər bir kompüterin yaddaş qurğusunun tutumuna *(Ram)* uyğun proqramlar *(ofis proqramları və s.)* olduğu kimi, müvafiq antivirus proqramları da mövcuddur. Bildiyimiz kimi, bu proqramlar və antivirus proqramları yüksək ixtisaslı mütəxəssislər tərəfindən xüsusi proqram

dillərinə uyğun olaraq yazılır, alqoritmlərlə kodlaşdırılır. Hər virus növünün özünə uyğun müvafiq antivirus proqramı mövcuddur. Həmin proqramlar da yenə kompüterə xüsusi olaraq bu işi bilən mütəxəssislər tərəfindən yazılır. Lakin insanla və onun nəfsi ilə müqayisədə bu "proqramlar"ın yazılışı və kodlaşdırma dilləri ən yüksək yaradılış olaraq bizim fitrətimizdə yerləşdirilmiş və "antivirus" proqramlarını formalaşdıran biliklər birbaşa bizi xəlq edən Uca Rəbbimiz tərəfindən Müqəddəs "Qurani-Kərim"in ayələrində *(açar-kodu)* verilmişdir. Uca Rəbbimiz tərəfindən fitrətimizə yerləşdirilən həmin proqramları işə salmaq *(aktivləşdirmək)* üçün həmin "açar-kodları" daxil etmək *(yəni "Quran" ayələrini oxumaq və ya dinləmək)* lazımdır. Bizim üstünlüyümüz ondadır ki, bu barədə biz müstəqilik, bizə beş xarici duyğu, beş də daxili duyğu üzvləri verilmişdir. Bu "proqramları" həmin xarici duyğu üzvlərinin köməyi və daxili duyğu üzvlərinin nəzarətində "operativ yaddaş qurğumuza" daxil edə bilərik. Məsələ ondadır ki, xarici duyğu orqanlarımız "nəfsin" istək və arzularına uyaraq "sərhəd və qadağalara" əməl etməsə və ya daxili duyğu orqanları ilə müştərək iş birliyi qurub hansı məlumatın daxil edilməsi, hansı məlumatın daxil edilməməsini düzgün müəyyən etməsə həm maddi *(bədən)* və həm də mənəvi *(ruh, nəfs, qəlb, könül və s.)* sistemimiz düzgün çalışmayacaqdır. Sadə və bəsit dillə desək, bizi həm cismi və ruhi baxımdan xəstələndirəcəkdir. **Necə ki, Hz. Əli (ə) ruhla bədəni müqayisə edərək bədənin özünəməxsus halları və xüsusiyyətləri olduğu kimi, ruhda da**

**bunların olduğunu bildirir: "Cismin (bədənin) altı halı olur: sağlamlıq və xəstəlik, dirilik və ölüm, yuxu və oyaqlıq. Ruhun da beləcə altı vəziyyəti vardır. Ruhun sağlamlığı - yəqinlik, xəstəliyi - şəkk-şübhə, diriliyi - elm, ölümü - cəhalət, yuxusu - qəflət, oyaqlığı - zikrdir".**

Ona görə də ruhun sağlamlığını təmin etmək üçün cəhalətdən və qəflətdən xilas olmaq və bu məqsədlə həqiqi elm öyrənərək yəqinlik əldə etməklə şəkk-şübhədən qurtulmaqla zəkanı (intellekti) bəsləmək lazımdır. Aşağıdakı sxem modeldə müasir texniki biliklərə nisbətdə təbii intellektin (zəkanın) model sxemi verilir:




Qeyd etmək lazımdır ki, mövcud elmi-texniki ədəbiyyat və internet resursları əsasında aparılan araşdırmalar və formalaşmış təsəvvür və biliklər əsasında yuxarıda verilən model-sxemdə "ağıl" və "hafizə" "zəkanın-intel-

lektin" tərkib hissələri kimi göstərilmişdir. Bu məsələnin bir qədər incələnməsi tələb olunur. Belə ki, müasir dünyamızın istər süni və istərsə də təbii intellektlərlə əlaqəli olan bir çox eyni adda olan elmi terminləri bəzi hallarda müxtəlif, bəzi hallarda isə eyni anlayışlara malikdir. Məsələn, məlum olduğu kimi zəka və ağıl eyni mənada olan sözlər kimi işlədilsə də, ayrı-ayrı anlayışlardır. Bir çox dillərdə *(rus, ingilis, Azərbaycan, yunan və s.)* işlədilən bu kimi sözlərin *(zehin, yaddaş, ruh, nəfs, qəlb, könül, ürək, ağıl, beyin, dərrakə, düşüncə, təfəkkür, idrak və s.)* daşıdığı məna yükü müxtəlif olsa da, bəzən eyniləşdirilərək sinonim sözlər kimi, bəzən də müxtəlif məna daşıyan sözlər kimi işlədilir. Məsələn, aşağıdakı cədvəldə Azərbaycan dilində verilən bu kimi sözlərin həm də rus və ingilis dillərində qarşılığı verilmişdir:

| AZ | RU | EN |
|---|---|---|
| 1.Hafizə | Объем памяти | Memory |
| 2.Zehin | Razum | Mind |
| 3.Yaddaş | Объем памяти | Memory |
| 4.Ağıl | Razum | Mind |
| 5.Ruh | Дух | Spirit |
| 6.Nəfs | Похоть | Lust |
| 7.Təfəkkür | Мышление | Thinking |
| 8.İdrak | Восприятие | Perseption |
| 9.İntelekt | Интеллект | İntelligence |
| 10. Zəka | Интеллект | İntelligence |
| 11. Fikirləşmək | Думать | To think |
| 12. Qəlb | Сердце | Heart |
| 13. Ürək | Сердце | Heart |
| 14.Könül | Сердце | Heart |
| 15.Dərrakə | Понимание | Understanding |
| 16.Beyin | Головной мозг | Brain |

Cədvəldən göründüyü kimi, Azərbaycan dilində verilən "qəlb", "ürək", "könül" kimi sözlərin rus və ingilis dillərində yalnız bir qarşılığı var *(сердце-heart)*, "hafizə" və "yaddaş" kimi sözlərin rus və ingilis dillərində eyni mənada olan bir qarşılığı var *(обьем памяти-memory)* və s. Fikrimizcə, belə müxtəliflik və yanaşmalar bir tərəfdən müasir fəlsəfi dünyagörüşlə əlaqəlidirsə, digər tərəfdən, ümumiyyətlə bu kimi terminlərlə bağlı vahid elmi düşüncənin və anlayışın olmadığından, elmi yəqinliyin yalnız məntiqi düşüncəyə və təcrübəyə əsaslanmasından irəli gəlir. Elmin imanla və irfanla əlaqəli idrak səviyyələrinə ya şübhə ilə yanaşılır, ya ümumiyyətlə qəbul edilmir, yaxud belə bir prizmadan yanaşmaq üçün nəfsin "Quran" əxlaqına uyğun tərbiyəsi mütləqdir.

Məhz bu baxımdan, insan Uca Rəbbimiz tərəfindən ona bəxş edilmiş – qəlb, ağıl, göz, qulaq kimi nemətlərin *(ağılları var, amma dərk etmirlər, qəlbləri var, amma möhürlənmişdir, gözləri var, amma görmürlər, qulaqları var, amma eşitmirlər və s.)*[122] qədrini bilməli və təyinatı üzrə istifadə etməyi bacarmalıdır. Bu isə iman nuruna malik olmadan qeyri-mümkündür.

Bu məqsədlə insan beş duyğu vasitəsilə daxili kommunikasiya sisteminə yalnız müvafiq "proqramları" və

---

[122] "Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar. Onların gözləri vardır, lakin onunla (Allahın möcüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla (öyüd-nəsihət) eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!" ("Əl-Əraf", ayə 179).

“məlumatları” daxil etməlidir ki, əldə etdiyi bilik, yaxud qərar da doğru, düzgün, yəqin, haqqı-batildən ayıran və ədalətli olsun.

Aparılan araşdırmaların və bilik mühəndisliyinə uyğun olaraq zərrə-zərrə əldə edilən biliklərin ilkin nəticələri kimi, aşağıdakı sxem-modeldə biliyin əmələ gəlmə və qərar qəbul etmə prosesi verilmişdir:




Sxemdən göründüyü kimi, insan xarici duyğu vasitələri ilə aldığı məlumatı ağıl bazasına daxil edir. Ağıl bazasının yetişdirmə və tərbiyələndirmə, yaxud təlim-tədris səviyyəsindən asılı olaraq *(yəni insanın nəzəri və praktiki hazırlığından, zəka, dərk sürəti, zehin aydınlığı, diqqət, ağıl gözəlliyi, hafizə və s.)* məlumatlar emal edilir və qərar – bilik-rəy formalaşdırılır. Lakin qeyd etmək lazımdır ki, müasir elmi nailiyyətlərə uyğun olaraq insan psixologiyası ilə əlaqəli

aparılan bir çox təcrübələrə,[123] eyni zamanda Müqəddəs "Quran"a və hədislərə uyğun olaraq elm-irfan sahibi alimlərin və üləmaların apardığı araşdırmalardan əldə edilən biliklərə əsasən insanın qərar verməsi beyində baş vermir. Müasir elmi nailiyyətlərə uyğun təcrübələr beyin üstü bir holoqramın əmələ gəldiyini və orada təsdiqləndiyinin göründüyünü qeyd edir. Elmin daha yüksək səviyyələri ilə məşğul olan irfan sahibi şəxslərin təcrübələri və onların əsərlərindən əldə edilən biliklərə əsasən isə bu daha mürəkkəb bir prosesdir ki, sonrakı bölmələrdə bir qədər aydınlıq gətiriləcəkdir.

## 3.5. FURQAN
## (Haqqı – batildən ayıran)

Dünyamızın müasir mənzərəsini dərk etmək, təfəkkür etmək üçün əsas və köklü səbəbləri araşdırmaq lazımdır. Biz harada səhv etmişik!? Bu və digər məsələləri araşdırmaq üçün bizə mütləq doğru olan istiqamət, mayak, yaxud yeni metodika[124] və metodologiya[125] və ya fəlsəfi

---

[123] Nevzat Terhanın (Türkiyə bilim adamı) yaratdığı İnstitutda aparılan təcrübələr

[124] **Metodika** - qabaqcadan müəyyən edilmiş nəticəyə, yaxud məqsəd və vəzifələrin icrasına gətirə bilən praktiki fəaliyyətin metodlardan, üsul və qaydalardan ibarət məcmusudur. Elmi biliklərin dərk edilməsində metodika praktiki tədqiqatda (müşahidə və sınaqda) mühüm rol oynayır. Metoddan fərqli olaraq alınmış nəticənin nəzəri əsaslandırılması metodikanın məsələlərinə daxil olmur, o sınağın texniki tərəfinə və tədqiqatçının, yaxud içraçının hərəkətlərinin tənzimləməsinə fokuslanır.

[125] **Metodologiya** (yunan dilindən μεθοδολογία - üsullar haqqında təlim; qədim yunan dilindən μέθοδος - μετά- + ὁδός, sözün əsl mənasında "bir şeydən

dünyagörüş lazımdır. 4-cü sənaye inqilabı ərəfəsində, yaşadığımız dünyanın sürətlə digitallaşması *(məlumatların, yaxud biliklərin rəqəmlə ifadə edilməsi)*, süni intellekt istiqamətində yeni-yeni tədqiqatlar nəticəsində ən müasir keyfiyyətlərə malik avadanlıqların, maşın və mexanizmlərin, robotların yaradılması, maddi nemətlərin çoxluğuna baxmayaraq bölgüsündə baş verən haqsızlıqlar və ədalətsizliklər nəticəsində az qala dünya əhalisinin 1/3-nin aclıq və səfalət içində yaşayaraq, əsas insan və vətəndaş hüquqları və azadlıqlarından məhrum edilməklə mənəvi deqradasiyanın baş verməsi və s. bu kimi reallıqlar fonunda Aya uçan, uzaq-uzaq planetlərə kosmik raketlər göndərən, kosmosu fəth edən insanın özünü tanıması, özünü fəth etməsi yadından çıxmışdır. İnsanın nəfsinin istəklərini təmin etmək istiqamətində yorulmadan çalışmasına baxmayaraq, hər dəfə yeni-yeni istəklərin və tələblərin yaranması, onu nəfsinin əsirinə çevirmişdir. Nəfsin doymayan istəklərinin təmin edilməsi uğrunda yorulmadan çalışan və hər növ rəzilliklərə razı olan insan öz əslini, mahiyyətini yaddan çıxarmış, əsl mənəvi keyfiyyətlərinə yadırğamışdır. Bu kimi halların yaranmasına və formalaşmasına səbəb, əslində, mövcud elmi-fəlsəfi dünyagörüşün müasir tələblərə uyğun olmaması, inkişaf edən dünyamızın reallıqlarına adekvat davranışların təmin edilməməsi, elmdə, təhsildə, təlim-tərbiyə sistemində insanın əsl mahiyyəti ilə baş verən qarşılıqlı ziddiyyətlərin olmasıdır. Elm adamları

sonrakı yol" və digər yunanca düşüncə, təfəkkür metodları – mövzunun tədqiqat strategiyaları, üsulları və metodları haqqında təlim).

və mütəfəkkirlər tərəfindən yaradılan klassik biliklərin və yeni biliklərin qarşılıqlı sintezində, inteqrasiyasında və transformasiyasında baş verən yanlışlıqlar, hər bir mütəfəkkirin və ya elm adamının daxili mənəvi keyfiyyətlərindən və müxtəlif bilik səviyyələrinə nüfuz etmə qabiliyyətindən asılı olaraq təhrif edilmiş, yaxud daşıdığı məna və məzmunun mahiyyətini tam olaraq ifadə edə bilməmişdir. Bəşəriyyətin dünyagörüşünə gətirilən biliklər və düşüncələr bir çox hallarda birtərəfli olmuş, dünyaya hakim olan qövmlərin, xalqların daşıdığı dillərdə mövcud olan elmi biliklərin diktatorluğuna çevrilmişdir. Yalnız ağıla və məntiqə söykənən elmi dünyagörüşə əsaslanmaqla formalaşan fəlsəfi dünyagörüş yeganə düzgün və ədalətli hesab edilmişdir. Yalnız ağıl və məntiq fəlsəfəsinə əsaslanan elmi-fəlsəfi dünyagörüş, nəzəri biliklərin sınanmasında və laboratoriya təcrübəsindən keçirilməsində yalnız maddi olanlardan istifadə etmək iqtidarında olmuşdur. Fizika, biologiya, zoologiya və s. kimi dünyəvi elmlərlə bağlı təcrübədən keçirilən praktiki biliklərdə maddi subyekt kimi, mexaniki avadanlıqlar, bitki aləmi, heyvanat aləmi *(meymunlar, siçovullar, soxulcanlar və s.)* olmuşdur. Tibbi biliklər sahəsində təcrübələrin aparılması, müvafiq dərman preparatlarının yoxlanılması, yeni tibbi avadanlıqların sınaqdan keçirilməsi insan üzərindən aparılsa da, yalnız onun cismi *(bədəni)* ilə əlaqəli olmuşdur. Abstrakt *(mücərrəd)* anlayışa, məna və məzmuna malik olan məfhumlar-terminlər *(ruh, qəlb, könül, nəfs, zəka, ağıl və s.)* üzərindən isə laboratoriya təcrübələrinin aparılması dünyaya hakim olan fəl-

səfi dünyagörüş sahibləri tərəfindən mümkün olmamışdır. Belə təcrübələrin aparılması, yalnız dini əxlaqa, o cümlədən islam əxlaqına və mənəviyyatına sahib olan elm-irfan sahibləri[126] və mütəfəkkirlər tərəfindən aparılmışdır.

Lakin islam fəlsəfi dünyagörüşünə malik alimlərin, elm-irfan sahiblərinin həmin dövrün taxt-tac, var-dövlət sahibləri tərəfindən öz hakimiyyətləri üçün bir təhlükə kimi izlənilməsi, məhv edilməsi,[127] bəzi hallarda saraylarda "həbs" edilməsi səbəbindən, yaxud təbii olaraq həmin dövrdə elmi biliklərin yayılmasında və əldə edilməsində mövcud olan kommunikasiya *(nəqliyyat, dil və s.)* problemləri "Şərq" və "Qərb" təfəkkürünün inteqrasiyasında və transformasiyasında problemlər yaratmış, Qərb mütəfəkkirlərinin dünyagörüş ruhunun, Şərq mütəfəkkirlərinin dünyagörüş ruhundan bəhrələnməsində və həm də iman nuru geyinmiş fəlsəfi dünyagörüşün yaranmasında maneəyə çevrilmişdir.

Əslində bütün zamanlar üçün bəşər övladına fəlsəfi dünyagörüşün əsasları ola bilən biliklər 1412 *(2022-610)* il

---

[126] **B.Bistami, H.Mənsur, C.Rumi, Ə.Yəsəvi və s.** kimi müstəsna şəxsiyyətlərin hələ sağ ikən fənaya uğradıqları düşünülür. B.Bistaminin belə bir sözü məşhurdur: "Mən Bəyazidlikdən bir ilan öz qabığından çıxdığı kimi çıxdım. Sonra baxdım və gördüm ki, sevən, sevilən və sevgi birdir". Yəni varlıqda vücudü-mutləqdən başqa, heç nə yoxdur. (Yaqub Babayev. Təriqət ədəbiyyatı - sufizim, hurufizm. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.05.2007-ci il tarixli 464 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq olunmuşdur.)

[127] **Tarixi məlumatlara əsasən**: Əməvilərin (661-750), Abbasilərin (750-1258) xilafəti dövründə Hz. Əlinin, İmam Həsənin, İmam Hüseynin və digər imamların qətlə yetirilməsi, F.Nəiminin, İ.Nəsiminin və digər elm-irfan sahiblərinin cismani məhv edilməsi və s.

öncə Uca Rəbbimiz tərəfindən insanlığa bəyan edilmişdir. Belə ki, bəşəriyyətin inkişafındakı naqislikləri və yanlışlıqları hər an görən və müşahidə edən Qüdrət sahibi zaman-zaman öz peyğəmbərlərini, səmavi dinlərini -Kitablarını, o cümlədən sonuncu Peyğəmbərini (Hz. Muhəmməd (s.s.)[128] və insanlara hidayət nurunu (Müqəddəs "Qurani-Kərim"i)[129] göndərmişdir. Həmin hidayət nurundan bəhrələ-

128 Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir! ("Əhzab", ayə 40).

129 "Ey insanlar! (Bu Muhəmməd) sizə Rəbbiniz tərəfindən dəlil gəlmişdir. Biz sizə aydın bir nur ("Quran") endirdik." ("Ən-Nisa", ayə 174). **Təfsir:** Arapça karşılığı burhan olan "kesin delil"den maksat akıldır ve aklın yürüyerek imanın ve hidayetin sınırına kadar gelmesini sağlayan işaret taşlarıdır; yani insanın kendi iç ve dış, maddî ve mânevî varlığı ile onu çepeçevre saran kâinatta sergilenmiş olan alâmetler, deliller, yol bulduran izlerdir. "Apaçık nur" ise "indirdik" yükleminin de delâletiyle Kur'an'dır (burhanın terim olarak anlamı için bk. Bakara 2/111). Burada tekrar bütün insanlara hitap edilmekte, akıllarını doğru kullanarak, kendilerini ve kainatı doğru gözlemleyip, okuyup yorumlayarak Allah'a inanmaları, bu imandan sonra Hz. Peyğamber, onun gösterdiği mûcizeler ve özellikle getirip tebliğ ettiği kitap üzerinde doğru ve yeterli düşünerek Resûlullah'a ve Kur'an'a iman etmeleri; putlara, kendileri gibi beşer oldukları halde tanrılaştırdıkları insanlara, hayvanlara, hatta imanı dışlayan akla (sakat düşünce) sarılmak yerine Allah'a sarılmaları, O'nun gönderdiği dine sımsıkı tutunmaları istenmektedir. Bu imana kavuşan ve rehbere sarılanlar için üç mükâfat vaad edilmekte, başka bir deyişle üç güzel sonuç müjdelenmektedir: 1. Allah'ın rahmet deryasına dalmak. 2. O'nun lutfuna mazhar olmak. 3. Hidayet; yani insanı dosdoğru Allah'a, O'na kul olma şerefine erdiren ilâhî rehberlik. Dünya hayatında kul, bu üç değerli ödülden daha büyüğünü bulamaz ve elde edemez; bütün nimetler, mükâfatlar ve ecirler bu üç ödülün içindedir. İnsanlar Allah'ın rahmetiyle esirgenir, lutfuyla gönenir, hidayetiyle doğruyu, güzeli ve iyiyi bulurlar, bilirler ve yaşarlar".

"Ey kitab əhli! Sizə kitabda (Tövratda və İncildə) gizlətdiyiniz şeylərin bir çoxunu bildirən, bir çoxunu da sizə bağışlayıb üstünü vurmayan (və ya sizdən bir

nən təsəvvüf və irfan təliminin davamçıları[130] yeni bir fəlsəfi düşüncə cərəyanının əsasını qoydular. Lakin eyni bir cövhərdən *(ilkin olaraq torpaqdan və sonrakı aşamalarda nütfə-*

çoxunu bağışlayan) Peyğəmbərimiz gəldi. Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab ("Quran") gəldi". ("Maidə", ayə 15).

[130] Muhəmməd (s.s.) peyğəmbərin zamanında mühacirlərin fəqirlərindən olan, yoxsul yaşayışa malik bir qrup var idi ki, onlar mütəmadi olaraq peyğəmbər məscidində və onun eyvanında ibadət edirdilər. Yaşayış yerləri olmadığından məsciddə qalırdılar. Kasıb həyat tərzi keçirən və qənaətlə dolanan bu adamlara "əshabi-süffə" deyirdilər. Əbureyhan Biruniyə görə, "sufi", "sofi" sözü yunanca "düşüncə", "hikmət" mənasını verən "sofiya" sözündəndir. Təsəvvüf və ifranın özünəqədərki bəşəri-mədəni inkişafdakı bir sıra din, dini-fəlsəfi görüş və etiqad sistemləri ilə uyğun və oxşar cəhətləri vardır. Şamanizm, zərdüştilik, buddaizm, brəhmənizm, qədim yəhudi mistikası kabalizm, qədim yunan fəlsəfəsi (xüsusilə platonizm) və neoplatonizm, xristianlıq və s. dini və fəlsəfi təmayüllərdəki müəyyən cəhətlər islam təsəvvüfü və irfanla bənzərlik təşkil edir. Hətta bəzən üst-üstə düşən nöqtələr də yox deyildir. (Bu barədə ətraflı məlumat üçün bax: Göyüşov N., - (+994 50) 8211275 "Quran və irfan işığında". "İqtisad Universiteti" nəşriyyatı, B., 2004, səh.49-68.). Sufizm nübüvvətdən sonra xilafətə keçid dövründə əməvilərin və abbasilərin xilafəti dövründə məhz həmin dünyapərəstliyə, mənfəətgirliyə, sərvətpərəstliyə, haqqı atıb dünyanı tutmağa qarşı dinc etiraz forması kimi təzahür edib intişar tapdı. "Quran", Muhəmməd (s.s.) peyğəmbərlə əlaqəli sünnə və hədislər, səhabələrin kəlamları və davranış normaları, əhli-beytin sadə həyat tərzi, zöhd, təqva, təvəkkül, ixlas, şəriət qaydalarına dürüst əməl etmək, Tanrı eşqi ilə yaşamaq, nəfslə mübarizə və s. təsəvvüfün ilkin qaynaqları sırasındadır. Əməli cəhətdən sufi həyatı yaşayan ilk dərvişlərdən **Həsən Bəsrinin** (?-728) adı daha çox məşhurdur. Belə bir ləqəblə tanınan ilk şəxsiyyətlər kimi kufəli **Əbu Haşimin** və asketik həyat tərzi və əqidəsi olan kimyagər **Cabir ibn Həyyanın** adı çəkilir. **VIII əsrin** ikinci yarısında yaşamış hər iki mütəsəvvüf kufəlidir. Yunan və başqa dillərdən çoxlu əsərlər tərcümə edildi. **Razi** (?-932), **Farabi** (870-950), **İbn Sina** (980-1037) və s. **kimi universal zəka sahibləri** həm qədim Şərq və yunan fəlsəfəsini, həm də "Quran"ı və islam qaydalarını dərindən mənimsəyərək və bunları sintez edərək fəlsəfə sahəsində böyük yeniliklərə nail oldular. Fəlsəfi fikrin fundamental şəkildə islam dünyasına daxil olması təsəvvüf və irfanın da əməli yüksəlişinə və nəzəri konsepsiyasının mükəmməl şəkildə işlənib hazırlanmasına rəvac verdi.

*dən)* yaradılan, tək bir ümmət[131] olan, sonradan tayfalara və qəbilələrə *(müxtəlif xalqlara və millətlərə)* ayrılan insan övladı Uca Rəbbimizin buyurduğu anlamda nə *oxuya,* nə də tanıya bildi. Hansı ki, "**Quran" əxlaqına görə bu oxuma və tanıma din, iman və təqva üzərindən olmalı idi.** İnsan övladı isə əsasən rasional ağıl üzərindən görməyə, oxumağa, düşünməyə və tanımağa üstünlük verdi. Yalnız rasional düşüncənin işığında isə bu yolu tapmaq qeyri-mümkündür. Hissi düşüncə *(iman)* da mütləq işə qoşulmalıdır. Yəni mövcud elmi-fəlsəfi düşüncəyə uyğun olaraq yalnız ağıla və məntiqə *(rasional düşüncəyə)* əsaslanmaqla insanın beş xarici duyğu orqanının *(göz, qulaq, burun, dil, dəri)* aldığı məlumatların təkcə ağlın oxuması yetərli deyil, qəlblə də oxunması[132] mütləqdir. Uca Rəbbimi-

---

[131] "İnsanlar (əvvəlcə) ancaq tək bir ümmət idilər (eyni bir dində idilər). Sonra (aralarında ixtilaf düşdüyü üçün) ayrıldılar. Əgər Rəbbin tərəfindən öncə bir söz (ilahi hökm, təqdir) olmasaydı (sorğu-sual və cəza qiyamətə saxlanılmasaydı), ixtilafda olduqları məsələlər barəsində aralarında dərhal hökm verilmişdi" ("Yunus", ayə 19). **Təfsiri:** İnsanların inanç bakımından tek ümmet, aynı inancı paylaşan topluluk olmaları iki şekilde anlaşılmıştır: a) Allah'ın insanlara verdiği akıl, onu şaşırtan başka faktörler devreye girmediği takdirde insanı Allah'ın varlık ve birliği inancına götürür. Bu bakımdan bütün insanlar potansiyel olarak tevhid inancını paylaşabilecek kabiliyette yaratılmışlardır, ancak aklın doğru işletilmesini engelleyen iç ve dış faktörler devreye girmiş ve insanlar Tanrı inancı konusunda farklılaşmışlardır. b) Allah'ın yarattığı ilk insan ve ilk topluluk tevhid inancını paylaşmaktaydı, sonra birçok iç ve dış etki onların bir kısmını bu inançtan saptırdı, ihtilâfa düşürdü. Dünya imtihan dünyası olduğu, Allah insanların inanç ve amellerinin müminlerin sonucunu âhirette açıklamayı, ödül ve cezayı da orada vermeyi murat ettiği, ezelde böyle dilediği için bu ihtilâf devam edecek, yanında inkârcılar da olacaktır.

[132] **"Uzun-uzadı nəfsi səylər və əziyyətlərimin nəticəsində qəlbim parladı və ələkut nuru ilə doldu... Sonra elə bir sirlərə yol tapdım ki, indiyədək mənə**

zin də insanlığa ilk Əmri "Oxu" müqəddəs kəlməsidir.[133] Elmi təfəkkürdə indiyə qədər dünyaya hakim olan fəlsəfi dünyagörüşlər[134] həm oxumaqda, həm də tanımaqdakı bu vəhdəti *(maddi və mənəvinin birliyi)* inkar etmişlər. Bu səbəbdəndir ki, elm yalnız rasional düşüncəni *(ağıl, məntiq və dəlillə dərk edilə biləni)* qəbul etmişdir. Bu dünya üçün mövcud olan həyatımızda hissi *(imanı)* inkar edərək dövlətlə dini bir-birindən ayırmışdır *(Дуализм)*. Əslində bununla təkcə dövlətlə-dini deyil, həm də insanın vəhdaniyyətini *(maddi və mənəvinin iç-içə olan birliyini)* ayırmağa çalışmışlar.

Lakin digər bəzi xalqlar qəbul etməsə də, bütün bəşəriyyətə göndərilən islam Peyğəmbəri Hz. Muhəmmədin

---

**aydın deyildi.** Elə bir gizli bilgilər mənə məlum odu ki, arqument və dəlil yolu ilə bu qədər aşkar olmamışdı. Bəlkə də sübut və dəlil yolu ilə çatdığım hər şeyi şühud və intuisiya yolu ilə aydın gördüm". Şirazi, Sədrəddin Məhəmməd, Əl-hikmətul mütaliə fil- əsfaril-ərbə, cild 1, səh 8.

[133] (Ya Peyğəmbər! "Qurani-Kərim"i bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu! O, insanı laxtalanmış qandan yaratdı. (Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi ("Ələq", ayə 1-5). Ayənin ilk kəlməsinin "oxu" əmri ilə başlaması və bu əmri iki dəfə təkrar etməsi, din və insan həyatında oxumağın və bilmənin nə qədər əhəmiyyətli olduğunu göstərmək kimi şərh olunur. "Quran"ın öyrənmə xüsusiyyəti ilə insanın canlılar arasındakı fərqli və üstün yerini təsvir etməsi son dərəcə mənalıdır (bax: Bakara 2/31). Ayədə Hz. Peyğəmbərə əmr edilən oxu mövzusu göstərilməmişdir; çünki ondan oxunması lazım olan hər şeyi və kosmik kainatdakı ayələri bilməsi, yəni zehni araşdıraraq yoraraq öyrənmək, dərs və ibrət almaq, yaxşı və faydalı nəticələr çıxarmaq, həqiqəti, xüsusən də vəhyi anlamaq və qavramaq istənir. Şübhə yoxdur ki, ilk növbədə yaradanı tanımaq həm dinin, həm də elmin əsas məqsədidir. Bu səbəbdən "Yaradan Rəbbinin adı ilə oxu!" Hz. Peyğəmbərin oxuma fəaliyyətinə və ya hər hansı bir işə başqa varlıqların adı ilə deyil, onu yaradan Rəbbinin adı ilə başlaması və Ondan kömək istəməsi əmr edilmişdir.

[134] **Materializm -** Heraklit, Demokrit, F.Bekon, T.Hobbs, D.Dido, L. Feyerbax, K. Marks, F.Engels.

(s.s.) yaratdığı idarəçilik üslubunda din və dövlət anlayışı vəhdətdə idi. Bu bütün dünyaya bir örnək olmaqla, xəbərdarlıq və dövlət yaradan millətlərə və xalqlara bir dövlət nümunəsi modelidir. "Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab ("Quran") gəldi"[135] vəhyinin hikmətini anlamaq, maddi nemətlərin çoxluğuna baxmayaraq, onun bölgüsündəki mövcud haqsızlıqdan, ədalətsizlikdən qurtulmaq, bəşəriyyətin düşdüyü bu nadanlıq girdabından xilas olmaq, haqqı-batildən ayırmaq üçün bu nura tapınmaq yeganə nicat yoludur. Məlum olduğu kimi, "Quran"ın adlarından biri də Əl-Furqandır,[136] yəni haqqı batildən ayırandır.

Bununla yanaşı, Uca Rəbbimiz adəm övladının diqqətini onun yaradılışına yönəldərək qəbilələrə ayırdığının hikmətini bildirir.[137] Bu ayənin nurundan çıxış edilərək

---

[135] Ey kitab əhli! Sizə kitabda (Tövratda və İncildə) gizlətdiyiniz şeylərin bir çoxunu bildirən, bir çoxunu da sizə bağışlayıb üstünü vurmayan (və ya sizdən bir çoxunu bağışlayan Peyğəmbərimiz gəldi. Artıq Allah tərəfindən sizə bir **nur** və açıq-aydın bir kitab ("Quran") gəldi... Ey kitab əhli! Peyğəmbərlərin ardı-arası kəsildiyi bir dövrdə "bizə nə bir (Cənnətlə) müjdə verən, nə də bir (Cəhənnəmin əzabı ilə) qorxudan kimsə gəldi" deməməyiniz üçün sizə Peyğəmbəriniz (Muhəmməd) gəldi" ("Əl-Maidə", ayə 15 və 19).

[136] Aləmləri (insanları və cinləri Allahın əzabı ilə) qorxutmaq üçün (haqqı batildən ayıran) "Quran"ı Öz bəndəsinə (Muhəmmədə) nazil edən Allah nə qədər (uca, nə qədər) uludur! (Ucalardan ucadır; əzəli və əbədidir, xeyir-bərəkəti bol və daimidir!) ("Əl-Furqan", ayə 1). Furqan sözünün mənası haqq ilə batili bir-birindən ayrıd etmək deməkdir. (Âlemlere uyarıcı olsun diye kuluna Furkān'ı indiren Allah aşkındır, cömerttir. - Furqanı (haqq ilə batili bir-birindən ayıran, ayə və surələri bir-birindən ayrı olan "Quran"ı) aləmdəkilərin hamısını (kökləri kəsilənədək bütün insan və cinləri) qorxutmaq üçün bəndəsinə tədricən nazil edən (Allah) uca, əbədi və çox bərəkətlidir).

[137] "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox

təfsirində fərqli kimliklərə bölünən insanların bir-birini tanımasında, birlik və həmrəyliyində əsas elementin din olduğu, dinin isə insanlara gətirmək istədiyi ən əhəmiyyətli dəyərin əxlaq olduğu bildirilir.[138] Göründüyü kimi, müasir dünyamıza hakim olan fəlsəfi dünyagörüşdən fərqli olaraq, islam əxlaqına malik olan zəka sahibləri *(Həsən Bəsri (642-728), Cabir ibn Həyyan (721-815), Bəyazid Bistami (804-846), Əbunəsr Fərabi (879-950), Seyid Razi (970-1015), Əbureyhan Biruni (973-1048), İbn Sina (980-1037) və b.)* yuxarıda qeyd edilən "Quran" ayələrinin ("Əl-Hucurat", ayə 13) nuruna uyğun olaraq özünə qədərki bütün dini-fəlsəfi və ümumbəşəri dəyərləri araşdıraraq təsəvvüf və irfan təli-

---

qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır". ("Əl-Hucurat", ayə 13).

[138] **"Əl-Hucurat" surəsi ayə 13-ün təfsiri:** Həqiqi dinə inamdan başqa, hansı insan və ya qrupun ümumbəşəri dəyərləri varsa, o, başqalarından daha üstün və daha dəyərlidir. Həqiqi dinə inama gəldikdə, başqa heç bir dəyər və ya fəzilət, xüsusən əbədi qurtuluş baxımından imanın yerini tuta və ya imandan üstün ola bilməz. Ayənin ortaya qoyduğu insani dəyəri və qruplar arasındakı əlaqəni - bu mövzuda digər ayələri nəzərə alaraq - ümumiləşdirmək mümkündür: Bütün insanlar bir kişidən (Adəmdən) və bir qadından (Həvvadan) yaradılmışdır. Allah Adəmi torpaqdan, arvadını isə Adəmin əslindən yaratdı və onlar ər-arvad olduqdan sonra insanlıq doğuldu və çoxaldı. Buna görə də bütün insanların mənşəyi birdir, onlar eyni mahiyyətdən yaradılmışdır; həm kök, həm də bioloji əsas xüsusiyyətlər fərqlənmir, bu baxımdan heç bir üstünlük və ya aşağılıq ola bilməz. Əslən qardaş olan insanlar, bir çox hikmətdən başqa, tanınmaq və fərqli kimliklərlə tanış olmaq üçün qruplara bölünür. Hər qrup digərlərindən fərqli olaraq ümumi xüsusiyyətlərinə görə birləşir və əməkdaşlıq edir. Bu birlik və həmrəyliyin əsas elementi dindir. Dini cəhətdən birləşənlər bir-birini qardaş hesab edirlər və ümumiyyətlə digər xüsusiyyətlərdəki ortaqlıq bu xüsusi bağı aşa bilməz. Dinin insanlara gətirmək istədiyi ən əhəmiyyətli dəyər əxlaqdır (təqva), həm qrup daxilində, həm də qruplar arasında üstünlük və üstün dəyər meyarı əxlaq olmalıdır. Kaynak: Kur'an Yolu Tefsiri Cilt: 5 Sayfa: 97-98.

mini yaratmışlar. Çox təəssüflər olsun ki, 1400 il əvvəl olduğu kimi, çağdaş dünyamızda da Kitab göndərilənlər "Quran" Nurunu qəbul etmədiklərindən həmin irfani-təlimlərdən bəhrələnsələr də yazılarında istinad verilməmiş, yaxud qəbul edilməmişdir.

Yuxarıda sözükeçən ayədə və onun təfsirində həqiqi dinə, imana, əxlaqa və ümumbəşəri dəyərlərə diqqət çəkilir. **Eyni zamanda xalqlara və qəbilələrə ayrılan adəm övladı fərqli kimliklərə malik olsalar da ümumi xüsusiyyətlərinə görə birləşməsi və əməkdaşlıq etməsi ön plana çəkilir.** Maraqlıdır ki, bu birlik və həmrəyliyin əsas elementinin din olduğu və bu əsasda birləşənlərin qardaş olduğu bildirilir. Sözsüz ki, söhbət mənəvi qardaşlıqdan gedir. Bununla yanaşı, hər bir xalqın, millətin, qəbilənin digər xüsusiyyətlərdəki ortaqlığının *(məsələn, eyni kökdən gəlməsi, eyni coğrafiyada yaşaması, eyni dil qrupuna daxil olması və s. R.S)* dini bağı aşa bilmədiyi xüsusi olaraq vurğulanır. Ona görə ki, dinin insanlara gətirmək istədiyi ən əhəmiyyətli dəyərin əxlaq (təqva) olduğu ayrıd edilir. Həm də, istər qrup daxilində, istərsə də qruplar arasında üstünlük və üstün dəyər meyarının əxlaq olduğuna diqqət çəkilir. Necə ki, "Qurani-Kərim"də İnsanların Allah qatında üstünlüyünün yalnız təqvaya görə olduğu[139] bildirilir.

139 "Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək bir geyim və bir də bəzəkli libas (və ya mal-dövlət) nazil etdik. Lakin təqva libası daha yaxşıdır (xeyirlidir). Bu, Allahın ayələrindəndir ki, bəlkə, (onunla) öyüd-nəsihətə qulaq asasınız". ("Əl-əraf", ayə 26). "Bu, (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) heç bir şəkk-şübhə olmayan, müttəqilərə (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) doğru yol göstərən Kitabdır".

**Dinin bu özəlliyinə diqqət çəkilməsi bizim də bu xüsusda dərindən təfəkkür və idrak etməmizi tələb edir.**

Biz yeni fəlsəfi dünyagörüşün aranmasında mütləq "Quran" nurundan yola çıxmalıyıq. "Qurani-Kərim"in "Hucurat" surəsinin 13-cü ayəsinin qeyd etdiyi din, iman və əxlaq yeni fəlsəfi dünyagörüşün özəyidir. Bəs iman və əxlaqı formalaşdıran hansı dindən söhbət gedir? Müasir dünyamızda bir çox əlamətlərə *(tanrı, sosial-tarixi, coğrafi-tarixi və s. məfhumlara əsasən)* görə təsnifləşdirilən çoxlu dinlər[140] mövcuddur. "Quran" ayəsi bu xüsusda da öz nurunu açıqlayır[141]. Göründüyü kimi, bəşəriyyətə göndərilən səmavi Kitabların sonuncusu doğru və düzgün din olaraq islamı seçdiyini və tamamladığını bildirir.[142]

("Əl-Bəqərə", ayə 2). "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır". ("Əl-Hucurat", ayə 13).

[140] Yəhudilik - 15 mln., xristianlıq - 2.2 mlrd., islam - 1,8 mlrd., hinduizm, buddizm - 500 mln., konfusianlıq, daosizm, şintoizm - 119 mln...

141 "Allah yanında (haqq olan) din, əlbəttə, islamdır. Kitab verilmiş şəxslər (yəhudilər və xaçpərəstlər) ancaq (bu dinin həqiqi olduğunu) bildikdən sonra aralarındakı paxıllıq üzündən itilafa (ayrılığa) başladılar. Allahın hökmlərini inkar edənlərlə, şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəcəkdir. "Kitab əhli yalnız özlərinə açıq-aydın dəlil (Peyğəmbər və "Quran") gəldikdən sonra (dində) ayrılığa düşdülər (onlardan kimisi Peyğəmbərə iman gətirdi, kimisi onu inkar etdi, kimisi də şəkk-şübhə içində qaldı). Halbuki onlara əmr edilmişdir ki, Allaha - dini yalnız Ona məxsus edərək, batildən haqqa (islama) dönərək - ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!" ("Əl-Bəyyinə", ayə 4-5).

[142] Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi,

Yuxarıda qeyd edilənlərə əsasən fərqli-fərqli millətlərə və xalqlara bölünən bütün insanların mənşəyi birdir, onlar eyni mahiyyətdən yaradılmışdır, həm kök, həm də bioloji əsas xüsusiyyətləri fərqlənmədiyindən heç bir üstünlük və ya aşağılıq ola bilməz, həm qrup daxilində və həm də qruplararası qarşılıqlı əlaqələrinin əsasında dinə və imana söykənən əxlaq durur. Ona görə də Müqəddəs "Quran"ın belə bir ümumbəşəri dəyərləri ətrafında formalaşan elmi-fəlsəfi dünyagörüşə uyğun olan təlim-tərbiyə və tədris prosesi əxlaqi normaları formalaşdırmalıdır.

Sonrakı bölmələrdə insana bəxş edilən nəfs, ağıl, qəlb (ruh), iman, iradə kimi mücərrəd varlıqlarla və anlayışlarla tanış olduqca *(əslində özümüzü tanıdıqca)* yuxarıda qeyd edilən "Quran" ayələrinin nurundan bəhrələnməyə çalışacağıq.

### 3.6. "Quran" müasir elmi və fəlsəfi təfəkkürün metod və metodologiyasıdır

Yuxarıda metod, metodika və metodologiya terminlərinin daşıdığı məna, məzmun və anlayışların ifadəsindən çıxış edərək Müqəddəs "Quran"ın ayələrinin ifadə və xitab formalarına, yalnız Uca Rəbbimizə məlum olan və insanlıq tarixində baş verən, arxeoloji qazıntılar və digər

Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim. Kim aclıq üzündən naçar qalarsa (çətinliyə düşərsə), günaha meyil etmək niyyətində olmayaraq (zəruri ehtiyacını ödəyəcək qədər bu haram ətlərdən yeyə bilər). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! ("Əl-Maidə", ayə 3).

elmi araşdırmalar nəticəsində təsdiqini tapan qeyb xəbərlərinə istinadən deyə bilərik ki, insanın şübhə ilə yanaşdığı hər hansı bir məsələnin doğruluğunu aydınlaşdırması, daxili inamını bərqərar etməsi, Uca Yaradan tərəfindən ona verilən xarici və daxili hiss üzvlərinin aldığı məlumatları sərfi-nəzər məqsədilə ağlını işə salması, düşünməsi, təfəkkür etməsi, aldığı tarixi məlumatlardan ibrət alması üçün, qəlb gözünü *(bəsirətini)* açıq tutması məqsədilə verilən nemətlərin halalından yararlanması istənilir. Əslində, Müqəddəs "Quran"ın hər bir ayəsində qeyd edilənlər, hətta qarışqanın belə misal göstərilməsi müəyyən bir tapşırığı həlletmə üsulu, yaxud gerçəkliyin nəzəri və praktiki baxımdan dərk edilməsinin üsul və qaydalarının məcmusudur. Lakin elə məsələlər var ki, insanın konkret zaman və məkan kəsiyində nail olduğu elmi və təfəkkür səviyyəsi bir çox məsələləri məntiqi düşüncə, dəlil və təcrübə səviyyəsində yerinə yetirə bilmir. Məsələn: *"ələqin (ziqotun) ana bətnində üç zülmət pərdələrlə qorunması"*[143]; *"okean sularının*

[143] "Allah sizi tək bir nəfərdən (Adəmdən) xəlq etdi. Sonra onun özündən həmtayını (Həvvanı) yaratdı. O, (dəvə, inək, qoyun və keçi kimi) heyvanlardan (erkək və dişi olmaqla) səkkiz cift (baş) əmələ gətirdi. O sizi analarınızın bətnində üç zülmət (pərdə, uşaqlıq və qarın) içində yaranışdan-yaranışa salaraq yaradır (nütfəni laxtalanmış qana, laxtalanmış qanı bir parça ətə, əti sümüyə çevirir, sonra sümüyü ətlə örtüb insan şəklinə salır). Bu sizin Rəbbiniz olan Allahdır, hökm Onundur, Ondan başqa heç bir Tanrı yoxdur. Elə isə (Allaha ibadət etmək əvəzinə bütlərə tapınmaqla haqdan) necə döndərilirsiniz? (İmandan necə dönürsünüz?)". ("Əz-Zumər", ayə 6). "Quran"ın bu möcüzəsi anatomiya və embriologiya sahəsində məşhur alim prof. Keith L.Moore'un tərəfindən 1984-cü ildə kəşf edilmişdir.

*qovuşmasında maneə və sədd"*[144]*; "biq-bənq"*[145]*; "qarışqaların danışması";*[146] *"sualtı dalğalar";*[147] *"buludların ağırlığı";*[148] *"də-*

---

[144] "(Suları şirin və acı olan) iki dənizi O qovuşdurdu (bir-birinə qovuşmaq üçün açıb buraxdı). Amma onların arasında maneə vardır, bir-birinə qatışmazlar (özləri üçün müəyyən edilmiş həddi aşmazlar)". ("Ər-Rəhman", ayə 19, 20). 53. "Birinin suyu çox şirin, digərininki isə olduqca şor (acı) olan iki dənizi qovuşduran, aralarında (bir-birinə qarışmamaq üçün) maneə və keçilməz sədd qoyan Odur!". ("Əl-Furqan", ayə 53). Bu maneə (sədd) elmdə "Halocline təbəqəsi" adlanır. https://tr.wikipedia.org/wiki/Haloklin); http://science-solves-everything.blogspot.com/2014/05/quranda-dnizlrin-qarismamasi-aysinin.html

[145] "Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. Bir işin yaranmasını istədiyi zaman, ona (o işə) yalnız: "Ol!" - deyər, o da (fövrən) olar". ("Əl-Bəqərə", ayə 117). Böyük partlayış nəzəriyyəsi. Rəsmi olaraq təsdiqlənmiş nəzəriyyə. "Quran"da dünyanın 6 günə (dövrə) yaranması. https://ann.az/az/big-bang-ilk-ve-en-byuk-intihar-partlayisi/

[146] "(Bir gün) Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət qoşunu toplandı. Onlar cərgə-cərgə düzülüb (nizamla) gedirdilər. Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa (qarışqaların padşahı) dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi (ayaqları altında) basıb əzməsinlər! (Süleyman qarışqanın) bu sözündən gülümsəyib dedi: "Ey Rəbbim! Mənə mənim özümə və ata-anama verdiyin nemətə şükür etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham (qüvvət) ver! Və məni öz mərhəmətinə saleh bəndələrinin zümrəsinə daxil et!". **("Ən-Nəml", ayə 17, 19).** 2013-cü ildə kəşf edilmişdir. http://quranmocuzeleri.az/qarisqalarin-danismasini-deyen-quran-heqiqetini-elm-kesf-etdi/

[147] "Yaxud (Allahı inkar edənlərin əməlləri) dərin dənizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, onun da üstündən bir bulud örtər. (Bu) bir-birinin üzərində olan zülmətlərdir. O, əlini çıxartdıqda, az qala onu görməz. Allah kimə nur (iman) verməzsə, onun nurdan payı olmaz". **("Ən-Nur", ayə 40).** 1970-ci ildə sualtı dalğalar kəşf edilmişdir. http://quranmocuzeleri.az/quranin-14-esr-once-dediyi-yeralti-dalgalar-mefhumu-1970-ci-ilde-kesf-edildi/

[148] "Küləkləri Öz mərhəməti önündə (yağışdan qabaq) müjdəçi olaraq göndərən Odur. Nəhayət, o küləklər ağır buludları daşıyarkən, Biz o buludları ölü bir diyara tərəf yönəldib, onunla yağmur endirir və bunun vasitəsilə hər cür meyvə yetişdiririk. Biz ölüləri də (dirildib qəbirlərindən) belə çıxaracağıq. (Bu misalı çəkirik ki,) Bəlkə, düşünüb ibrət alasınız!". **("Əl-Əraf", ayə 57). 2016-cı ildə kəşf edilmişdir.** *Alimlərə görə, bir kumulus buludunun (pambıq kimi görünüşü*

*niz altında od";*[149] *"insan möcüzəsi"*[150] və s. kimi kəşfləri misal göstərmək olar. Belə misalların sayını və sırasını uzatmaq da olar. Lakin zaman-zaman elm-irfan sahibi mütəfəkkirlərin öz üzərlərində apardığı və irşada yetdiyi təcrübələr, həm də müasir elm adamlarının *(İlahi həqiqətlərə inansalar da, inanmasalar da)* apardığı axtarışlar və kəşflər elmdə güclü olanlar və bəsirət sahibləri üçün "Quran" ayələrinin müqəddəsliyinə və Allah (c.c.) kəlamı olduğuna yəqinlik hasil edir.[151]

Deməli, yeni fəlsəfi dünyagörüşün formalaşmasında, elmi məsələlərin sərfi-nəzər edilməsində, məntiqi təfəkkürə əsaslanan elmlə, hissi-imani təfəkkürə və irfani təfəkkürə əsaslanan elm səviyyələrini bir-birinə qarşı qoymaq yox, əsl həqiqəti üzə çıxarmaq, haqq ilə batili bir-birindən ayırmaq üçün onların *(hissi və imani təfəkkürün)*

---

*olan bulud növü) ağırlığı* **1.1 milyon funtdur.**http://quranmocuzeleri.az/quranin-bulud-haqqinda-vesfini-alimler-20-ci-esrde-kesf-etdiler/

[149] **"And olsun yüksək tavana (uca göyə)! And olsun alovlanan dənizə! Rəbbinin əzabı (iman etməyənlər üçün) mütləq vaqe olacaqdır. Onun qarşısını heç nə ala bilməyəcəkdir".** ("Ət-Tur", 5-8-ci ayələr) Peyğəmbərdən (s.s.) hədis **"Həqiqətən də, dənizin altında od və odun da altında dəniz vardır".** (Əbu Davud, Beyhəqi, Təbərani, əl-Bəzzar və digərləri rəvayət ediblər.) http://quranmocuzeleri.az/quran-ve-hedisin-deniz-altindaki-od-haqqinda-dediyi-heqiqet-1977-ci-ilde-kesf-edildi/

[150] "Yerdə (Allaha) tam yəqinliklə inananlar üçün (Onun əzəmət və qüdrətinə, vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır. Sizin özünüzdə də (sizi yaradanın birliyini sübut edən) əlamətlər vardır." ("Əz-Zariyat" surəsi, 20 və 21-ci ayələr).

[151] **"De: "Ey insanlar! Həqiqətən də mən sizin hamınıza göndərilən Allah elçisiyəm. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, Ondan başqa haqq ilah yoxdur. O, həm diriltdir, həm də öldürür. Elə isə Allaha və Onun Elçisinə – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman edin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz"".** ("Əl-Əraf", ayə 158).

vəhdət nurunda nəzərdən keçirmək səviyyəsinə yüksəlmək lazımdır. Bunu "Quran" metodikası və metodologiyası tələb edir. Müqəddəs "Quran"ın, digər səmavi Kitabların *(Zəbur, Tövrat və İncil)* sonuncusu olmasında və həmin Kitabın nazil olduğu Peyğəmbərin *(Hz.Muhəmməd (s.s.))* də, Peyğəmbərlərin sonuncusu olma hadisəsinin özündə belə, bütün bəşəriyyətə bir İlahi mesaj var. Belə ki, bəşər tarixinin inkişafının indiki səviyyəsindən baxanda aydın olur ki, insanlar elə bir inkişaf səviyyəsinə qədəm qoymuşdur ki, "Quran" və Əhli-Beyt Nurunda[152] müstəqil yol getmək qabiliyyətinə malik hər nə varsa Uca Rəbbimiz tərəfindən verilmişdir. Uca Rəbbimizin "dininizi tamamladım"[153] ifadəsinin özü belə daha dərin hikmətlərdə yalnız Ona məlum olan, üst qatda isə sanki bir metodiki və metodoloji yanaşmadır. Eyni zamanda, insanlara xitabən verilən ayələrdə "Nəmrud",[154] "Firon",[155] barəsində hadisələr-

---

[152] "Ey insanlar! Sizə iki şey əmanət qoyuram. Əgər onlara bağlansanız, heç vaxt azmazsınız. Allahın Kitabı və İtrətim olan Əhli-Beytim". (Mənbə: "Sünən Tirmizi", c.8, s.288, hədis 3788). "Hamılıqla Allahın ipinə (dininə, "Quran"a) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən. O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!" ("Ali-İmran", ayə 103).

[153] "... Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim. ..." ("Əl-Maidə", ayə 3).

[154] "(Ya Rəsulum!) Allahın verdiyi hökmranlıq üzündən (azğınlaşaraq) İbrahim ilə Rəbbi barəsində mübahisə aparan şəxsi (Nəmrudu) görmədinmi? (Və ya əhvalatını bilmirsən?) İbrahim: "Mənim tanrım həm dirildir, həm də öldürür", –

dən, "Nuh, Ad, Səmud qövmlərinin",[156] "Mədyən xalqının",[157] "İrəm camaatının",[158] "Lut qövmünün"[159] və s.

---

dediyi zaman, o (Nəmrud): "Mən də həm dirildir, həm də öldürürəm", – demişdi. İbrahim ona: "Allah Günəşi
Şərqdən doğdurur, bacarırsansa, sən onu Qərbdən doğdur!" – dedikdə, o kafir donub qalmışdı. Həqiqətən, Allah (özünə) zülm edənləri düz yola yönəltməz!" ("Əl-Bəqərə", ayə 258).

[155] "Bu, (haqqı batildən ayıran, möcüzələri, hökmləri) açıq-aydın Kitabın ayələridir! Biz inanan bir tayfa üçün sənə Musanın və Fironun hekayətindən (bir qismini) olduğu kimi söyləyəcəyik". ("Əl-Qəsəs", ayə 1-2).

[156] "Məgər sizdən əvvəlki Nuh, Ad, Səmud tayfalarının və onlardan sonra gəlib getmiş, (saylarını və təfsilatını) ancaq Allahın bildiyi ümmətlərin xəbərləri sizə gəlib çatmadımı? Peyğəmbərləri onlara açıq-aşkar möcüzələrlə gəlmişdilər. Onlar əllərini (heyrətlərindən, qəzəblərindən özlərinin, yaxud danışmağa imkan verməmək üçün peyğəmbərlərin) ağızlarına qoyub: "Biz sizinlə göndərilənlərə (möcüzələrə və peyğəmbərliyinizə) inanmırıq və bizi dəvət etdiyiniz (din) barəsində də möhkəm bir şəkk-şübhə içindəyik!" - demişdilər". ("İbrahim", ayə 9).

[157] "Mədyənə də qardaşları Şüeybi (peyğəmbər göndərdik). O dedi: "Ey qövmüm! Allaha ibadət edin! Qiyamət gününə inanın! (Dünyada ibadət etməklə qiyamət gününə ümid bəsləyib savab işlər görün. Onun əzabından qorxun!). Yer üzündə fitnə-fəsad törətməyin!". Amma (mədyənlilər) onu təkzib etdilər. Buna görə də onları (dəhşətli) bir sarsıntı (zəlzələ) bürüdü. Onlar dizüstə çöküb evlərində qaldılar (hamısı həlak oldu). Biz Adı və Səmudu da məhv etdik. (Ey Məkkə əhli! Onların başlarına nələr gətirdiyimiz xaraba qalmış) məskənlərindən sizə bəllidir. Şeytan (çirkin) əməllərini onlara gözəl göstərib gözləri görə-görə onları haqq yoldan çıxartdı. Biz Qarunu da, Fironu da, Hamanı da (məhv etdik). Musa onların yanına açıq-aydın dəlillərlə gəldi. Lakin onlar yer üzündə (Misirdə) təkəbbürlük etdilər və (buna görə də əzabımızdan) sovuşa bilmədilər!" ("Əl-Ənkəbut", ayə 36-39).

[158] "(Ya Peyğəmbər!) məgər görmədinmi ki, Rəbbin nələr etdi Ada (Hud peyğəmbərin Ad qövmünə)?! Sütunlar sahibi (və ya: sütun kimi uca boylu) İrəmə (İrəm camaatına)?!". ("Əl-Fəcr", ayə 6-7).

[159] "Lut qövmü də (peyğəmbərlərinin onlara etdiyi) təhdidləri (xəbərdarlıqları) yalan saymışdı. Biz də onların üstünə daş yağdıran yel göndərdik (başlarına daş yağdırdıq), yalnız Lutun ailəsini səhər çağı xilas etdik;" ("Əl-Qəmər", ayə 33-34). "(Lut tayfasının məhvi barəsində) əmrimiz gəldiyi zaman o yurdun altını üstünə çevirdik və üzərinə odda bişmiş (bir-birinə bitişik) bərk daşlar yağdırdıq". ("Hud", ayə 82). "Şəfəq doğanda o dəhşətli (tükürpədici) səs onları bürüdü.

qövmlərin, xalqların, hökmdarların başına gələnlərdən, Davud Peyğəmbər[160] *(Müqəddəs Kitab olan "Zəbur" göndərilmişdir)* zamanında müəyyən qadağalara əməl etməyən kəslərin meymuna çevrilməsindən ibrət alınması, insanların ağlını işlətməsi, bəsirət gözünü işə salması, təfəkkür və idrak etməsi istənilir. Göründüyü kimi, hər bir dövrdə yaşayan toplumlar Allah kəlamına-hikmətinə sığınmadıqca, əməl etmədikcə nəticədə, istər ayrı-ayrılıqda şəxs, yaxud toplum *(xalqlar, qövmlər)* olsun bir çox bədbəxtliklərə məruz qalacaqdır. Bu deyilənlərə Uca Rəbbimizin Kitab göndərilənlərə *(yəhudilərə və xristianlara, bir çox təfsirçilərin isə daha çox yəhudilərə)* xitabən "Ali-İmran" surəsinin 112-ci ayəsini və onun təfsirini[161] əsas kimi göstərə bilərik. Uca

---

Onların altını-üstünü çevirdik və başlarına odda bişmiş gildən bərk daşlar yağdırdıq. Bunda (bu əzabda) düşünüb-daşınanlar üçün, sözsüz ki, neçə-neçə ibrətlər vardır! ("Hicr", ayə 73-75).

[160] "Həqiqətdə siz bilirsiniz ki, içərinizdən bəzi kəslər şənbə günü (Davud zamanında şənbə günü balıq ovunun qadağan edilməsi) haqqında olan əmrdən kənara çıxdılar. Biz də onlara: "(Zəlil və) həqir meymunlar olun!" – dedik. Biz bunu onlarla bir dövrdə yaşayanlar və sonradan gələnlər üçün ibrət və müttəqilərdən ötrü nəsihət olsun deyə etdik". ("Əl-Bəqərə", ayə 65-66).

[161] "Allah'tan bir ipe ve insanlardan bir ipe tutunmadıkça, nerede bulunurlarsa bulunsunlar, onlara alçaklık damgası vurulmuş; Allah'ın gazabına uğramışlar ve aşağılanmaya mahkûm olmuşlardır. Bu, onların Allah'ın âyetlerini inkâr etmeleri ve haksız yere peygamberleri öldürmeleri yüzündendir. Bu (cüretleri de) onların isyan etmiş ve haddi aşmış bulunmalarındandır." ("Ali-İmran", ayə 112). **Təfsir:** Kur'an'da "Ehl-i kitap" tabiriyle genel olarak yahudi ve hıristiyanlar kastedilmektedir. Ancak müfessirler bu âyette Ehl-i kitaba gönderilen zamirlerin sadece yahudilere ait olduğunu ifade ederler; yani Allah'ın gazabına uğrayıp kendilerine alçaklık (zillet) ve aşağılık damgası vurulanların yahudiler olduğu kanısındadırlar. Nitekim yahudiler (İsrâiloğulları) hakkında indiği açıkça bilinen Bakara sûresinin 61. âyetinde de aynı konu aynı ifadelerle vurgulanmıştır. Ancak burada yahudilerin böyle bir cezaya çarptırılmalarının

Rəbbimizdən daha Alim və daha Elmli kimsə ola bilməz. Ayənin təfsirindən də göründüyü kimi, islam Peyğəmbərindən öncə 2000 illik bir tarixi müşahidə edən Qüdrət sahibi, bəşər övladına göndərdiyi sonuncu peyğəmbərinə

---

sebebi olarak "Allah'ın âyetlerini inkâr etmeleri, peygamberlere karşı hasmane duygular besleyip içlerinden bazılarını haksız yere öldürmeleri, isyankârlık yapmaları ve Allah'ın koyduğu sınırı aşmaları" gösterilirken, Bakara sûresinde bunlara ilâveten başka sebepler de zikredilmiştir.

"İp" anlamına gelen "habl" kelimesi, burada məcazen "güvence" mânasında kullanılmıştır. Râzî'ye göre burada Allah'ın ipinden maksat cizyedir; Ehl-i kitap cizye denilen vergiyi ödemeyi kabul ettikleri takdirde İslâm devletinin kendilerine sağlayacağı can ve mal güvenliğinden yararlanırlar. İnsanların ipinden maksat ise devlet başkanının görüşüne bırakılmış konularda onlara sağlanan güvencedir; devlet başkanının ictihadına göre bu güvencenin sınırları genişleyebilir ve daralabilir (VIII, 185).

Hz. Peygamber'den önceki yahudiler Allah'a verdikleri sözlerde durmadıkları, Allah'ın âyetlerini inkâr ettikleri ve kendilerinin haksız olduklarını bile bile peygamberlere karşı düşmanca duygular besleyip içlerinden bir kısmını yalanladıkları, bir kısmını da öldürdükleri için, bulundukları her yerde üzerlerine zillet (alçaklık) ve âcizlik damgası vurulmuştur. Daha sonra gelenler öncekilerin yaptıklarını benimseyip onayladıkları sürece aynı sonuç onlar için de geçerli olmuştur. Allah'ın kanunlarının korumasına sığınmadıkça ve Allah'ın kulları olan güçlü topluluklarla anlaşma ve işbirliği yapmadıkça can ve mal güvenliklerini sağlayamamışlardır. Yahudi tarihinde bu zilletin örnekleri pek çoktur. Meselâ yahudilerin Bâbil esareti (m.ö. 586-538), Roma İmparatorluğu'nun Kudüs'ü uzun süre işgal altında tutması (F. Buhl, "Kudüs", İA, VI, 953) ve Hz. Ömer zamanında (638) Kudüs'ün müslümanlar tarafından fethedilmesi (Mevlânâ Şiblî, İslâm Tarihi, VII, 152) neticesinde yahudilerin 2000 yıl gibi uzun süre millî devletlerini kuramamış olmaları bu zilletin örnekleridir. Günümüzden 500 sene önce İspanya'da katliama uğrayan ve sürgün edilen yahudiler, Osmanlı Devleti'nin yardımı ve korumasıyla Türk yurduna yerleştirilmişler ve böylece yok olmaktan kurtarılmışlardır. Aynı şekilde II. Dünya Savaşı'nda Nazi katliamına uğrayan Almanya yahudilerinin önemli bir kısmı da Türkiye Cumhuriyeti'ne sığınmışlardır (Kitâb-ı Mukaddes'te yahudilere yöneltilen tehdit ve eleştirilere örnek için bk. Bakara 2/65-66, 74).

*(Hz. Muhəmmədə (s.s.))* bu ayədə qədim tarixin süzgəcindən keçərək gələn qeyb xəbərlərindən bir ayə *(ibrət, dəlil, iltimas, xəbərdarlıq)* nazil etmişdir. Ayədə qeyd edildiyi kimi, Allahın qanunlarının qorumasına sığınmadıqca və Allahın qulları olan güclü topluluklarla anlaşma və əməkdaşlıq etməsələr can və mal təhlükəsizliyini əldə edə bilməzlər. Müqəddəs "Qurani-Kərim"də insanı xəbərdar edən, pis yoldan çəkinməsini tələb edən kifayət qədər ayələr mövcuddur. Eyni zamanda Allahın qanunlarını pozanların aqibətləri haqqında *(Ad qövmü, Səmud qövmü, Mədyən xalqı, Lut qövmü, Əykə xalqı və s.)* da yetərincə qeyb xəbərləri bəşər övladına Allah Peyğəmbəri Hz. Muhəmməd (s.s.) vasitəsilə çatdırılmışdır. Dünyəvi elm sahələri inkişaf etdikcə, "Quran"da sadalanan və yalnız Uca Rəbbimizə məlum olan həmin qeyb hadisələrinin baş verdiyi sübuta yetirilmişdir. Bu gün elm elə bir inkişaf səviyyəsinə gəlmişdir ki, kosmosla bağlı, Misir ehramları ilə əlaqədar sirlər kəşf edilir. İnformasiya Kommunikasiya Texnologiyalarının inkişafı nəticəsində məlumatların və biliklərin rəqəmsallaşdırılması, orta əsrlər dövründə mövcud olan kommunikasiya problemlərini ortadan qaldırmışdır. Bu gün bütün dinlərə *(istər səmavi, istərsə də qeyri-səmavi)* mənsub olan elm adamları arasında qarşılıqlı münasibətlər mövcuddur. Elmi-praktiki konfranslar keçirilir, müvafiq məsələlər və problemlər müzakirə edilir. Tarixi məlumatların əldə edilməsi asanlaşıb. Süni intellektlə bağlı sistemlərin inkişafı da dillərin müxtəlifliyi ilə bağlı çətinlikləri ortadan qaldırır. Gooqle-da tərcümələrin yerinə yetirilməsi istəni-

lən elm adamının düşüncələri və elmi yaradıcılığı ilə məşğul olmağa və araşdırmalar aparmağa imkan verir. Uca Rəbbimizin "Quran" ayələrində insanlığa qeyb xəbərləri barədə etdiyi müraciətləri insanlar rəqəmsallaşdırıb yaddaşlarda saxlayırlar. Yuxarıda konkret misallarda qeyd edildiyi kimi, elmin inkişafı nəticəsində bir çox "Quran" möcüzələrinə aydınlıq gətirilir. 1400 il əvvəl Uca Rəbbimizin elmindən və qeyb xəbərlərindən olan "Quran" ayələrində göstərilən həqiqətlər elmin inkişafı ilə zaman-zaman təsdiqini tapır və elm adamları tərəfindən kəşf olunur. Elm insanları tərəfindən rəqəmsallaşdırılan və təhlil üçün əlçatan olan geniş məlumat bazası mövcuddur. Qısa bir zaman kəsiyində dünyanın istənilən nöqtəsində baş verən hadisələr efir vasitəsilə bütün dövlətlərə və xalqlara çatdırılır. İstər Şərqdə, istərsə də Qərbdə, yaxud dünyanın altı qitəsində və dörd okeanın dərinliklərində, yer kürəsində və kosmosda baş verən hadisələr izlənilir. Tarixdə baş verən müharibələr,[162] onların törətdiyi dağıntılar, insanlığa qarşı edilən cinayətlər, həmin cinayətləri törədən şəxslərin aqibəti, yaxud tarixdə baş verən azadlıq müharibələri haqqında məlumatlar hərtərəfli və ətraflı formada insanlığa, sivilizasiyaların elm adamlarına, dövlət xadimlərinə və mütəfəkkirlərə məlumdur. Sadəcə istər həmin müharibələr, istərsə də dünyamızın hər hansı bir nöqtəsində baş verən əhəmiyyətli hadisələr, müxtəlif bilik səviyyəsinə malik

[162] Eramızdan əvvəl 2500-cü ildən hazırkı tarixə qədər keçən dövr (4500 il) üçün baş verən bütün irili-xırdalı müharibələrin (8048 müharibə) xəritəsi hazırlanmışdır.

olan elm adamlarının *(Platon, Aristotel, Pifaqor, Hegel, Kant, Marks, Engels, Lenin və b.)* düşündüyü və icad etdiyi metodlara, metodikaya və metodologiyaya deyil, "Quran" metodikasına və metodologiyasına istinad edərək, yaxşını-pisdən, ədaləti-rəzalətdən, haqqı-batildən ayırmağa səy göstərilməklə təhlil edilməli və ibrət alınmalıdır.

## 3.7. Təbii intellektin proqram dilləri və alqoritmləri

Uca Rəbbimiz hər bir insana lütf elədiyi 5 xarici duyğu orqanında *(göz, qulaq, burun, dil, dəri)*, bədənə verdiyi həyatda *(həzm prosesi və maddələr mübadiləsi)* və daxili mənəvi hiss üzvlərində *(ağıl, qəlb, könül, nəfs, ruh)* elə özünə məxsus "kodlaşdırma dilləri" yerləşdirmişdir ki, qidalanmadan, nəfsani duyğuları idarəetmədən, nitqinə və düşüncəsinə nəzarət səviyyəsindən asılı olaraq insanın ağlı, zəkası, davranışı, imanı, nəfsani duyğuları və onun mərtəbələri formalaşaraq "proqramlaşdırılır". Həmin formalaşan "proqramların" keyfiyyətindən *(insanın həyat tərzindən)*, Uca Rəbbimiz tərəfindən insana verilən *(üfürülən)* Ruhla əlaqə tərzindən və səviyyə dərəcəsindən *(mənəvi dərəcələr)* asılı olaraq *(yəni insanın həmin duyğu orqanları tərəfindən daxil edilən məlumatları kodlaşdırma dilinə uyğun olaraq yeni yazılan proqramın qəbulu, oxunması və adekvat yönəldilməsinin təmin edilməsi əsasında)* insanda fəzilətlər, yaxud rəzilətlər formalaşır. Kompüter quruluşuna uyğun dillə və anlayışla ifadə etsək alınan məlumatlar əsasında insanın

özündən asılı olmayaraq müsbət və ya mənfi keyfiyyətli proqramlara uyğun alqoritmlərlə yazılaraq uyğun bazaya *(ağılın, mentalitetin, dünyagörüşün, zəka və düşüncə tərzinin formalaşdığı bazaya - RAM-a "hard diskə")* ötürülür. Burada insanın *(şəxsin)* ixtiyarında olan yalnız həmin məlumatları qəbul etmək, yaxud etməməkdir. Yəni gözlə əlaqəli duyğu orqanına nisbətdə baxmaq və ya baxmamaq, dillə əlaqəli danışmaq, yaxud danışmamaq və s. Baxılan obyekt və ya haqqında danışılan və müzakirə olunan məsələ "Quran" ayələrinə uyğundursa, yəni halaldırsa yazılan "proqram alqoritmi" də fəzilətli, yox əgər haramdırsa yazılan "proqram alqoritmi" də rəzilətli olacaqdır. Uca Rəbbimiz "Ənam" surəsinin 104-cü ayəsində[163] insanın diqqətini görmək və təfəkkür etmək hikmətinə yönəldir. Proqram dillərinə və alqoritmlərinə təsir edən başqa bir keyfiyyət insanın qəbul etdiyi qidalarla onun halallığı və haramlığı ilə bağlıdır.[164] Qəbul edilən qidalar da dolayısı ilə insanın

[163] "Rəbbinizdən sizə bəsirət (görüb dərk etmə qabiliyyəti) gəlmişdir. Kim görərsə, bu öz lehinə, kim də görməzsə, bu onun əleyhinədir. Mən sizin üstünüzdə gözətçi deyiləm. (Allah-təala insanlara cisimləri görmələri üçün göz verdiyi kimi, həqiqətləri görmələri üçün də qəlb gözü olan idrak qabiliyyəti vermişdir. Kim bu qabiliyyətini doğru yolda işlətməzsə, özünə zərər vermiş olar". ("Ənam", ayə 104).

[164] Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin! Həqiqətən, o (Şeytan) sizinlə açıq-açığına düşməndir. ("Əl-Bəqərə", ayə 168). Təfsiri: Dinî bir terim olarak helâl şer'an izin verilmiş olan, hakkında yasaklama veya kısıtlama bulunmayan davranışı ve onun dinî-hukukî hükmünü ifade eder. Mubah ve câiz gibi terimlerle de ifade edilir; mükellefin yapıp yapmamakta muhayyer bırakıldığı davranışları belirtmek üzere kullanılır. Tayyib ise aklıselim sahibi, dengeli, erdemli, temiz tabiatlı her insanın beğendiği, hoşlandığı, temiz, güzel, iyi ve yararlı bulduğu şeyler için kullanılır. "Şeytanın izinden gitmek" onun kışkırtmalarına, dürtülerine açık ve zayıf bir ruha sahip

digər mənəvi keyfiyyətlərinə təsir edir və həmin proqram dillərini formalaşdırır. Ulularımız bu hikməti zərb-məsəllərimizdə də ifadə etmişlər -Hər kəs öz xoşbəxtliyinin dəmirçisidir; Hər kəs nə eləsə özünə edər. Başqa sözlə, insan özü-özünün taleyini, yəni həm bu dünyasını, həm də axirət həyatını kodlaşdırır, yaxud proqramlaşdırır. Təsəvvüf, irfan düşüncəsinə və müasir dünyamızın dərketmə dilinə istinadən yuxarıda qeyd etdiyimiz fikirləri "Qurani-Kərim"in "Əl-Leyl" surəsinin 12-ci ayəsindən və onun təfsirindən daha aydın şəkildə dərk edə bilərik.[165] Ayənin təfsi-

---

olmak demektir. Bundan kurtulmak ise en başta güçlü bir imana; her türlü dinî ve dünyevî konularda doğru ve yeterli bilgiler yanında, kısaca takvâ kavramıyla ifade edilen yüksek bir dinî ve ahlâkî duyarlılık geliştirmeye bağlıdır. Bu şekilde ruhsal donanıma sahip olan insanlar, kendilerini şeytanın kışkırtmalarından koruyacak kudret ve imkânı, şeytanî baskılara karşı direnecek irade gücünü de kazanmış olurlar.

[165] Bizim öhdəmizə düşən yalnız doğru yolu göstərməkdir! (Mömin və ya kafir olmaq isə hər kəsin öz işidir). *("Əl-Leyl", ayə 12).* **Təfsiri:** Kitab endirmək və peyğəmbərlər göndərməklə yaxşı və pis olanı hidayət və azğınlıq yollarını izah etmək Allaha məxsusdur. **Əvvəlki surədə** açıq şəkildə bildirildiyi kimi, Allah insana hiss və elm vasitələrini, ağıl və iradəni vermişdir; Yaxşını pisdən, xeyiri şərdən ayırmaq imkanı verdi. 13-cü ayədə Allah həm dünya həyatının, həm də axirətin Ona məxsus olduğunu bildirir və hər iki dünyanın Onun nəzarəti altında olduğunu göstərir və bununla da Ondan hər iki dünyanın yaxşılığını və gözəlliyini istəməyimizi nəzərdə tutur. **Əvvəlki surə:** "And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır". *("Əş-Şəms", 7-10-cu ayələr).* **Təfsiri**:7. âyette insan varlığı (nefs) üzerine yemin edilmesi onun yaratılışının özündeki üstünlüğe işaret eder. "Nefse düzen verme", ona maddî ve mânevî güçlerin yerleştirilmesi, her gücün yapacağı görevin tayin edilmesi ve bu güçleri kullanacak organların verilmesi şeklinde açıklanmıştır. 8. âyetteki fücûr her türlü kötülüğü, günah ve sapmayı; âyette fücûrun karşıtı olarak kullanılan takvâ ise burada doğruluk, iyilik ve hak yolda kararlılığı ifade eder.

rindən də göründüyü kimi, insan mürəkkəb və sirlərlə dolu hikmətli yaradılışa malikdir. Deməli, Uca Qüdrət sahibi tərəfindən insana elə keyfiyyətlər və qabiliyyətlər verilmişdir ki, yalnız rasional elmi düşüncənin bugünkü səviyyəsi ilə ona verilən ilahi nemətləri dərk etmək iqtidarında deyil. İnsanın rasional *(maddi)* elmi, hissi *(mənəvi)* elmlə birləşməsə və vəhdətdə olmasa Uca Qüdrət sahibinin ona verdiyi imanı və onunla bağlı digər mücərrəd nemətləri də qavraya və dərk etməyə səy göstərməyəcəkdir. Burada elə sirli və hikmətli məsələlər var ki, onun dərk edilməsinə yalnız İlahi Nurun ziyasından yanaşmaqla təfəkkür edilməyə səy göstərilə bilər. Belə ki, yazılmasını təsvir etməyə çalışdığımız "proqram modelinin" alqoritmlərinin tərtibi prosesində formalaşan və proqram dillərinə çevrilərək kodlaşdırılan bütün məlumatların *(hikmətlər və rəzilətlər formasında, yaxud hər bir insanın nəfsinin kamilləşmə dərəcələrinə*[166] *uyğun olan hikmətlər və rəzilətlər səviyyəsində)* monito-

---

Aynı âyetteki elheme fiilinin masdarı olan ilham, bu bağlamda fücûr ve takvâ kelimeleriyle birlikte değerlendirildiğinde, "Allah Teâlâ'nın insanın fıtratına doğru ve yanlışı, iyilik ve kötülüğü, günah ve sevabı bilme, tanıma, ayırt etme, birini veya diğerini seçip yapma gücü ve özgürlüğü yerleştirmesi"; dolayısıyla "insanın her türlü deney ve öğrenimden önce, apriorik olarak bu yeteneklerle donanmış bulunması" şeklinde açıklanabilir. Böylece Kur'an'ın insan anlayışının bir özeti sayılabilecek olan 7-8. âyetler, insanın ahlâkî bakımdan çift kutuplu bir varlık olduğunu, iyilik veya kötülük yollarından dilediğini seçebilecek bir tabiatta yaratıldığını ve onun kurtuluş veya mahvoluşunun bu seçime bağlı bulunduğunu göstermektedir.

[166] Nəfsi-əmmarə *(əmr edən nəfs);* Nəfsi-ləvvamə *(qınayan nəfs);* Nəfsi-mülhəmə *(ilhama və kəşfə nail olan nəfs);* Nəfsi-mütməinnə *(rahatlığa-aramlığa qovuşmuş nəfs);* Nəfsi-raziyyə *(razı olan nəfs);* Nəfsi-mərziyyə *(başqasının ondan razı qaldığı nəfs);* Nəfsi-kamilə *(kamilləşmiş nəfs).*

rinqini aparan və qiymətləndirilməsini təmin edən ruh vardır. Hansı ki, həmin ruh hər an və hər dəqiqə İlahi nəzarətdədir.[167] Eyni zamanda, insan yatdıqda, Uca Rəbbimizin Mələkləri tərəfindən alınaraq, müəyyən bir yerdə[168] "saxlanılar" *(bu saxlanılmanın hikməti yalnız Uca Rəbbimizə məlumdur. Hər halda dərk edən könüllər və qəlblər üçün bunda*

---

[167] "And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq! (İnsanın adi hərəkətlərindən tutmuş, ürəyindən keçən ən gizli hisslər, duyğular belə Allaha məlumdur!)". ("Qaf", ayə 16).

[168] "Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar (çünki yuxu da ölüm kimi bir şeydir, yuxu zamanı ruh bədəni tərk edər). Ölümünə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar (onların ruhu bir daha bədənlərinə qayıtmaz, beləliklə də bədən ölüb gedər). Digər (ölümünə hökm olunmamış) kimsələrin canlarını isə müəyyən bir müddətədək (əcəlləri gəlib çatıncaya qədər yuxudan oyandıqda bədənlərinə) qaytarar. Həqiqətən, bunda düşünən bir qövm üçün (Allahın hər şeyə qadir olmasına, qiyamət günü ölüləri dirildəcəyinə dəlalət edən) əlamətlər vardır!". ("Zumər" ayə 42). **Təfsiri:** Bir önceki âyette insanların hidayete yönelmelerinin de yoldan çıkmalarının da kendi seçimlerine bağlı bulunduğuna işaret edilmişti. Hidayetin birinci şartı Allah'a imandır. İşte burada insanların Allah'a, O'nun yaratıp yönetmesindeki hikmetlere dikkat çekilmekte; sonraki âyetlerde de diğer bazı delillere yer verilmektedir. İnsanı öteki varlıklardan ayıran en temel özelliği ruh sahibi bir varlık oluşudur. Allah Teâlâ'nın insanı öldürmesi, ruhun bedenle ilişkisini kesmesidir. Âyette de işaret buyurulduğu gibi ruhun başta gelen niteliği can ve şuur kaynağı olmasıdır. Ölüm olayında Allah ruhu bedenden tamamen ayırdığından beden hem candan hem de şuurdan yoksun hale gelmekte, uyku denilen psiko-fizyolojik olayda ise can bedende kalmakla birlikte geçici bir duyum ve bilinç kaybı yaşanmaktadır. Bu kayıp bir bakıma ruhun bedeni kısmen terketmesi anlamına geldiği için âyette uyku ölüme benzetilmiştir (Zemahşerî, IV, 349). Ölüm olayında –âyetteki deyimiyle– Allah ruhu tutarken uyku olayının sonunda ruh, uyanıklıktaki fonksiyonunu yeniden kazanır. Ama bunun da ölümle son bulacak belli bir süresi (ecel-i müsemmâ) vardır. 44. âyetin sonunda da ifade buyurulduğu üzere, sonunda herkes O'nun huzuruna dönecektir (nefis-ruh-insan ilişkisi için bk. Nisâ 4/1; İsrâ 17/85).

*Yalnız Rəbbimizə məlum olan sirli bir hikmət vardır. Kompüter dili ilə desək, insanın hiss və duyğu orqanları tərəfindən hər gün alınan və alqoritmlərə çevirilən proqramların "viruslardan" təmizlənməsi, yaxud xüsusi "xarici yaddaşa" köçürülməsi kimi əməliyyatlar və s. aparıla bilər. Daha doğrusunu Uca Rəbbimiz bilir).*

## 3.8. Elmi idrakın səviyyələri

Hər hansı bir elm sahəsi ilə məşğul olmaq üçün ilkin olaraq həmin elm sahəsinə aid olan məfhumların *(terminlərin, anlayışların)* mahiyyətinə nüfuz etmək lazımdır. Qeyd etmək lazımdır ki, hər hansı bir elm sahəsinə aid olan termin, xüsusən də fəlsəfənin, bir çox dünya xalqlarının dillərindən aldığı terminləri başqa dillərə ötürən mütəfəkkirlərin düşüncə tərzinə, dünya baxışlarına uyğun olaraq tərcümə edilməklə şərh verilmişdir. Bu baxımdan, hər hansı bir terminin şərh edilməsində ziddiyyətli və fərqli fikirlər meydana çıxmışdır. Digər tərəfdən, bu ziddiyyəti və fərqi meydana gətirən əsas səbəblərdən də biri həmin alimin və ya filosofun inam və etiqadının mövcudluğu, yaxud müxtəlifliyi olmuşdur. Bəzən dünyaya hakim olan dillərin və həmin dildə yazıb-yaradan alimlərin də təsiri bu məsələdə öz müsbət və ya mənfi rolunu oynamışdır. Böyük adamların səhvləri də böyük olur. Qeyd edilənlərin işığında səhvdən və yanlışlıqdan uzaq olmaq, ədalətli olmaq üçün bizim niyyətimiz elə bir ipdən yapışmaq və elə bir nura söykənməkdir ki, qızıl ortanı tapa bi-

lək. Bu qızıl ortanı tapmaq üçün istinad edəcəyimiz əsasların-əsası Uca Rəbbimizin bəşəriyyətə göndərdiyi sonuncu Kitab *("Qurani-Kərim")* və ən səhih hesab edilən hədislərdir. Bütün digər əldə edilən nə kimi biliklər varsa, həmin nurun işığında sərfi-nəzər ediləcəkdir.

Müasir elmi dünyagörüşdə istinad edilən əsas metodiki və metodoloji yanaşma *(yalnız ağıla və məntiqə istinad)* idrak məsələsinə birtərəfli yanaşmadır. Dünyanın dərk edilməsinə də belə bir idrak prizmasından baxılmışdır. Dünyanın və insanın yaradılışı isə elə bir sirli və mürəkkəb məsələdir ki, onun dərk edilməsi üçün yalnız bir prizmadan yanaşılması yetərli deyil. Dünya sivilizasiyasının inkişaf tarixindən və ən azı üç min illik bir dövr üçün insanların yaradılışa baxışlarından da göründüyü kimi, sivilizasiyanın müxtəlif inkişaf mərhələlərində idrakın məntiqi təfəkkür səviyyəsinə uyğun biliklər də müxtəlif olmuşdur. Yəni bu gün əgər Qərb təfəkkürü yanlış olaraq elmə yansıyan və insanın bir çox keyfiyyətlərini *(iman, nəfs, ruh və s.)* qəbul etməyən düşüncəyə və ya təfəkkürə malikdirsə, bu heç də belə bir təsəvvürün doğruluğuna dəlalət etmir. Bu, sadəcə olaraq obyektiv gerçəkliyin həmin şəxslər tərəfindən yanlışcasına qəbuludur.

Digər tərəfdən, necə ola bilir ki, yer, günəş, ay, ulduz və digər planetlər və onların hərəkəti haqqında ardıcıl olaraq inkişaf edən təfəkkür, anlayış və dərketmə qəbul edilir, lakin Uca Rəbbimiz tərəfindən ardıcıl olaraq insanlığa göndərilən peyğəmbərlərdən sonuncusu olan Hz. Muhəmməd Peyğəmbər (s.s.) və onun bəşəriyyətə -bütün

insanlığa gətirdiyi "Qurani-Kərim" və onun aşıladığı biliklər, dəyərlər və möcüzələr zaman-zaman müasir elmi biliklərlə təsdiq edilsə də, elmi-fəlsəfi dünyagörüşün yenilənməsində və korreksiya edilməsində qəbul edilmir.

Demək ki, burada problem idrak və ya təfəkkür problemidir, yaxud məntiqi təfəkkür və düşüncə problemidir.

Bunun üçün mütləq idrakın ikinci prizmasından - hissi idrakdan da yanaşılması zəruridir. Hissi idrakla bağlı "Qurani-Kərim"də ayələr mövcuddur. Uca Rəbbimiz bizi yaratdığı dünyaya - göyə, ulduzlara, aya, günəşə, yerə, küləklərə, dənizə, insanın özünün yaradılışına və s. nəzər salmasını və ağıl sahibləri üçün bütün bunlarda bir hikmət olduğunu vurğulayır və onların bir Yaradanı olduğunu düşünməmizi buyurur.[169]

İdrakın iki mərhələsi ilə də iş bitmir. Onun üçüncü - irfan mərhələsinə[170] də yüksəlmək lazımdır. Yaxud onun

---

[169] "Bilin ki, göylərdə və yerdə kim (nə) varsa (mələklər, cinlər, insanlar - bütün canlılar, bütün məxluqat) hamısı Allahındır (Allahın quludur). Allahdan başqasına tapınanlar həqiqətdə Allaha qoşduqları şəriklərə tabe olmazlar (çünki əslində heç kəs Allaha şərik olmağa layiq deyildir və ola bilməz). Onlar ancaq zənnə uyar və yalandan başqa bir şey deməzlər. *("Yunus", ayə 66)"*. **Təfsiri:** Evrende var olan her şey Allah tarafından yaratıldığına, Allah her şeyin mâliki, sahibi ve hâkimi olduğuna göre, O'ndan başka bir varlığı O'na ortak tanıyıp tanrı olarak nitelemek ve böyle bir iddiayı bir din haline getirip o yolda yürümek, akıl ve ilimden uzaklaşarak bir kuruntunun, yalanın peşinden gitmek demektir.

[170] **İrfan** - əməli hərəkətin, praktiki fəaliyyətin gedişatını nizamlayan, onu idraki-nəzəri baxımdan əsaslandıran düşüncə modeli-ilahi hikmət və bilik məcmusudur. Hissi və əqli idrakdan yüksəkdə dayanan ali mərifətdir. İrfan təsəvvüfdən daha yüksək mərhələ, vahid təlimin daha uca mərtəbəsidir. (Yaqub Babayev. Təriqət ədəbiyyatı - sufizm, hurufizm. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.05.2007-ci il tarixli 464 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq olunmuşdur).

bu mərhələsinə də vaqif olmaq, yaxud bu mərhələsində də təfəkkür etməyi, düşünməyi bacarmaq lazımdır. İdrakın qeyd edilən mərhələlərini termin kimi dərk etmək üçün lügət fondumuzda olan "əmin" və "yəqin" terminlərinin mahiyyətini dərk etmək lazımdır. İdrakın ikinci mərtəbəsi – "əmin" termininə uyğundur. Ona görə ki, aparılan elmi araşdırmalar, məntiqi düşüncələr, praktiki təcrübələr əsasında insan əmin *(arxayın, qane)* olur ki, gəldiyi nəticə düzgündür. Əminlik adi elmin *(rasional elmi düşüncənin)* mərtəbəsidir. Necə ki, bu gün dünyaya hakim olan elm və fəlsəfi düşüncə elmin bu səviyyəsinə əsaslanır və elmin bu səviyyəsini qəbul edir. Lakin elmin yəqinlik mərtəbəsi də mövcuddur ki, bu mərtəbə hissi idrakla, yaxud imanla əlaqəlidir. Elmi idrakın məntiqə və imana söykənən hər iki mərtəbəsi kəsb olunan elmdir. Buna zahiri elm də deyilir. Qeyd etmək lazımdır ki, İlahi həqiqətləri və vəhdət aləminin sirlərini isə ilham yolu ilə qazanmaq mümkündür. Bu elm isə əta olunur.[171] Necə ki, Hz. İbrahim Peyğəmbərə və digər Peyğəmbərlərə əta olunmuşdur. "Qurani-Kərim"də bu barədə müvafiq ayələr[172] mövcuddur.

[171] "İlahi həqiqətləri və vəhdət aləminin sirrini və hikmətini isə yalnız elmüllədünü ilə öyrənmək olar. "Lədün" ərəbcə "yan" deməkdir. "Elmül-lədün" isə "Allah yanından vəhy vasitəsilə verilən elm" mənasındadır. Bu, məkasib, yəni kəsb edilən yox, əta olunan, Allah lütfü ilə bağışlanılan elmdir ki, tam və kamil ağıl-idrak sahibi olan peyğəmbərlərə, vəlilərə və seçilmiş iman sahiblərinə verilir. Onu oxumaq, öyrənmək və təcrübə ilə, kitablardan əldə etmək mümkünsüzdür. Həqiqi irfan əhlinə elmüllədündən pay götürmək xoşbəxtliyi nəsib olmalıdır". (Yaqub Babayev. Təriqət ədəbiyyatı -sufizm, hurufizm. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.05.2007-ci il tarixli 464 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq olunmuşdur).

[172] Beləcə, İbrahimə göylərin və yerin mülkünü (səltənətini, oradakı qəribəlikləri və gözəllikləri, onların Allah qüdrəti ilə yaradılmasını) göstərdik ki, tam qənaətlə inananlardan olsun! *("Ənam", ayə 75).*

## 3.9. Maddənin dördüncü halı

Müasir dünyamızın elm-texniki və elmi-irfani ədəbiyyatında mövcud olan biliklərə əsasən maddənin 4-cü halı onun bilik *(Quantum-plazma)* formasıdır. Biliyin istehsalçısı isə insandır. Biliyin necə istehsal olması haqqında sonrakı bölmələrdə ətraflı söhbət edəcəyik. Ona görə ki, biliyin yaranması fəlsəfənin epistemologiya[173] adlanan xüsusi bölməsidir. Apardığımız araşdırmalardan əldə etdiyimiz məlumatlara və biliklərə əsasən elmin də dörd səviyyəsini *(zahiri, hissi, irfani, eşqi)* qeyd etmək lazımdır. Əgər biz hər hansı bir maddənin, məsələn, qızılın, gümüşün, dəmirin, qurğuşunun, platinin və s. mövcud olduğu süxurları sənaye üsulu ilə əldə etdikdən sonra xüsusi texnolgiyaya və kimyəvi üsullara uyğun olaraq digər qarışıqlardan təmizləyərək saflaşdırmaqla əldə ediriksə, biliyin də əldə edilməsinin, saflaşdırılmasının və qarışıqlardan təmizlənməsinin xüsusi üsullarından istifadə edilməlidir. Bilik maddənin ən yüksək forması olduğuna görə onu da əldə etməyin və saflaşdırmanın və qarışıqlardan təmizləmənin ən yüksək üsulları, texnologiyaları, metodiki və metodoloji yanaşmaları olmalıdır. Maddələrin əvvəlki üç

[173] **Epistemologiya** (q.yun. ἐπιστήμη — bilik, bacarıq və λόγος — elm) - fəlsəfənin məlumatın təbiəti, əhatəsi və qaynağı ilə maraqlanan bölməsidir. Məlumat fəlsəfsi olaraq da adlandırılmaqdadır. Bu termini ilk dəfə fəlsəfə elmində şotland filosofu C.F.Ferye "Metafizikanın əsasları" (1854) kitabında işlətmişdir. O fəlsəfəni iki hissəyə Ontologiya və Epistemologiyaya bölmüşdür.

halı *(bərk, maye, qaz)* barədə əldə edilən məlumatların bilik halına çevrilməsi də həmin prosesdə iştirak edən insanın malik olduğu elminin səviyyələrinə uyğun yaranır. Həmin biliyin nə dərəcədə saf və qatışıqlardan təmiz olması da həmin şəxsin fiziki-mənəvi-psixoloji-nəfsi-ruhi keyfiyyətlərindən asılıdır. Bu keyfiyyətlər isə insanın həm bədən və həm də ruh halından[174] asılıdır. Deməli, saf, doğru, düzgün, əxlaq normalarına uyğun, insan və insanlıq üçün xeyirli, ədalətə və haqqa uyğun bilik hasil etmək istəyiriksə, həm sağlam bədənə, həm də sağlam ruha malik olmalıyıq. Başqa sözlə, qeyd etdiyimiz bu tələblərə cavab verən uyğun nəsil yetişdirmək üçün təlim-tərbiyə və təhsil sistemində uyğun islahatların aparılması zəruridir. Bu məqsədlərə xidmət edən yeni və daha proqressiv, daha dünyəvi və daha ədalətli fəlsəfi dünyagörüşə ehtiyac vardır. Elə bir fəlsəfi dünyagörüş ki, elmin bütün səviyyələrini qəbul edə bilsin. Dərk edə bilmədiyi, məntiq və idrak gücü çatmadığı, laboratoriya təcrübələrində yoxlamaq gücündə olmadığı hallarda, yəni yalnız ağıl və məntiqə söykənən elm səviyyəsi ilə məhdudlanmasın. Elmin iman, irfan və eşq mərhələlərinə də yüksəlməyin və çatmağın özünə məxsus

---

[174] Ruh ölməzdir, cismin məhv olmasından sonra yenə yaşayır və qiyamətə kimi öz aqibətini gözləyir. İmam Əli ibn Əbu Talib (ə) ruha belə tərif vermişdir: "Cismdə ruhun yeri sözdə mənanın mövqeyi kimidir". Bədənin özünəməxsus halları və xüsusiyyətləri olduğu kimi, ruhda da bunlar vardır. Həzrət Əli (ə) ruhla bədəni müqayisə edərək buyurmuşdur: "Cismin (bədənin) altı halı olur: sağlamlıq və xəstəlik, dirilik və ölüm, yuxu və oyaqlıq. Ruhun da beləcə altı vəziyyəti vardır. Ruhun sağlamlığı - yəqinlik, xəstəliyi - şəkk-şübhədir. Diriliyi - elm, ölümü - cəhalətdir. Ruhun yuxusu - qəflət, oyaqlığı - zikrdir".

daha yüksək mərhələləri olduğunu qəbul edə bilsin. Elə mərhələlər ki, onun əta olunmasına nail olmaq həm cismani, həm də ruhi paklıq tələb edir. Elmin bu səviyyələrinə nail olmaq üçün Müqəddəs "Qurani-Kərim"də yollar göstərilmişdir. Maddənin 4-cü bilik halının dərk edilməsi, emal olunması, insanlığın xidmətinə verilməsi üçün bəşər cəmiyyətinin özü də lazımi keyfiyyətlərə malik olmalıdır. Məsələn, uran və radium elementindən, yaxud tibbi sahədə mövcud olan metodlardan, biliklərdən *(maddənin 4-cü halı)* hər kəs istifadə edə bilirmi, yaxud hər kəs qavraya və dərk edə bilirmi!? Əlbəttə ki, yox! Maddənin qeyd etdiyimiz bu hallarından yalnız müvafiq cismi və ruhi hazırlığa malik olanlar bəhrələnə bilir. Hər bir maddə və onun hər hansı bir halı, insan cəmiyyətinin həm xeyrinə və inkişafına, yaxud ziyanına və məhvinə istifadə edilə bilər. Maddənin 4-cü bilik halı da belədir. İnsanın *(insanların, qövmlərin və xalqların)* fərd və toplum olaraq formalaşan cismani və ruhi keyfiyyətlərinin xüsusiyyətlərindən asılı olaraq maddələrin mövcud olan 3-cü halının, 4-cü hala çevrilməsi prosesində də alınan yeni biliklər ya təhlükə, ya da əminlik saçan formada ola bilər. Hər bir maddənin də 4-cü halı barədə biliklər mövcuddur. Eyni zamanda bu biliklərin özü də növlərə bölünür. Məsələn, həyati biliklər, elmi biliklər, praktiki biliklər, bədii biliklər, irrasional biliklər və şəxsi biliklər. Biliklə, irrasional biliklə, yaxud şəxsi biliklə, yoxsa qeybdən əta olunan biliklə əlaqəli bir hikmətli kəlama diqqət çəkmək və bu yazının tədqiqat

metoduna[175] istinad edərək idrak edilməsini məqsədəuyğun hesab edirəm. Məsələn: Hz. Əli (ə) buyurur: *"Dinin qeyrətini çəkməyən şəxsin o biri qeyrətində şübhə var".* Bu hikmətli kəlamı bir irrasional, yaxud şəxsi və ya həyati bilik növü kimi dərk etməyə, yaxud idrak etməyə çalışaq. Birinci, qeyrət hissi nədir[176] onu bilməliyik. Digər tərəfdən, qeyrətli insan bir çox fəzilətləri - "hikmət", "şücaət", "iffət", "səxavət" və "ədalət"i ehtiva edən əxlaqi sifətlərə malikdir. "Qeyrət" dediyimiz anlayış fəzilət növünün "şücaət" cinsinə daxildir. Yəni şücaətli olan insan – ağayana, qoçaq, alicənab, mətanətli, helmli, təmkinli, hünərli, dözümlü, təvazökar, qeyrətli və riqqətli olmalıdır. Bu əxlaqi sifətlərə malik olmaq üçün insanın zahiri elmlə yanaşı, elmin ikinci mərtəbəsinə - batini elmə sahib ola bilməsi lazımdır. Batini elmə sahib olmaq isə bəsirət gözünün açıq olmasını tələb edir. Bəsirət gözünün açıq olması isə həm də insanın beş duyğu üzvünə nəzarət edə bilməsidır. Eyni zamanda, Uca Rəbbimizin Müqəddəs "Qurani-Kərim"də buyurdu-

[175] **Metod** – hər hansı bir məqsədə nail olma, müəyyən bir tapşırığı həlletmə üsulu, yaxud gerçəkliyin nəzəri və praktiki baxımdan dərk edilməsi üçün üsul və qaydaların məcmusudur.

[176] **Din və dindarlıq barəsində qeyrət deyildikdə**: o nəzərdə tutulur ki, insan dinə edilən xəyanətə görə və ya vacibatlarının cəmiyyətdə tərk edilməsinə görə həssaslıq göstərər və ürəyi yanar. Onlara qarşı etinasız olmaz. İslami dəyərlərin inkişaf etməsi üçün səy göstərər və çalışar. Ən mühüm vəzifə olan əmr-bil-məruf və nəhy-ənil-münkəri tərk etməz. **Namus barəsində edilən qeyrət dedikdə**: öz həyat yoldaşının, ananın, bacının, qızlarının namusunu qorumaq nəzərdə tutulur. Onların iffətinə diqqət edər və şəhvət yaradan geyimlərdən uzaq olmalarına səy göstərər. Onların yersiz yerə naməhrəmlə söhbət etmələrinə qadağa qoyar. Onları davamlı olaraq hicaba və təqvaya dəvət edər.

ğu nemətlərin halalından yararlanması, haramından isə uzaq durmasıdır. Göründüyü kimi, bir maddə kimi insana xas olan hissi-mənəvi keyfiyyətlərdən törəyərək zahiri və batini elmi mərtəbələrdən keçərək bilik halında bərqərar olan hikmətli kəlam - "söz" insanı mənəvi mərtəbəyə daşıyan bir "nəqliyyat" vasitəsinə çevrilir. Əlbəttə ki, həmin "nəqliyyat" vasitəsindən istifadə etmək istəyən üçün. Sözün birbaşa mənasında da, normal şərtlərdə "A" məntəqəsindən "B" məntəqəsinə hərəkət edən nəqliyyat vasitəsinə də heç kəs zorla əyləşdirilmir. İnsanın idrak etməklə yaratdığı bilik, yəni maddənin dördüncü halı, yerləşdiyi xəzinədən *(qəlbdən-könüldən-ruhdan-İlahi Nurdan)* nitq vasitəsilə sözə çevirərək üzə çıxır. Deməli, söz təfəkkürdəki anlayışların, biliklərin işarəsi və ya ifadəçisidir. Bu işarələr və ifadələr hər bir şəxsin, danışdığı dilin semantik yarusuna, fonetik qaydalara və qanunlara uyğun olaraq üzə çıxır. Bəs bu hansı yollardan və mərtəbələrdən keçərək nitqə çevirilir. Deməli, hər hansı bir məsələnin düşünülməsi, başqalarına çatdırılması, düşünənin öz kimliyini isbat etməsi və sübut etməsinin əsasında "söz" durur.

"Söz" bilik mənbəyidir, "söz" düşüncə tərzidir, "söz" kimliyin sübutudur, "söz" şüur səviyyəsinin, yəni düşünmək qabiliyyətinin və reallığa münasibəti ifadə etmək bacarığının ifadəsidir, "söz" keçmişlər barəsində informasiya daşıyıcısıdır, "söz" tarixlərin yaddaşıdır, "söz" alimlərin qələmində qüdrətdir, "söz" siyasət dilində qələbədir, "söz" xalqın kimliyidir, "söz" həm xalqın, həm də şəxsin mədəniyyətidir, "söz" proqramçı dilində süni intel-

lektdir, "söz" halal loxmadan yaranan elmdir, "söz" İlahi eşqə yetirən Nurdur...

Hz. Əli (ə) danışmaq barəsində buyurmuşdur: "İnsan öz dilinin altında gizlənmişdir (danışmayınca tanınmaz)". (Nəhcül-bəlağə, 140-cı kəlam, səh. 372).

Bu qədər əhəmiyyətli olanı – "Söz"ü ola bilərmi ki, 4-cü sənaye inqilabı dövründə, "Soft Komputing" əsrində, əsrin dahisu Lütfi Zadənin bütün dünyanın inkişafına hökm edən qeyri-səlis məntiq nəzəriyyəsinin tətbiqi erasında haqq etdiyi diqqətdən kənarda saxlanılsın. Əlbəttə, YOX! Bəs təsvir etdiyimiz belə bir müasir şəraitdə sözün haqq etdiyi diqqət nədir? Əlbəttə ki, süni intellektin inkişafı məqsədlərinə xidmət edən "Təbii İntellektin" yerini, yurdunu, qarşılıqlı əlaqələrini və bu məqsədlərə xidmət edən "BİLİK MÜHƏNDİSLİYİ"nin inkişafının təmin edilməsidir.

Bu məsələyə aydınlıq gətirmək üçün Müqəddəs "Qurani-Kərim"ə[177] müraciət edək. Yəni göründüyü kimi hər hansı bir fikir, yaxud idrak edilərək yaradılan bilik ilkin olaraq insanın qəlbində *(söhbət mənəvi qəlbdən gedir, ət parçası olmaqla bədənə xas olan ürəkdən deyil)* yaranır. Sonra qəlbdə yaranan həmin fikir və bilik, yaxud kəlam insanın ağlına gəlir. Ağıla gələn fikir, bilik, yaxud kəlam sonda insanın dilinə gəlir və sözə - nitqə çevrilir. Əgər biz bu hikməti idrak etməli olsaq, deməli, beş hiss üzvümüzlə xarici

---

[177] "Göylərdə və yerdə olanların hamısı (göylər və yer də daxil olmaqla) Allahın həqiqi mülküdür. Qəlbinizdə olanı (qeyri-ixtiyari fikir və adətlər deyil, pis əqidələr və yaramaz adətləri) aşkar etsəniz də, gizlətsəniz də Allah sizinlə onun hesabını aparacaqdır". ("Əl-Bəqərə", ayə 284).

aləmdən istər görüntü, istərsə səs, istərsə qoxu-dad və toxunma yolu ilə aldığımız ilkin məlumatlar ağıla ötürülür. Ağılın səviyyəsindən – sahibinin yaddaş bazasından, düşüncə tərzindən, səriştəlilik dərəcəsindən asılı olaraq alınmış məlumatlar qiymətləndirilir, dəyərləndirilir və qəlb xəzinəsinə necə bir dəyər, yaxud bilik kimi qəbul edilməsi üçün qərar verilir. Son qərarın verilməsi artıq qəlbin səviyyəsindən, nurluluq dərəcəsindən asılıdır. İnsan ağlını dünyəvi dəyərlərlə zənginləşdirdiyi kimi, qəlbini də mənəvi dəyərlərlə zənginləşdirir. Artıq bu zənginləşdirmələr, şəxsin həyat tərzindən, yaşayışından, halala-harama əhəmiyyət verməsindən, bu dəyərlərə əməl etməsindən, elmin və idrakın hansı səviyyəsinə malik olmasından, yəni təbii intellektin əlifbasından, alqoritmindən və s. asılıdır. Ağıl və iman arasında ziddiyyət görənlər əslində ağlın nə olduğu sualına tam yəqinliklə cavab verə bilmirlər. İnsanın ağlı harada yerləşir. Ağıl hər hansı bir qərarı təkbaşınamı verir. Ağlın növləri kimi qeyd etdiyimiz eksperimental, məntiqi, riyazi, fəlsəfi və s. həqiqətənmi ağlın növləridir, yoxsa qərar qəbul etmək üçün müxtəlif sahələr üzrə biliklərdir. Ağlın mərkəzi haradır, yaxud həqiqətənmi beyin ağlın mərkəzidir!?

Bu və digər qeyd edilənlərə də bilik mühəndisliyi və biliklərin əldə edilməsinin üsul və qaydalarına uyğun olaraq növbəti bölmələrdə aydınlıq gətirməyə çalışacağıq.

## 3.10. Təfəkkür və idrakın məskəni

Əvvəlki bölmələrdə qeyd etdiyimiz kimi süni intellektin inkişafı, əslində elm sahiblərini təbii intellektin öyrənilməsinə sövq edir. İnsanı xəlq edən Uca yaradan öz xəlq etdiyini, onun xislətini gözəl bilir. Onun istək və arzularının sonsuzluğunu, yaratmaq, fərqlənmək, öyünmək, tariflənmək, sahib olmaq və s. kimi nəfs istəklərini bildiyi üçün, insanın müasir inkişaf mərhələsində əldə etdiyi bilik və qabiliyyətləri, yenə də ona rəhmət olaraq insanın özünü tanımasına yönəldir. Tibb elminin, xüsusən də onun ebriologiya sahəsinin inkişaf etməsi sayəsində insan maddi varlıq kimi özünün anatomiyasının öyrənilməsində böyük uğurlar əldə etmişdir. Belə ki, ürək, böyrək, qara ciyər və s. kimi insan orqanlarının transplantasiyası, digər tibbi sahələrin[178] inkişafı insanın necə bir mürəkkəb varlıq olduğunu dərk və təfəkkür etməyə yol açmışdır. Fəlsəfi dünyagörüşünə uyğun olaraq elmin 1-ci, yəni ağıla, məntiqə və təcrübəyə əsaslanan idrak səviyyəsini qəbul edən elm adamları  özü-özünü öyrəndikcə, tədqiq və təhlil etdikcə yeni-yeni sirlərə vaqif olduqca, qəlbində iman nuru oyananlar Yaradanın elminə olan heyranlıqlarını gizlətməmiş, kəşf etdiklərinin Müqəddəs "Quran"da 1400 il əvvəl islam Peyğəmbərinə (s.s.) nazil olduğunu biləndə həmin dini qəbul edənlər də olmuşdur. Bu dediklərimiz maddi aləmə

[178] Mamalıq və ginekologiya; terapiya; nevrologiya; endokrinologiya; dermatovenerologiya; cərrahiyyə; urologiya və andrologiya; mammalogiya; oftalmologiya; stomotologiya və s.

məxsus olan təbiət elmlərinin bütün sahələrinin[179] inkişafinda özünü göstərir.

Bu bölmədə isə insanın təkcə maddi varlıq olmadığı, həm də mücərrəd mənəvi keyfiyyətlərə malik olduğu üçün süni intellektlə bağlı olan və maddənin 4-cü bilik halının formalaşmasını təmin edən "xəzinədən" *(xəzinələrdən və sirlərdən)* söhbət açmağa və idrak etməyə çalışacağıq.

Təsəvvüf və irfan elminin nümayəndələrinin insanın mənəviyyatı ilə əlaqəli apardığı təcrübələrdən qazandıqları bilikləri əldə etmək üçün, bilik mühəndisliyinin üsul və qaydalarından istifadə edəcəyik. Yəni elmin 1-ci səviyyəsinin üsul və qaydalarından istifadə etməklə, elmin 2-ci səviyyəsi - hissi-imani idraka söykənən elmlər haqqında bilikləri - maddənin 4-cü halını əldə etməyə çalışacağıq.

Bu məqsədlə ilkin olaraq Müqəddəs "Quran"a müraciət edək. "Quran"ın bir çox surə və ayələrində əsasən insanın xarici duyğu orqanlarından[180] *(göz, qulaq, dil, dəri[181])* və daxili duyğu orqanı olan qəlbdən söhbət gedir.

İnsan istər beş xarici, istərsə də beş daxili duyğu orqanlarından *(hisslərindən)* aldığı və ağıl süzgəcindən keçi-

---

179 Astronomiya, biologiya, coğrafiya, mexanika, fizika, kimya.

180 "Bunlar o kəslərdir ki, Allah onların qəlblərini, qulaqlarını və gözlərini möhürləmişdir. Onlar (Allahın kafirlər üçün hazırladığı əzabdan) qafildirlər!" ("Ən-Nəhl", ayə 108).

181 Qiyamət günü (onlar dünyada qazandıqları günahlarını dandıqda) dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. ("Ən-Nur", ayə 24). "Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şəhadət verirsiniz?" - deyəcəklər. (Dəriləri də) belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılırsınız!" ("Fussilət", ayə 21).

rərək qəlbə (könülə) ötürdüyü məlumatları, istərsə də qəlbində yaranan *(təsəvvür və xatırlama yolu ilə)* və ağıl süzgəcindən keçirərək yenidən qəlbinə *(könlünə)* qaytardığı məlumatları (bilikləri) nəfsinin əldə edə bildiyi, yaxud qazandığı mərtəbələrinə uyğun sərfi-nəzər edərkən, qəlbində *(könlündə)* yerləşən iman nuru ilə yoxladıqdan və imanın dərəcəsinə uyğun yəqinlik əldə etdikdən sonra müvafiq biliklərə çevirməklə qəlb xəzinəsində bərqərar edir. Müqəddəs "Quran"a, hədislərə, elm-irfan sahiblərinin biliklərinə istinad edilməklə insanın təfəkkür və düşüncəsi əsasında biliklərin yaranma prosesi sxematik olaraq verilmişdir:




Əziz dinləyicilər slaydda insanın təfəkkür və idrak prosesini əks etdirən sxemi diqqətlə nəzərdən keçirin. Sxemdən göründüyü kimi, insanın təfəkkür və idrak pro-

sesində üç əsas tərkib hissələrdən ibarət olan mücərrəd yaradılanlar - varlıqlar özünə məxsus tərkib hissələrlə iştirak edir. Sxemdəki qalın və nazik qırmızı xətlərə diqqət edin. Nazik xətlər məlumatın qəbul edilməsi, müvafiq bölmələrin və onların tərkib hissələrinin süzgəcindən keçirilməklə növbəti bölmələrə ötürülür. Qalın qırmızı xətt isə həmin bölmələr ilə əks əlaqə nəticəsində təhlil prosesinı keçdikdən, yəni qəlbin-ağlın və onun tərkib hissələrinin verdiyi yekun qərardan sonra daxili duyğu vasitələrinə ötürülərək, sonradan xarici duyğu vasitəsi olan dilə-insani nəfsə-nitq hissəsinə qaytarılır. Bu məqamda Hz.Əlinin (ə) bir kəlamını xatırlamaq yerinə düşərdi. O Həzrət buyurur: 1. "Qəlb gözün səhifəsidir. (Gərək gözün gördüyü şey qəlbin səhifəsinə yazılsın, barəsində fikirləşərək düşünülsün, haqq və ya batil, xeyir və şər olması aydınlaşdırılsın.)" (Nəhcül-bəlağə, 401-ci Kəlam. 2. Aqilin dili qəlbinin arxasında, axmağın qəlbi dilinin arxasında yerləşir.

Qəlb xəzinəsində bərqərar olan bilik, insanın nitqi vasitəsilə sözə çevrilərkən, həmsöhbətinə və ya həmin biliklərin çatdırılacağı obyektin *(xalqın, toplumun, insanların, şəxsin və s.)* ruhuna *(formalaşmış ictimai şüura)* uyğun olaraq dilin *(nitqin)* semantik xüsusiyyətlərindən istifadə edilir. Məqsəd, həmin biliklərin yönəldildiyi obyektin, onu *(həmin biliyi)* müəllifin dərk və təfəkkür etdiyi dəqiqliklə orijinalda *(qəlbdə-könüldə)* olduğu kimi adekvat sözlərlə uyğun məna ilə yüklənərək dərk edə bilməsidir. Ona görə də çox zaman düşüncə və fikirlər *(biliklər)* sözlə ifadə edilərkən dilin bütün xüsusiyyətlərindən və imkanlarından

istifadə edilir. Bunlardan biri də təşbeh və ya bənzətmələr, yaxud simvolik işarələrdir. Elə xalqın da minilliklərdən bəri sözdə *(atalar sözündə)* daşınan təfəkkür və idrakı onun yazılı və şifahi ədəbiyyatına çevrilir. Məhz bu baxımdan hər hansı bir başqa xalqın dilində olan yazını *(elmi-ədəbi əsəri)* tərcümə edərkən həm yazının tarixi və həm də xalqın daşıdığı dilin semantik xüsusiyyətləri *(təşbehlər, zərb-məsəllər, onların əsl həqiqətdə daşıdığı məna yükü və s.)* nəzərə alınmalıdır.

Bu baxımdan, istər Müqəddəs "Quran"ın və hədislərin, istərsə də təsəvvüf və irfan əhlinin və elm adamlarının daşıdığı biliklərdən bəhrələnərkən bu xüsusiyyətlər nəzərə alınmalıdır. Digər tərəfdən, bu üsul və qaydaların özü də biliyin, yaxud fikir və düşüncənin ifadə edilməsində ən uyğun yanaşma üslubudur. Məsələn, Uca Rəbbimizin  müvafiq toplumların daşıdığı xüsusiyyətlərə uyğun olaraq Davud Peyğəmbərə "Zəburu" poetik üslubda,  Müqəddəs "Quran"ı fəsahətli və bəlağətli üslubda endirmişdir. Yaxud Peyğəmbərin (s.s.) hədislərində və Nəhcül-bəlağədə də toplumun təfəkkürünə uyğun bənzətmələrdən və təşbehlərdən[182] istifadə edilmişdir. Məsələn: *Nəhcül-bəlağənin, 28-ci məktubunda Hz. Əli (ə) byurur:* "Deyibsən ki: məni *(xəlifələrə bey'ət etmək üçün)* burnuna çubuq soxulub çəkilən dəvə kimi çəkib apardılar ki, bey'ət edim. Allaha and olsun ki, məni pisləmək istəməyinə baxmayaraq, tərif-

[182] İmam Əli əleyhissəlam (fitnəkarlarla rəftar barəsində) buyurmuşdur: Fitnə-fəsad zamanı nə minilməli beli (gücü) və nə də süd sağılmalı əmcəyi olan (iki yaşı tamam olmuş və anası ondan sonra doğduğu balasına süd verən) erkək dəvə balası kimi ol. (Nəhcül-bəlağə).

ləmisən;" və ya *Nəhcül-bəlağənin 31-ci məktubunda verilən hikmətdə O Həzrət buyurur:* "Əgər istədiyin fikir və düşüncə rahatlığını əldə edə bilməsən *(ürəyin pak və itaətkar olmasa, düşüncələrin pərakəndə olsa, müxtəlif məqsədlərə malik olsan),* bil ki, öz qabağını görməyən dəvə kimi anlaqsız addım atır və zülmət qaranlıqlara *(azğınlıqlara)* düşürsən."; yenə orada: "Tamah və hərislik dəvələrinin səni sürətlə həlak suyunun başına aparmasından çəkin. *(Yəni - Dünya və onun mallarına tamah və hərislik nəticəsində haram işlər görmə ki, əgər etsən ilahi əzaba düçar olacaqsan.)";* həmçinin Nəhcül-bəlağənin 31-ci məktubunda başqa bir hikmət: "Mindiyin dəvənin itaətsizlik etməsindən çəkin! *(Yəni - İnadkarlıq və düşmənçilikdən çəkin. Yoxsa səni işlərdə elə çətinliklərə düçar edər ki, onlardan yaxa qurtara bilməzsən.)" və s. kimi təşbeh və bənzətmələri nümunə göstərmək olar.*

Yuxarıda qeyd edilənlərdən həm də belə məntiqi nəticəyə gəlmək olar ki, 4-cü sənaye inqilabı və süni intellektin inkişafı dövründə də istər yaradılan yeni biliklərin, istərsə də "Quran", hədis və elm-irfan əhlinin dəyərli irsindən istifadə edilən biliklərin toplum tərəfindən başa düşülən, qavranılan olması üçün həm də, müasir texniki vasitələrə nisbətdə təşbehlərdən-bənzətmələrdən və müqayisələrdən istifadəsi də məqsədmüvafiqdir. Necə ki, bu elmi monoqrafiyada oxuculara insan intellektinin tərkib və struktur elementləri ifadə edilərkən kompüterə nisbətdə bənzətmə və müqayisələrdən və s. istifadə edilmişdir.

### 3.11. Təbii intellektin daşıyıcısı olan insan kimdir?

İnsanın kim olduğu barədə sualın cavabını "Əl-Bəqərə" surəsindən öyrənirik.[183] Bu ayələrdən göründüyü kimi, Uca Rəbbimizin mələklərlə olan dialoqu insana özü haqqında ilk məlumatları verir. Yəni insan yer üzünün xəlifəsidir, fəsad çıxarandır, qan tökəndir, elmdə mələklərdən üstün olan bir varlıqdır, əşyalara ad qoymaq qabiliyyəti var və s.

Bu dialoqdan göründüyü kimi, insanın Uca Rəbbimizdən aldığı ilk əmr, üstünlüyünü isbat etməkdir. İnsan üstünlüyünü isbat etdikdən sonra, Uca Rəbbimiz mələklərin ona səcdə etməsini əmr etdi. Buradan hasil edilən ikinci ibrət dərsi, təkəbbürlü olmaqdır. Lovğalanan və təkəbbürlü olan iblis kafirlərdən oldu. Mövzumuzun əsas məqsədləri ilə uzlaşan digər bir məsələ də Uca Rəbbimizin kainatda *(yəni mülk aləmində)* olan əşyaların isimlərini *(adları-*

[183] "Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir! (Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" - söylədilər. (Allah onlara:) "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu. (Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün şeylərin adlarını (isimlərini) öyrətdi. Sonra onları (həmin şeyləri) mələklərə göstərərək: "(İddianızda) doğrusunuzsa, bunların adlarını Mənə bildirin!" - dedi. Onlar: "Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən", – dedilər. (Sonra) O: "Ey Adəm, bunların (kainatda mövcud olan əşyanın) adlarını onlara bildir!" - dedi. (Adəm) onlara (mələklərə) bunların adlarını xəbər verdikdə (Allah): "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində – aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi?" – buyurdu". ("Əl-Bəqərə", ayə 29-33).

*nı)* Adəmə öyrətməsidi. Fikrimizcə, bu həm də insanın başlanğıc şüuru (apriori-bilik-proqram) ilə əlaqəlidir və s.

İnsanı ən gözəl şəkildə yaradan Uca Rəbbimiz, onun-insanın yaradılış qayəsinə və məqsədinə uyğun olaraq bütün zəruri qabiliyyətləri və keyfiyyətləri vermişdir. Bütün bu keyfiyyətlər isə Allahın insana əmanətidir. Elm-irfan sahiblərinin Müqəddəs "Quran"a istinadən gəldikləri nəticəyə əsasən əmanətdə məqsəd insana verilən bütün keyfiyyətlərlə yanaşı *(agıl, qəlb, iman və s.),* həm də din və onun əsaslarıdır.

Bu baxımdan insanın kimliyini araşdırmaq üçün, ilk öncə ona verilən əmanətlərin - mücərrəd varlıqların *(ağıl, iman, nəfs, qəlb və s.)* yerinin və qarşılıqlı əlaqələrinin araşdırılması tələb olunur. Ağıl və imanın yeri – qəlbdir. Qəlb dedikdə, könül nəzərdə tutulur, o könül ki, Ruh da adlanır - o Ruh ki, ilkin başlanğıcda insana *(Adəmə)* Uca Rəbbimiz tərəfindən Müqəddəs "Quran" ayəsində deyildiyi kimi üfülənmişdir. Həmin o qəlbdə ki, İlahi Nurun təcəllisidir. Qəlbin – könülün içində yerləşən həmin Ruhun – Nurudur. Həmin Ruhda həm Nur - həm İman, həm İradə, həm Qüdrət və həm də Ağıl yerləşdirilmişdir. *(Daha doğrusunu Uca Rəbbimiz bilir).*

Bu baxımdan Peyğəmbər (s.s.) hədislərinə müraciət edək: *Səhih əl-Buxari, 1353, səh.528-də:* "Sizlərdən hər kəs anasının bətnində xəlq edilərkən ilk qırx gün ərzində nütfə halında, sonrakı qırx gündə qan laxtası, daha sonrakı qırx gündə isə ət parçası olur. Sonra Allah (onun yanına) bir mələk göndərir. Bu mələyə dörd şey (yazmaq) əmr edi-

lir və ona: "Bu uşağın əməlini, rizasını, əcəlini, bədbəxt və ya xoşbəxt olacağını yaz!" - deyilir. Sonra ona Ruh üfürülür…". Eyni zamanda, "Əs-Səcdə" surəsinin 7-9-cu ayələrində Uca Rəbbimiz buyurur: "O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı. Sonra onun nəslini nütfədən - bir qətrə zəif (dəyərsiz) sudan əmələ gətirdi. Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan (özünün yaratdığı ruhdan) üfürdü (həyat verdi). O sizə göz, qulaq və ürək verdi. Siz (bu nemətlərə) az şükür edirsiniz!". Yaxud "Əl-İnsan" surəsinin 2-ci ayəsində_"Həqiqətən, Biz insanı *(sonrakı mərhələdə ata-anasının toxumundan ibarət)* qarışıq bir nütfədən yaratdıq. Biz onu (dünyada özünü necə aparacağı, hər şeyin xaliqi olan Allaha itaət edib-etməyəcəyi ilə) imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq", - deyə Uca Rəbbimiz buyurur.

Əziz oxucular insanın yaradılışı və kimliyi ilə əlaqəli Müqəddəs "Quran" surələrinin müvafiq ayələrinə,[184] *və digər surə və ayələrindən gətirilən nümunələrə və Peyğəmbərdən (s.s.) söylənilən hədislərə (Səhih Əl-Buxari) və insan embriologiyasına dair müasir elmi biliklərə əsasən* ana bətnində 120-ci gündən sonra "ət parçasına" çevrilən varlığa birinci 10 gündə daxil edilən Ruh ata sülbündən və ananın köks sümüyündən yaranan və bətnə axıdılan nütfələrin

---

[184] "Ən-Nisa" (ayə 1), "Əl-Bəqərə" (ayə 28-30), "Ali-İmran" (ayə 6), "Əl-Ənam" (ayə 2), "Əl-Əraf" (ayə 11 və 189), "Əl-Hicr" (ayə 26), "Ən-Nəhl" (ayə 72), "Taha" (ayə 75.), "Əl-Həcc" (ayə 5), "Əl-Muminun" (ayə 12 və 13.), "Furkan" (ayə 54), "Əs-Səcdə" (ayə 7, 8 və 9.), "Əz-Zumər" (ayə 6), "Qaf" (ayə 16), "Nuh" (ayə 14), "Ət-Tariq" (ayə 7), "Ət-Tin" (ayə 4 və 5), "Əl-Ələq" (ayə 2), "Əl-İnsan" (ayə 2) və s.

birləşməsindən əmələ gələn yaradılışda - xilqətdə öz seyrinə başlayır və "Quran" təbirincə "əhsən-i təqvim" adlanır.

Eyni zamanda, elə həmin Ruhun Özü də insanın Nəfsidir-Ruhudur-Canıdır-Sirridir ki, mücərrəd varlıq olaraq yuxarıda sözükeçən Qəlblə-Könüllə birlikdə həmin "ət parçasına" daxil edilərək maddi ilə mənəvinin birgə inteqrasiyası və transformasiyası təmin edilir. Deməli, hər bir qabiliyyət və imkanlar da dolayısı ilə əslində həm də genetik koddan *(ata və ananın qidalanmasından, onun halal-haramından yaranan "nütfə"dən)* asılıdır. Bu mücərrəd varlıqların hər birinin öz yeri öz həddi-öz sərhədi mövcuddur. Bununla yanaşı, həmin hədlər və sərhədlər onların hər birinin təlim-tərbiyəsindən asılı olaraq dəyişə bilmək, yəni azalmaq və artmaq xüsusiyyətlərinə malikdir. Yəni bir tamın-vahidin hissələri kimi parçalana və ya tamla-birləşməklə bütövləşə bilmək üçün bütün qabiliyyətlər və keyfiyyətlər verilməklə seçimlərində faili-muxtardırlar.

**<u>Yenə də dahi Lütfi Zadənin dediyi kimi – </u>"Mütləq heç nə yoxdur. Hər şey, riyazi dillə desək, 0-1 şkalasında müəyyən həddə dəyişir", yaxud Mahmud Şəbüstərinin "Gülşəni Raz" əsərində qeyd etdiyi kimi: "İnsan o cəmdir ki, təkin özüdür. İnsan o təkdir ki, cəmin özüdür" hikmətli kəlamların xatırlanmasında da fayda var... Ona görə ki, Uca Rəbbimizin "əhsəni-təqvim" deyə yaratdığı insana əmanət etdiyi mücərrəd varlıqları -** ***ağıl, iman, nəfs, qəlb və s. tərkib hissələrin təlim və tərbiyə səviyyəsindən asılı olaraq "Qurani-Kərim" təbirincə*** **"əhsən-i təqvim" adlandırılan nəfsimizin (ruhumuzun), bu**

**dünyaya qədəm qoyduqdan sonra, "əsfələs-səfilin"ə tə-rəf yuvarlanması arasında milyonlarla çalarlara bənzər insanlar var olacaqdır...**

Yəni təlim-tərbiyə olunmasalar, bəsirətlərini bağlasalar, ağıllarını çalışdırmasalar, qəlblərini kor et-sələr, haqq ilə batili bir-birindən ayırmasalar nəfsin is-təklərinin əsirinə çevrilərək heyvandan da aşağı dərə-cədə olarlar, yox, əgər təlim-tərbiyə olunsalar, bəsirət-lərini bağlamasalar, ağıllarını çalışdırsalar, qəlbi kor etməsələr, haqqı-batili bir-birindən ayırsalar nəfsin is-təklərini düzgün yönəldə, halalı-haramı bir-birindən ayıra bilsələr, yəni əmanətə *(iman, ruh, nəfs, iradə, qüd-rət)* xəyanət etməsələr və zər aləmində verdikləri sözə əməl etsələr  mələklərdən də üstün ola bilərlər. Necə ki, Uca Rəbbimiz buyurur – *"O kəslər ki, namaz qılar, mallarından pay verər, haqq-hesab gününü təsdiq edər, Rəbbinin əzabından qorxub tir-tir əsər, zina etməzlər, əma-nətə xəyanət etməzlər, verdikləri sözü yerinə yetirərlər, düzgün şəhadət verərlər, namazlarını layiqincə hifz edərlər, Məhz onlar cənnətlərdə ehtiram olunacaq (əzizlənəcək) kimsələrdir".*[185]

Yuxarıda qeyd edələn təsvirə uyğun olaraq ya-radılanın-xəlq olunanın-insanın kimliyini sxematik olaraq aşağıdakı kimi təsvir edə bilərik:

---

185 "Əl-Məaric", 23-35-ci ayələr.




Yuxarıda təsvir edilən sxemdəki hikməti anlamaq mənasında Mövlana Cəlaləddin Ruminin bir hikmətli kəlamını xatırlamaq yerinə düşər: "Könül ruh evinin, yəni qəlbin pəncərəsidir. Qəlb ruh evində canının, canının canıdır. Ruh sədəfdir, könül sədəf üstündə pəncərədir. Sədəf içindəki inci ruhun nurudur. Üçüncü can ruhun Nurunun Nurudur. Bədən isə incinin içində olduğu dənizdir ki, onu qaranlıqlara qərq edib".[186] Müqəddəs "Qurani-Kərim"in ayələri ilə həmahəng səsləşən bu ***"deyim-açma"*** bizim kimliyimizi də təfəkkür etməkdə yardımçı ola bilər.

Eyni zamanda, elm-irfan sahibi Yunus Əmrənin də bu sxem modellə səsləşən "Məndən içəri" rədifli şeirindən bir beyti xatırlamaqda da fayda vardır:

**"Məni sorma mənə, məndə deyiləm,**
**Bir mən vardır məndə məndən içəri".**

[186] "Eşq Pərvanəsi" - 4 nəşr. Mövlana Cəlaləddin Rumi.

Əziz oxucular, bəzi müəlliflər ana bətnində inkişaf edən “ələqə” ruhun nə vaxt daxil edilməsi ilə əlaqəli internet resurslarında müxtəlif və ziddiyyətli fikirlər söyləyirlər. Bunları nəzərə alaraq, elm-irfan sahibi alimlərin və mütəfəkkirlərin yaradıcılığından əldə edilən biliklərə və hikmətlərə, Peyğəmbərdən (s.s.) səhih hədislərə və Müqəddəs “Quran” ayələrinə istinadən qeyd edirik ki, müqəddəs Ruhun ana bətninə məhz 120-ci gündən sonra “ət parçasına” çevrilən varlığa birinci 10 gündə daxil edilməsi daha çox elmidir. Belə ki, səhih hədisdə qeyd edilən və hər biri “40 günlük” inkişaf dövrünə bölünən – “nütfə”, “qan laxtası”, “ət parçası” ifadələri də təsadüfi deyildir. Məhz bu baxımdan, həmin məsələ ilə əlaqəsi ehtimal olunan “Quran” ayələrinin hikmətindən də yararlanmaqda fayda var.

Belə ki, həm boşanan qadınlarda *(Boşanan qadınlar üç dəfə (heyz görüb təmizlənincəyə qədər başqa ərə getməyib) gözləməlidirlər. “Əl-Bəqərə”, ayə 228),* həm əri vəfat edən qadınlarda *(Sizdən ölənlərin qoyub getdiyi qadınlar dörd ay on gün (başqa ərə getməyib) özlərini gözləməlidirlər. “Əl-Bəqərə”, ayə 234)* və həm də yaxınlaşılmayacağına and içildiyi qadınlarda *(Övrətlərinə yaxınlaşmamağı and içən kimsələr üçün dörd ay gözləmə müddəti vardır, “Əl-Bəqərə”, ayə 226)* uyğun gözləmə müddətlərinin müəyyən edilməsində də hər halda İlahi bir qanunauyğunluq və hikmət vardır. *(Daha doğrusunu Uca Rəbbimiz bilir).*

Bu mövzunun məqsədləri üçün ana bətnində inkişaf edən “yaradılana” ruhun daxil edilməsi əhəmiyyətli məsə-

lələrdən olduğu üçün, biz də bu məsələyə mümkün olan aydınlığı gətirməyə çalışdıq.

**P.S. Lakin bəzən təbii intellekt Allaha deyil, İblisə təslim olur. Tutaq ki, o, irsi çatışmazlığa kimyəvi nəzarəti təklif edir, genin keyfiyyətini molekulyar səviyyədə yaxşılaşdıra biləcəyinə inanır.**

**Bu elmi-bədii monoqrafiyanın redaktoru tərəfindən qoyulan sual yerindədir və monoqrafiyanın əhatə etdiyi elmi araşdırmalar və gəldiyi məntiqi nəticələr əsasında cavablandırılandır. Həm də bu monoqrafiyanın elmi dəyərinin göstəricisidir. Belə ki, bilik mühəndisliyi əsasında elm-irfan sahibi şəxslərin elmi biliklərindən, hikmətlərindən əldə edilən biliklər əsasında təbii intellektin alqoritminin yazılması prosesinin baş verməsinə aydınlıq gətirilir. Yəni hər bir təbii intellekt sahibi nəfsi tərbiyə, xarici və daxili hiss üzvlərinə nəzarət səviyyəsindən, ağlının nəzəri və praktiki biliklərlə təlim-tədris səviyyəsindən, qəlbinin - ruh, iman, iradə, qüdrət kimi mücərrəd varlıqlarını da nə dərəcədə tərbiyə etməsindən, həyat tərzindən, yediyi qidaların "Quran" əxlaqına uyğun olaraq halal və haramı gözləməsindən və s. asılı olaraq yazılan alqoritmin rəzilətli və ya fəzilətli olması əsasında Lütfi Zadənin "qeyri-səlis məntiq" və Rafiq Əliyevin "inperfekt" mühitdə qərar qəbul edilmə nəzəriyyələrinə uyğun olaraq nəyə inanacağını müəyyən edəcəkdir.**

## 3.12. Təbii intellektin alqoritmi

Təbii intellektin daşıyıcısı olan insanın kimliyi haqqında bəzi zəruri təməl məlumatları onun Yaradıcısı olan Uca Rəbbimizin nazil etdiyi Müqəddəs "Qurani-Kərim"dən əldə etdikdən sonra, bizim "Süni intellekt"lə bağlı əsas yanaşmamız "Qurani-Kərim" baxımından "İnsan intellekti-təbii intellekt" ilə bağlı bəzi məsələləri, yaxud ikinci substansiya – ruh barəsində[187] bəzi məsələləri təfəkkür etməkdir.

"Qurani-Kərim"də "ruh" kəlməsi 26 halda keçır. O kəlmə səkkiz halda Mələk Cəbrailə (ə), yeddi halda Uca Rəbbimizin Öz Ruhundan insana üfürməsinə, bir halda ölüm zamanı bədəndən çıxmasına, bir halda "Quran" mənasında, üç halda Məryəm oğlu İsaya, bir halda toplumun döyüşdə qüvvətləndirilməsinə, altı halda toplumun motivasiyasına aid olaraq işlənilmişdir.

Uca Rəbbimiz "Ruh" haqqında az şey öyrətdiyini və hətta istədiyi halda nə öyrədibsə *(Hz.Peyğəmbərə (s.s.) xitabən)* onun qəlbindən həmin məlumatı istədiyi halda Silə biləcəyini *(sanki bir kompüterin yaddaşından məlumatların silindiyi kimi*) bildirir. *("Əl-İsra", ayə 85).*

[187] "(Ya Rəsulum!) Səndən ruh (ruhun mahiyyəti və keyfiyyəti) haqqında soruşarlar. De: "Ruh Rəbbimin əmrindədir. (Allahın əmri ilə yaradılmışdır). Sizə (bu barədə) yalnız cüzi (az) bir bilik verilmişdir!". Əgər istəsəydik, sənə vəhy etdiyimizi (qəlbindən) çıxardıb aparardıq. Sonra Bizə qarşı özün üçün bir müdafiəçi (vəkil) də tapa bilməzdin. (Əgər Biz "Quran"ı sənə unutdursaq, yenidən heç kəs onu sənin yadına sala bilməz)". ("Əl-İsra", 85-86-cı ayələr).

Uca Rəbbimiz "Quran"da hər şeyi bizim üçün müfəssəl izah etdiyini bildirir.[188] Burada xüsusi bir məqama diqqət yetirmək lazımdır: **"O gecə mələklər və ruh *(Cəbrayıl)* Rəbbinin izni ilə *(həmin gündən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək)* hər bir işdən dolayı *(Allah dərgahından əmrlər alaraq)* yerə enərlər".**[189] Burada **Cəbrayılın *(Allahın ona salamı olsun)* "Qurani-Kərim"də Ruh adlanmasının səbəbi odur ki,** bədən ruh ilə həyat tapdığı kimi, din də Cəbrayıl ilə həyat tapdığı üçün ruh adlanmışdır və s.

Ruhun ilkin olaraq bədənə yerləşdirilməsi prosesini elmin daha yüksək səviyyələrində *(2-ci və 3-cü səviyyələr)* düşünən və təfəkkür edən, eyni zamanda bu səviyyəyə nail olmaq üçün "Quran" əxlaqına uyğun həyat tərzini yaşayan və özlərindən sonra dəyərli və əvəzolunmaz hikmət xəzinələri qoyub getmiş mütəfəkkirlərin biliklərinə istinadən idrak etməyə çalışacağıq. Həmin elm və irfan sahibi şəxslər bu prosesi Müqəddəs "Quran"a istinadən belə təsvir edirlər: *"Allah (c.c) fərdi ruhu maddi dünyaya göndərdi və o ruh, mövcudatı əmələ gətirən dörd elementin hər birinə nüfuz etdi. İlkin olaraq sudan keçdi və islandı, sonra torpaktan keçdi və çamurlandı. Daha sonra havadan keçdi və gil halına gəldi. Daha sonra atəşdən keçdi və bişmiş gilə döndü. Beləcə, mənəvi ruh, maddi aləmi əmələ gətirən bütün təməl elementlərdən keçdi və o*

---

[188] "Biz bu "Quran"da insanlar üçün hər cür məsəli müfəssəl izah etdik". ("Əl-İsra", ayə 89.)

[189] ("Əl-Qədr", 4-cü ayə).

*nurani ruh, bir gildən yaradılan qaba – fiziki bədənə yerlşədi”.*[190]

“Quran”da buyurulur: “Biz insanı başqa şəklə düşmüş qara palçıqdan, toxunduqda saxsı kimi səs çıxaran quru gildən yaratdıq”[191]. Bir zaman Rəbbin mələklərə dedi: "Mən başqa şəklə düşmüş qara palçıqdan, toxunduqda saxsı kimi səs çıxaran quru gildən insan yaradacağam!”.[192] “Mən ona biçim verib Öz ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!".[193]

Yuxarıda qeyd edilənlər, elmi-irfani ədəbiyyat və Qurani-Kərimdən alınan biliklər əsasında aşağıda beş aləm və onun tərkibi, insanın Şəhadət *(mülk)* aləminə keçdiyi yolun təsvirini və yaradılış prosesini və nizamını əks etdirən sxem-model verilmişdir:




Bu sxem-modeldə ilkin yaradılışın nuri-Muhəmmədlə (əqli-küll) başladığı təsvir edilmişdir. İnsanın Uca Rəbbimizi ilkin olaraq tanıması ruhlar *(zər)* aləmində baş ve-

---

[190] Robert Frager –Kalp, Nafs ve Ruh Sufi ədəbiyyatı 320 səh.
[191] “Əl-Hicr”, ayə 26.
[192] “Əl-Hicr”, ayə 28.
[193] “Əl-Hicr”, ayə 29.

rir. Bu, "Qurani-Kərim"də "bəzmi-əzəl", yaxud "əhdi-peyman" adlanır.[194]

Təbii intellektin alqoritminin yazılması prosesi bu qeyd edilən andan başlayaraq yuxarıda təsvir edilən 5 aləmdə "Vəhdəti vücud" anlayışına-təliminə *(bu təlimin ən görkəmli nümayəndələri: Həllac Mənsur, İbn-Ərəbi, Yunus Əmrə, Cəlaləddin Rumi, Şəms Təbrizi və s.)* uyğun olaraq dövri hərəkətə başlayır. Müasir təfəkkürə uyğun dildə desək Ruhun yaddaşına - ilkin şüura məlumatların yazılma prosesi baş verir. Bu xəyal aləmidir ki, sonradan müvafiq biliklərin öyrənilməsində təsəvvür ediləcəkdir. Başqa sözlə, bu həmin xəyal aləminin xüsusi proqramla ruhun yaddaşına yazılmış inikasıdır *(əksidir)* ki, sonradan maddi dünyaya daxil olduqda həmin dünyanı dərk etmək üçün apriori bilik *(başlanğıc şüura yerləşdirilən bilik)* kimi lazım olacaqdır.

İlahi Zatdan qopan həmin nur *(ruh)* xəyali gözəlliklər aləmində olsa da ona vücud sevgisi verilmişdir. Bu sevgi həmin ruhun cənnətdə insana *(adəmə)* üfüləndiyi anda verilmişdir!

Ruha hakim olan qanunlar maddəyə hakim olan qanunlardan, fiziki və kimyəvi xüsusiyyətlərdən fərqlidir. Peyğəmbərə (s.s.) bu suala qısa və konkret olaraq "Ruh

---

[194] Təriqət ədəbiyyatı, Yaqub Məmmədov. Səh.25. "Mən sizin rəbbiniz deyiləmmi?" ("Ələstu birəbbikum?") və onda ruhlar cavab vermişdi: "Bəli, Rəbbimizsən" ("Qalu bəla"). "(Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onları özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" - deyə soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" - deyə cavab vermişdilər...". "Quran"ın "Əraf" surəsinin 172-ci ayəsi.

Rəbbimin əmrindəndir", - deyə cavab verməsi əmr edilmişdir. Yəni ruh sirli varlıqdır. Bu cavab soruşanlarda təəccüb doğurmasın deyə, "sizə çox az bilik verilmişdir" - deyə əlavə edilmişdir.

Ruh bədənə daxil edildikdən sonra, onun hər bir zərrəsini ehtiva edir. Ruh əli ilə tutur, gözləri ilə görür, qulağı ilə eşidir, ayaqları ilə yeriyir və s. Hər hansı bir bədən üzvünün itirilməsi, ruha heç bir zədə toxundurmur...

Deməli, bizim ruhumuzun yaddaşı var. Həmin ruhun yaddaşında Uca Rəbbimiz tərəfindən formalaşdırılmış, proqramlaşdırılmış və kodlaşdırılmış gözəllik anlayışı kimi çoxlu anlayışlar var. Ruh ilk aləmdən *(qeyb aləmi)* eniş prosesinə başladığı andan keçdiyi bütün aləmlərdən *(18 min aləm)* aldığı məlumatları, o cümlədən bütün gözəllikləri yaddaşına həkk etmişdir. Deməli, bizim mücərrəd düşüncəmizdə və anlayışımızda gözəlliyin nümunəsi, etalonu proqramlaşdırılmışdır. Biz Uca Rəbbimiz tərəfindən ruhumuzun intellektində və yaddaşında yerləşdirdiyi həmin "açarı" müxtəlif forma və ifadələr *(obraz, forma, qoxu, səs və s.)* kimi digər sensorlarla[195] *(göz, burun, qulaq)* tanıdığımız zaman həmin proqram işə düşür və müvafiq qərar qəbul edilməsində, yaxud cavab tapılmasında kömək edir. İntellektimiz elə qurulmuşdur ki, ona və ya hər hansı digər bir məsələyə cavab tapana qədər axtarışda olur. Beyin neyronları və ya sensorları uzaq səyahətə çıxır. Bu səyahə-

---

[195]"Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar. Onların gözləri vardır, lakin onunla (Allahın möcüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla (öyüd-nəsihət) eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!" ("Əl-Əraf", ayə 179).

tin məkanı bəlkə də milyonlarla və ya milyardlarla kilometr məsafələrlə ölçülür. Bəzən beyin ona verilən tapşırıq və ya onu narahat edən suala hətta yuxuda da cavab axtarır və tapır. Cavab tapıldıqdan və həmin cavab onu qane etdikdən sonra insan ruhu sakitləşir. Bu, insan deyilən varlığın kimliyindən, yəni vəzifəsindən, var-dövlətindən, sosial statusundan asılı olmayaraq necə bir qiymətli və dəyərli yaradılış, xilqət olduğunu qeyd etməyə əsas verir.

İnsan yeganə xilqətdir ki, ona iradə və ixtiyar verilib. Uca Rəbbimiz Müqəddəs Kitabımızda insanı məxluqatın *(yəni yaratdıqlarının)* ən gözəli adlandırır. Yəni insan - "əhsənül-məxluqin"dir, Allah-təala isə "əhsənül-xaliqin".[196]

---

[196] "Biz insanı ən gözəl biçimdə yaratdıq!"ş Tin surəsi, ayə 4. ***Təfsiri:*** "En güzel biçim" diye çevirdiğimiz ahsen-i takvîm tamlaması bu bağlamda insana Allah tarafından verilen en güzel ve en mükemmel biçim ve yapıyı, bu sayede insanın, yeryüzü varlıkları içinde gerek fizyolojik gerekse ruhsal ve zihinsel yetenekler bakımdan en mükemmel ve en seçkin canlı olarak yaratılmış olmasını ifade eder. Kaynak : Kur'an Yolu Tefsiri Cilt:5 Sayfa: 646-647.

"Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik. (İnsan şüur, nitq qabiliyyəti, gözəl surət, boy-buxun, əllə yemək və s. bu kimi məziyyətlərinə görə həmişə Allaha şükür edib yalnız Ona tapınmalı, Rəbbinə heç bir şərik qoşmamalıdır!)" "İsra", ayə 70. ***Təfsiri:*** "Şan, şeref ve nimetler" *diye çevirdiğimiz kerem kavramı, İslâmî literatürde hem Allah'ın insanlara şeref, soyluluk, üstünlük gibi mânevî meziyetler bahşetmesini hem de mal mülk vermesini ifade eder. Böylece âyet insanı dünyada Allah'ın lutfuna en çok mazhar olmuş, en seçkin, en değerli varlık olarak göstermektedir. Tefsirlerde insana seçkinlik kazandıran özellikler akıl, zekâ, temyiz, düşünme, yazma gibi melekelerden başlayarak çeşitli psikolojik ve fizyolojik özelliklere, estetik zevklere, ahlâkî yatkınlıklara, canlı ve cansız varlıklar üzerinde tasarruf yetkisine, ekonomik faaliyetlerde bulunma özelliğine,*

Məxluqatın ən gözəli olan insanın yaradılışının əsasında Uca Rəbbimizin "Ol" kəlməsi *(əmri-sözü)* durur. Bu prosesi "Quran" ayələrinə istinadən təsvir edən elm və irfan sahiblərinin dəyərli fikirləri-bilikləri əsasında 18 min aləmlə əlaqəli aşağıdakı sxem-modeldəki kimi təsvir edə bilərik:




Bu ardılcıllıq və proses yuxarıda 5 aləmin təsvirinə dair verdiyimiz sxem-modellə qarşılıqlı uzlaşır və bir-biri-

---

*şehirler ve uygarlıklar kurma kabiliyetine kadar birçok meziyete sahip olmasıyla açıklanmaktadır. Kaynak: Kur'an Yolu Tefsiri Cilt: 3 Sayfa: 503-504.*

ni tamamlayır. Burada bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, insana Uca Rəbbimizin bəxş etdiyi "Nəfs", "Qəlb", "Ruh", "Ağıl" və "Sirr" kimi nemətlərin cəmi də təkdir, yəni vahidə bərabərdir. Dahi Lütfi Zadənin "Qeyri-səlis məntiq" nəzəriyyəsi burada da özünü doğruldur, yaxud Uca Rəbbimizin Yaradıcılıq sistemi ilə uzlaşır. Aşağıda bu sxem-model verilmişdir:

**Nəfs** + **Qəlb** + **Ruh** + **Ağıl** + **Sirr** = **1,0**

Bu məqamda, eyni zamnda Lütfi Zadə irsinin davamçısı akademik Rafiq Əliyevin bir fikrinin xatırlanması yerinə düşərdi: ***"Düşünürəm ki, gələcəyin sivilizasiyası, düşüncə tərzi qeyri-səlis məntiq olacaq. Yəni ağ-qara, hə-yox, dost-düşmən deyil, tolerantlıq məntiqi hökm sürəcək. Mən qeyri-səlis məntiqə tolerantlıq məntiqi deyirəm. İnsanlar Aristotel məntiqi ilə deyil, tolerant məntiqlə düşünəcəklər. İkinci meyar isə gərək özündən əvvəlkiləri qəbul edəsən, amma onlara doğma (ehkam) kimi baxmayasan. Lütfi Zadə həmin çərçivələri sındırmaqdan qorxmadı. Təbii ki, bu sıraya insanlıq, dürüstlük və s. meyarları da əlavə etmək olar. Amma mən bu iki meyarın qabardılmasını istədim".***

Deməli, yeni fəlsəfi dünyagörüşün əsasında da, tolerantlıq *(İslam əxlaqı ilə əsası müəyyən edilən, dinindən və milli mənsubiyyətindən asılı olmayaraq adəm övladı olaraq qar-*

*şılıqlı münasibətlər və əlaqələrin "iman", "təqva", "əxlaq" kimi ümumbəşəri dəyərlər)* məntiqi durmalıdır.

Bu məsələ ilə yanaşı, təbii intellektin yaddaşında apriori olaraq öz əksini tapan məlumatlarla əlaqəli qeyd etmək lazımdır ki, aparılan araşdırmalar və bilik mühəndisliyinin tələblərinə uyğun olaraq əldə edilən biliklər onu da qeyd etməyə əsas verir ki, "Kamil insan"ın ilkin yaradılışı zamanı, fərdi ruhun eniş prosesində o Uca Rəbbimiz tərəfindən xəlq olunmuş 18 min aləmdən keçərək, həmin aləmlər haqqında məlumatları təbii intellektin yaddaşına həkk etmişdir. Bu həmin andır ki, Uca Rəbbimiz Adəmə xitabən yaratdıqlarının adlarını Mələklərə söyləməsini əmr edir. Bu məlumatlar Adəmdə həmin nüzul-enmə prosesində hər bir aləmdən keçdiyi zaman xəyali təsəvvürlərdə əldə etdiyi biliklərdir. Elm-irfan sahibi böyük mütəfəkkirlərin və filosofların bilikləri əsasında əldə edilən bu nəticələri sxem-model şəklində aşağıdakı kimi təsvir edə bilərik:




Böyük filosof İbn-Ərəbinin qeyd etdiyi kimi: "Aləmləri on səkkiz min olaraq hesab edənlər üçün əsas budur: Külli əql, külli nəfsdir ki, bunlara lövh və qələm də deyilir. Ərş yeddi qat səma, kürsi, dörd təbiət ünsürü və üç məvalid *(mövlud-yaradılış)*, bunlar tam şəkildə on səkkiz

olurlar. Təfərrüat etibarilə də on səkkiz min olurlar. Bir çox böyük alimlər belə deyirlər. Amma həqiqəti qeyd etsək, burada əsas məsələ aləmlərin sayagəlməz qədər çox olmalarıdır".

Beləliklə, süni intellektin bir elm kimi inkişafının əsasında təbii intellekt və ya insan və onun yaradılış prosesi durmalıdır. Fikrimizcə, yalnız bu əsaslarda süni intellektin bir elm kimi inkişafı əsl hədəfinə çata bilər.

Məlum olduğu kimi, Uca Rəbbimiz "Qurani-Kərim"də bildirir:[197] *"...Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin".* Bu elmi-monoqrafiyanın da təhlil metodikasına və məsələlərə yanaşma üslubuna görə, təqribən bir elm  kimi keçən əsrin ortalarından özünün inkişafına başlayan süni intellektin müasir dünyamızda xüsusi tədqiqat obyektinə çevrilməsi, dünyanın ən güclü dövlətlərinin və elm adamlarının bu sahənin öyrənilməsinə səfərbər edilməsində də dərin bir hikmət var.

Deməli, yaradıcısı olduğu xilqətin nəfsinin istəklərini də ehtiva edən Uca Rəbbimiz, özünü yalnız məntiq və dəlil kimi elmi düşüncəyə qapılan insanın kimliyini tanıması - oxuması üçün özündə olanın *(intellektin)* sünisini yaratmaq vasitəsilə onu 1400 il əvvəl kamil bir zəriflikə - "nəzəri olaraq - Oxu" deyə əmr etmişsə, 1400 ildən sonra xəlq etdiyinin müəyyən səviyyədə inkişafindan sonra "praktiki olaraq - Oxu" məntiqi nəticəsinə gətirməklə özü-

[197] "Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O (Allah) bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!". ("Əl-Ənam", ayə 59).

nü və Rəbbini tanımağını da istəmişdir. Daha doğrusunu Uca Rəbbimiz bilir.

Beləliklə, son nəticə olaraq aparılan araşdırmaları, toplanılan bilikləri sistemləşdirərək təbii intellektin alqoritminin elektron sxem-modelini aşağıdakı kimi ifadə edə bilərik:




Təbii intellektin alqoritminin yazılmasının relyativ modelini ifadə edən sxemdən göründüyü kimi başlanğıc şüura, sirr adlanan varlığa "proqram məlumatların" daxil

edilməsi, "qələmin xəmirinin yoğrulması", yaxud təbii intellektin alqoritmini yazacaq "qələmin xəmirinin – qrafitinin hazırlanması" qeyb aləmindən başlayır. Başlanğıc şüura hopdurulmuş məlumatların *(apriori proqramın-biliklərin)* hərəkətə gətirilməsi *(təsəvvür, xatırlama, fikirləşmə, düşünmə, mühakimə, qərar, nəticə)* yediyimiz qidaların - halal və haramından və həyat tərzimizdən asılı olaraq yaradılacaq enerjidən və ya "mürəkkəb"dən asılı olaraq həmin qrafit karandaşın yazacağı rəngin çalarlarını formalaşdıracaqdır. Yəni bu yazının-proqramın-alqoritmin gözəlliyi "mürəkkəbin" tərkibindən asılı olacaq. Deməli, bizim ruhumuzun yaddaşı var. Həmin ruhun yaddaşında Uca Rəbbimiz tərəfindən formalaşdırılmış, proqramlaşdırılmış "açar-kodlar" var. Apriori proqramların işə düşməsi və onlardan istifadə dərəcəsinə uyğun cavabın tapılması, qərarın qəbul edilməsi "nəfs" və onun mərtəbələri, "ağıl" və "qəlb" kimi mücərrəd varlıqların və onların tərkib hissələrinin kamillik səviyyəsindən asılı olacaqdır.

## 3.13. Təbii intellektin növləri və formaları

İnsanın malik olduğu qabiliyyətləri müasir dünyamızın alimləri, məsələn, Horvard Qardner[198] intellektin növləri kimi təqdim edir. Horvard Qardnerin bu intellekt növləri bütün dünyada təlim-tədris prosesində nəzərə alınır. Aşağıdakı sxemdə H.Qardnerin təqdim etdiyi intellekt növləri təqdim olunur:




198 Horvard Qardner (11 iyul 1943-cü ildə anadan olub, Pensilvaniya, ABŞ) - amerikalı psixoloq, çoxsaylı intellekt konsepsiyasının müəllifi kimi tanınan, klinik psixologiya və neyropsixologiya üzrə mütəxəssisdir.

Bununla yanaşı, digər bir amerikalı psixoloq Robert Sternberq 1985-ci ildə üçtərəfli intellekt nəzəriyyəsini təklif etmişdir. Əvvəlkilərdən əhəmiyyətli dərəcədə fərqlənən ideya müəllifi R. Sternberqə görə intellekt üç istiqamətdə - "analitik"[199], "kreativ"[200] və "praktik"[201] olaraq inkişaf etməlidir. Eyni zamanda, R. Sternberq hesab edir ki, müasir təhsil sistemi insanların ancaq bilikləri yadda saxlamaq və analiz etmək qabiliyyətlərini qiymətləndirir. Bu zaman yaradıcılıq və bilikləri praktikada tətbiq etmək qabiliyyəti diqqətdən kənarda qalır.

Qeyd etmək lazımdır ki, "Təbii intellektin alqoritmi" adlanan bu elmi monoqrafiyanın toxunduğu bütün məsələlər R. Sternberqin bu fikirini təsdiq edir.

**Həqiqətən də bu elmi monoqrafiyanın məqsədləri üçün aparılan elmi araşdırmalar və əldə edilən təcrübələr də qeyd etməyə əsas verir ki, əmək fəaliyyəti prosesində əldə edilən biliklərin praktikada tətbiqi üçün "Bilik mühəndisliyi" və digər müvafiq dərslərin keçirilməsi mütləqdir. Ümumiyyətlə, dünyada mövcud olan müasir təhsil və təlim-tərbiyə sistemi əsaslı və köklü şəkildə yenilənməlidir. Tələbələrdə və müəllimlərdə elmi-nəzəri biliklərin praktikada tətbiqi, real həyatda və s. baş verən proseslərə inteqrasiyasının təmin edilməsi**

---

[199] İnsan aldığı informasiyanı analiz etməyi, müqayisə etməyi, qiymətləndirməyi bacarmalıdır.

[200] (Yaradıcı) – insan yeni ideyalar verməyi, problemlərin yeni həllini tapmağı, fərz etməyi, kəşf etməyi bacarmalıdır.

[201] İnsan nəzəriyyələri tətbiq etməyi, öyrəndiklərindən praktik olaraq istifadə etməyi bilməlidir.

**üçün istehsalata yaxınlaşması, hər bir təhsil müəssisəsinin öyrətdiyi peşə - ixtisas və konkret mövzular üzrə sifarişlər əsasında elmi-tədqiqat və tətbiqi yaradıcılıq məsələləri ilə məşğul olması zəruridir.**

İntellektlə əlaqəli yuxarıda qeyd edilənlərlə yanaşı, eyni zamanda Reymond Kettelin[202] də yaratdığı intellekt nəzəriyyəsi maraqlıdır. Reymond Kettel intellekti maye və kristallaşmış kimi iki növə ayırır.

R. Kettelə görə: ***Maye intellekt (Gf)*** bir insanın müəyyən bir məsələ ilə qarşılaşdıqda avtomatik yerinə yetirə bilmədiyi, nisbətən yeni istifadə etdiyi zehni əməliyyatlara aiddir. İnduktiv və deduktiv əsaslandırma maye intellektin (Gf) əlamətlərindən hesab olunur. İnduksiya, kəmiyyətcə mülahizə və mülahizə sürəti maye intellektə aid bacarıqların nümunələrindəndir. ***Kristallaşmış intellekt (Gc)*** isə insanın əldə etdiyi biliyin genişliyinə və dərinliyinə, bu biliklərin tətbiqinə aiddir. Kristallaşmış intellekt (Gc) bacarıqlarına misal olaraq: dil inkişafı, lüğət bilikləri, ümumi məlumat, mədəni məlumat, ümumi elmi məlumatlar, ünsiyyət bacarıqları və s. aid edilir.

Fikrimizcə, R.Kettelin intellekt *(zəka)* ilə əlaqəli maye və kristallaşmış formalara dair ifadəsi, əslində insan zəkasında, dolayısı ilə insan ağlında-qəlbində-ruhunda ge-

---

[202] Raymond Bernard Cattell (Kettell) [2] (ing. Raymond Bernard Cattell; 20mart 1905 - 2 fevral 1998) - şəxsiyyət xüsusiyyətləri sahələrində diferensial psixologiyanın, bacarıq və motivasiyanın inkişafına mühüm töhfə vermiş Britaniya və Amerika psixoloqudur. XX əsr psixologiyasında inkişaf etdirilən şəxsiyyətin ən təsirli nəzəriyyələrindən birinin - maye və kristallaşmış intellekt nəzəriyyəsinin müəllifidir.

dən qarşılıqlı proseslərin *(təsəvvürün-xatırlamanın-fikirləşmənin-düşüncənin və s.)* və yaxud biliyin yetişdiyi və formalaşdığı "xəzinə"də təfəkkür və idrak edilərək yaranan biliyin, yaxud qabiliyyətlərin məcazi mənada işlədilən maye və kristallaşmış formalarına aiddir. Əslində söhbət, dahi Azərbaycan alimi Nəsrəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində qeyd etdiyi "nəzəri" və "praktiki" ağıldan söhbət gedir.

Aşağıda R. Kettel nəzəriyyəsinə uyğun olan maye və kristallaşmış intellekt formalarını ifadə edən sxem verilmişdir:



Düşünürəm ki, R.Kettelin intellekt nəzəriyyəsindəki "maye" və ya "kristallaşmış" intellekt ifadəsi əslində yuxarıda qeyd etdiyimiz "xəzinə"də biliyin formalaşmasının keyfiyyətinə aid olmaqla məcazi mənada işlədilir. Yəni tam yetişmiş, dərk və təfəkkür edilərək yəqinlik hasil edilən bilik – "kristal" forma olaraq qəbul edilir. Təsəvvür-xatırlama-fikirləşmə-düşünmə və s. kimi mərhələdə olan məlumatlar isə hələlik tam yəqinlik hasil edilən bilik formasına çevirilmədiyi üçün – "maye" forma olaraq qəbul edilir.

Qeyd etmək lazımdır ki, bilik və onun formalaşması barədə proseslər bu elmi monoqrafiyanın 3.7. bölməsində *(Təbii intellektin proqram dilləri və alqoritmləri),* 3.10. bölməsində *(Təfəkkür və idrakın məskəni)* ətraflı izah edilmişdir.

Digər tərəfdən, H.Qardnerin intellekt nəzəriyyəsində isə sonuncu iki intellekt növü ilə, bu elmi monoqrafiyanın toxunduğu bəzi məsələlərin qarşılıqlı uzlaşdığını və bəzən də kəsişdiyinin diqqətə çatdırılması məqsədilə aşağıdakı iki intellekt növünə diqqəti cəlb etmək istərdim:

1. Ümumi şəkildə emosional intellekt - H. Qardnerin nəzəriyyəsindəki interpersonal və intrapersonal intellektlərin cəmi kimi, başqa sözlə, insanın özünü və başqalarını başa düşmək qabiliyyəti kimi izah edilir. P.Solovey[203]

[203] Peter Solovey (21 fevral 1958, Kembric, Massaçusets) - amerikalı sosial psixoloq, Yel Universitetinin 23-cü prezidenti, Amerika İncəsənət və Elmlər Akademiyasının üzvü.

və John D. Mayerə[204] görə, emosional intellekt "özünün və başqalarının hisslərinə və emosiyalarına diqqət edərək onları bir-birindən fərqləndirmək və bu informasiyadan istifadə edərək öz düşüncəsini və hərəkətlərini idarə etmək qabiliyyətidir". Bu məsələ ilə əlaqədar bu elmi monoqrafiyanın 3.1.-ci bölməsində *(Dodaqdan qəlbə axan sözün mənası hikmətdir)* bir çox məsələlərə aydınlıq gətirilmişdir.

2. Qeyd etmək lazımdır ki, H.Qardnerin təklif etdiyi intellekt növləri ilkin olaraq altı növdə olmuşdur. Nəzəriyyə müəllifi tədqiqatlarını genişləndirdikcə, əlavə olaraq sonuncu üç növ intellekt növlərini də əlavə etmişdir. Müəllifin apardığı araşdırmalara və formalaşan biliklərə görə bu yenə sonuncu intellekt növü deyil və davamı olacaqdır. Bu məsələ ilə əlaqədar sonuncu intellekt növünə diqqəti cəlb etmək istərdim.

Belə ki, sonuncu intellekt növü - **Ekzistensial intellekt *(insan varlığı barədə dərin suallar vermək qabiliyyəti: Həyatın mənası nədir? Biz niyə ölürük? Biz bu planetə necə gəlmişik? və s.)*** elə məsələlərə toxunur ki, bu məsələlər elmin 1-ci səviyyəsinin intellekt növündən kənara çıxır. Əgər H.Qardnerin intellekt nəzəriyyəsində əvvəlki intellekt növləri *(verbal-linqvistik; vizual-məkansal; məntiqi-riyazi; bədən-kinestetik; musiqi-ritmik; sosial-fərdlərarası; təbiətçi-naturalist; daxili-fərddaxili)* yalnız elmin 1-ci səviyyəsini əhatə edirdisə, ekzistensial intellekt növü artıq elmin 2-ci səviy-

[204] D.Mayer Nyu-Hempşir Universitetində emosional intellekt və şəxsiyyət psixologiyası üzrə ixtisaslaşmış amerikalı psixoloqdur. O, Peter Solovey ilə birgə emosional intellektin məşhur modelini işləyib hazırlayıb.

yəsi ilə əlaqəli suallardır. Bu elmi monoqrafiyadan alınan nəticələrə əsasən həmin suallara elmin 2-ci səviyyəsi də tam cavab verə bilməyəcəkdir. Bu sualların bir çoxu elmin 3-cü səviyyəsi ilə daha çox əlaqəlidir.

Qeyd etmək yerinə düşərdi ki, bu və digər məsələlər Şərq mütəfəkkirlərini hələ 1400 il öncə düşündürməyə başlamış və bu sualların cavabını Müqəddəs "Qurani-Kərim"də axtarmışlar.

Bu elmi monoqrafiyanın əsas tədqiqat obyekti olan təbii intellektlə bağlı sualların araşdırılması prosesində Ekzistensial intellekt səviyyəsinin suallarına müəyyən mənada 3.8. bölməsində *(Elmi idrakın səviyyələri)* və 3.12 bölməsində *(Təbii intellektin alqoritmi)* aydınlıq gətirilmişdir.

Qeyd etmək lazımdır ki, həqiqətən də müasir dünyamızın geniş imkanlarından istifadə edərək, elmin bütün səviyyələri üzrə bu və ya digər formada məşğul olan elm adamlarının bəşəriyyəti narahat edən və insanın özünün-özünü tanımasına yönəldilə bilən tədqiqatlar ətrafında bir araya gətirilməsi, söz və güc sahibi dövlətlərin həmin nəticələrdən bəhrələnərək siyasi qərarların qəbul edilməsinə yönəldilməsi də 4-cü sənaye inqilabı ərəfəsində ümumbəşəri multikultural dəyərlərin formalaşmasına böyük töhfə olardı.

# IV FƏSİL

# TƏBİİ İNTELLEKTİN ƏLİFBASININ POEZİYA DİLİ

IV Fəsil - təbii intellektin əlifbası kimi insanın həyat və fəaliyyətini təmin edən enerjinin hansı yollarla alınmasını tənzimləyən əsaslar və normalar haqqındadır. Bu normaların əsası kimi Müqəddəs "Qurani-Kərim"dən, Qüdsi hədislərdən, kəlamlarından, elm-irfan sahiblərinin biliklərindən, xalqımızın zəka xəzinəsindən gələn zərb-məsəllərdən istifadə edilmişdir. Bu mənbələrdən alınan elmi biliklərə nisbətdə bəşər övladının humanist və tolerant İntellektinin əsası olan təqva və iman nurunun kirlənməsinin qarşısının alınması üçün, ona bəxş edilən 5 xarici (*görmə, eşitmə, qoxu, dad, lamisə*) və 5 daxili (*təsəvvür, vəhm (qorxu, şübhə, intuisiya), maraq (meyil, arzu, şövq), xəyal, hafizə)* duyğu vasitələrinin formalaşmasının əlifbasının nədən ibarət olduğu ifadə edilməyə çalışılır. Yəni intellektin əxlaqa uyğun həyat və fəaliyyətini təmin edən enerjinin saflığına *(nəyin halal və nəyin haram olduğuna)* əməl edilməsinin zəruriliyi və necəliyi ifadə olunur.

## 4.1.Təbii intellektin əlifbası

Məlum olduğu və bu monoqrafiyanın adından da göründüyü kimi, əsas məqsədi təbii intellektin, onun tərkibinin, strukturunun öyrənilməsidir. Müəyyən edilmiş

məqsədə nail olmaq üçün müxtəlif üsullardan, qaydalardan və prinsiplər toplusundan istifadə edilmişdir. Bütün səmavi dinlərə, o cümlədən İslam dininə əsasən təbii intellektin və onun daşıyıcısı olan insanın Yaradıcısı Uca Rəbbimiz olduğu üçün, ən etibarlı mənbə kimi sonuncu Kitaba - Müqəddəs "Qurani-Kərim"ə müraciət edilmişdir. Bu, təbiidir, ona görə ki, söhbət insandan, onun malik olduğu keyfiyyətlərindən və zəkasından getdiyi üçün, onun haqqında ən dəqiq, dolğun, dürüst, səhih və ən etibarlı məlumat mənbəyi kim ola bilər!? Cavab birmənalıdır! Əlbəttə ki, onun yaradanı, xəlq edəni *(Konstruktoru).* Hər hansı bir avadanlığın *(texniki qurğunun, maşının və s.)* səmərəli, məqsədyönlü, təhlükəsiz fəaliyyəti və texniki xüsusiyyətləri barədə daha dolğun və dürüst məlumatı haradan ala bilərik!? Cavab yenə də birmənalıdır! Əlbəttə, həmin avadanlığın *(qurğunun, maşının)* texniki pasportundan. Bu baxımdan, təbii intellektin həyat və fəaliyyətini təmin edən bədənin *(nəbati nəfsin: qidalanma qüvvəsi; böyütmə qüvvəsi; törəmə qüvvəsi)* sağlam yaşaması və böyüməsi üçün halal və haramın nədən ibarət olduğunu bilməliyik. Yəni insan zəkasının fəaliyyət mənbəyi olan enerjinin hansı üsul və qaydalarla əldə edildiyinə nəzarət olunmalıdır. Bu mənada halal və haramın nədən ibarət olduğunu aydınlaşdırmaq üçün ən dəqiq və etibarlı mənbə olan "Qurani-Kərim"ə müraciət edilmişdir. "Quran"da ismin müvafiq hallarında 79 yerdə "Halal", 97 yerdə "Haram" ifadələri işlədilir. Hikmətini Uca Rəbbimiz bilir. Halal-haramı bildirən ayələrin bəzilərini nəzərinizə çatdırırıq:

(Ya Rəsulum!) Biz sənə (ehkamı bildirən, halal və haramı ayıran) açıq-aydın dəlillər göndərdik, onları yalnız fasiqlər inkar edərlər. ("Əl-Bəqərə", ayə 99).

Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin! Həqiqətən, o, (Şeytan) sizinlə açıq-açığına düşməndir. ("Əl-Bəqərə", ayə 168).

Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin (təmiz və) halalından yeyin! Əgər Allaha ibadət edirsinizsə, (bu nemətlərə görə) Ona şükür edin! ("Əl-Bəqərə", ayə 172).

O (Allah) sizə ölmüş heyvanı, (axar) qanı, donuz ətini və Allahdan başqasının adı ilə (bütlərin və s. adı ilə) kəsilənləri (yeməyi) qəti haram etmişdir. Lakin naəlac qaldıqda (başqasının malını) zorla mənimsəmədən və həddi aşmadan (zəruri ehtiyacı ödəyənə qədər) bunlardan yeməyə məcbur olan kimsənin heç bir günahı yoxdur. Allah bağışlayandır, mərhəmətlidir! ("Əl-Bəqərə", ayə 173).

"Məndən əvvəl göndərilmiş Tövratı təsdiq edərək (eyni zamanda orada) sizə haram edilmiş bəzi şeyləri (dəvə əti, qarın və bağırsaq piyi yemək, şənbə günü işləmək və s.) halal etmək üçün gəldim və sizə Rəbbiniz tərəfindən (peyğəmbərliyimin doğru olduğunu sübut edən) bir möcüzə gətirdim. İndi Allahdan qorxun və mənə itaət edin!" ("Ali-İmran", ayə 50).

(Ya Rəsulum!) Səndən hansı şeylərin halal edildiyini soruşurlar. De: "Bütün pak nemətlər sizə halal buyurulmuşdur. Allahın sizə öyrətdiyi (ov üsulları) ilə təlim edib əhliləşdirdiyiniz yırtıcı heyvanların (ov iti, şahin və s.) ovladıqları da sizə halaldır. Onların sizin üçün tutub gətir-

dikləriindən yeyin və ona görə (təlim etdiyiniz heyvan və quşları ov üzərinə qısqırtdığınız, silah işlətdiyiniz və ovu kəsdiyiniz zaman) Allahın adını çəkin (bismillah, Allahuəkbər deyin). Allahdan qorxun. Şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəndir! ("Əl-Maidə", ayə 4).

(Ya Rəsulum!) De: "(Ey insan!) Murdar (haram) şeyin çoxluğu xoşuna gəlsə belə, murdarla təmiz (haramla halal) bir ola bilməz". Ey ağıl sahibləri, Allahdan qorxun ki, nicat tapasınız. ("Əl-Maidə", ayə 100).

Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin. Əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin!". Allah sizə ancaq ölü heyvanı, qanı, donuz ətini və Allahın adı çəkilmədən (bismillah deyilmədən) kəsilmiş heyvanı haram buyurmuşdur. ("Ən-Nəhl", 114-115 ci ayələr).

(Müxtəlif zamanlarda ayrı-ayrı ümmətlərə göndərdiyimiz peyğəmbərlərə belə buyurduq: ) "Ey peyğəmbərlər! Təmiz (halal) nemətlərdən yeyin və yaxşı işlər görün! (Vacib və könüllü ibadətləri həm zahirən, həm də gizli, həmişə yerinə yetirin!) Mən, həqiqətən, sizin nə etdiklərinizi bilirəm! ("Əl-Muminun", ayə 51).

"Bilin ki, Allah insanla onun qəlbi arasına girər və siz axırda onun hüzuruna cəm ediləcəksiniz!" ("Ənfal", ayə 24).

"O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır... Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapa bilər" ("Rad", ayə 28)...

İnsan nəfsinin tərkibindən məlum olur ki, halal-haramla əlaqəli məsələlər yalnız qidalanma ilə deyil, həm də insanın artıb - törəməsi, ailə həyatı qurması, "əlinə, dilinə,

belinə sahib olması" düşüncəsi, dinləməsi, nitqi və s. ilə əlaqəli məsələləri də əhatə edir. Məsələn:

Atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin! Yalnız keçmişdə (Cahiliyyət dövründə) olan bu cür işlər müstəsnadır. Əlbəttə, bu çox çirkin, iyrənc işdir və (Allahın qəzəbinə səbəb olan) pis bir yoldur! ("Ən-Nisa", ayə 22).

Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi. Cinsi əlaqədə olmadığınız qadınlarınızın qızları ilə evlənmək isə sizin üçün günah deyildir. Öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq da sizə haramdır. Yalnız keçmişdə (Cahiliyyət dövründə) olan bu cür işlər müstəsnadır. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! ("Ən-Nisa", ayə 23).

Allaha şərik qərar verən (Onu inkar edən) qadınlar imana gəlməyincə onlarla evlənməyin! Əlbəttə, Allaha iman gətirmiş bir cariyə, gözəlliyinə heyran olduğunuz bir müşrik bir qadından daha yaxşıdır. Həmçinin müşrik kişilər Allaha iman gətirməyənə qədər mömin qadınları (onlara) arvadlığa verməyin! Əlbəttə, Allaha iman gətirən bir kölə camalına məftun olduğunuz müşrik bir kişidən daha xeyirlidir. Onlar (müşrik qadınlar və kişilər) sizi Cəhənnəmə çağırdıqları halda, Allah sizi Öz izni ilə Cənnətə, məğfirətə (bağışlanmağa) çağırır və yaxşı düşünüb ibrət alma-

ları üçün insanlara hökmlərini aydınlaşdırır. ("Əl-Bəqərə", ayə 221).

Bilik mühəndisliyi qaydalarına və biliklərin əldə edilmə üsullarına uyğun olaraq elm - irfan sahiblərinin əsərlərindən əldə edilmiş məlumatlara əsasən insan nəfsinin[205] tərkibi və mərtəbələri mövcuddur. Bu elmi monoqrafiyanın 3.3. bölməsində *(Nəfsin strukturu və tərkib elementləri)* nəfs barəsində ətraflı məlumat verilmişdir. Bununla əlaqədar aparılan araşdırmalar göstərir ki, Müqəddəs "Quran"da, hədislərdə və onlara istinadən təsəvvüf - irfan alimlərinin əsərlərindən də göründüyü kimi, halal və haramın əhatə dairəsi insan nəfsinin bütün növlərini və tərkibini ehtiva edir. Yuxarıda adıkeçən ayələrdən gətirilən əsaslara uyğun olaraq insanın qidalanması və artıb törəməsi ilə əlaqəli ayələrdən bəzilərini nəzərinizə çatdırdıq. Bu kimi halal və haramlar insanın düşüncəsi, nitqi və s. kimi xarici duyğu vasitələri, şübhə, qorxu və s. kimi daxili duyğu vasitələri, şəhvət, qəzəb kimi ixtiyari (iradi) təhrik qüvvələri və s. barədə də mövcuddur.

---

[205] Nəfs ruhun insan bədəninə üfləndikdən sonrakı halıdır. Yəni ruh bədənə üfləndikdən sonra nəfs adlanır. Ruh insana ana bətnindəykən üflənir ("Ən-Nisa" surəsi və bu ərəfədə nəfs olaraq mütmainnə məqamında öz seyrinə başlayır. Bu məqam "Quran"da ən gözəl məqam "əhsən-i təqvim" olaraq adlanır ("Ət-Tin", ayə 4). Təəssüflər olsun ki, insan böyüdükcə onun seyri daha da ucalara deyil, çox vaxt aşağıya doğru, "Quran" təbiri ilə "əsfələs-səfilin"ə tərəf davam edir ("Ət-Tin", ayə 5). Nəfsi-əmmarə *(əmr edən nəfs);* Nəfsi-ləvvamə *(qınayan nəfs);* Nəfsi-mülhəmə *(ilhama və kəşfə nail olan nəfs);* Nəfsi-mütməinnə *(rahatlığa-aramlığa qovuşmuş nəfs);* Nəfsi-raziyyə *(razı olan nəfs);* Nəfsi-mərziyyə *(başqasının ondan razı qaldığı nəfs);* Nəfsi-kamilə *(kamilləşmiş nəfs).*

İnsanın nəfsinin və iradəsinin tərbiyələnməsi, formalaşması üçün elm-hikmət sahibləri və ulularımız zaman-zaman bəşər övladına özlərinin hikmətli kəlamlarını və təcrübələrdən əldə etdikləri biliklərini çatdırmağa çalışmışlar.

**GƏLDİ**

Peyğəmbər nəslindən, Seyyid nəvəsi,
Mirəyyub Ağanın dilindən gəldi,
Hazırlaş görüşə Kəbə evinə,
Rəbbimdən bizlərə bir Nida gəldi!

***

Eşqi ilə döyünən qəlbim sevindi,
Gül üstə şeh kimi yaş gilələndi,
Qasim, cisminlə ruhunun fəzilətiydi,
O Böyük Nidadan riqqətə gəldi!

Yaşanan hər an tarix, aldığımız hər nəfəs bizi ölümə yaxınlaşdıran zamandır. "Gəldi" rədifli şeirinin yaranmasının qısa və həm də maraqlı bir tarixçəsi var:

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində Kadr İdarəsinin rəisi işlədiyim dövrdə (2005 - 2009-cu illər) - 2007-ci ilin yeni təqvim ilindən sonrakı ilk iş günlərindən biri idi. İşlədiyim mühitdə qəlbi sıxan bəzi insanlar da var idi. İş çox idi. Mirsultan Ağanın[206] oğlu Mirəyyub Ağa ilə otaqlarımız yanaşı idi. Nahar fasiləsində bəzən bir yerdə nahar edirdik. Keçdim otağa ki, Ağa, nahar məsələsini necə düşünürsən:

[206] *Mirsultan Ağa o şəxslərdəndir ki, 1993-cü ildə Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətləri və akademik Hacı Vasim Məmmədəliyev ilə birlikdə Həcc ziyarətində olub və niyyət edib ki, Uca Rəbbimiz həmin ziyarətdən sonra onun canını orada alsın və Allah Dərgahında bu dua qəbul olunub (04 iyun 1993-cü il).

- Dedi ki, ey Hacı Qasim, hazırlaş, bu il gedirsən Həcc ziyarətinə.

- Dedim ki, Ağa mən Hacı deyiləm və hardan bilirsən ki, mən bu il Həcc ziyarətinə gedəcəm?

- Dedi ki, Ağalar bilir. Mənə Uca Rəbbimizdən nida gəldi.[207]

Sözün düzü, Həcc ziyarətinə getmək mənim müqəddəs arzum idi və hər namazda Uca Rəbbimizdən o müqəddəs ziyarəti mənə də nəsib etməsi haqqında yalvara-yalvara 12 ildən artıq idi ki, dua edirdim. Doluxsundum və gözümün yaşını və səsimin titrəyişini gizlətmək üçün otaqdan çıxdım. Yaxınlıqda, Rəssamlıq Akademiyasının yerləşdiyi küçədə ağacların kölgəliyi idi və hər nahar fasiləsində orada təkbaşına var-gəl edirdim. Getdim həmin yerə və gəzişməyə başladım. Həmin şeir də orada yarandı.

### 4.2. Biz bu dünyaya eşq üçün gəldik!

*(Könüldən oxuyan və duyan hər kəs üçün!)*

Cənab-i Haqq, bizi Xəlq edən  iç dünyamıza nə qoyduğunu yaxşı bilir, o iç dünyasının cilalanma yollarını, cilalanma qapısını, könül qapısını bilir! Əzəldən Lövhi-Məhvuzda bu qapının adını yazmışdır! Nakam şairin, gözəllik aşiqi Müşfiqin könül dünyasından Dilbərin könül dünyasına yetirdiyi kimi!

---

[207] Həqiqətən də mən, elə Ağanın özünün köməyi ilə 2007-ci ilin dekabr ayında Həcc ziyarətində oldum. Uca Rəbbimiz arzusunda olanlara qismət eləsin, inşallah.

Bu qapı, bu könül dünyası Leyla qapısıdır! Ulular, Övliyalar demişkən – "Mövla Qapısına gedən yol, Leyla qapısından keçər!!!".

Lakin biz bu dünyaya Eşq üçün gəldik! Bu yolda yürüməliyik! Uca Rəbbimizin taleyimizə yazdığı Leyla qapısını da fəth etməliyik! Sahibi incə və zərif olan bu könül qapısı daha möhkəm, daha sərtdir! Bu qapının astanası da məşəqqətlidir! Bu qapını açmaq, onun sahibi - Leylanın könül dünyasına daxil olmaq qeyrət istər, dözüm istər! Yuxusuz gecələr istər! Bu qapı sahibi səndən könül istər, sevgi istər! Bu qapıda "Sevilmək və Sevmək" yoxdur! Bu qapıda "Sevmək və Sevilmək" var! Öncə Sevmək! Sevməlisən ki, Seviləsən! Sevdiyini sübut etməlisən əməlinlə, hissinlə, duyğunla, könlünlə! Könül pəncərəndən o Leylaya baxmağı öyrənməlisən! Düşünməyi, danışmağı, yazmağı və oxumağı öyrənməlisən! Rəbbimizin, Cənab-i Haqqın insanlığa olan ilk "Sözünü", "Oxu" kəlməsini - "1. Yoxdan yaradan Rəbbinin Adı ilə oxu. 2. O, insanı laxtalanmış qandan yaratdı. 3. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! 4. O Rəbbin ki, qələmlə yazmağı öyrətdi. 5. İnsana bilmədiklərini öyrətdi". ("Ələq", 1-5-ci ayələr).

Lakin biz bu dünyaya Eşq üçün gəldik! Bu yolda yürüməliyik! Bu yolda yürümək üçün Leyla qapısını, onun könül dünyasını fəth etməliyik! Bu yolda Fatehə dönməliyik! Könül dünyasının Fatehinə dönmək üçün isə oxumağı və qələmlə yazmağı bacarmalıyıq! Uca Rəbbimizin buyurduğu "Oxu" anlamında Oxumaq! Yəni – düşünmək, öyrənmək, ibrət almaq üçün müşahidə etmək! Ağıl-

la, zehinlə, qəlblə oxunması mümkün olan hər şeyi oxumaq! Kainatı, insanı, hadisələri oxumaq! Oxunması mümkün olan və oxumanın bütün mənalarını ehtiva edən oxumanı bacarmalıyıq. Leylanın könül dünyasına daxil olmaq üçün biz bu əlifbanı öyrənməliyik! Bu əlifbanı öyrənmədən oxumaq olmur! Gərək öyrənəsən! Öyrənəsən ki, bu yolda, Eşq yolunda yürüyə biləsən. Bu əlifbanı öyrənməsən, hər iki yolda bacarıqsız olarsan! Leylanın cismini fəth etsən də, könül dünyasını fəth edə bilməzsən!

Oxumaqda əsl məqsəd isə Leylanın (insanın) bizə yaxın olanın könül dünyasını oxumağı öyrənməkdir. Elə bir könül ki, Uca Rəbbimiz o könülə baxar! Nə demiş Yunus Əmrə:

**“Gönül Calab'ın[208] tahtı, Calap gönüle baktı**
**İki cihan bedbahtı, kim gönül yıkar ise”.**

Biz bu dünyaya Eşq üçün gəldik! Bu Eşqə yetmək qeyrət istər, səbat istər, dözüm istər, kamillik, iman və Uca Rəbbimizin rizasını istər!

Yəni ana bətnindəykən məsum olan, “Quran” təbirincə “əhsən-i təqvim” adlandırılan nəfsimizin (ruhumuzun), bu dünyaya qədəm qoyduqdan sonra “Quran” təbirincə “əsfələs-səfilin”ə tərəf davam etməsinin qarşısını almaq və yenidən ən yüksək məqama yüksəlməsinə nail olmaq və düzgün oxuya bilmək üçün ilk oncə təbii intellektin düzgün alqoritmini yazan əlifbanı *(nəyin halal və nəyin haram olduğunu)* öyrənməliyik.

---

[208] Calab – Uca Rəbbin, Cənabi-Haqqın, yəni insan könlü Uca Rəbbimizin, Cənabi-Haqqın Taxtıdır.

# ELMİ-BƏDİİ MONOQRAFİYANIN DİQQƏT YÖNƏLTDİYİ ƏSAS PROBLEMLƏR VƏ İDEYALAR

**Elmi monoqrafiya:**

- **Elmin nəzəri-tədqiqatı və əməli-tətbiqatı işlərində:** "elmin-məntiqi idrak, dəlil və sübuta əsaslanan"; "elmin hissi-imani idrak və apriori biliklərə əsaslanan"; "elmin irfani-idrak qabiliyyətinə əsaslanan *(ariflərə verilən elmi-biliklər)"; "*elmin vəhdəti-vücudda haqqa qovuşaraq bütövləşən, eşq mərtəbəsinə əsaslanan *(ağlın və idrakın qəbul edilmədiyi)"* səviyyələrinin nəzərə alınmasını;

- Maddənin 4-cü bilik halının düzgün anlaşılmasının, yad qarışıqlardan qorunmasının və təhlükəsizliyinin təmin edilməsini;

- "**Qurani-Kərim"in, həm də:** tarixi hadisələrdən ibrət almanın metod və metodologiyası, haqqı-batildən ayırmada üsul və qaydaların əsası, xitab formalarının təfəkkür və idrakın yönəldicisi olduğunu;

- Yeni fəlsəfi dünyagörüşün əsas və təməl istiqamətlərinin iman və təqva olmaqla islam əxlaqına söykənilmə zəruriliyini;

- Bir elm kimi süni intellektin predmetinin insan olduğunu nəzərə alaraq elmin səviyyələrarası qarşılıqlı əlaqələrinin yaradılmasını, elmin ikinci, üçüncü və dördüncü səviyyələrində mövcud olan elmi biliklərin və hikmət xəzinələrinin araşdırılma zəruriliyini;

- İnsan nəfsinin tərkibinin, strukturunun formalaşması və idarəedilməsinin üsul və qaydalarını;
- Dahi Lütfi Zadənin qeyri-səlis məntiq və akademik Rafiq Əliyevin qərarqəbuletmə nəzəriyyələrinin Uca Rəbbimizin yaradıcılıq sistemi ilə uzlaşdığını, yaxud yaradılışın əsas və təməl prinsiplərindən olduğunu əsaslandırmaqla, təbii intellektin alqoritminin formalaşması kimi problemlərə, ideyalara diqqət yönəldilməsinə çalışır.

## Nəticə və təkliflər

**Nəticələr:**

"Təbii intellektin alqoritmi" adlı elmi-bədii monoqrafiyanın müvafiq bölmələri üzrə aparılan araşdırmalar və təhlil aşağıdakı nəticələrin əldə edildiyini qeyd etməyə əsas verir:

1. Sivilizasiyamızın yeni inkişaf mərhələsi adlanan - dördüncü sənaye inqilabına qədəm qoyması ilə elektronlaşma və rəqəmsallaşma süni intellektin bir elm kimi inkişafına təkan verir. Süni intellekt məhsullarının gətirdiyi yeniliklər, yaratdığı və irəlidə yaradacağı problemlər və risklər ümumbəşəri mahiyyətlidir və onların dərk edilməsi də təbii intellektin öyrənilməsinə açılan və insanın özünü, yaradılışını dərk etməsinə yönəldilən İlahi hikmətdir.

2. Söz təbii intellektin ifadə forması və süni intellektin yaradılması əsaslarındandır. Bu baxımdan dilin linqvistik xüsusiyyətlərinin və semantikasının inkişafı maddənin 4-cü halı olan bilik formasının düzgün oxunması və tətbiqi, dilin kommunikasiya funksiyalarının yerinə yeti-

rilməsinin təmin edilməsi, millətlərarası əlaqələrin genişləndirilməsi, bəşəri dəyərlərin daşıdığı anlayışların sözün mahiyyətinə və məna yükünə adekvat olaraq başqa xalqlara ötürülməsi üçün "Soft Komputing" modelləşməsində bilik mühəndisliyi kimi ixtisas istiqamətinin inkişafı da zəruri tələblərdəndir.

3. Yaradılışını eyni bir başlanğıcdan alan, sonradan millətlərə və qövmlərə bölünən Adəm övladı, inkişafının müxtəlif mərhələlərində özü üçün müəyyən elmi-fəlsəfi dünyagörüş yaratmış, inkişaf etdikcə əvvəlkini bəyənməyib və inkişaf mərhələsinə uyğun yenisini yaratmışdır. Əsası 2500 illik bir tarixə dayanan müasir materialist elmi-fəlsəfi dünyagörüş bir çox sahələrdə mənəvi böhrana uğramış və 4-cü sənaye inqilabının yaratdığı və yaradacağı risklərin həllində acizdir. Bizi xəlq edən – qarşılıqlı əlaqələrimizi, inkişafımızı, dünyagörüşümüzü müəyyən edən və tənzimləyə biləcək səmavi dinlərini və kitablarını dövrün tələblərinə uyğun zaman-zaman göndərmişdir. **Müasir elmi-fəlsəfi dünyagörüşün əsasları olaraq elmin dörd səviyyəsini, <u>islam əxlaqını, təqva və imanı</u> ehtiva edən multikultural-ümumbəşəri dəyərlər 1400 il əvvəl Uca Yaradan tərəfindən müəyyən edilmişdir.**

4. Əsası qeyb aləmindən başlayaraq xəmiri 18 min aləmdən hopmuş keyfiyyətlərdən və xüsusiyyətlərdən yoğrulan təbii intellektin "qələminin" xəyal və təsəvvürlərində başlanğıc şüura (ruha) xas olan biliklərin *(apriori)*, insanın yaşadığı mühitdən aldığı 5 xarici, 5 daxili duyğu vasitələrindən süzərək cismini *(insanın)* ehtiva edən və

daşıdığı keyfiyyətlərinin cəmi vahidə bərabər olan "Nəfs", "Qəlb", "Ruh", "Ağıl" və "Sirr" ilə görüşməsindən yaranan xatırlamaların, təsəvvürün, düşüncənin, mühakimənin, təfəkkür və idrakın, rəng çalarlarını formalaşdıran *(müəyyən edən)* mürəkkəblə yazılan kodlaşdırılmış hərəkətlər, düşüncələr, qərarlar, əməllər, məlumatlar və s. *(bilik)* - təbii intellektin alqoritmidir.

5. Dördüncü sənaye inqilabının əsaslarını və inkişaf istiqamətlərini müəyyən edən süni intellekt, o cümlədən maşın öyrənməsi, neyrotexnologiyalar, robotlar, pilotsuz uçuş aparatları və s. inqilabi texnologiyaların inkişafı və tətbiqi prosesində yarana biləcək təhlükələrdən, fəlakətlərdən və qlobal risklərdən qaçılması - bir tərəfdən haqqın (əmanətin) sahibinə verilməsini, digər tərəfdən, qloballaşdıqca kiçilən dünyamızda insanlar arasında ədalətli münasibətlərin inam və etibar üzərində qurulmasını tələb edir. Bu tələblər isə Uca Rəbbimizin "haqqı (əmanəti) sahibinə verin" *("Ən-Nisa", ayə 58)* və "Sizin üçün din olaraq İslamı bəyənib seçdim" *("Əl-Maidə", ayə 3)*, "İnsanların tək bir ümmət olduğu", ağıldan başqa faktorlar dövrəyə girdiyi üçün "sonradan ixtilafa düşərək ayrıldıqları" ("Yunus", ayə 19), "Bir-birinizi tanıyasınız deyə qövmlərə ayırdıq" *("Hucurat", ayə 13)* kimi surə və ayələrdə öz əksini tapmışdır. Yəni insanlar tək bir kişi və qadından yaradılmış, mənşəyi birdir, özlərini və bir-birini tanımaları, imanla münasibət qurmaları, nəfslərinə hakim olmaları, oxumaları və s. kimi bəşəri dəyərlərə sahib olmaları əmr olunur.

6. Dördüncü sənaye inqilabının gətirdiyi ümumbəşəri *(bütün dövlətlərə, ölkələrə və xalqlara təsir edən)* problemlərin, İslam dininin gətirdiyi ümumbəşəri dəyərlər vasitəsilə həllı insanın yaradılışının dərk edilməsinə açılan qapıdır. Bu dəyərlərin mənimsənilmə məqsədləri süni intellektin inkişaf prosesinə adekvat olan, təbii intellektin alqoritminin də mənimsənilməsini tələb edir.

**Təkliflər:**

Yuxarıda qeyd edilənləri nəzərə alaraq müasir dünyamızda mövcud olan və gələcəkdə ölkəmizdə də yarana biləcək risklərin qarşısının alınması məqsədilə aşağıdakı təkliflərin nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

1. Müasir dünyamızın əsas problemlərindən biri insanın bir ilahi yaradılış olaraq bütün tərəflərdən və cəhətlərdən öyrənilməsindəki boşluqlar və yanlışlıqlardır. **Bu yanlışlıqlar da "İşin əhlinə verilməsində", yəni haqqın sahibinə verilməsində mövcud olan əsas problemlərin başında gəlir.** "Sahib" - "Əhli" sözünün Azərbaycan dilində leksik mənası - "Görmüş, keçirmiş, yaxşı-pis gün görmüş, qanan" mənasındadır. Müqəddəs Kitabımızın verdiyi anlamda Azərbaycan dilində mövcud olan və işlənən aşağıdakı sözlər bu ayənin tələblərinə uyğundur: əhli-sahibi; əhli-elm *(yəni elm sahibi)*; əhli-hünər; əhli-xidmət; əhli-insaf; əhli-iman; əhli-kamal; əhli-kərəm; əhli-kitab; əhli-qələm; əhli-mərifət; əhli-ruh; əhli-sənət; əhli-ürfan; əhli-vəfa; əhli-zövq; əhli-hal. İşin xüsusiyyətindən və yerinə yetirilmə tələbindən asılı olaraq bütün bu qeyd edilən keyfiyyətlərdən uyğun olanını daşıyan və "dinindən", "dilin-

dən", "irqindən", "cinsindən", "yaşından" asılı olmayaraq hər bir elmli, bilkli, təcrübəli, qabiliyyətli şəxs – işin əhlidir və həm də Uca Allahın bəxş etdiyi əmanətin sahibidir. İşi əhlinə vermək üçün ilkin olaraq həmin işin keyfiyyətlərini və həmin işi yerinə yetirəcək şəxsin keyfiyyətlərini müəyyən etməyin üsul və qaydalarının müəyyən edilmə metodlarının yaradılması.

2. İşi əhlinə vermək məsələsi ilə əlaqədar Azərbaycan Respublikasının qəbul etdiyi aşağıdakı normativ-hüquqi aktların:

- AR Nazirlər Kabinetinin "Ömürboyu təhsil Haqqında" və "Vəzifə deskriptorları" haqqında qərarlarının;

- AR "Məşğulluğun Beynəlxalq Təsnifatı" və "Təhsilin Beynəlxalq Təsnifatı" haqqında Dövlət Standartlarının və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" çərçivəsində insan kapitalının *(qaynaqlarının)* inkişafına, həm də bu elmi monoqrafiyada təbii intellektlə bağlı əksini tapmış məsələlərin tədrisinə xüsusi diqqət yetirilməsinin təmin edilməsi də fikrimizcə, insan resurslarının idarə edilməsində xüsusi əhəmiyyətə malikdir.

3. İnsan kapitalının inkişafında, o cümlədən təlim-tərbiyə sisteminin qurulmasında bu elmi monoqrafiyada verilən sxem modellərin tələblərinə uyğun olaraq təbii intellektin formalaşmasını və tərbiyəsini təmin edən hər üç mücərrəd varlığın "nəfs", "ağıl", "qəlb" və onların tərkib elementlərinin təlim-tərbiyəsinin yerinə yetirilməsi zəruridir. Qeyd etmək lazımdır ki, mövcud fəlsəfi dünyagörüşə uyğun olaraq hazırda yalnız, yaxud demək olar ki, yalnız

"ağıl" sisteminin - intellektin müvafiq təlim-tədris sistemi yerinə yetirilir.

Elmi monoqrafiyanın gəldiyi nəticələrə əsasən isə təbii intellektin mükəmməl tərbiyəsi hər üç tərkib elementin *(nəfs, ağıl, qəlb)* birgə və qarşılıqlı tərbiyəsini və təlim-tədris sisteminin qurulmasını tələb edir.

**İstifadə edilən mənbə, ədəbiyyat siyahısı**

1. "Qurani-Kərim". (Z.Bünyadov, V.Məmmədəliyev tərcüməsi).
2. "Quran" təfsiri. Türkiyə Diyanet İşleri Başkankığı. https://kuran.diyanet.gov.tr/Tefsir/
3. Nəhcül-bəlağə İmam Əli əleyhissəlamın xütbə, məktub və hikmətli kəlamları. Toplayanı Seyid Rəzi. Ədəbi redaktor: Akademik Hacı Bəkir Nəbiyev. Texniki redaktor: Rauf Kərimov.
4. Əxlaqi-Nasiri, Nəsrəddin Tusi, Lider Nəşriyyat-2005. Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir.
5. "LUBBÜL-LUBB və SİRRUS-SİRR" ◎ "ÖZÜN ÖZÜ VƏ SİRRİN SİRRİ" Mühyiddin İbn Ərəbi. Şərq fəlsəfəsi problemləri. Beynəlxalq elmi-nəzəri jurnal. №1. Bakı-2014.
6. Şeyx Mahmud Şəbüstəri. Gülşəni-Raz (Sirr bağçası). Bakı, Nurlan-2005.
7. Varlıq aləminin mərtəbələri. Sədrəddin Şirazi.
8 Eşq Pərvanəsi. Mövlana Cəlaləddin Rumi. Dini Nəşriyyat MİMTA.
9. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı.
10. Dürəfşan Kəlamlar. Əhmədağa Əhmədov. Təbib nəşriyyatı. Bakı-1996.

11. Lütfi Zadənin Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin məntiqi-qnoseoloji təhlili. Əziz Məmmədov ◎Fəlsəfə elmləri doktoru, professor, Bakı Dövlət Universiteti,
12. mamadov.aziz@gmail.com. https://orcid.org/0000-0001-5441-7133. Fuad  Qurbanov Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının vitse-prezidenti, Bakı Dövlət Universiteti, baş müəllim. fndu@bk.ru. https://orcid.org/0000-0002-3963-9982.
13. Epistemologiyada ağıl və iman münasibətlərinin təhlili. Ələddin Məlikov, AMEA, Elm Tarixi İnstitutu.
14. Sədrəddin Şirazi fəlsəfəsində ağıl və iman münasibətlərinin təhlili. Ələddin Məlikov. AMEA, Elm Tarixi İnstitutu, Azərbaycan İlahiyyat İnstitutu
15. Azərbaycan dili və nitq mədəniyyəti. Akif Bayramov, Ziyəddin Məhərrəmov,  Mustafa İsgəndərzadə.
16. Dini terminlər lüğəti. 2-ci nəşr.  Nəriman Seyidəliyev. "Elm və təhsil" Bakı – 2015
17. ГОСТ-18322-78. ГОСТ3.1109-82 «Межгосударственный Стандарт Единая Система Технологической Документации. Термины и определения основных понятий».
18. ГОСТ 18322-78 «Межгосударственный Стандарт. Система технического обслуживания и ремонта техники. Термины и определения».
19. "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə 29 iyun 2000-ci il tarixli 357 nömrəli və 30 may

2017-ci il tarixli, 1434 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanları.
20. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 10.11.1992-ci il tarixdə imzalanmış (№371) "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanunu.
21. Beynəlxalq Əmək Təşkilatı "Konvensiyalar və tövsiyələr". Bakı-1996
22. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 27.12.2002-ci il tarixdə imzalanmış (№412-IIQ) "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu.
23. Azərbaycan Respublikası Prezidentinin 08.07.2008-ci il tarixli 796 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları".
24. ГОСТ 18322-78 «Межгосударственный Стандарт. Система технического обслуживания и ремонта техники. Термины и определения».
25. "Texnoloji sənədlərin vahid sistemi və əsas məfhumların anlayışları"na dair Dövlətlərarası standart (ГОСТ 18322-78; ГОСТ 3.1109-82).
26. ГОСТ 12.0.230-2007 Система стандартов безопасности труда (ССБТ). Системы управления охраной труда. Общие требования. Межгосударственный Стандарт Система стандартов безопасности труда, системы управления охраной труда Общие требования Occupational safety

standards system. Occupational safety and health management systems. General requirements.

27. ГОСТ 12.0.003-74 Система стандартов безопасности труда (ССБТ). Опасные и вредные производственные факторы. Классификация. Межгосударственный Стандарт Система стандартов безопасности труда опасные и вредные производственные факторы Классификация Occupational safety standards system. Dangerousand harmful production effects. Classification
28. ИСО 12100-1:2003 "Безопасность машин. Основные понятия, общие принципы конструирования. Часть 1. Основная терминология, методология" (ISO 12100-1:2003 "Safety of machinery - Basic concepts, general principles for design - Part 1: Basic terminology, methodology"). Настоящий стандарт идентичен международному стандарту
29. срока действия снято по протоколу N 4-93 Межгосударственного Совета по стандартизации, метрологии и сертификации (ИУС 4-94); ПЕРЕИЗДАНИЕ. Август 2001 г.
30. "Süni intellekt, qeyri-səlis məntiq və fəlsəfə" elektron almanaxı. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu. Bakı-2021.
31. İnformasiya cəmiyyətinin problemləri. Elmi-praktiki jurnal. №2. 2016. Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun elmi əsərləri.

32. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası".
33. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 30.12.1997-ci il tarixdə imzalanmış (№423-IQ) "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu.
34. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18.07.2018-ci il tarixli, 311 №-li Qərarı.
35. "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə 29 iyun 2000-ci il tarixli 357 nömrəli və 30 may 2017-ci il tarixli 1434 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanları.
36. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 15-4 nömrəli 04.12.2002-ci il tarixli Qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 19.12.2002-ci il tarixli, 2948 qeydiyyat nömrəli "İş yerlərinin attestasiyasının nəticələrinə əsasən əmək şəraitinin ağır və zərərliliyinin qiymətləndirilməsi metodikası".
37. ГОСТ 12.4.011-89 Система стандартов безопасности труда (ССБТ). Средства защиты работающих. Общие требования и классификация (Occupational

safety standards system. Means of protection. General requirements and classification). İstinad edilən ГОСТ–lar: ГОСТ 12.4.013-85 ; ГОСТ 12.4.023-84 ; ГОСТ 12.4.034-85; ГОСТ 12.4.064-84; ГОСТ 12.4.068-79; ГОСТ 12.4.103-83; ГОСТ 12.4.115-82; Ограничение.

38. "Təhlükə potensiallı obyektlərin Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10.05.2001-ci il tarixli Qərarı
39. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının "İcbari tibbi müayinələrin təkmilləşdirilməsi barədə" 13 dekabr 2012-ci il tarixli 46 № -li Qərarı ilə təsdiq edimişdir.
40. "Azərbaycan Respublikasının Əmək Məcəlləsi" X Bölmə. Əməyin mühafizəsi.
41. A.M.Qasımov. Azərbaycan Respublikası Əmək Məcəlləsinin Kommentariyası. "Adiloğlu" nəşriyyatı, Bakı-2007, səh. 880.
42. "Texnoloji sənədlərin vahid sistemi və əsas məfhumların anlayışları"na dair Dövlətlərarası standart (ГОСТ 18322-78; ГОСТ 3.1109-82).
43. SOCAR-ın 12.2004-cü il tarixli əmri ilə təsdiq edilmiş "Azərbaycan neft sənayesində əməyin mühafizəsinin vahid idarəetmə sistemi".
44. SOCAR-ın müəssisələrində maşın və avadanlıqlara texniki xidmət və təmirin planlaşdırılması və yerinə yetirilmə metodikası-2019.
45. Şəriətdə və halal qida istehsalında halal və haramı şərtləndirən amillər. Məhəmməd Həşim Kamali.

Beynəlxalq İslam Fikri İnstitutu. Bakı-2020, İdrak İctimai Birliyi.
46. Hacı Şahin Həsənli "Məqalələr" https://hacishahin.az/pages/8
47. Big Bang Və Tanrı. Caner Taslaman
48. И.А.Кацапова, С.И.Бажов. Философское Мировозрение П.И.Новгородцева. Российская Академия Наук, Институт философии.
49. İntellektual sistemlər və texnologiyalar. Bakı-2016-Dərs vəsaiti.
50. Etnoqrafiya və Etnologiya. Dərs vəsaiti. Nərgiz Quliyeva. Bakı-2009.
51. Azərbaycan dilinin funksional qrammatikası: morfologiyaya yeni baxışlar və leksematika. M.M.Musayev. Q.Cəfərov.
52. Din araşdırmaları jurnalı. №1. 2018.
53. Azərbaycan Dilinin Orfoqrafiya Lüğəti. Genişləndirilmiş və yenidən işlənilmiş 6-cı nəşr. Şərq-Qərb Nəşriyyat Evi. Bakı-2013.
54. SSRİ-nin 1917-1991-ci illər üzrə Normativ hüquqi aktlarının elektron bazası. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ-hüquqi aktların elektron bazası.



**Müəllif haqqında:**

Qasımov Qasım Nəcəf oğlu *(17 fevral 1955, Yuxarı Yaycı, Şərur rayonu)* 1977-ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu «mühəndis texnoloq» ixtisası üzrə bitirmişdir. 1977-1985-ci illərdə L.Şmidt adına Neft maşınqayırma zavodunda; 1985-1991-ci illərdə Moskva Elmi Tədqiqat Əmək İnstitutunun Azərbaycan Filialında; 1991-2005-ci illərdə AR Əmək Nazirliyinin Elmi Tədqiqat və Tədris Mərkəzində, Dövlət Əmək Müfəttişliyində; 2005-2009-cu illərdə AR Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətində; 2009-2020-ci illərdə isə SOCAR-ın Baş ofisində müxtəlif vəzifələrdə işləmişdir. Qasım Qasımov Respublikada tətbiq edilən Vahid Tarif Cədvəlinin, iqtisadiyyatın müxtəlif sahələrində tətbiq olunan bir çox VTİS Kitabçalarının müəllifidir. SOCAR-da tətbiq olunan bir sıra metodikaların, o cümlədən Lütvi Zadənin qeyri-səlis məntiq və akademik Rafiq Əliyevin qərar qəbul etmə nəzəriyyələri əsasında «Avadanlıqlara təmir strategiyasının» və «Peşə risklərinin» müəyyən edilmə metodikalarının müəlliflərindəndir. O, həmçinin əmək münasibətlərinin

tənzimlənməsi sahəsində 30 çap vərəqi həcmində bir çox tezislərin və “Əmək münasibətlərinin kollektiv sazişlə tənzimlənməsi”nə dair (*İSBN Az 112-13. Biznesmenin Bülleteni Nəşriyyat Evı, Bakı-2002*) bir elmi monoqrafiyanın müəllifidir. Hazırda «Bilik mühəndisliyi» sahəsində bir çox praktiki məsələlərin həlli, o cümlədən texniki risklərin, peşə risklərinin, müasir şəraitdə əmək bazarının proqnozlaşdırılması, işçi sayının optimallaşdırılmasına dair qeyri-səlis məntiq nəzəriyyəsinin tətbiqi aspektləri və s. üzərində çalışır.

Email: office@erudit.az

# M Ü N D Ə R İ C A T

Müqəddimə ........................................................................3
Giriş ..................................................................................17

**I Fəsil**
1.1. Terminlər .......................................................................23
1.2. Allahı tanımaq elmi .......................................................45
1.3. İslamın vəsfi ...................................................................54
1.4. Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəsfi .......55
1.5. "Quran"ın və onun göndərilməsinin vəsfi ...........56
1.6. Təqva və itaətin vəsfi ....................................................58
1.7. İntellekt və dünyanın yaradılış sirri ......................60
1.8. Süni intellektin yaradılması və inkişafı əsasları ...64

**II. Fəsil**
2.1. İntellektin öyrənilməsinə sinergetik yanaşma ......76
2.2. Bilik mühəndisliyi və süni intellekt .......................81
2.3. Biliklərin təsviri, linqvistik xüsusiyyətlər
və freymlər ......................................................................88
2.4. Biliklərin realyasion model təsviri .........................121
2.5. Peşə risklərinin monitorinqi və realyasion
modellərin qurulması ..................................................134

**III Fəsil**
3.1. Dodaqdan qəlbə axan sözün mənası hikmətdir ...161
3.2. "Quran"da elmi-metodiki dəlillər ........................173

3.3. Nəfsin strukturu və tərkib elementləri ..................179
3.4. Təbii intellektin əsasları ........................................188
3.5. Furqan (Haqqı-Batildən ayıran) ............................194
3.6. "Quran" müasir elmi-fəlsəfi dünyagörüşün metod və metodologiyasıdır ......................................206
3.7. Təbii intellektin proqram dilləri və alqoritmləri....216
3.8. Elmi idrakın səviyyələri ........................................221
3.9. Maddənin dördüncü halı .......................................225
3.10. Təfəkkür və idrakın məskəni ...............................232
3.11. Təbii intellektin daşıyıcısı olan insan kimdir.......238
3.12. Təbii intellektin alqoritmi ....................................245
3.13. Təbii intellektin növləri və formaları ..................257

**IV Fəsil**

4.1. Təbii intellektin əlifbası ..........................................264
4.2. Biz bu dünyaya eşq üçün gəldik ............................271

Nəticə ..............................................................................275
İstifadə edilmiş ədəbiyyat siyahısı ...............................281
Müəllif haqqında ..........................................................288

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 10.01.2023
Şərti çap vərəqi 18,5. Sifariş № 28
Kağız formatı 60x84 1/16. Tiraj 300

**Kitab “Elm və təhsil”** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4



**Qasımov Qasım Nəcəf oğlu**

*(17 fevral 1955, Yuxarı Yaycı, Şərur rayonu)*

1977-ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu «mühəndis texnoloq» ixtisası üzrə bitirmişdir. 1977-1985-ci illərdə L.Şmidt adına Neft maşınqayırma zavodunda; 1985-1991-ci illərdə Moskva Elmi Tədqiqat Əmək İnstitutunun Azərbaycan Filialında; 1991-2005-ci illərdə AR Əmək Nazirliyinin Elmi Tədqiqat və Tədris Mərkəzində, Dövlət Əmək Müfəttişliyində; 2005-2009-cu illərdə AR Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətində; 2009-2020-ci illərdə isə SOCAR-ın Baş ofisində müxtəlif vəzifələrdə işləmişdir. Qasım Qasımov Respublikada tətbiq edilən Vahid Tarif Cədvəlinin, iqtisadiyyatın müxtəlif sahələrində tətbiq olunan bir çox VTİS Kitabçalarının müəllifidir. SOCAR-da tətbiq olunan bir sıra metodikaların, o cümlədən Lütvi Zadənin qeyri-səlis məntiq və akademik Rafiq Əliyevin qərar qəbul etmə nəzəriyyələri əsasında «Avadanlıqlara təmir strategiyasının» və «Peşə risklərinin» müəyyən edilmə metodikalarının müəlliflərindəndir. O, həmçinin əmək münasibətlərinin tənzimlənməsi sahəsində 30 çap vərəqi həcmində bir çox tezislərin və "Əmək münasibətlərinin kollektiv sazişlə tənzimlənməsi"nə dair (*İSBN Az 112-13. Biznesmenin Bülleteni Nəşriyyat Evı, Bakı-2002*) bir elmi monoqrafiyanın müəllifidir. Hazırda «Bilik mühəndisliyi» sahəsində bir çox praktiki məsələlərin həlli, o cümlədən texniki risklərin, peşə risklərinin, müasir şəraitdə əmək bazarının proqnozlaşdırılması, işçi sayının optimallaşdırılmasına dair qeyri-səlis məntiq nəzəriyyəsinin tətbiqi aspektləri və s. üzərində çalışır.

280 de bagla